AZƏR HƏSRƏT

# BİR ƏSGƏRİN YAŞANTILARI



AZƏR HƏSRƏT

# BİR ƏSGƏRİN
## YAŞANTILARI

Bakı – 2012

Bu kitabı sağ-salamat qoyub əsgərliyə getdiyim, gəldikdən sonra isə qəbri başında göz yaşları axıtdığım atam Hacıqulu Abdulla oğlunun əziz xatirəsinə ithaf edirəm.

Bu kitab müəllifin şəxsi həyatının iki ilini və həmin illər ərzində yaddaş süzgəcindən keçirdiyi xatirələri əks etdirir. Kitab bədii əsər kimi qələmə alınsa da, əslində, sənədli də sayıla bilər. Çünki buradakı obrazların, demək olar ki, hamısı gerçək şəxslərdir və olaylar da uydurma deyil. İstər müəllifin yaşantıları ilə tanışlıq, istərsə də əsasən 1980-1988-ci illər arası dövrü əhatə etməsi baxımından kitab oxucular üçün maraqlı ola bilər.

**Azər Həsrət**

BİR ƏSGƏRİN YAŞANTILARI

/*memuar-roman*/

Bakı, Qanun Nəşriyyatı, 2012.

296 səh., 1000 nüsxə

Redaktor:

**Prof. Dr. Ramiz Əskər**

ISBN 978-9952-26-389-3

© A.Həsrət, 2012

© Qanun Nəşriyyatı, 2012

Bakı, AZ 1102, Tbilisi pros., II Alatava 9.

Tel: (+994 12) 431-16-62; 431-38-18

Mobil: (+994 55) 212 42 37

e-mail: info@qanun.az

www.qanun.az

# REDAKTORDAN

Yaş etibarilə Azər Həsrət memuar yazmaq üçün hələ gənc sayıla bilər. Ömrünün çiçəklənmə yaşında olan bir qələm sahibi kimi onun indidən memuar yazması, bəlkə də, düzgün anlaşılmaya bilər. Ancaq biz düşünürük ki, yazar öz kitabını məhz bu janrda qələmə almaqda düz edir. Çünki hər birimizin həyatında xatırlanması gərək olan, heç zaman yaddan çıxarılmaması lazım olan o qədər hadisələr yaşanır ki, bəlli bir dönəmdən sonra onları ya tamam unuduruq, ya da alayarımçıq şəkildə yaddaşımıza həkk edirik. Bu hadisələr içində bəzən millətimizin, dövlətimizin, insanlarımızın həyatı üçün əvəzolunmaz sayıla biləcək məqamlar da olur. Elə Azər Həsrət də bu kitabında o düşüncədən hərəkət edir və unudulmaması lazım olan məqamları qələmə alır.

Müəllif burada özünü əsas obraz kimi təqdim etməklə bir qədər fərqli yanaşma sərgiləyir. Kitabdakı Azər obrazı elə yazarın özüdür və demək olar ki, digər obrazların da hər biri gerçək şəxslərdir ki, on-

ların da çoxu hazırda həyatdadır. Yəni kitab elə bir şəkildə qələmə alınıb ki, Azər Həsrəti tanımayan bir oxucu, özəlliklə də gənc nəslə aid oxucu düşünə bilər ki, bu, müəllifin təxəyyülünün məhsuludur. Lakin Sovet dönəmini yaşamış, Sovet ordusunda xidmət etmiş oxucular dərhal fərq edəcək ki, kitabda yazılanlar gerçək həyatı təsvir edir. Bəli, müəllif elə kitabı məhz gerçəkləri təsvir etmək üçün də qələmə alıb. Onun istəyi budur ki, bir zamanlar baş vermiş və Azərbaycan insanı, ümumiyyətlə Türk dünyası üçün tarix baxımından maraqlı ola biləcək olaylar yaddan çıxmasın. Elə bu düşüncədən hərəkət edərək müəllif memuar-roman janrına müraciət edib.

**Prof. Dr. Ramiz Əskər**

# YAZARDAN

Neçə illər idi ki, bir zamanlar şəxsən yaşadığım olayları, insanlarımız üçün maraqlı ola biləcək, həm də müəyyən qədər tarixi əhəmiyyət kəsb edən keçmişin bir kəsimini qələmə almaq haqqında düşünürdüm. Əsas məqsədim sadəcə unudulmaqda olan, əslində isə unudulmaması lazım olan yaşantılarımı bir növ sənədləşdirmək idi. Ona görə də yazmağa başlayanda olub keçənlər, öz həyatımın gerçək kəsimləri su kimi gözümün önündən axmağa başladı. Yazdıqca yazdım və yalnız onda ayıldım ki, kiçik bir xatirə kimi qələmə alacağım əsər yetərincə həcmli bir romana çevrilməkdədir. Hətta bir ara onu tam olaraq bədiiləşdirib roman kimi dərc etmək də keçdi könlümdən. Ancaq sonra düşündüm ki, buna heç gərək yoxdur. Çünki istər özüm, istərsə də bir başqasının həyatını qələmə alsaq gerçək bir roman mütləq ortaya çıxacaq. O, baxımdan bu kitabı memuar-roman kimi qələmə aldım.

Bu bir memuardır. Çünki mənim yaşam xatirələrimdən ibarətdir.

Bu həm də bir romandır. Ona görə ki, eyni zamanda mənim həyatımın bəlli bir dönəmini bədii janr qədər əhatəli, səlis, ardıcıl bir şəkildə təsvir edir.

Bu, mənim romanımdır, həyat romanım. Heç də iddia etmirəm ki, məşhur romançıların əsərləri ilə bir sıraya qoyulacaq kitabdır. Əlbəttə ki, bu qədər iddia etməyim yanlış olardı. Ancaq ona iddia edirəm ki, bu kitab bu mövzuda yazılmış bir əsər olaraq ilkdir və çox gərəklidir. Bu, Azərbaycan gerçəkliyinin, bir Azərbaycan gəncinin qısa da olsa həyat gerçəkləri olmaqla bərabər əhatə etdiyi tarixi dönəmin bəlli bir kəsiminə işıq tutacaq əsərdir. Bu kitab həm öləziməkdə olan, həm də son illərini yaşayan Sovet Sosialist Respublikaları İttifaqının son çırpıntılarına işıq tuta biləcək məqamlar baxımından gərəklidir. Kitab, özünü gələcəyin kommunisti kimi görən gənc bir komsomolçunun cəmi iki il sonra həmin kommunizmdən imtina etməsinə gətirib çıxaran bir xarakterin açılması baxımından da dəyərli sayıla bilər. Əlbəttə ki, bütün bu fikirlər bir yazar olaraq şəxsimə aiddir və bəlkə də oxucular mənimlə razılaşmayacaqlar. Hər halda, kitab oxunduqdan və onun haqqında oxucu rəyləri alındıqdan sonra nə qədər haqlı olduğumu müəyyən edə bilərəm.

Kitabı mən yazdım, ancaq dostlarımın, yaxınlarımın tövsiyələri olmadan bəlkə də onu belə ər-

səyə gətirə bilməzdim. Ona görə də fürsətdən istifadə edib kitabın əlyazmasını oxuyub rəylərini bildirən yaxın dostlarım və əqidə yoldaşlarım Prof. Dr. Ramiz Əskərə, jurnalist həmkarım və Qarabağ qazisi, kəşfiyyatçı Rey Kərimoğluna və millətə fayda verməkdən başqa bu dünyadan heç bir umacağı olmayan, özünün təbirincə desək, sadəcə Rasim Qəhrəmana təşəkkür etmək istərdim.

Daha bir təşəkkürü də əsgər yoldaşlarım, kitabda öz adları ilə təqdim edilmiş Ağdamlı dostlarım Ziyəddinlə Nizami və Gədəbəyli Arzuya ünvanlamaq istərdim. Biz bir-birimizi düz 23 il sonra tapdıq və görüşüb olanları-keçənləri birlikdə xatırladıq.

Bir də kitabda öz adı ilə yer alan Dərbəndli Babaya da bir təşəkkür etmək keçir könlümdən. Baba ilə hələ görüşə bilməsək də İnternet üzərindən onu tapıb telefon nömrəsini əldə etdim və bir neçə dəfə zəng edib söhbətləşə bildik.

Son olaraq isə ən böyük təşəkkürü oxucularıma ünvanlamaq istərdim. Yəqin ki, siz oxucular dəyərli vaxtınızı ayırıb bu kitabı oxuyursunuzsa, deməli, az da olsa diqqət çəkən bir əsər yaratdığımızı düşünə bilərik.

Ailəmə də təşəkkür etmək istərdim. Çünki nəinki bir kitab, adi bir yazını belə qələmə alanda hər zaman səbrlə, təmkinlə mənə mane olmamağa, əksinə,

yardım etməyə çalışdıqları üçün onların – ömür-gün yoldaşım, Respublikanın Əməkdar müəllimi Almaz xanımın, evin kiçik xanımı, 11 yaşlı qızımız Ayselin və cəmi 9 yaşı olmasına baxmayaraq saz, dombra səslənəndə bir kənara çəkilib dərin fikrə gedərcəsinə diqqət kəsilən, dörd yüz səhifəlik Koroğlu dastanını dörd gün ərzində oxuyub bitirən Ayxanın doğrudan da təşəkkür haqqı var.

*Azər Həsrət*

Səhər yuxudan durub hər zamankı kimi həyətə çıxdı. Hələ ətrafda sakitlik idi. Evin balkonundan baxanda bir tərəfdə Xəzər dənizinin üfüqləri, digər tərəfdə isə Qubanın dağları görünürdü. Elə bil başı qarlı dağlar bu torpaqların ağsaqqalı idi. Azər hər səhər onların günəşin altında bərq vuran zirvələrini görməsəydi nəsə itirmiş kimi olurdu. O, heç vaxt həmin dağlarda olmamışdı. Heç yaxından da görməmişdi onları. Ancaq uşaqlıqdan sabah erkəndən bu zirvələri gördüyü üçün bir vərdişi yaranmışdı. Dağlara sarı baxmaq vərdişi. Həm də bu vərdiş sadəcə vərdiş deyildi, sevgi idi. O, başı qarlı dağlara uşaq kimi bağlanmışdı. Əlçatmaz, yüksək dağlara...

...Adəti üzrə yuxudan erkən qalxdığı üçün bu mənzərəni çox görərdi. Özü də elə bil ki, sabahların açılmasını məhz bu mənzərəni görmək üçün gözləyərdi.

...Hər gün olduğu kimi yenə də şırıl-şırıl suyu axan arxa yanaşdı. Köynəyini çıxarıb arxın üstündəki ağacın budağından asdı. Bir az əl-qol hərəkətləri edib dupduru və buz kimi soyuq suda əl-üzünü, qurşağa kimi bədənini yudu. Günəşin yenicə yüksəlməkdə olan istisi altında canını xoş bir təravət bürüdü. Yuxulu halından əsər-əlamət qalmamış, gümrahlaşmış, həmişəki kimi yaşam dolu ruhu özünə qayıtmışdı.

...Səhər yeməyini yeyib ardından da həyət-bacada bəzi işləri görəndən sonra küçəyə çıxdı. Artıq sabahın təravəti öz yerini yandırıcı günəşə vermişdi. Günəş yüksəlmiş, ətrafda yenə də insanın içini yandıran istilik hakim olmuşdu. Hətta toyuq-cücə də bu istinin əlindən ortalıqda gözə dəymirdi. Onlar imkan çatdığı qədər kol-kosa, ağacların kölgəsinə sığınaraq özlərini sərinlətməyə çalışırdılar.

...Azər həyətin qapısından çıxıb bir an ayaq saxladı. Bir az sağa-sola baxdı. Birdən ağlına nə gəldisə geri dönüb həyətə girdi. Damın altındakı velosipedini çıxarıb ora-burasını qurdalamağa başladı. Yarım saat əlləşəndən sonra bir şey çıxmadığını görüb onu yerinə qoydu. Yenidən yola çıxıb bu dəfə ayaq saxlamadan və sağa-sola baxmadan kəndin mərkəzinə doğru yönəldi.

* * *

Saat on birə yaxınlaşırdı. İlqar həyətdən çıxıb cır qızılgül kolları ilə qapalı çəpərin önündəki skamyada oturmuşdu. Tək idi. Özü üçün o tərəf, bu tərəfə baxıb fit çalır, ayaqlarını yellədərək sərinlənməyə çalışırdı. Uzaqdan yaxınlaşan Azəri görəndə sevindi və insanı yandıran bu isti havada kəndin küçəsində özünə həmdəm olacaq birini gördüyünə şükür etdi. Azər də onu gördükdə eyni qaydada sevindi və yaxınlaşıb salam verdi:

– Sabahın xeyir, qədeş. Vəziyyət necədir?

– Nə sabah, alə, görmürsən gün təpəmizi deşir? Sabah gəldi keçdi, heç xəbərimiz də olmadı. Gəl otur, görək nə edirik.

– Oturum da. Onsuz da bu havada heç küçəyə çıxılası deyil. Verək özümüzü kölgəyə, görək başımıza nə gəlir.

Azər skamyanın üzərinə oturarkən gözü birdən məktəbin həyətindəki armud ağacına sataşdı. İlqara baxıb, “olmaya abasbəyinin qarovulunu çəkirsən?” – deyə bic-bic soruşdu. İlqar isə, “nə abasbəyi, özüm üçün vaxt keçirirəm”, – deyə cavab verdi.

Düzdür, armud yeyəcək halları olmasa da Azər bu abasbəyi armudu məsələsini nahaqdan ortaya atmırdı. Çünki neçə illər idi ki, həyətdəki armud ağacları məktəbin özündən də yüksəyə qalxaraq uşaq-

ların daşlaması üçün hazır vəziyyətdə gözləyirdi. Əsasən də axşamüstülər məktəb yaşlı uşaqlar buraya gəlir, kimisi ağaca dırmaşır, kimisi də daş ataraq armud düşürməyə çalışırdı. Azərlə İlqar da çox zaman birlikdə bu əməliyyatda iştirak edirdilər. Ancaq İlqargilin evi məktəbin düz arxasında olduğu üçün o, çox vaxt axşamı gözləmədən də armuda hücum edirdi. Ona görə də Azər İlqarın şübhəli bir şəkildə ətrafa baxmasından belə nəticə çıxarmışdı ki, dostu armud yemək istəyir.

– Deyirsən armud yeyək? – deyə İlqar qımışaraq səsləndi.

– Niyə də yeməyək, onsuz da armudlar yetişmək üzrədir, yemək olar. Gəl bir-iki dənəsinin dadına baxaq, – deyə cavab verən Azər bir göz qırpımında məktəbin tordan çəkilmiş çəpərini aşıb içəri girdi.

Dostlar bir neçə daş ataraq ağacın dibinə tökülən armudları ciblərinə doldurub yenə də oturduqları yerə qayıtdılar. Skamyanın üstündə oturub armud yeyə-yeyə ordan-burdan söhbətə başladılar. Həmişəki kimi söhbət yenə də əsgərlik məsələsinin üzərinə gəlib çıxdı.

– Məktəbi də bitirdik, indi nə işlə məşğul ola bilərik görəsən? – deyə sözə başlayan İlqara Azər cavab verdi:

– Məncə oxumağa davam etmək lazımdır. Düzdür, universitet bizlik deyil, ancaq heç olmasa texnikuma girə bilərik.

– Texnikum da peşə məktəbi kimi bir şeydir. Oxusaq nə olacaq ki, guya?

– Necə yəni nə olacaq? Təhsilimizi davam etdirərik. Bəlkə elə texnikumu bitirəndən sonra universitetə də girə bilərik? Əsas məsələ odur ki, oxumağa davam edək. Əgər indi aranı kəssək çətin ki, bir də nə vaxtsa oxumaq həvəsimiz olsun.

– Bəs əsgərlik nə olacaq? Bir də gördün əsgərliyə çağırdılar.

– Çağırsınlar da. Vətənə xidmət etmək hər kəsin borcudur. Mənim artıq əsgər getməyimə onsuz da bir şey qalmayıb. Bu payız çağıracaqlar, inşallah, mən də həvəslə gedəcəm.

– Eh, mən də həvəslə gedərdim e. Ancaq bu Əfqanıstan məsələsi heç yadımdan çıxmır. Birdən bizi Əfqanıstana aparsalar nə olacaq?

– Nə? Əfqanıstan? Alə, mən özüm ərizə yazıb Əfqanıstana getmək istəyirəm, sən isə deyirsən ki, yadımdan çıxmır. Bu gün dünya imperializmi Əfqanıstandakı dinc insanların kökünü kəsir, biz də burda müzakirə açırıq. Əsla belə şey olmamalıdır.

– Əşi, ondan mənə nə axı? Əfqanıstanda nə işimiz var bizim? Özlərinin problemidir, özləri də həll etsin də. Biz niyə gedib orda ölməliyik?

– Sənə kim dedi ki, gedib öləcəksən? Bəlkə ordan bir qəhrəman kimi qayıtdın? İstəmirsən ki, hamı səni qəhrəman kimi tanısın?

– İstəmirəm, qardaş, istəmirəm! Axı oranın bizə heç dəxli yoxdur! Mənə nə kim kiminlə dava edir, kim kimi öldürür? Əsgərlikdirsə, hamı kimi gedib tikintidə zadda iki ilimi çəkib gələrəm. Əsas odur ki, sağ-salamat evimizə qayıdaq. Ata-anamız bizi gedib haradasa boş bir şeydən ötrü ölmək üçün böyütməyib ki.

– Nəyi boşdur axı bunun? Vətən üçün ölümə də getmək olar. Həm də əgər Əfqanıstan azad olub SSRİ-nin on altıncı respublikası olsa pisdir məgər? On beş respublikamız var, qoy on altı olsun.

– Nə boş-boş danışırsan? Mənə nə on altı respublikadan? Məni düşündürən tək şey indi hardasa özümə gün ağlamaqdır. Yoxsa gedib Əfqanıstanda canımdan keçməliyəmmiş.

– Nə isə, qədeş, sən deyəsən hələ belə məsələləri çox da anlamırsan. Sinfimizdə ən tez əsgər gedən mən olacam. Artıq bir şey qalmayıb. Ancaq yenə də düşünürəm ki, bir məktəbə girmək lazımdır.

– Lazımdır, girək də. Ancaq kimdir bizə imkan verən?

– Əşi deyirlər texnikumlara girmək asandır. Gedək özümüzü sınayaq da. Bəlkə bir şey çıxdı.

Çıxmasa da itirəcək bir şeyimiz yoxdur ki, onsuz da.

Söhbətin bu yerində dədəsi İlqarı hayladı. İlqar, "kişi çağırır, gedim görüm nə deyir", – deyib yerindən qalxdı. – İstərsən sən də gəl.

Azər isə, "gedim evə, hava istidir, bir az balkonda uzanım" – deyərək ayrıldı.

* * *

"Hə, söhbətimiz harda qalmışdı? Texnikum məsələsində. Mən atamla danışdım. Elə Bakıdakı qardaşlarımla da məsləhətləşdim. Bakı Mədəni Maarif Məktəbinə sənəd verəcəm, kitabxanaçılıq şöbəsinə. Məncə, qəbul olunaram", – deyə Azər söhbətə başladı. İlqar isə, "elə mən də dədəmlə danışdım. Texnikuma hazırlaşıram", – cavabını verdi.

* * *

Azər lazım olan sənədləri toplayıb Bakıya gəlmişdi. Qardaşı Abdullagildə gecələyəndən sonra ertəsi gün səhər tezdən Bakı Mədəni Maarif Məktəbinə gəlib sənədlərini təqdim etdi. Qəbulda oturan gənc bir qız sənədləri gözdən keçirib, "hər şey qaydasındadır, imtahan vaxtını sonra öyrənə bilərsiniz", – deyərək onları qəbul etdi. Azər arın-arxayın evə yollandı.

* * *

...Axşam evə gələn Abdulla onun sənədlərini kitabxanaçılıq şöbəsinə verdiyini biləndə bərk dilxor oldu:

– Nə kitabxanaçılıq? İndi kitabxanaçıya pul verən kimdir axı? Sən heç də yaxşı sənət seçməmisən. Nə qədər gec deyil, get, sənədlərini başqa sənətə ver.

– Axı mən bu sənəti xoşlayıram. Özüm də kitab oxumaqdan ötrü ölürəm. Təhsil alaram, kitabxanada da işləyərəm. Həm də özüm üçün kitab oxuyaram. Nəyi pisdir ki, bunun?

– Əşi, sən indi uşaqsan, ağlın kəsmir. Böyüyəndə biləcəksən ki, bundan bir şey çıxmaz. Elə bir sənət seç ki, pul qazana biləsən. Bir azdan ailən olacaq. Kitabxanadan aldığın maaşla ailə saxlaya biləcəksən? Həm də bu sənətlə axı irəli gedə bilməzsən.

Bir xeyli söhbətdən sonra Abdulla axır ki, onu ixtisası dəyişməyə razı sala bildi. Qərara gəldilər ki, Azər sabah gedib sənədlərini aktyor sənəti ixtisasına versin. Kim bilir, bəlkə yaxşı aktyor oldu? Bir də baxdın ki, məşhurlaşıb ölkədə. Yaxşı da pul qazanar. Məşhur adamların pul qazanması asan məsələdir axı...

* * *

Azər artıq sənədlərini aktyor ixtisası üçün təqdim eləmişdi. İmtahanların vaxtını da öyrənmişdi. Üç gün sonra ilk imtahan olacaqdı. “Qabiliyyət imtahanı” deyirdilər ona. Heç bir anlayışı yox idi bu imtahan haqqında. Düşünürdü ki, yəqin şeirdən-zaddan demək lazım olacaq. Bu isə problem deyildi. Ədəbiyyatı yaxşı oxumuşdu. Çoxlu şeir bilirdi. Lap nağıl da danışa bilərdi. Hələ bir imtahan vaxtı gəlsin.

* * *

...Nəzarətçi müəllim bayıra çıxıb uşaqlara imtahanın gedişi haqqında bilgi verdi. Anlaşıldı ki, uşaqlar bir-bir içəri girib öz məharətlərini göstərməlidir. Hiss olunurdu ki, iddialıların hamısı istedadlı uşaqlardır. Həm də yaxşı hazırlaşana oxşayırdılar. Yalnız Azər heç nə hazırlamamışdı. Fikirləşirdi ki, birtəhər imtahanı verər, keçərsə lap yaxşı, keçməzsə də özünü öldürən deyil ki.

...Hər bir abituriyent imtahandan çıxan kimi uşaqlar onun başına yığışıb sorğu-sual edirdi. “Necə oldu? Nə hazırlamışdın? İmtahan götürənlər necə adamlardır?” kimi suallar onsuz da həyəcandan pörtmüş və bəzən əsim-əsim əsən uşaqları daha da

özündən çıxarırdı. Sakitcə bu mənzərəni seyr edən Azər axırda qət etdi ki, bir süjet göstərib bir də şeir desə bəlkə imtahandan keçər...

– Azər, Azər kimdir? Gəl, sənin növbən çatdı. – Bu, imtahan gedən otağın qapısında növbə çəkən gənc qızın səsi idi. Azərin imtahan sırası gəlmişdi. "Nə olar, olar! Qoy görüm başıma nə gəlir?" – deyib o, otağa girdi.

İlk dəfə girdiyi imtahan otağı Azəri bir az çaşdırsa da tez özünü toparladı. Otağın bütün divarları güzgüdən ibarət idi. Hara baxırdısa özünü görürdü. Qarşı tərəfdə bir masa, onun arxasında da biri qadın olmaqla üç nəfər eynəkli və yaşlı adam oturmuşdu. "Aha, deyəsən professorlardır. Yoxsa belə zəhmli görsənməzdilər", – deyə düşündü.

– Hə, Azər oldu da adın? Nə hazırlamısan? Göstər görüm məharətini, – ortada oturan ağ saçlı kişi eynəyin üstündən baxaraq dilləndi.

– Hə? Hə, şeir deyə bilərəm. Bir də bir süjetim var.

– Şeiri hələ saxla, görək nə süjetdir bu?

– Süjetdəki hadisə kənddə baş verir. Bir kənd uşağı toyuğu qovalayıb tutur və başını kəsir.

– Dəhşət! Deməli bizə qorxulu anlar yaşadacaqsan! Ay maşallah! İndi görərik bu necə olur.

Bu sözdən sonra imtahan heyətinin üzvləri bir balaca qımışdılar. Azər isə, "Nə olar, olar da. Vurub

öldürən deyillər ki. Göstərim, bəlkə xoşlarına gəldi?" – deyib əməliyyata başladı.

Ortada xəyali bir toyuq vardı. Azərin vəzifəsi onu həyətdə qovub tutmaq və sonra da adətincə başını kəsib qanını axıtmaq idi. Düzdür, doğrudan da dəhşətli səhnə idi. Ancaq xəyali olduğu üçün daha çox komik görünəcəkdi...

Azər qovdu, toyuq qaçdı. Yenə də qovdu və yenə də toyuq qaçdı. Bir az həyətdə dövrə vurduqdan sonra toyuq yorulub əldən düşdü və Azər cəld atılıb onu tutdu. Sonra iki qanadını bir əlində, iki ayağını da o biri əlində dəstələyib toyuğu böyrü üstdə yerə uzatdı. Sağ ayağını toyuğun ayaqlarının, sol ayağını da qanadlarının üstünə basdı. Əlləri azad olandan sonra toyuğun başından yapışıb boğazını rahatladı. Sonra da bıçağı çəkib onun başını bədənindən ayırdı. Bununla da imtahanın süjeti başa çatdı. Azər belini düzəldib gözlərini imtahan heyətinə dikdi. Elə bil soruşmaq istəyirdi ki, "hə, necədir?" Üzlərdəki təəccüb dolu qəribə ifadəni görəndə başa düşdü ki, bədahətən ifa etdiyi səhnə onların xoşuna gəlməyib. Nə etmək olardı? Haqsız da sayılmazdılar.

– Pis deyil demək olar ki. Ancaq bir şeyi unutdun. Sən toyuğu kəsmək üçün bıçağı hardan çıxardın? Toyuğu qovanda əllərin açıq idi. Bu isə o deməkdir ki, əlində bıçaq tutmamışdın. Toyuğu ayağının altına

qoyan kimi də kəsdin. Bəs bıçaq? – Bunu ortada oturan gözlüklü kişi soruşdu.

– Hə, doğrudan da. Unutdum, bir az həyəcanlandım, yəqin ondan.

– Yaxşı, bunu belə keçmək olar. Başqa nə bilirsən?

Azər artıq anlamışdı ki, imtahandan keçmə imkanı əldən gedib. Həm də bayırdakı uşaqlar deyirdi ki, istedad önəmli deyil. Gərək tapşırılasan ki, səni kəsməsinlər. O da ki, belə şeyi heç ağlının ucundan da keçirməmişdi. Ona görə də artıq şeir deməyin mənasız olduğunu düşünüb, "elə bu qədər, mənimki bitdi", – deyə çıxmaq üçün izn istədi. İmtahan heyətinin üzvləri bir daha təəccüb dolu nəzərlərlə ona və bir-birilərinə baxıb, "kəsildin", – deyə hökm verdilər. Azər isə, "təşəkkür edirəm", – deyib otaqdan çıxdı.

...İlk imtahandan uğursuzluğa düçar olmuş Azər məktəbin əsas girişinə yanaşıb sənəd verdiyi pəncərəyə yaxınlaşdı:

– Mən sənədlərimi geri almaq istəyirdim. Zəhmət olmasa onları verərdiniz.

Sənəd qəbulu ilə məşğul olan qız cavab verdi:

– Adınızı deyərdiniz zəhmət olmasa.

Azər adını, soyadını deyəndən sonra qız səsləndi:

– Zəhmət olmasa, orda oturub gözləyin, on dəqiqəyə sənədləriniz hazır olar.

Azər sənədlərini alıb heç nə olmamış kimi evə döndü. Bir gün sonra həmin sənədləri başqa bir məktəbə, Bakı Baza Energetika Texnikumuna verdi. Burada qabiliyyət imtahanı yox idi. Dil-ədəbiyyat, bir də riyaziyyatdan imtahan vermək lazım idi. Bu da ki, çətin məsələ deyildi. Ən azı üç ala biləcəkdi.

* * *

İsti yay günəşi Bakı şəhərinin qızmar asfaltını daha da dözülməz hala gətirmişdi. Azər qardaşlarının qaldığı Əbdürrəhimbəy küçəsindəki yataqxanadan Energetika Texnikumuna getmək üçün hazırlaşırdı. Ancaq şəhərə çox da bələd olmadığı üçün yolu tanımırdı. Qardaşı Xeyrulladan kömək istədikdə isə o, "elə bizim küçə ilə düz aşağı düşərsən, sonda gedib ora çıxacaqsan", – deyə Azərə yolu göstərmişdi. Doğrudan da, iyirmi dəqiqə üzü aşağı gedəndən sonra o, Bakı Baza Energetika Texnikumunun önündəydi.

Texnikumun həyətində bir az qələbəlik vardı. Azər içəri girib qəbul şöbəsinin harada olduğunu öyrəndikdən sonra növbə tutaraq bir az gözləməli oldu. Növbəsi çatanda masa arxasında oturub sənədləri gözdən keçirən bərbəzəkli qıza yanaşdı. Bir az da utanırcasına əlindəki kağızları masanın

üzərinə qoydu. Qız başını qaldırıb onun üzünə baxdı və kağızları vərəqləyib hər şeyin yerində olduğunu söylədikdən sonra sənədlərin qəbul edildiyini təsdiqləyən kağız parçasını ona uzatdı. Azər tez bayıra çıxdı. Elə gəldiyi kimi piyada, bu dəfə artıq üzü yuxarı, yataqxanaya doğru yollandı. Yol boyu Bakıda keçirəcəyi günlərin xəyalını qurmaqdaykən yataqxanaya nə vaxt çatdığını da fərq etməmişdi. İndi də kəndə qayıdıb imtahan vaxtını gözləmək lazım idi.

* * *

...Birinci imtahan elə də həyəcanlı keçmədi. Riyaziyyatdan bildiklərini yazıb çölə çıxan Azər heç şübhə etmirdi ki, bu imtahandan keçəcək. Ona görə də arın-arxayın, əlini-qolunu sallayaraq texnikumdan uzaqlaşdı. Demişdilər ki, iki gün sonra gəlib divardakı lövhədən qiymətlərinizi öyrənə bilərsiniz. Öyrənməyə gəldiyində gözlədiyi kimi olmuşdu. Riyaziyyat imtahanından dörd almışdı. Bu isə o demək idi ki, su kimi bildiyi dil-ədəbiyyat imtahanını gözüyumulu verəcək və əslində artıq texnikuma qəbul olunduğunu iddia edə bilər. Ancaq yenə də tələsməməyi qət etdi və daha sonrakı imtahanı gözləməyə başladı.

* * *

...Dil-ədəbiyyat imtahanında inşa yazmaq lazım idi. İyirmiyə qədər gənc bir nəzarətçinin gözətimində bəlkə də ömürlərində ilk dəfə idi ki, bu cür imtahan verirdi. Nəzarətçi də elə ciddi nəzarət eləmirdi. Elə bil özü qəsdən şərait yaradırdı ki, kim necə bacarır fürsətdən yararlansın. Doğrudan da o, bayıra çıxan kimi hərə cibindən bir dəftər çıxarıb masanın üzərinə qoyur, köçürməyə başlayırdı. Bütün bunları təəccüblə seyr edən Azər isə "allahın ədəbiyyatından da imtahan verə bilmirsinizsə bura nəyə gəlmisiniz?" – deyə özü-özünə düşündü. Bu vaxt sol sırada oturan kök bir qız ona sarı dönüb adi bir şey soruşurmuş kimi soruşdu:

– Səndə bir şey yoxdur?

– Bir şey? Nə bir şey? Nə olmalıdır ki? – deyə Azər təəccüblə suala sualla cavab verdi. Qız bu dəfə daha açıq danışmalı oldu:

– Deyirəm, yəni köçürmək üçün bir şey. Mən bir az çətinlik çəkirəm, dedim kömək edən olsaydı, yazardım.

– Axı bu imtahandır. Gərək hər kəs bildiyini yazsın. Köçürmək olmaz ki. Həm də bu, ən asan imtahandır. Bunu da ordan-burdan köçürsək daha nə oldu?

Azər bu sözlərinin qızı utandıracağını düşünsə də tam əksini gördü. Qız, bir az da onu ittiham edərcəsinə, “eh, yoxundur, de ki, yoxumdur da, iki saat vaxtımı niyə alırsan daha?” – deyib üzünü çevirdi.

“Allahın inşasını yaza bilməyənlərləmi oxumalı olacam?” deyə düşünən Azər başını aşağı salıb yazmağa davam etdi. Özünə də qəribə gəlirdi ki, bu qədər abituriyentin içində yalnız o, heç yerdən köçürmədən, heç kəsdən kömək istəmədən imtahan verirdi. Yerdə qalanların hamısı bir-birindən nəsə soruşur, ordan-burdan köçürərək “imtahan” verirdi.

* * *

Daha iki gün keçdikdən sonra o, texnikuma gəlib imtahanın nəticələrini öyrənəndə təəccübdən gözləri bərələ qaldı. Aldığı qiymət dörddə üçdü. Əslində ən azı beşdə dörd gözləyirdi. Və hətta beşdə beş almağa belə haqqının olduğunu düşünürdü. Azəri təəccübləndirən başqa bir şey də bu idi ki, ondan köçürmək üçün bir şeyinin olub-olmadığını soruşan və adını sonradan öyrəndiyi kök qız beşdə dörd almışdı...

Ancaq olan olmuşdu. Onsuz da Azər aldığı qiymətlə texnikuma qəbul olunacaqdı. Qan qaraltmağa

gərək yoxdu. Əsas məsələ o idi ki, kəndə üzüağ qayıda bilərdi. Hələ dərslərin başlamasına çox vardı. Bakıda qalıb bir şey edəcəyi yoxdu onsuz da. Həm də belə havalarda camaat Bakıdan rayonlara dağılışır zatən. "Gedim, görüm hələ İlqar nə etdi. Onun da imtahanları artıq bitmiş olar. Qəbul olunsa yaxşıdır. Bir yerdə oxumasaq da heç olmasa şəhərdə tez-tez görüşərik", – deyə düşündü. Elə bu düşüncəylə də yataqxanaya qayıdıb çantasını hazırladı. Qardaşı işdə olduğu üçün onunla görüşə bilmədiyindən bir kağız parçasına imtahandan keçdiyini, texnikuma qəbul olunduğunu və artıq kəndə yola düşdüyünü yazıb masanın üzərinə qoyaraq qapıdan çıxdı.

* * *

– Hə, qədeş, vəziyyət necədir? İmtahanlardan nə çıxdı?

Qəfil eşitdiyi bu səs Azəri fikrindən ayırdı. Dönüb baxanda İlqarı gördü:

– Elə mən də səni görmək istəyirdim. Məndə yaxşıdır. Qəbul olunmuşam. Düzdür, qiymətlərim əla olmadı. Ancaq fərq etməz, qəbul olundum, əsas budur.

– Lap yaxşı. Onda xəbərin olsun ki, mən də səndən balaca oğlan deyiləm. İmtahanlarım uğurlu oldu. İndi artıq özümü tələbə saya bilərəm.

Bu qısa söhbətdən sonra dostlar yenə də planlardan, olub keçənlərdən, sabah onları nələrin gözlədiyindən söz açdılar. Hər zamankı kimi söz sözü çəkdi və bir də ayılıb gördülər ki, yenə də əsgərlik məsələsinin üstünə gəlib çıxıblar. “Onsuz da mənim tələbəliyim hələ düz-əməlli başlayan deyil. Avqust ayında yaşım on səkkiz olur. Ona görə də payız çağırışına yaşım düşür. Dərslər başlayan kimi mənə çağırış vərəqi gələcək”, – deyib əsas məsələyə keçdi.

– Mənimsə yaşım hələ düşmür. Gələn ilin yaz çağırışına əsgərliyə gedəcəm yəqin. Ona qədər bir az tələbəlik edərəm. Sən də gedib can qoyarsan.

– Can da qoyaram, qan da tökərəm. Niyə də olmasın? Təki tikintiyə-zada aparmasınlar. Mütləq Əfqanıstana gedəcəm! Əsl əsgərlik ordadır. Yoxsa gedib, bilmirəm hardasa yol çəkir, ev tikir, sonra da gəlirlər ki, əsgərlikdəydim. A kişi, yol çəkmək üçün əsgər getmək lazımdır bəyəm? Yolu inşaatçılar çəkər də.

– Elə danışırsan e sən də. Əsgərlik təkcə güllə atmaq, adam öldürmək üçün deyil ki. Bunun dinc tərəfi də olmalıdır axı. Həm də bu Əfqanıstanda nə görmüsən? Oturub-durub Əfqanıstan deyirsən. Guya sən ora getsən nə olacaq ki? Uzağı bir-iki gün içində təpənə bir güllə dəyəcək, dəmir sandıqda qayıdıb gələcəksən. Çox lazımdır sənə bu?

– Ağzını xeyirliyə aç, a kişi! Ölənlərin bəyəm hamısı Əfqanıstanda ölür? Elə bizim kəndə, ətraf kəndlərə nə qədər əsgər meyidi gəlib bu vaxtacan? Heç biri də Əfqanıstanda olmayıb. Birinə deyirlər ki, maşınları qəzaya uğrayıb, başqasına deyirlər suda boğulub. Hələ sən çox arzu etdiyin tikintidə başına kərpic düşüb ölənləri demirəm. Görürsən ki, ölən hər yerdə ölür.

– Vallah, sənə söz çatdırmaq olan deyil. Qardaş, o Əfqanıstan, o da sən. Gedirsən, get! Allah yolunu açıq eləsin. Əsas odur ki, dünya salamat olsun.

Dostlar daha bir xeyli bu cür söhbət və əslində mübahisə etdikdən sonra ayrıldılar. Azər İlqara son söz olaraq bir daha təkidlə dedi ki, aparmasalar belə ərizə yazıb Əfqanıstana gedəcək. İlqar isə əlindən gələni edəcəyinə və Əfqanıstandan yayınmağa çalışacağına söz verdi.

* * *

Sentyabr ayı gəlmişdi. 1986-cı il, bütün ölkə boyu insanların alışmadığı hallar yaşanmaqdaydı. Kənd yerlərində ortalıqda gözə dəyən hər kəsi milislər tutub tarlalara, işləməyə aparırdılar. Bunun qorxusundan heç kim çöl-bayırda gözə dəymirdi. Təsadüfən yola çıxanları isə görən kimi maşına basıb

qarpız, pomidor yığmağa aparırdılar. İddia edilirdi ki, ölkədə iş yerləri çoxdur və heç kim işsiz qalmamalıdır, mütləq hamı işləməlidir.

Azər isə Bakıda tam gücüylə olmasa da hər gün dərsə gedib gəlirdi. Onsuz da bir aydan sonra əsgərliyə çağırılacağını bildiyindən dərsə sadəcə vaxt keçirməyə, özü kimi yeni gənclərlə tanış olmağa gedirdi.

...İki həftə dərsə getmişdilər ki, hamının pambıq yığımı üçün səfərbərliyi haqqında xəbər gəldi. Təlimata görə qızlı-oğlanlı bütün tələbələr hardasa Kürdəmir tərəfdə bir pambıq tarlasına getməliydi. Əslində maraqlı olardı. Ancaq Azər bu pambıq məsələsində qıraqda qalmalı oldu. Çünki hər kəs pambıq səfərbərliyinə kökləndiyi bir vaxtda ona əsgərliyə səfərbər olunması üçün çağırış vərəqi gəlmişdi. Bu isə o demək idi ki, çağırış vərəqəsində göstərilən vaxtda və saatda o, Xaçmaz rayon hərbi komissarlığında olmalı, burada ilkin baxışdan keçməli idi. Əsgərliyə gedəcəyi gün də bəlli idi: 16 oktyabr, 1986-cı il. Ona görə də yeni tapdığı dostlarının birlikdə edəcəyi ilk səfərdə o, iştirak edə bilmirdi. Bir yandan buna təəssüflənsə də, başqa yandan sevinirdi ki, Bakı şəhərindən uzağı görməyən bir kənd uşağı olaraq, kim bilir haralara gedib çıxacaqdı. Hələ bir də Əfqanıstan arzusu baş tutsa, lap əla olacaqdı.

Həm gedib kommunizmin düşmənlərinə qarşı vuruşar, həm də öz yurduna bir qəhrəman kimi, əsl kişi kimi qayıdar. Bunun nəyi pisdir ki?

"Bundan sonra görüm bizi Böyük Vətən Müharibəsini görmədiyimizə görə ağ yuyub qara sərən qocalar nə deyəcək", – deyə düşünürdü. Öz-özünə danışırmışcasına, "əşi bunlarla söhbət eləmək olmur ki. Çatan kimi deyirlər, ay bala, siz nə görmüsünüz? Aclıq görməmisiniz, müharibə görməmisiniz, ölüm-itimdən xəbəriniz yox. Elə bil bunlar müharibədə olub deyə biz də mütləq müharibə görməliyik, ac qalmalıyıq. Allah eləməsin, bizim ölkəmizdə bir daha müharibə olsun. Ancaq Əfqanıstana getsəm əla olar. Qoy gedək, onları da özümüz kimi azad edək, dünyada bizim kimi xoşbəxt ölkələr nə qədər çoxalsa, bir o qədər yaxşıdır. Niyə əfqanlar amerikalıların ayaqları altında əzilməlidir axı?" kimi fikirləri təkrar-təkrar beynində fırladırdı. Əlbəttə ki, onun istəyi bir başqa, taleyin cızdığı isə tamam başqa idi...

* * *

16 oktyabr 1986-cı il. Səhər tezdən yuxudan durub Xaçmaza gedən birinci avtobusla yola düşmək lazımdır. Bu andan başlayaraq Azər kişilik məktəbində ilk addımlarını atacaqdı. Yenə də hər zamankı

səhərlərdən biri açılmışdı. Bağçadakı quşlar səs-səsə verib oxuyur, günəş yavaş-yavaş zirvəyə doğru meyllənirdi. O isə sabahın təravətini ciyərlərinə çəkərək eyvanda dayanıb öncə gündoğara doya-doya baxdı. Bir az baxdıqdan sonra üzünü günbatana sarı çevirdi. Buradakı mənzərə daha gözəl təsir bağışladı ona. Uzaqdan Qubanın dağlarının ağappaq zirvələri həmişəki kimi günəş altında alışıb yanırdı. İnsan baxdıqca baxmaq istəyir, bu gözəllikdən doymaq bilmirdi. Əslində Azər hər gün seyr etdiyi mənzərəyə bu gün nəsə başqa bir mənzərə görürmüş kimi baxırdı. Əvvəllər də bu mənzərə ona ləzzət eləyirdi. İndiki ləzzət isə tamam başqa idi. İçində bir həsrət, özləm baş qaldırmağa başlamışdı deyəsən. Elə beləcə də dünən axşam evdə təşkil elədikləri yola salma məclisi yadına düşdü...

Azərin sinif yoldaşları axşama doğru bir-bir toplaşmağa başlamışdılar. Uşaqların hərəsi bir vaxtda gəlirdi. Əslində belə də olmalıydı. Çünki payız vaxtı kənd yerində o qədər iş-güc var ki, adamlar özlərini toparlayana qədər bayır axşam olur. Sabahın açılması ilə axşamın düşməsi arasındakı zaman kəsimi bir saniyə, bir dəqiqə kimi elə tez keçib gedir ki, heç fərqinə varmağa da imkan olmur. Dünən də elə idi. İşini bitirən sinif yoldaşları bir-birinin ardınca onlara gəlirdilər. Evdə də həmişəki kimi yola salma

mərasimi təşkil olunmuşdu. Ailənin sonbeşiyi olduğundan onun əsgərliyə yola salınması elə də həyəcan yaratmırdı. Çünki bu evdən artıq beş oğul əsgərliyə gedib vətən borcunu layiqincə yerinə yetirərək ata ocağına qayıtmışdı. İndi onların hərəsi bir yanda işgüc sahibi idi. Azər isə bu yolları təzəcə addımlamağa başlayırdı.

Dostlar toplaşdıqdan sonra məclis başlamışdı. Gecə gec saatlara qədər davam edən məclisdə badələr qaldırılmış, sağlıqlar deyilmişdi. Həm də sinif yoldaşları arasında əsgərliyə yola düşən birinci gənc olduğu üçün Azərin məclisi hamı üçün maraqlı idi. Çünki toplaşan sinif yoldaşlarının hər biri altı ay, bir il sonra onun kimi əsgərliyə gedəcəkdilər və təbii ki, belə məclisdə hər kəs bildiyini, eşitdiyini, düşündüyünü dilə gətirdikcə söhbət uzanıb gedirdi. Dostlar bir də onda ayılmışdılar ki, artıq gecə yarıdan keçib və dağılışmaq lazımdır. Dağılışmağa başlayan dostlar el adətincə və imkanları daxilində süfrənin altına hərəyə beş, on manat pul qoyub evdən ayrılmağa başlamışdılar...

Arxadan eşitdiyi səs Azəri xəyaldan ayırdı. Atası Hacıqulu idi. Yaşından da yaşlı görünən kişi onu hazırlaşmağa çağırırdı. “Tez elə, a bala, çörəyini ye, avtobusa çataq. Geciksən yaxşı olmaz. Gedək, səni ötürüm”, – deyə atası onu tələsdirdi.

* * *

Xaçmaz rayon hərbi komissarlığının önündə basabas yaranmışdı. Az qala hər çağırışçının ardınca beş nəfər gələndə belə olur əlbəttə. Ağlayan kim, gülən kim, bir tərəfdə baş-başa verib pıçıltı ilə söhbət edən də kim. Hər kəsdə ruh yüksəkliyi vardı. Olacaqdı təbii. Çünki müharibə yox, ölüm-itim də çox nadir rast gəlinən bir haldı o zamanlar. Ona görə də hamı övladını əsgərliyə göndərdiyi kimi sağ-salamat da geri ala bilirdi. "Yalnız Əfqanıstana düşməsin, övladım harda xidmət eləsə qorxusu yoxdur" deyənlər o qədərdi ki...

...Bürokratik işləmlər başa çatdıqdan sonra bir mayor bayıra çıxıb əlindəki siyahını oxumağa, adı çəkilən gənclər də onları yola salmağa gələnlərdən ayrılaraq sıraya düzülməyə başladı. Əsgər olacaq gənclərin doğmalarından ayrılıb sıraya keçməsi də bəzən asan olmurdu. Övladını, qardaşını bağrına basıb ondan ayrılmaq istəməyənlər çətin də olsa sonda mayorun zəhmli səsinə qulaq asmalı olurdular.

Ətrafda olanları maraqla seyr edərək düşüncələrə dalan Azər birdən soyadının yüksək şəkildə səslənməsindən diksindi. Mayor artıq ikinci dəfə "Həsrətov Azər!" deyə bağırırdı. Bir əsgərə yaraşan şəkildə "Burda!" deyərək cavab verdikdən sonra o, sırada öz

yerini aldı və mayor adı çəkilənlərə yolun kənarında durub sırasını gözləyən avtobuslardan birinə minməyi əmr etdi. Sapa düzülmüş muncuq kimi düz xətt üzrə hərəkət edən gənclər bir-bir avtobusa mindi. Bir neçə dəqiqə içində hər kəs yerini tutmuşdu. İçəridə hardasa altmışa qədər gənc vardı. Bir nəfər zabit də hamının ardınca avtobusa minib qapıları bağlamağı əmr edəndən sonra gənclərin əsgər yolçuluğu başlamış oldu.

Avtobusun şüşələrini açıb hamı doğmalarına əl edirdi. Azər isə bu mənzərəni sakit şəkildə seyr edir, onu yola salmağa kimsənin gəlməməsinə görə, əl etmək, ağlayıb ayrılmaq dərdi çəkmirdi. Əslində, gələn olsaydı da ağlayası deyildi. Belə duyğulu, insanın içini titrədən yaşantılar Azərə yad idi. Onu elə öyrətmişdilər ki, ağlamağı, sızlamağı, həsrət çəkib xiffətə qərq olmağı kişiliyə yaraşdırmırdı. İndi özü də böyük bir kişi idi artıq. Hətta əsgər də gedirdi. O, "bunlara bax, arvad kimi ağlaşırlar. Elə bil körpədirlər. Zalım balaları, bu ağlamaqla sizdən necə əsgər olacaq axı?", – deyə düşünməkdəykən avtobus artıq üzü Bakıya sarı yol almışdı...

* * *

Üç saatlıq yolçuluq bir anda gəlib keçdi. Artıq gənclər bir-birinə qaynayıb-qarışmış, başları söhbətə

qarışdığından nə vaxt Bakının Biləcəri qəsəbəsində yerləşən əsgər yolasalma məntəqəsinə çatdıqlarından xəbərləri olmamışdı.

...Avtobus Bakı şəhərinə girmədən dolanbac bir yolla qəsəbəyə dönüb yolun qırağında dayandı. Qapılar açıldı və müşayiətçi zabit hamıya avtobusdan düşüb sıraya düzülməyi əmr etdi. Çağırışçılar dərhal özlərini yığışdırıb əmri icra etdilər. Zabit əlindəki siyahını uca səslə oxuyub hər kəsin yerində olduğuna bir daha əmin olduqdan sonra izah etdi ki, "indi bir-bir içəri daxil olub sıranız çatanda həkim yoxlamasından keçəcəksiniz".

Bütün bunları sakitcə dinləyən və əmrləri dəqiq icra edən gənclər düşünürdü ki, zabitin dedikləri qısa bir zamanda baş verəcək. Ancaq sonradan bəlli oldu ki, heç də belə deyilmiş. İçəri girəndə önlərinə çıxan yüzlərlə, bəlkə də minlərlə əsgər namizədinin sıra gözləməsi ondan xəbər verirdi ki, burada çox qalmalı olacaqlar.

Çağırışçıları müşayiət edən zabit artıq həyətdə onları bir daha sıraya düzərək yeni təlimatlar verməyə başladı: "Kimsə bu həyətdən bayıra çıxmasın. Hamınız bir yerdə olmağa çalışın. Növbəmiz çatanda tez həkim yoxlamasından keçə bilmək üçün hamınızın birlikdə olmanız lazımdır. Ona görə də diqqətli olun. Mən içəri girib buradakı işləmləri mümkün

qədər tez bitirməyə çalışacağam". O, bunu dedikdən sonra "Azad!" komandası verərək binaya daxil oldu.

Yolda tanış olanlar, yaxud da əvvəlcədən bir-birini tanıyanlar başlarını qatmaq üçün lətifə danışır, deyib-gülür, maraqla həkim yoxlamasının necə olacağını gözləyirdilər. Saatlar gəlib keçirdisə də heç kimin bundan xəbəri olmurdu. Azər yalnız onda ayıldı ki, acından qarnı quruldamağa başlayıb. Deməli, nahar vaxtı çoxdan gəlib keçib. Halbuki Xaçmazda hərbi komissarlığa gəlmələrini, oradan da Bakıya yollanmalarını, üç saatlıq yolu nə vaxt gəldiklərini fərq etməmişdilər. Ancaq indi qarınları acanda heç də az zaman keçmədiyini başa düşmüşdülər.

Doğrudan da gündoğardan baş qaldıran günəş burada artıq günbatana doğru əyilməkdəydi. Gənclər yemək almaq üçün ətrafa dağılışmağa başladılar. Həyətdə çayxana kimi bir yer vardı. Ancaq o qədər basabas yaranmışdı ki, gərək orada saatlarla növbəyə duraydın. Bunu görən gənclər başqa yerdən yemək əldə etmək üçün yollar axtarmağa başladılar. Özüylə çantasında yemək gətirənlər dostlarına da təklif edirdilərsə də bununla durum düzəlmirdi. Azər isə özüylə nəinki yemək, heç çanta belə götürməmişdi. Yalnız cibində yolasalma axşamı dostlarının topladığı səksən beş manat pulu vardı. Evdən də pul vermişdilər. Ancaq onsuz da pulun bir işə yaramayacağını bildiyindən

almamışdı. Hətta dostlarının topladığı pulu da evdə qoymaq istəyəndə atası izn verməmişdi ki, "ay bala, puldur, bir ehtiyacın olar, xərclərsən". Cibindəki pul, deyəsən, artıq gərəkli olmağa başlamışdı. Qarnı acmış, yemək ehtiyacı yaranmışdı. Ancaq pul olsa da yeməyi almaq asan məsələ deyildi.

Belə bir durumun olması həmişəki kimi fürsətçilərin işinə yarayırdı. Onlar balaca arabalarda müxtəlif sular, qoğallar, yeməklər satıb pul qazanırdılar. Satırdılar, ancaq qan qiymətinə. Bunun belə olduğunu bilmək üçün yalnız bir şüşə iyirmi qəpiklik su almaq yetərli idi.

...Azər səyyar satıcılardan birinə yanaşıb bir şüşə limonad və bir qoğal istədi. Satıcı, "bir manat səksən qəpik" deyəndə qulaqlarına inanmadı və "nə qədər?" – deyə soruşdu. Satıcı qiyməti bir daha təkrarladı və həm də bu dəfə daha həyasız bir şəkildə. Elə bil ki, "alırsan al, almırsan başımı ağrıtma" demək istəyirdi. Azər onun bu eyhamını anladığından və üstəlik də cibində onsuz da xərcləmək üçün yeri olmayan pulunun çoxluğundan, bir də artıq getdikcə güc gələn aclığından daha heç nə deməyib iki manatı satıcıya uzatdı. Bir şüşə limonadla bir qoğalı alaraq, "artığı qalsın", – deyib ondan ayrıldı. Kənara çəkilib tərxun limonadıyla qoğalı bir ömür unuda bilməyəcəyi acgözlüklə yeməyə başladı.

* * *

Müşayiətçi zabit bayıra çıxıb onları səsləyəndə artıq günəş qüruba hazırlaşırdı. Elə bil həsrətlə bu anı gözləyirmiş kimi Xaçmazdan gələn gənclər bir anda sıraya düzüldü. Zabit ard-arda içəri girib həkim yoxlamasından keçdikdən sonra çıxıb toplanmaq üçün yeri göstərib, yenə də siyahı üzrə soyad və adları oxumağa başladı. Adlarını eşidən gənclər bir-bir içəriyə doğru üz tutdular.

Siyahıda aşağı yerlərdən birində olduğundan Azərin adı gec səsləndi. Sakitcə içəri girib göstərilən istiqamətdə hərəkətə başladı. İlk otaqda ondan paltarlarını soyunmağı tələb etdilər. Bir az utansa da "ayıb olacaq nə var ki?" – deyə düşünərək bir əsgər cəldliyi ilə əynini soyundu. Bundan sonra ondan şikayətinin olub-olmadığını soruşdular. O isə "allah eləməsin, hər şey qaydasındadır", – deyərək daha öncə həkimlərdən keçmiş gənclərin ardınca yollandı.

Növbəti otaqda masa arxasında bir neçə ağ xalatlı həkim oturmuşdu. Maraqlısı bu idi ki, lüm-lüt oğlanları yoxlayanların arasında qadınlar da vardı. "Elə bu çatmırdı. İndi də arvadların qabağına lüt çıxmalıyıq", – deyə düşündü. Ancaq nə edəsən? Qayda belədir. Onlar burada arvad deyil, həkim kimi oturmuşdular.

Sırasıyla həkimlərin önündən keçib sonuncu otağa çatanda onlara bədənlərinin ölçülərinə uyğun paltar verdilər. Bu, Azərin əyninə geyindiyi ilk əsgər paltarı idi. Həyəcanla, cəld bir hərəkətlə paltarlarını geyinən Azər, bir anda qürur hissi keçirməyə, özünü daha arxayın hiss eləməyə başladı. Elə bu anda da yadına İlqarla etdiyi söhbətlər düşdü. Axı o, Əfqanıstana getmək istəyirdi. Bəzən həyəcan, bəzən də yeni tanışlarla söhbətlər başını elə qatmışdı ki, hərbi xidmətini məhz döyüşən cəbhədə keçirmək istəyi yadına düşməmişdi. Ona görə də əsgər paltarını əyninə keçirən kimi bir anlıq elə bil bütün söhbətlər yadına düşdü və mütləq bu Əfqanıstan məsələsini burada həll etmək qərarına gəldi.

Geyim məsələsi bitdikdən sonra gənclər yenə də sırayla daha bir masanın qarşısından keçməli idilər. Orada onlara artıq həkimlər deyil, yüksək rütbəli zabitlər nəsə suallar verir, sənədlərinə baxaraq nəsə yazıb yola salırdılar. Həm də bu söhbətlər rus dilində aparılırdı və bəzi gənclər yad dildəki suallara cavab verə bilməyəndə ya başqa gənclər, ya da ki, Azərbaycanlı zabitlər kömək edirdilər.

Azər bu səhnəni görəndə artıq anladı ki, həmin masada kimin hara gedəcəyinə qərar verirlər. "Elə yaxşı fürsətdir. Qoy burda deyim ki, Əfqanıstana göndərsinlər məni. Sağlamlığım yerində, rus dilini

də pis bilmirəm, üstəlik də könüllü olaraq getmək istəyirəm”, – deyə düşündü və masaya yaxınlaşdı. Masa arxasındakı zabit ona suallar verməyə başladı.

– Hə, adın nə oldu? Azər? Gəl görüm. Səhhətin yerindədir görürəm. Şikayətin, rahatsızlığın filan varmı?

– Yox, yox, heç bir şikayətim yoxdur. Hər şey qaydasındadır. Ən çətin şəraitdə əsgərlik çəkə bilərəm. Yalnız, icazə versəydiniz bir xahişim var.

– Nə xahişdir elə? De görüm!

– Bizi hara göndərəcəksiniz?

Bu sualı eşidən zabit onu aşağıdan yuxarı süzərək:

– Hara tələsirsən, çatanda bilərsən, – deyə cavab verdi.

– Yox, məsələ başqadır. Mən başqa şey demək istəyirdim. Ona görə soruşdum.

– Hər halda xaricə gedirsiniz. Üç ölkədən biri olacaq. Almaniya, Monqolustan və ya Əfqanıstan.

Əfqanıstan sözünü eşitcək, Azər sevinclə, “elə mən də onu bilmək istəyirdim. Yəni məni Əfqanıstana yazın zəhmət olmasa”, – dedi.

Hələ bığ yeri təzə tərləməkdə olan bir gəncdən bu cür xahiş gözləməyən zabit yenə də onu aşağıdan yuxarı süzərək, “bala, Əfqanıstanda adamın başını qoparırlar, nə işin var sənin orda?” – deyərək Azəri

başından eləmək istədi. Ancaq bu, elə də asan başa gəlmədi:

– Axı mən vətənə xidmətimi ən qaynar nöqtədə eləmək istəyirəm. Burda nə var ki? Demirsiniz üç ölkə var? Olmasın Almaniya, olsun Əfqanıstan.

– Cavan oğlan, bu məsələdə qərarı biz vermirik. Bizim işimiz sizi yoxlamaq, dəstələrə ayırıb yola salmaqdır. Hara aparmaq məsələsini başqa yerdə həll edirlər. Onsuz da məndən asılı bir şey yoxdur. Vaxtımızı alma, keç irəli, bəxtin gətirsə istədiyin yerə düşərsən.

...Xaçmazdan gələn bütün çağırışçılar yoxlamanı bitirəndən sonra müşayiətçi zabit bir daha onları sıraya düzdü. Hər kəsə təşəkkürlə yaxşı xidmət arzu edərək vəzifəsinin bitdiyini, burdan o yana onları aparacaq zabiti tanıtmaq istədiyini dedi. Beləliklə adını belə bilmədikləri zabitlə bir günlük yoldaşlıqları burada bitmiş oldu.

Yenə də bir komanda ilə avtobusa doluşdular. Bu dəfə artıq başqa gənclər də vardı. Biləcəri paylama məntəqəsində hər tərəfdən gələnləri bir-birinə qatmışdılar və ona görə də indi mindikləri avtobusda demək olar ki, tanış üz yox idi. Hara gedirdilər, niyə gedirdilər? Bu haqda heç kim heç nə bilmirdi. Yalnız yeni müşayiətçi zabit avtobusa minəndən sonra Sumqayıtdan quzeydəki Nasoslu qəsəbəsinin

yaxınlığındakı toplama məntəqəsinə gedəcəkləri anlaşıldı. Burada onların əsgərliyi başlayırdı yəqin. Hər halda, ora getmədən nə olacağını demək çətin idi.

* * *

Axşamın qaranlığında ard-arda bir neçə avtobus kazarmalara yan aldı. Əvvəlki rəngarəng geyimli gənclərdən əsər-əlamət qalmamışdı. Artıq hamı eyni rəngli, eyni formalı geyimdə idi. Elə bil davranışları, hərəkətləri də bir-birinə bənzəməyə başlamışdı. Hər kəsin də arxasında bir çanta vardı. Avtobusdan düşən əsgərlər sıraya düzüldükcə sıralar böyüyür, onların sayı artırdı. Az sonra bu hərəkət sona çatdı və bir neçə zabit önə çıxaraq əsgərləri salamladı. Salamlamadan sonra izah edildi ki, artıq bu gündən xidmət başlamışdır və indi hər bir əsgər verilən əmr və tapşırıqları müzakirəsiz yerinə yetirməlidir.

Çöldəki təlimatlar bitdikdən sonra müşayiətçi zabitlər əsgərləri dəstə-dəstə kazarmalara aparmağa başladı. İçəri girdikcə hər kəsə istiqamət verilir, yatmaq, yuxudan durmaq vaxtı, əl-üz yumaq və başqa ehtiyaclar üçün yerlər göstərilirdi.

Azər də artıq tanımadığı yeni gənclərlə birlikdə kazarmaların birinə daxil oldu. Yataq yerini göstərdilər, arxa çantasını ora qoydu. Sonra zabitdən bu-

rada nə qədər qalacaqlarını soruşdu. Zabit ən azı otuz saat burada qalmalı olacaqlarını deyincə sevindi. Çünki bu otuz saat içində icazə alıb Xaçmaza, öz doğma kəndi Dədəliyə əsgər geyimində gedə bilərdi. Həm də mülki paltarlarını aparıb evə qoya bilərdi. Təbii ki, bunlar bir bəhanə idi. Əsas olan o idi ki, ən azı iki il çəkəcək həsrət öncəsi doğmalarını bir daha görə biləcəkdi. Əslində, onun məsələsi heç həsrət məsələsi də deyildi. Sadəcə, əsgər paltarında öz kəndində görünmək istəyirdi. Elə bu düşüncələrlə də zabitə yanaşıb fikrini ona bildirdi. Təəccübünə rəğmən zabit, – "Get, ancaq gecikmə, vaxtında burda ol ki, yola düşəndə səni axtarmayaq", – deyə cavab verdi. Bu icazə məsələsi həll olunanda artıq saat gecə dörd radələri idi.

Azər bilirdi ki, hər gün səhər saat yeddidə Bakıdan Yalamaya gedən elektrik qatarı Nasoslu qəsəbəsinin yanından keçir. Qatar hardasa gündüz saat 12 radələrində Dədəliyə qonşu olan Qusarçay stansiyasına çatır. Axşama doğru isə saat 5-də Qusarçaydan Bakıya doğru istiqamət alır. Bu hesabla o, bir neçə saat sonra həmin qatarla gedib axşam saat 10 üçün kazarmaya qayıda bilərdi. Belədə rahat bir şəkildə getmək olardı.

Fürsətkən bir az yatıb dincini aldıqdan sonra piyada qupquru çöllə dəmir yoluna doğru getməyə baş-

ladı. Stansiyaya çatanda qatarın gəlməsinə hələ yarım saat vardı. Ona görə də oturub gözləməyə başladı. Bir azdan uzaqdan fit səsi eşidildi və ardınca da ilan kimi qıvrılaraq Bakı-Yalama qatarı özünü vağzala yetirdi.

* * *

Artıq günorta idi. Azər atası Hacıqulu ilə birlikdə evin ikinci mərtəbəsində oturub söhbət edirdi. Atası nəsə bir qədər qayğılı görünürdü. Bunu adi bir hal kimi qəbul edən Azər düşünürdü ki, yəqin daha bir oğlunu əsgərliyə yola saldığı üçün indidən xiffət çəkir. "Mən sizin üzünüzü qara etmərəm. Qayıdanda elə gələcəm ki, mənimlə qürur duyacaqsınız", – deyə düşünürdü o. Ancaq sonradan bəlli olacaqdı ki, atanın bu xiffəti, qayğılı görünüşü başqa bir şeydən qaynaqlanırmış. Bunun nə olduğu iki il sonra Azər əsgərliyi bitirib evə qayıdanda bəlli olacaqdı. İndi isə ata-oğul söhbət edir, çay içirdilər. Atası Azərdən ilk təəssüratlarını öyrənir, o da həvəslə az qala hər addımı, hər gördüyü haqqında danışırdı. Bu söhbət o qədər maraqlı və xoş alınırdı ki, bir də ayılıb gördülər saat dörddür. Azər saat beşdəki qatara çatmalı olduğundan ayağa qalxıb, "mən artıq gedim, komandirə söz vermişəm ki, gecikən deyiləm. Geciksəm yaxşı olmaz. Etibardan düşərəm", – deyərək atası ilə bir daha sağollaşdı. Ayrılmaq zamanı çatanda birdən

yadına cibindəki pullar düşdü. O, pulun beş manatını ayırıb qalanını masanın üzərinə qoydu:

– Onsuz da daha mənə pul lazım olan deyil. Həm də xaricə gedirik deyəsən. Bu pulları aparmağa qoyan deyillər. Qoy qalsın sizdə.

Hacıqulu kişi pulları götürmədən hansı ölkəyə gedəcəklərini soruşdu. Onsuz da qayğılı görünən atasını üzməmək üçün, "Ya Almaniya olacaq, ya da Monqolustan", – deyə cavab verdi. Bundan sonra atası pulları götürüb ona qaytardı və dedi:

– Götür, götür, bilmək olmaz, bir də gördün ehtiyacın oldu. Puldur da, lazım olar.

Ata-oğul bir müddət məsələni dartışdıqdan sonra Azər pulları götürüb cibinə qoymalı oldu. Sonra evdən çıxıb Dədəli ilə Qusarçay stansiyası arasındakı üç kilometrlik yolu piyada getməyə başladı. Bir az sürətlə getsə hardasa qırx dəqiqəyə stansiyaya çata bilərdi. Qatar isə bundan on beş-iyirmi dəqiqə sonra gələcəkdi. Deməli hələ gecikmirdi. Ona görə də arxayın şəkildə həyətdən çıxdı, geri dönüb balkondan arxasınca baxan atasına və anasına əl elədi, bir əsgər şuxluğu ilə addımlayaraq yolu ayağının altına aldı.

* * *

Gecə saat iki radələrində kazarmada bir hərəkətlənmə başladı. Uca səslə əmr verən komandirlər ha-

mının təcili ayağa qalxmasını tələb edirdi. İlk dəfə belə həyəcanla yuxudan qaldırılan Azər oxuduğu kitablardan, baxdığı filmlərdən bildiyi qədərincə bir əsgər çevikliyi göstərməyə çalışdı. Tez əynini geyinib sırada yerini tutdu. Heç bir qüsuru yox idi. Ayağa qalxıb paltarını geyinməsi bir dəqiqədən də az vaxt çəkmişdi. Ancaq bəzi əsgərlər alayarımçıq geyimdə çıxmış, sərsəm toyuqlar kimi hələ də nə olduğunu anlamamış görünürdülər. Bir yandan bu durum ona ləzzət eləsə də başqa yandan düşünürdü ki, "belələrinin halı necə olacaq görəsən? İndi dinc şəraitdə düz-əməlli yataqdan qalxa bilməyənlər döyüş zamanı nə edəcəklər?"

Hər kəs sıraya düzüləndən sonra bir neçə zabit önə çıxaraq artıq təyinat yerinə yola düşəcəklərini elan etdi. Hara, necə gedəcəkləri haqqında heç nə deməyən zabit elə bil qəsdən bütün əsgərləri həsrətdə saxlamaq istəyirdi. Bu adam daha bilmirdi ki, örnək üçün, Azər Əfqanıstana getməyi arzulayır və indidən arxayın olmaq istəyir ki, bu gediş o tərəfədir. Ancaq təlimata görə əsgərlərə bu bilgi verilməməli idi.

Azər bu düşüncələri saf-çürük etməkdəykən əmr edildi ki, əsgərlər maşınlara minsinlər. Bunlar isə artıq yumşaq avtobuslar deyildi. Sərt taxta oturacaqları olan iri yük maşınları idi. "Hə, deyəsən əsgərlik

başlayır”, – deyə düşündü Azər. Qardaşları axı ona danışmışdılar hər şeyi. Heç də əsgərliyin asan bir şey olmadığını, hər cür gözlənilməz çətinliklə rastlaşa biləcəyini ona dəfələrlə demişdilər. Ona görə də psixoloji olaraq özünü daha çətin durumlara hazırlamışdı. İndi bu sərt taxta oturacaqlarda, kim bilir neçə kilometr yol getmək nə idi ki?

Ard-arda düzülən iri yük maşınları gecənin qaranlığında yola düzülərək irəliləməyə başladı. Çox sürətlə getmirdilər, ancaq olduqca nizamlı hərəkət edirdilər. Ara məsafəsi, işıq siqnalları, döngələr, elə bil hər şeyi əvvəlcədən ölçüb avtomatlaşdırmışdılar.

Neçə kilometr yol getdikləri bəlli olmasa da sonda bir hava limanına yetişdiklərini görüncə Azər çox sevindi: “Aha, deməli xaricə getmək məsələsi doğrudur. Qalır Əfqanıstan məsələsi. Onu da dəqiqləşdirə bilsəydim rahat olardım. Ancaq bunlar da adama bir söz demir ki. Qoy yenə bir soruşum, bəlkə dedilər”, – düşüncəsiylə zabitə yanaşdı:

– Yoldaş kapitan, bir şey soruşa bilərəm?

– Soruş görüm, nə istəyirsən?

– Biz hara gedəcəyik?

– Çatanda bilərsən.

Bundan sonra artıq sual verməyə dəyməzdi: “Bu zabit də digərləri kimi danışır. Zalım balası, elə bil desə poqonlarını sökəcəklər. Guya desən nə olacaq

ki? Qoy bilək də. Nə isə, indi qalır gedib çatmağı gözləmək. Görək bizi hara aparırlar".

Təyyarəyə minik əmri onu yenidən fikrindən ayırdı. Artıq sıradakı əsgərlər ard-arda təyyarəyə doluşurdular və bir azdan kim bilir hansı tərəfə uçacaqdılar. Həm bu sualın həyəcanı, həm də ömründə ilk dəfə təyyarəyə minməyi onu tamam başqa bir hala salmışdı. Yerini salonda tutduqdan sonra maraqla gözləyirdi ki, təyyarə havaya qalxsın. "Axı bu necə uçur e? Baxaq görək bu uçmaq necə olur", – deyə düşünürdü.

* * *

Hardasa üç saatdan sonra xəbər verildi ki, təyyarə yerə enir: "Hər kəs yerində oturub kəmərləri bağlasın, təyyarə tam dayanmadıqca kimsə yerindən qalxmasın". Bu xəbərdarlıqdan otuz dəqiqə sonra təyyarə artıq yerdə idi.

İlk dəfə gördükləri yeri tanımayan əsgərlər sağa-sola baxıb harda olduqlarını kəsdirmək istəyirdi ki, Azərin gözü uzaqda parlayan işıq lövhəsinə sataşdı: "Borispol Hava Limanı. Kiyev". Hə, indi deyəsən Əfqanıstan məsələsi qapandı.

"Əfqanıstana gediriksə Kiyevdə nə işimiz var? Olsa-olsa bu, Almaniya olacaq. Çünki Monqolustan

da bu tərəfdə deyil. Deməli, Almaniyaya gedirik. Neynək, gedib ora çataq, ərizə yazaram ki, məni Əfqanıstana göndərin. Məncə göndərərlər. Niyə də göndərməsinlər? Üstəlik könüllü gedirəm", – Azər hələ də belə düşünməkdə davam edirdi.

Əsgərlər təyyarədən enib sıraya düzüldülər. Müşayiətçi zabit onların önünə çıxıb bir neçə saat burada qalacaqlarını elan etdi. Ona görə də əsgərlərə dağılışmamağı, elə hava limanının bu meydançasında gözləməyi əmr etdi. Onu da dedi ki, indi hər kəs arxaçantasındakı yeməklərlə qarnını doyura bilər.

Bakıdan fərqli olaraq bura çox soyuq idi. Bakıda adi yüngül paltarda gəzirdilər. Burda isə artıq şinellərini geyməli olmuşdular. Poqonsuz, nişansız geyimli əsgərlər bir dəstə yol kəsənə oxşayırdı lap. Kiminin yaxası açıq, kiminin kəməri sallanır, kiminin papağı yan qoyulmuş. Bir görən olsa elə bilərdi ki, bunlar qaçaq-quldur dəstəsidir. Əlbəttə ki, bu hal hələlik belə idi. Bir neçə saatdan sonra gedəcəkləri yerdə onlara nizam-intizam, səliqə-sahman öyrədiləcək, daha kimsə yaxası açıq, kəməri sallaq, papağı yan gəzə bilməyəcəkdi.

Bu fikirləri ağlından keçirməkdəykən adını bilmədiyi bir əsgər ona yanaşdı:

– Ə qardaş, sən ruscax bilirsən?

– Hə, bilirəm, nə kömək edə bilərəm?

– Əlimi kəsmişəm, doxtura demək lazımdır ki, sarğı qoysun. Başa salammıram e.

– Əlini kəsmisən? İndi kömək edərəm. Nə etmisən ki? Yəni necə oldu kəsdin?

– Heç, govyadini açanda əlimi kəsdi.

– Nəyi? Govyadin nədir?

– Govyadini də. Bu qutuda veriblər e yeməyə. Ət zad da var içində.

– Hə... Anladım, "govyadina" demək istəyirsən. Konserv qutusunu açanda əlini kəsib deməli. İndi tibb bacısına deyərəm, gəlib sarğı qoyar.

Azər barmağı kəsilmiş əsgərlə birlikdə aralıda dolaşan gənc, sarışın, ağ xalatlı ukraynalı qıza yaxınlaşdı. Yanındakı əsgəri göstərərək barmağını zədələdiyini, sarğı qoymaq lazım olduğunu dedi. Qız iki Azərbaycanlı gəncə baxaraq bir az qımışdı, sonra da təbəssüm və xüsusi qayğıkeşliklə, "bu saat həll edərik, cavan oğlan", – deyərək əlini tibb çantasına atdı. Azər onları birlikdə qoyub yanlarından ayrıldı.

Az keçməmiş müşayiətçi zabit uca səslə əsgərlərə bir yerə toplaşmağı əmr etdi. Onlar da elə bil bu komandanı çoxdan gözləyirmiş kimi bir anda yerlərindən qalxıb özlərini səliqəyə saldılar və cəld sırada yerlərini tutdular. Bir tərəfdən uyğunsuz şərait, digər tərəfdən də alışmadıqları payız soyuğu isti diyarlardan gəlmiş Azərbaycanlı gənclərdə

mümkün qədər tez buradan ayrılmaq istəyi yaratmışdı. Doğrudan da bir neçə saatlıq uçuşdan sonra ondan da artıq müddət ərzində oturmağa belə yeri olmayan soyuq betonun üzərində dayanıb gözləmək ata-anasından təzə ayrılmış gənclər üçün elə də asan deyildi. Üstəlik, bu gözləyişin nə qədər sürəcəyi də bəlli olmurdu. Ona görə də zabitin sərt əmri indi onlar üçün bir nəvaziş kimi səsləndiyindən dərhal ayağa qalxdılar.

* * *

Artıq əsgərlərin hamısı təyyarəyə minmişdi. Hava da qaralmış, gecə düşmüşdü. Yenidən yolçuluq başlayırdı. Kim bilir daha neçə saat uçduqdan sonra hara gedib çıxacaqdılar. Hamı gedəcəkləri yeri maraqla gözləyirdi. Bir şey də aydın idi ki, buradan gediləcək yer şərqi Avropa ölkələrindən biri olacaqdı. Daha çox ehtimal Almaniya üzərində idi. Çünki Bakıda adı çəkilən üç ölkədən bu tərəfdə olan yalnız Almaniya idi. Özü də Azərbaycanda almanlar haqqında çox danışılmışdı. Uşaqdan böyüyə hər kəs bu milləti yaxşı tanıyırdı. II dünya savaşına gedib qayıtmayan üç yüz mindən çox Azərbaycanlının xatirəsi hər evdə yaşamaqdaydı. Azərin də ailəsindən müharibəyə gedən olmuşdu. Atası o dönəmdə on dörd yaşında uşaq olsa

da Əhməd adında bir əmisi könüllü olaraq cəbhəyə getmişdi. Könüllü getməsinə səbəb isə onun bir ayağının ciddi şəkildə axsaq olması, bu səbəbdən orduya alınmaması idi. Atasının danışdığına görə, Əhməd əmi bir neçə dəfə hərbi komissarlığa gedərək axsaq olmasına baxmadan döyüşə biləcəyini təkid etdikdən sonra onu orduya göndərmişdilər. Elə o gedən olmuşdu Əhməd əmi. Nə öldüsündən, nə də qaldısından bu günə kimi bir xəbər yox idi. Eh, o qədər belə gedib torpağa qarışanlar olmuşdu ki.

...Başqa bir maraqlı əhvalat da danışırdı onun ailəsi. Bu əhvalat Məmmədəli əmi haqqında idi. Ölüm kağızı gələn Məmmədəli əmi müharibədən bir neçə il sonra sağ-salamat gəlib çıxmışdı. Əhvalat isə belə baş vermişdi: Qara dənizdə xidmət edən Məmmədəligilin gəmisini almanlar vurur. Adi bir matros olan Məmmədəli də batan gəmidən xilas olmağa çalışır. Bu zaman yardıma gələn daha kiçik bir gəmi öncəliklə zabitləri xilas etməyə başlayır. Matroslardan həmin gəmiyə minməyə çalışanlar olsa da sinəsindən vurub suya salırlarmış. Elə Məmmədəli əmi də sinəsindən vurularaq suya salınır. Ancaq həyat eşqi o qədər güclü imiş ki, yenə də çırpınır və qışın soyuğuna baxmayaraq buz kimi suda qurtuluş axtarır. Bu zaman xilasedici gəmidən sallanan bir kanat gözünə dəyir və o, həmin kanatı bərk-bərk qoluna

sarıyır. Təbii ki, gəminin içindəkilərin bundan xəbəri olmur. Gəmi götürə bildiyi qədər adam götürərək hadisə yerindən uzaqlaşdıqda Məmmədəli əmi də kanatdan asılı durumda onun ardınca sahilə doğru üzür. Bir neçə kilometrdən sonra bütün bədəni donur, özündən gedir. Bundan sonra heç özünün də xatırlamadığı bir müddət keçir və gözlərini açanda xəstəxanada olduğunu görür. Sən demə, gəmi sahilə çatanda huşu özündə olmayan matrosu fərq edənlər dərhal xəstəxanaya yerləşdiribmiş. Burada isə onun donmuş paltarını kəsərək bədənindən ayırıb diriltməyə müvəffəq olublarmış. Buna baxmayaraq onun haqqında evinə qara kağız göndərilibmiş. İşin maraqlı tərəfi odur ki, Məmmədəli əminin həyat yoldaşı Nənəqız əmigəlini hər kəsdən fərqli olaraq bu ölümə inanmır. Danışırdılar ki, Məmmədəli əmi üçün ehsan verilərkən Nənəqız əmigəlini ehsan ətindən götürüb döyülmüş və duzlanmış halda bir bankanın içində torpağa basdıraraq deyirmiş ki, "Məmmədəli gəlib bu əti yeyəcək". Təbii ki, hər kəs bunu adi bir sayıqlama kimi başa düşür və bir müddət sonra da unudur. Ancaq müharibə bitdikdən bir neçə il sonra Məmmədəli əmi gəlib köhnə evin qapısını döyəndə hamı yerində quruyub qalır. Azərin atası danışırdı ki, "1948-ci il idi. Mənin artıq 21 yaşım vardı. Gecənin bir vaxtı qapı döyüldü. Çölə çıxıb qarşımda

Məmmədəli əmini görəndə özümü itirdim. Bir qədər sonra özümə gəlib gördüm ki, doğrudan da bu odur. Daha heç nə soruşmadan həyətdən keçərək Nənəqız əmigəlininin evinə doğru qaçdım. Elə uzaqdan qışqırmağa başladım ki, ay əmigəlini, gözün aydın, Məmmədəli əmi qayıtdı!"

Hacıqulunun bu səsinə az qala kəndin bütün əhalisi oyanıbmış. Heç kimin gözləmədiyi, hətta ehsanını yediyi bir döyüşçü sağ-salamat evinə dönmüşdü.

Məmmədəli əmi ondan sonra uzun illər yaşadı. Top kimi kişi idi. Yalnız bir qüsuru vardı. Beli bir balaca əyilmiş, hər iki qolu arxaya doğru meyllənmişdi. Ona görə də yeriyəndə elə bir vəziyyət alırdı ki, uşaqlar zarafatla, "indi kosmosa uçmağa hazırlaşır" deyirdilər.

Söz Məmmədəli əmidən düşmüşkən, bu kişi həm də çox xeyirxah adam idi. Kənddə birisi ev tikməyə, nəsə bir iş görməyə başlayanda gedər, ona kömək edərdi. Bir dəfə də lap gülməli əhvalat olmuşdu. Dədəlidə hamının "pasan" dediyi, əsl adı Kamal olan bir kişi yaşayırdı. Yaxşı kişi idi. Bunun evi bir mərtəbəli olduğundan bir gün Kamal kişi evini dağıdıb iki mərtəbəli yeni ev tikməyə başlayır. Məmmədəli əmi də bunu eşidib ona köməyə gedir. Artıq ikinci mərtəbə tikilməkdəymiş. Dədəlidə evlərin çoxu çiy kərpicdən tikilir. Ona görə də bu

kərpicləri üst-üstə qoymaq üçün palçıqdan istifadə edilir. Məmmədəli əmi Kamalın tikintisinə gələrək palçıq qarışdırmağa kömək edir. Palçığı qarışdırıb ipə bağlanmış vedrəyə doldurur və Kamala deyir ki, çək yuxarı. Kamal da eləmir tənbəllik, qayıdır ki, "palçığı qarışdıran kopoyoğlu özü də yuxarı qaldırar da". Bu əhvalat kənddə lətifə kimi dillərdə dolaşardı. Yəni biri sənə köməyə gəlir, sən isə ondan narazılıq edəsən. Olacaq şey deyil.

...Təyyarənin təkərlərinin yerə çaxılması Azəri fikrindən ayırdı. Gəlib çatmışdılar. Hara? Bəlli deyildi. Ancaq bir azdan bəlli olacaqdı. Çünki bundan o yana gizlətməyin bir mənası yoxdu ki, onsuz da.

Təyyarə tam dayandıqdan sonra qapılar açıldı və düşmə əmri verildi. Gecənin bir aləmi, ətrafda sakit və xoş bir hava, işıqlanan yerlərdə çoxlu yaşıllıq. Cənnət kimi bir yerə gəlib çıxmışdılar. Təyyarənin yanında onları başqa zabitlər də gözləyirdi. Bəlli idi ki, burada yollar ayrılacaq. Bir təyyarə əsgər kiçik qruplarla başqa-başqa yerlərə aparılacaq. "Hə, indi görək Bakıdan bura qədər birlikdə gəldiklərimizdən kiminlə yola davam edirik", – deyə düşündü Azər.

– Almaniyaya xoş gəldiniz. İndi sizi buradan xidmət keçəcəyiniz hərbi hissələrə aparacaqlar. Bu gecə dincəldikdən sonra sabah səhərdən xidmətiniz başlayacaq. Ümid edirik ki, vətən qarşısındakı bor-

cunuzu vicdanla yerinə yetirə biləcəksiniz. Adları çəkilənlər önə çıxsınlar!

Zabitin bu sözlərindən sonra əsgərlər kiçik qruplar halında təşkil edilərək yük maşınlarına mindirildilər. Azərin mindiyi maşında onlardan əlavə başqa şəhərlərdən gələn əsgərlər də vardı. Çoxu da ruslardı. Beləliklə, Azərlə birgə təyyarədən enən Azərbaycanlılardan yalnız iki Ağdamlı – Nizami ilə Ziyəddin də eyni hərbi hissədə qulluq edəcəkdilər. Bir də Gədəbəyli Arzu vardı. "Deməli, dördümüz bir yerdə xidmət edəcəyik", – deyə düşündü Azər: "Yaxşıdır hər halda. Hər nə qədər olmasa öz millətimizdir. Bir-birimizə gərək ola bilərik. Hələ getdiyimiz yerdə də Azərbaycanlılar olmamış olmaz".

Gecənin qaranlığında uğultuyla yola düşən yük maşını hardasa saat yarımdan sonra artıq təyinat yerində idi. Böyük bir darvaza açıldıqdan sonra çox iri bir həyətə girən maşın üç mərtəbəli bir binanın qarşısında dayandı. Ətrafda bu cür binalar çoxdu. Daş döşəməli həyət çox təmiz və səliqəli idi. Bura özü kiçik bir şəhərə bənzəyirdi. Maşın dayandıqdan sonra aşağı enən əsgərlər yenə də sıraya düzülməli oldular. İndi onlara qalacaqları yer göstəriləcəkdi. Göstərildi də. Binanın ikinci mərtəbəsində yerləşən kazarmada iyirmi nəfər əsgər bir yerdə qalacaqdı. Özü də qırx gün. Bunun adına karantin deyirdilər.

Qırx gün ərzində karantində qaldıqdan sonra onlar ayrı-ayrı batalyonlara göndəriləcəkdilər. Hələliksə, əsl əsgərlik xidmətinin ilk günü başlayırdı. Tarix artıq 19 oktyabr 1986-cı ili göstərirdi. Evdən oktyabrın 16-da çıxmışdılar...

Səhər tezdən alışılmadıq bir bağırtı onları yuxudan oyatdı: "Rota, qalx!" Özü də bu səs o qədər gurultulu idi ki, elə bil yanğın çıxmışdı. Yeni əsgərlər könüllü-könülsüz bu əmrə tabe olmaq zorundaydı. Artıq xidmət başlamışdı. "Deməli, adamı səhərlər yuxudan belə durğuzurlarmış. Deməli, daha analarımız "can bala, qalx, günorta oldu" deyə bizi oyadan deyil. İndi giriş qapısında dayanan bir növbətçi əsgər hər səhər bizi belə oyadacaq. Yəqin biz də orada növbədə dayanacağıq və biz də bir səhər bu cür bağırıb hamını yuxudan oyadacağıq. Olsun, əsgərlik budur da bəs", – Azər belə düşünürdü.

Səhər saat altı tamamda artıq hamı kazarmanın qarşısında sıraya düzülmüşdü. İdman etməliydilər. İdmandan sonra yatağı düzəltmək, yuyunmaq, səhər yeməyi üçün yeməkxanaya getmək nəzərdə tutulurdu. Bütün bunların başa çatması üçün bir saat vaxt tələb olunurdu. Saat səkkizdə yenidən kazarmanın qarşısında sıraya düzülərək əsgərliyin ilk sıra gedişini edəcəkdilər.

* * *

Artıq yeni əsgərlər ilk xidmət gününə başlamışdılar. Hardasa altmış nəfərə qədər gənc alayın həyətindəki meydançada sıraya düzülmüşdü. Kapitan rütbəli bir zabit onlara əsgərlik haqqında danışır, əmr və tapşırıqların müzakirəsiz yerinə yetirilməsinin vacibliyini izah edirdi. Eyni zamanda onu da anladırdı ki, əsgər xidməti keçmək hər bir Sovet vətəndaşı üçün şərəf borcudur və bu borcunu layiqincə yerinə yetirənlər bütün dövrlər üçün cəmiyyətdə sayılıb seçilənlərdən olurlar.

Zabit danışdıqca Azərin yadına orta məktəbdəki hərbi dərslər düşür, bu dərslərdə öyrəndikləri, görüb eşitdikləri bir-bir gözünün önündən gəlib keçirdi.

...O, orta məktəbin yuxarı siniflərində keçilən hərbi hazırlıq dərsində komandir təyin edilmişdi. Onun bu təyinatı həm rus dilini digərlərindən daha yaxşı bilməsi, həm də əmr və tapşırıqları cəld, bacarıqla yerinə yetirə bilməsi ilə bağlı idi. AKM tipli avtomat silahı otuz beş, qırx saniyəyə gözüyumulu söküb yığır, əleyhqazdan, başqa hərbi ləvazimatlardan çox çevik istifadə edirdi.

Orta məktəbdəki hərbi dərsdə bir dəfə çox maraqlı bir hadisə də baş vermişdi. TOZ-8 tipli tüfəngdən tüklə atəş açmağı məşq edirdilər. Təbii ki, Azərin bu

ilk atəşi dəqiq olmasa da, müəlliminin təlimatı, həm də filmlərdə gördüyü üsullara əsaslanaraq ən doğru şəkildə atəş açmağa çalışmışdı. Qorxmaz adında sinif yoldaşı isə hamını güldürmüşdü. Müəllim şagirdlərə tüfəngi çiyinə dayamaq lazım olduğunu dəfələrlə desə də Qorxmaz bunu anlamamış, silahı əlinə alan kimi onun qundağını qoltuğunun altına salmışdı. Əgər döyüş silahından bu cür atəş açılarsa adamın çiynini qopardı. Qorxmazın bu hərəkəti hamını qəhqəhəyə boğmuşdu.

Orta məktəbdə komandirliklə bağlı Azərin bir xatirəsi də yadına düşdü. Bu dəfə idman dərsində öndə getməsini xatırladı. Sinifdə ən ucaboylu olmasa da idman müəllimləri onun sıranın önünü daha yaxşı çəkməsini nəzərə alaraq irəli çəkərdilər. Bir dəfə məktəbə qonşu Nağıoba kəndindən Ramiz adında gənc bir idman müəllimi gəlmişdi. Onun ilk dərslərindən biri Azərgilin sinfində olmuşdu. Müəllim uşaqları çölə çıxarıb həyətdə sıraya düzəndə Azər həmişəki kimi ən öndə yerini tutmuş, lakin Ramiz müəllim daha uzun boylu olan Nadiri irəli keçirmişdi. Ancaq bir müddət sonra o, Azərin nə üçün öndə dayanmalı olduğunu anlamış, onu irəli keçirmişdi. Çünki Nadir sinfin önünü yetərincə çəkə bilməmişdi...

İndi Azər tanımadığı altmışa qədər həmyaşıdı ilə birlikdə minlərlə kilometr uzaqda yerləşən bir ölkədə

doğruçu əsgərlikdəydi. Öndə tam iki il var idi. Bu iki il necə gələcək, necə keçəcək, bəlli deyildi. Yalnız bir şey qəti bəlliydi ki, Azər hərbi nizamnaməni yüzdə yüz yerinə yetirməyə, bütün əmr və tapşırıqlara ən vicdanlı şəkildə əməl etməyə hazır idi. Elə buna görə də düşünürdü ki, qanunlar çərçivəsində xidmət etməklə evə tərifnamələr, cürbəcür təltiflərlə dönəcək. Üstəlik, bacara bilsə, Kommunist Partiyası sıralarına da qoşulacaq. Bütün bunlar onun ilk əsgərlik günündə düşündükləri idi. İrəlidə isə tam iki il, bəlkə də daha çox müddət vardı.

...Zabit əsgərlərə ilk təlimatları verdikdən sonra meydanda sıra keçidini məşq etməyə başladılar. Bu dəfə də boy sırası ilə düzülmüşdülər. Artıq burada Azərdən boyca hündür olanlar var idi. Ona görə də o, hardasa sıranın önündə deyil, ön cərgələrindən birində yer tutmuşdu. Buna baxmayaraq sırada diqqət çəkəcək qədər ustalıqla, şux addımlarla addımlayırdı. O, əlindən gələni edirdi ki, ilk gündən komandirlərinin diqqətini çəkib Əfqanıstana getmək üçün müraciət etsin. Hər necə olsa da könüllü şəkildə Əfqanıstana getmək üçün ən azından örnək bir əsgər olması lazımdı.

Bir saata qədər məşq etdikdən sonra komandir əsgərlərə on dəqiqəlik fasilə verdi. İndi onlar bir kənarda otura, sərbəst şəkildə gəzib dolaşa

bilərdilər. Tək şərt o idi ki, gözdən itəcək qədər uzağa getməsinlər.

"Sərbəst" komandası verilən kimi əsgərlər dağılışdılar. Hərə bir tərəfdə oturub ayaqlarının dincini almağa başladı. Mülki həyatda geyindikləri rahat ayaqqabılara alışan əsgərlər ayaqlarındakı ağır çəkmələrə və içindəki sarğılara elə də asan alışacağa bənzəmirdilər. Doğrudan da bu çəkmələr zindan kimi ağır idi. Həm də artıq bir neçə əsgər ayağını soyunub dabanlarında, barmaqlarında əmələ gəlmiş qabarlara baxaraq ufuldaşırdılar. Azərin ayaqlarında ağırlıq olsa da hələlik heç bir qabar, döymə yox idi. O, digər əsgərlərin ayaqlarındakı qabarları görəndə bir zamanlar uşaqkən əsgərlikdən gələn qardaşlarının, başqa həmkəndlilərinin "ayağını əsgər çəkməsi döyəndə bilərsən" sözlərini xatırladı. Həmişə əsgərlikdən qorxmadığını, hər cür çətinliyə qatlaşmağa hazır olduğunu deyəndə ona bu sözləri deyərdilər. Azər indi anladı ki, əsgər çəkməsinin ayağı döyməsi nə deməkdir.

Fürsətdən istifadə edən əsgərlərin bəziləri də özlərinə yeni həmsöhbətlər tapır, bir kənarda üç-beş nəfərlik qruplarla dolaşırdılar. Azərin ağlına gələn bu oldu ki, öncə Azərbaycanlı əsgərlərlə daha yaxından tanış olsun. Ona görə də ətrafa göz gəzdirib qara saçlı, Qafqaz tipli gəncləri axtardı. Əsgərlərin

arasında onunla birlikdə Bakıdan gələn Ağdamlı Nizami ilə Ziyəddin var idi. Bundan başqa daha bir neçə nəfər də Azərbaycanlıya oxşayırdı. Sonradan öyrəndi ki, bunlardan biri Borçalıdan, Qaraçöpdən gələn Abdurahman, digərləri Dərbəndin Dağıstan İşıqları qəsəbəsindən olan Baba, Gədəbəydən Arzu, Naxçıvandan Kamran idi. Hələlik yeddi nəfər olduqlarını öyrənəndən sonra düşündü ki, yəqin daha öncədən xidmət keçən başqa Azərbaycanlı əsgərlər də olar.

Gün ərzində xeyli məşq etdikdən, ara-sıra bir kənara çəkilib dincəldikdən, bir-biriləriylə tanış olduqdan sonra axşama doğru yorğun-arğın kazarmaya qayıtdılar. İndi Azər bilirdi ki, ən azından yeddi nəfər Azərbaycanlı birlikdə xidmət keçəcək. Düzdür, qırx gündən sonra onları ayrı-ayrı batalyonlara göndərəcəkdilər. Ancaq önəmlisi o idi ki, artıq hamısının bir alayda xidmət edəcəyi bəllidir. Üstəlik, başqa Azərbaycanlıların da olacağı şübhəsizdi.

* * *

Axşamüstü uşaqlar xəbər gətirdi ki, aşağıda Azərbaycandan olan əsgərlər yeni gələnləri görmək istəyir. Maraq üçün hamısı birlikdə həyətə endilər. Doğrudan da burada bir neçə nəfər dayanıb onları gözləyirdi. Yaxınlaşdılar. Salamlaşıb hal-əhval tutan-

dan sonra tanış olmağa başladılar. Adlarını, haradan gəldiklərini dedikdən sonra gələnlər yeni əsgərlərə bəzi məsələləri izah etmək istədiklərini dedilər. Gənclər də maraqla onları dinləməyə başladı...

Bəlli oldu ki, bu alayda mindən artıq əsgər xidmət keçməkdədir. Təbii ki, onların çoxu rus və başqa slavyanlardır. Yüzə qədər əsgər isə Azərbaycanlıdır və say etibarilə ruslardan sonra gəlirlər. Ermənilərin sayı Azərbaycanlıların sayından iki dəfə azdır. Gürcülər və başqa Qafqaz xalqlarının sayı isə ümumiyyətlə azdır. Orta Asiya xalqlarından özbək, qazax, qırğız, türkmənlər də nəzərə çarpacaq saydadır. Yəni ümumi hesabla götürəndə bu alaydakı əsgərlərin hardasa üç yüzdən yuxarısı rus olmayanlardır ki, onlardan ən çox saylısı Azərbaycanlılardır.

Gələnlərdən biri ucaboylu, enli kürəkli, yekə başlı nəhəng bir oğlan idi. Dediyinə görə Ermənistanlı idi. Onu göndərmişdilər ki, yeni gələn Azərbaycanlı əsgərlərlə tanış olub sorunları ilə maraqlansın. Adı Hətəm olan bu təcrübəli əsgərin təkcə bir görünüşü başqalarında qorxu yaradırdı. Onunla gələn başqa bir Azərbaycanlı əsgər isə nisbətən zəif görkəmli idi.

Hətəm gənclərə alaydakı qaydalar haqqında danışarkən onlar üçün tamamən yeni olan məsələlərdən söz açırdı. O deyirdi ki, bu alayda Azərbaycanlıların hamısı millət başçısına tabe ol-

malıdır. Bu millət başçısını isə millətin özü seçir. Adətən həmin başçı tərxis olunmağa altı ay müddəti qalanlardan, yəni ən təcrübəli əsgərlərdən biri olur. Millət başçısının dediklərini hər kəs mütləq yerinə yetirməlidir. Yerinə yetirməyənlər millət yığıncağında cəzalandırılırlar. Cəzalandırma isə günahkarı ortalığa salıb döymək, tənbeh etmək şəklində olur. Yəni əvvəlcə əsgərə onun günahları izah edilir, sonra fikri dinlənilir və bundan sonra da cəza olaraq döyülməsi təşkil olunur. Millət yığıncağında döyülənlərin bununla bağlı şikayət etməyə haqqı da yoxdur. Əslində şikayət etmək olar. Bu şikayət təbii ki, alay komandiri və ya başqa yüksək rütbəli zabitlərə edilə bilər. Belə şikayət isə satqınlıq kimi dəyərləndirilir və ona görə də heç kim, hətta yanlış olaraq cəzalandırılsa belə, ordu rəhbərliyinə bu haqda xəbər vermir.

Millət yığıncağı mütəmadi olaraq hər həftənin şənbə günü, axşam yeməyindən sonra keçirilir. Buraya alaydakı bütün Azərbaycanlılar qatılmalıdır. Yalnız xidməti vəzifə yerində olanlar yığıncağa qatılmaya bilərlər.

Hətəm deyirdi ki, bu yığıncaqlar alayın hamamlarının arxasındakı ərazidə keçirilir. Bu ərazi alayın böyük həyətinin gözdən iraq bir yerində, özü də geniş bir zolaqdan ibarət idi. Həmin zolaq elə qurulmuşdu ki, bir tərəfini alayın hasarı, o biri tərəfini

də hamamların arxa divarı qapadırdı. Təxminən yüz metr uzunluğu, iyirmi metr eni olan bu zolağın içini yalnız yuxarı və aşağı girişlərdən görmək olardı. Yığıncağın gizliliyini tam təmin etmək üçün giriş və çıxış tərəflərində, bir qədər də aralıda qarovulçular qoyulurdu ki, hər hansı zabit və ya şübhəli şəxs yaxınlaşanda xəbər versin. Bu yolla illər idi ki, Azərbaycanlı əsgərlər rəhbərliyin gözündən yayınaraq öz toplantılarını rahat bir şəkildə keçirirdilər. Düzdür, bəzən komandirlərin belə toplantılar, millət yığıncaqları haqqında bilgisi olurdu. Ancaq hələ də onların necə və harda keçirilməsini müəyyən edə bilmirdilər. Təbii ki, bu da yığıncaqların keçirilməsi zamanı təşkil edilən yaxşı müdafiə sistemi, həmçinin Azərbaycanlılar arasındakı ağzıbirlikdən irəli gəlirdi. Milləti satan, xəbərçilik edən demək olar ki, yox idi. Hamı bilirdi ki, Azərbaycanlılar satqın, qorxaq və yaltaq ola bilməzlər. Hətta buna meyli olanlar da millətin cəzasından qorxaraq belə əməllərdən çəkinirdilər. Ona görə də millət bir bütün olaraq ayaqda durur, ruslar belə çoxsaylı olmalarına baxmayaraq Azərbaycanlı adı gələndə qorxurdular.

Hətəm deyirdi ki, orduda söyüş söymək adi hal olsa da zabitlər Azərbaycanlı əsgərləri heç vaxt söymürlər. Çünki Azərbaycanlı əsgər istənilən

rütbəli zabitin söyüşünə ikiqat artıq söyüşlə cavab verir və bu qayda hər kəsə bəllidir.

Hətəm onu da deyirdi ki, indi yeni gələn əsgərlər bir neçə gündən sonra poçtun yanında ayaqüstü bir görüşmədə millət başçısı ilə tanış olmalı, ondan təlimatlar almalıdır. Onun tapşırıqlarını isə hər kəs mütləq yerinə yetirməlidir.

...Hətəmin dedikləri Xaçmazdan və Bakıdan başqa heç yeri görməyən Azərə qəribə gəlirdi. Özü də minlərlə kilometr uzaqlıqda tanımadığı birisi gəlib cəfəng-cəfəng moizə oxuyurdu və bu da onun şəstinə toxunurdu. Azər düşünürdü ki, əsgər olan kəs yalnız hərbi nizamnaməyə uyğun olaraq öz komandirlərinə tabe olmalıdır. Burada isə birisi çıxıb deyir ki, millət varmış, millət yığıncağı varmış və üstəlik də bunların hamısı komandirlərdən gizli işlərmiş. Gizli olanlar isə qanundan kənar əməllərdir və deməli o, qanunsuz olan heç bir işə razı ola bilməz. Elə bu düşüncələrlə Hətəmə üzünü tutub dedi:

– Qardaş, bir şeyi anlamadım e, necə yəni millət yığıncağı, millət başçısı? Bunlar axı qanunsuz əməllərdir. Nə gərək var bu cür hərəkətlərə?

– Necə yəni nə gərək var? Burda sənin nə atan var, nə anan. Tək başınasan. Elə hamımız tək başınayıq. Bir yerdə olmasaq bizi yeyərlər. Rusların başını buraxsan bizi ayaqlarının altına alıb tapdalayarlar.

Hələ mən erməniləri demirəm. Ona görə də bir-birimizə dayaq olmalıyıq.

– Dayaq deyəndə ki, qanun var, qayda var. Kim mənə nə edə bilər? Etsə belə cavabını da alar.

– Nə edəcəksən ki? Beş nəfər rus və ya erməni səni ortalığa salıb döysə cavab verə biləcəksən?

– Birincisi, özümü müdafiə edəcəm əlbəttə. İkincisi də ki, özbaşınalıq zaddır ki, məni döysünlər? Şikayət edəcəm.

– Kimə şikayət edəcəksən?

– Necə yəni kimə? Öz komandirimə.

Bunu eşidən Hətəm şaqqanaq çəkib güldü. Bu gülüş Azərin xətrinə dəydi. "Bu adam məni ələ salır, nədir?", – deyə düşündü. Ancaq özünü bir az toxdadıb yenə də söhbətə davam etdi:

– Qardaş, nəyə gülürsən? Şikayət etmək ayıbdır məgər? Mən qanunla yaşayan birisiyəm və hər şeyi də qanun çərçivəsində həll etməyi xoşlayıram. Birisi məni döyərsə, mən də ondan şikayət edərəm.

– Şikayət edərsən e, ancaq sonra nə olacağını bilsən bundan vaz keçərsən. Səni hamı barmaqla göstərib satqın adlandıranda mənim nə dediyimi başa düşərsən.

– Kim nə deyir, desin, öz işidir. Mən qanundan kənar heç nə bilmirəm və bilmək də istəmirəm. Həm də sən kimsən ki, gəlib burda mənə nağıl danışırsan?

Millət belə gəldi, millət başçısı belə getdi. Get, işinlə məşğul ol, mən özümü qoruya bilərəm və sənin kimisinin himayəsinə də ehtiyacım yoxdur.

Söhbətin qızışdığını görən digər yeni əsgərlər araya girib ortalığı sakitləşdirmək üçün Azəri bir kənara çəkdilər. Hətəmə isə işarə edərək baş qoşmamasını istədilər. Hətəm də, görünür, təcrübədən çıxış edərək dərinə getmədi və gənclərə iki gün sonra axşama doğru poçtun qarşısında millət başçısı ilə ayaqüstü görüş olacağını deyib getdi.

Hətəm gedəndən sonra Ağdamlı Nizami ilə Ziyəddin, bir də Qaraçöplü Abdurahman Azərin başına toplaşaraq söhbəti davam etdirdilər. Dərbəndli Baba da onlara qoşuldu. Bundan sonra nə edəcəklərini, necə edəcəklərini müzakirə etməyə başladılar.

Azərin sözü bu oldu ki, heç bir millət yığıncağına gərək yoxdur. Özümüz özümüzü lazım olduğu qədər qoruya bilərik. Həm də burda kimsə bizi öldürməyə hazırlaşmır onsuz da. Əsgərlikdir, əsgərliyimizi kişi kimi çəkib evimizə dönərik.

Abdurahman isə bu məsələdə fərqli mövqedə idi. O, deyirdi ki, millətə qoşulmaq lazımdır. Özü də nəzərə almaq lazımdır ki, əsgərlik təzə başlayır və kim bilir, qarşıda bizi nələr gözləyir. “Sən bəlkə də başqa millətlərlə bir yerdə yaşamağın nə olduğunu bilmirsən deyə buna qarşısan. Biz Gürcüstanda

az qala hər gün gürcülərlə dava edirik. Bir olmasaq onlar bizi məhv edər. İndi burda da təkbaşına heç nə edə bilmərik. Başqa millətlər bizi basıb döyəcəklər", – deyə o, sözünü bitirdi.

Nizami ilə Ziyəddin də Abdurahmanın sözlərinə haqq qazandırdı: "Qağa, sən ermənilərin nə olduğunu, deyəsən, bilmirsən. Onlar bizi tək görsələr günümüzü qara edəcəklər. Gəl, hələ baxaq görək bu millət yığıncağı nə olan şeydir, sonra bir qərar verərik".

Baba da onların fikirlərinə şərik olandan sonra Azər dostları ilə razılaşmalı oldu. Həm də bu millət məsələsi onun üçün nəsə yeni bir şey idi. Düzdür, orta məktəbdə oxuyanda tatlarla, ləzgilərlə milli zəmində zarafat edirdilər. Ancaq bu zarafat doğrudan da o qədər səmimi idi ki, heç kimi incitmirdi. Azərgil bir tata "ay allahın tatı", bir ləzgiyə də "ay allahın ləzgisi" deyəndə onlar da qarşılığında ya "ay allahın moğolu", ya da "ay allahın Qubalısı" (*Azər illər keçdikdən sonra bu moğol və Qubalı sözlərinin altında yatan mənanı kəşf edəcəkdi. Sən demə bu, əsl "Azərbaycanlı", yəni türk əsilli Azərbaycanlı deməkmiş – **Müəllif***) deyə müraciət edirdilər. Hələ onu da xatırladı ki, tatlarla, ləzgilərlə bağlı çoxlu lətifələr danışardılar. Hətta tatların, ləzgilərin özləri də həmin lətifələri danışıb gülərdilər. Bu zaman heç kim milli ayrıseçkilik haqqında düşünməzdi. İndi isə burada tamam başqa

bir mənzərə ilə qarşı-qarşıya idi. Sən demə bizə düşmən olan millətlər də varmış: ermənilər, ruslar və hətta gürcülər. Azər ruslar haqqında az-çox bilgili olsa da ermənilərin və gürcülərin əsl kimliyi haqqında demək olar ki, heç nə bilmirdi. Çünki Xaçmaz rayonunda az da olsa ruslar vardı. Ancaq erməni və gürcü heç yox idi. Yalnız anasının ona uşaq vaxtı danışdığı bir şeyi xatırlayırdı. Anası danışırdı ki, onun atası, yəni Azərin babası Vələd kişi gənc yaşlarında Qubada ermənilərə qarşı döyüşlərdə iştirak edib...

...Vələd baba danışırmış ki, ermənilər rusların da köməyi ilə Qubanın kəndlərini mühasirəyə alıb insanlarını qırırmışlar. Hətta bir dəfə müdafiəsiz qalan bir kəndi mühasirəyə alaraq oranın bütün əhalisini evləri ilə birlikdə diri-diri yandırıblarmış. Sonradan özünü yetirən özünümüdafiə dəstələrimiz ermənilərdən layiqincə intiqam ala biliblərmiş və Qubanın kəndləri onlardan azad edilibmiş.

Azərin anası bir də onu danışırdı ki, Dədəli kəndindəki qəbristanlığın bir qırağındakı qəbir daşları ermənilərə məxsusdur. 1905-ci və sonrakı illərdə erməni quldurları Dədəliyə qədər gəlib çıxıbmışlar və buranın cavanları onların bir hissəsini öldürdükdən sonra sağ qalanları qaçıb canlarını qurtarıbmış. İndi kənddə erməni qəbirləri kimi tanınan qəbirlər o zamandan qalmadır.

...Anasının danışdıqları o vaxtlar Azərə nağıl kimi görünürdü. Çünki "qardaş xalqların könüllü ittifaqı" olan sovetlərdə ermənilərlə Azərbaycanlılar qardaş kimi qələmə verilirdi və bu təbliğat da Azər kimi gənclərin beynini yetərincə işğal etmişdi. İndi isə yad bir ölkədə, təzə tanış olduğu həmyaşıdları ona deyirdi ki, ermənilər düşməndir və onlardan qorunmaq üçün birləşmək lazımdır...

Qərara gəldilər ki, iki gün sonra olacaq görüşə birlikdə getsinlər. Həmin görüşə onlarla bərabər Gədəbəyli Arzu və Naxçıvanlı Kamran da gedəcəkdi. Beləliklə, yeddi yeni əsgər xidmətin ilk günlərindən alışmadıqları hallarla qarşılaşmağa başlamışdılar. Qarşıda onları nələrin gözlədiyini isə heç kim bilmirdi. Ancaq Azərbaycandan olan digər əsgərlərin fikirlərini də diqqətə almaq yararlı ola bilərdi.

* * *

Axşamüstü xəbər gəldi ki, millət başçısı yeni əsgərləri poçtun yanında gözləyir. Xəbəri Nizami gətirmişdi. Artıq axşam yeməyini yemişdilər və bir saat boş vaxtları vardı. Xəbərləşib bir yerə toplaşaraq poçt tərəfə yollandılar.

Poçtun qabağında hardasa on nəfərə qədər Azərbaycanlı toplaşmışdı. Kimisi siqaret çəkir, kimisi də sadəcə dayanıb söhbətlərə qulaq asırdı.

Azər, Nizami, Ziyəddin, Abdurahman, Arzu, Baba və Kamran onlara yaxınlaşıb salam verdilər. Əsgərlər gələnlərin salamını aldıqdan sonra Hətəm onları bir-biriylə tanış etdi. Bəlli oldu ki, buradakılardan biri millətin başçısıdır. Adı Rövşən, özü isə Sumqayıtlıdır. Evə getməsinə altı ay qalıb. O, tərxis olunduğu zaman yerini millətin seçəcəyi başqa bir əsgər tutacaqdı. Bu başçının bir də iki yardımçısı vardı. Bunlardan biri Gəncəli Nizami adlı bir əsgər idi. Üz-gözündən nəsə salamat adama oxşamırdı. Rövşən isə yetərincə mədəni, səliqəli bir gənc təsiri bağışlayırdı. Bununla belə tanışlıq zamanı Azər millət başçısı da daxil olmaqla poçtun önündə onları gözləyənlərin özünə qarşı soyuq münasibətini sezmişdi. Onun dostları ilə bir qədər daha isti görüşən köhnə əsgərlər Azərlə rəsmi və ciddi görüşməyə üstünlük vermişdilər.

Tanışlıq bitdikdən sonra Rövşən yeni əsgərlərə suallar verməyə başladı. Bununla da söhbət üçün bir körpü salınmış oldu. Rövşən də Hətəm kimi əsgərlik haqqında yeni gənclərin bilmədiyi mətləblərdən danışırdı. Bəzi məsələlər artıq təkrarlanırdı. Ona görə də Azər və dostları suallar verməyə başladı. Abdurahman önə çıxaraq millət yığıncağı, millət başçısı məsələləri haqqında, ümumiyyətlə bunun nəyə lazım olması barədə soruşdu. Rövşən cavab verdi:

– Biz birlikdə olmasaq işlərimiz çətin olar. Evimizdən uzaqdayıq və burada bizim nə atamız, nə anamız yoxdur. Gərək əlbir olub özümüzü müdafiə edək. Ona görə də millət başçısı seçilir, millət yığıncaqları keçirilir. Sizi də bura dəvət etməkdə məqsədimiz odur ki, alayımızda olan qayda-qanunlar haqqında məlumatlandıraq. Əsas odur ki, siz burada bizim dəstəyimizə arxayın ola bilərsiniz.

– Bunu anladıq. Yəni, məncə, yaxşı məsələdir. Yalnız bir şeyi də öyrənmək istərdik: siz bizi müdafiə edəcəksiniz, yaxud da biz bir-birimizi müdafiə edəcəyik? İşimiz elə bundan ibarət olacaq, yoxsa başqa məsələlər də var?

– Var, əlbəttə, var. Hər şeydən əvvəl yadınızda saxlayın ki, biz Azərbaycanlılar arvad işləri görmürük. Döşəmə silmək, qab yumaq, küçələri, başqa yerləri süpürmək kimi işlər bizə aid deyil. Əgər aranızdan kimsə bu işləri görsə, millət yığıncağında cəzalandırılacaq.

Bu zaman Azər dayana bilməyib müdaxilə etdi:

– Mən bir şeyi anlamadım. Biz hamımız əsgərik. Burada bizim yerimizə kimsə dediyiniz işləri görən deyil ki. Yəni növbə ilə yəqin ki, hər kəs qab da yuyacaq, küçə də süpürəcək, döşəmə də siləcək. Mənə tapşırılan işi eləməsəm yəqin ki, nizamnaməyə uyğun cavab verməli olacam, elə deyilmi?

Onsuz da Azərə soyuq yanaşan Rövşən bu sözlərdən heç xoşlanmadı. Həm də hiss olunurdu ki, Hətəm onlara Azərin nəsə özündən deyən birisi olduğunu demişdi. Çünki Hətəmlə ilk görüşdə də Azər bir az böyük danışmışdı və bu da təbii ki, millət başçısına məruzə edilmişdi. Ona görə də Rövşən əvvəlkindən fərqli soyuq səslə Azərə dedi:

– Sən niyə narahat olursan? Burada hamının qəbul etdiyi qaydalar var və hər kəs də o qaydalara uyğun hərəkət eləməlidir. Biz də bir millət olaraq bir-birimizi dəstəkləyirik. Və istəmirik ki, millətimizin qoyduğu qaydaları kimsə pozsun. O cümlədən sən də.

– Sən kimsən ki, mənə qayda qoyursan? Qanun var, nizamnamə var. Mən də nizamnaməyə uyğun əsgərliyimi çəkəcəm. Nizamnaməni pozub niyə cəza almalıyam axı?

– Kim sənə dedi ki, nizamnaməni poz. Sadəcə deyirik ki, millətə uyğun olmayan işləri görmə. Həm də biri səni döyəndə nə edəcəksən? Burda şikayət etsən də kimsə baxan deyil.

– Baxarlar, baxarlar. Nə deyib baxmırlar ki? Bir də sizin danışdığınız şeylərin hamısı qanunsuz əməllərdir. Ona görə də mən sizə tabe olmaq fikrində deyiləm.

Azərin bu cür kəskin və qısa şəkildə fikrini bildirməsi Rövşəni özündən çıxarsa da o, təmkinini

toplayıb bir qədər səbr etməli oldu. Çünki anlayırdı ki, hələ kimliyini bilmədiyi bir gənc əsgərlə aşağı-yuxarı danışmaq doğru olmaz. Əgər hər hansı narazılıq yaranarsa, bu gəncin onları satmayacağı da bəlli deyildi. Ona görə Rövşən də, digərləri də daha diqqətli davranmalı idilər:

– Qardaş, biz sənə pislik etmirik ki. Deyirik ki, burada bizim dəstəyimizə arxalana bilərsən. Biz hamımız bir-birimizi dəstəkləyirik. Hətta evə hazırlaşan əsgərlərə pul da toplayırıq ki, əliboş getməsin. Bunun nəyi pisdir axı?

– Pul? Nə pul? Nə dəstək? Əşi, mənə kimsənin dəstəyi lazım deyil. Özüm özümü qoruya da bilərəm, xidmətimi də kişi kimi çəkib evimə dönəcəm. Sizin dediklərinizin hamısı qanunsuz əməllərdir. Mənim də belə işlərdə əlim olmaz. Yerliyik, bir respublikadan gəlmişik, bir-birimizə hörmət qoyaq. Ancaq durub mən özüm kimi bir əsgərə tabe olmalıyam ki, o, millət başçısıdır. Gülməli məsələdir. Mənim sizinlə işim olmaz, qardaş!

Azər son cümləni elə kəskin dedi ki, onun bu davranışı oradakıların hamısını bir qədər təəccübləndirdi. Hətta bəziləri əsəbi şəkildə öncə ona, sonra da Rövşənə baxaraq elə bil ki, Azəri döymək üçün izn istədilər. Ancaq Rövşən bu dəfə də başçıya xas bir təmkinlə əsəbini boğmağa çalışdı. Bununla belə tam

olaraq buna nail ola bilmədi:

– Sən indi nə demək istəyirsən? Bu qədər millətə qarşı çıxacaqsan? Nəyə güvənirsən? Bəlkə özünə güvənirsən?

– Mən kimsəyə qarşı çıxmıram. Hörmət edənə hörmət edəcəm, etməyənə də etməyəcəm. Siz də mənim kimi əsgərsiniz və kimsənin üzərimdə ağalığını qəbul etmək fikrim yoxdur!

– Sən deyəsən bədəninə güvənirsən! Burada belə şeylər keçmir. Sağlam və güclüsənsə heç də düşünmə ki, bu, yetərli olacaq. Ağlını başına topla, yaxşı düşün.

– Qardaş, mən hər şeyi düşünmüşəm və nə dediyimi də yaxşı bilirəm. Gəlin, bir-birimizə hörmət edək. Bir daha deyirəm, kimsə mənə ağalıq etmək fikrinə düşməsin!

Azərin bu sözləri həm Rövşəni, həm də oradakı başqa əsgərləri əməlli-başlı çaşdırdı. Hamı bir-birinin üzünə baxdı. Hətta bəziləri irəli gəlib Azərlə dalaşmaq da istədi. Ancaq bu dəfə Qaraçöplü Zakir adında bir əsgər araya girib ortalığı sakitləşdirdi. Bundan sonra Rövşən digərlərinin də sakit olmalarını tələb etdi və söhbətin bitdiyini bildirdi.



***İlk günlər məktub gözlərdik...***
***Azərin əl işi. Əsgərlik gündəliyindən***

* * *

Axşam poçtun önündə baş verənlər artıq alaydakı bütün Azərbaycanlı əsgərlər arasında söhbət mövzusu olmuşdu. Az qala hamı Azərdən çəkinməyə başlamışdı. Elə bilirdilər ki, o, nəsə baş verəcəyi təqdirdə milləti satacaq. Hətta bu cür şayiələr də yayılmağa başlamışdı. Elə bil kimlərsə qəsdən uydurma ittihamlar yayır, Azərin təklənməsi üçün nəsə edirdi. Düzdür, Azərlə birlikdə əsgərliyə gələn gənclər bu

təbliğata qarışmır, əksinə hər kəsə onun satqın deyil, sadəcə özünə güvənən birisi olduğunu izah etməyə çalışırdılar. Ancaq şayiə maşını elə güclü işləyirdi ki, gənc və təcrübəsiz əsgərlər sadəcə bu təbliğata qarşı duruş gətirməkdə aciz idilər. Yavaş-yavaş bu cür söhbətlər Azərin də qulağına çatırdı. Biri deyirdi ki, bu hər gün döşəmə silir, bir başqası deyirdi ki, ruslar bunu qapazaltı edib, digərləri də iddia edirdi ki, Azər milləti satıb. Bununla belə heç kim cürət edib bu sözləri onun üzünə demirdi. Anlaşılan o idi ki, psixoloji təzyiq və təkləmə yolu ilə Azəri ram etmək istəyirdilər. Ancaq Azər bütün bunları vecinə almır, "sözü olan varsa, üzümə desin" deyərək hər kəsə cavab verirdi. Əslində Azər bir balaca fiziki cəhətdən zəif olsaydı onu bəlkə də basıb döyərdilər. Ancaq onun idmançılara xas bədən quruluşu, danışarkən qətiyyətli davranması çoxlarını çəkindirirdi.

Azər haqqında şayiələr bir neçə gün davam etdi. Bir gün axşam yeməyindən sonra onların kazarmasına Zakir adlı birisi gəldi. Bu, poçtun önündəki mübahisə zamanı orda olan Qaraçöplü Zakir idi. Əsgərliyinin bir ilini arxada buraxmış Zakir də millət arasında söz sahibinə bənzəyirdi. Bəlkə də onu göndərmişdilər ki, gəlib gənc əsgərlərlə söhbət etsin. Elə söhbətin yumşaq və nisbətən xoş keçməsi ondan xəbər verirdi ki, Zakir nəsə ortada olan narazılıqları

aradan qaldırmaq, həm də Azərin satqın olub-olmadığını yoxlamaq fikrindədir.

Salamlaşdıqdan sonra əsgərlər bir-biriləriylə hal-əhval tutdular. Zakir söhbəti öz yurdundan saldı və daha çox Abdurahmana ilgi göstərməyə başladı. Əvvəlcə vətəndə olub-bitənlər haqqında soruşdu. Sonra da iki yerli qohum-əqrəba haqqında danışmağa başladılar. Bəlli oldu ki, Abdurahmanla Zakir eyni mahaldan olduqları üçün çoxlu ortaq tanışları da varmış.

Bir az sonra söhbət yenidən millət məsələsinə gəlib çıxdı. Zakir alaydakı Azərbaycanlıların birliyindən, bu birliyin gərəkli olmasından söhbət açdı. Əsas fikri də bu idi ki, yeni əsgərlər həmin birliyi pozmamalı, əksinə daha da möhkəmləndirilməsi üçün çalışmalıdırlar. Bir qədər bu cür söhbətlər etdikdən sonra o, Azərin məsələsinə gəlib çıxdı. Zakir dedi ki, poçtun önündəki söhbət heç də millətin ürəyincə deyil. Əsgərlər düşünür ki, Azər millətə qarşı çıxa bilər və hətta başçını sata da bilər. Zakirin bu sözlərini şaqqanaq çəkərək dərin bir gülüşlə qarşılayan Azər isə bir xeyli güldükdən sonra üzünü ona tutub dedi:

– Qardaş, mən heç əfəl adama bənzəyirəm? Yaxud da nəsə zəifliyimi görmüsünüz? Siz gərək, əslində, düşünəydiniz ki, mən özünü qorumağı bacaran, özünə güvənən birisi olduğum üçün

hər kəsin sözünə boyun əymirəm. Satqınlıq bizim nəslimizdə olmayıb, olmaz da. Sadəcə düşünürəm ki, kimliyindən asılı olmayaraq heç kimsə mənim üzərimdə ağalıq edə bilməz.

– Əşi yox e, kimdir sənə ağalıq etmək istəyən? Biz burda bir-birimizi dəstəkləyirik, arxa-dayaq oluruq. Bunun harası pisdir ki? Siz də yeni gəlmisiniz, dostlarla düşündük ki, bilmədiyiniz şeylər haqqında sizinlə söhbət edək. Hələ yenisiniz, çox şeyləri bilmirsiniz.

– Olsun, biz nə deyirik ki? Yalnız xoşum gəlməyən şey odur ki, birisi çıxıb deyir ki, sən kiməsə tabe olmalısan. Mən də izah etməyə çalışırdım ki, əsgərin tabe olacağı şəxs hərbi nizamnamə ilə nəzərdə tutulan komandirləridir. Başqa heç kimə tabe olmamalıdır.

– Sən məsələni çox qəlizləşdirirsən düzü. Burda hamı qəbul edir ki, Azərbaycanlılarla davranış fərqli olmalıdır. Hətta zabitlər belə başa düşür ki, bizi ruslar, ermənilər kimi qapazaltı etmək olmaz. Məgər bu məsələ nizamnaməlikdir? Sadəcə bizim milli xüsusiyyətlərimizi hər kəsə anlada bilmişik və hesablaşmaq zorundadırlar. Ona görə də sizə bu cür fərqli halların olduğunu izah etməyə çalışırdıq.

– Heç etirazım yoxdur. Əgər kimsə mənim şəxsiyyətimə toxunacaq bir hərəkət etməzsə, millətlə

problemim olmayacaq. Millət başçısı deyirsiniz, ona da hörmət edəcəm. Ancaq bu o demək deyil ki, həmin adam hər istədiyində məni ora-bura qova, nə istəsə elətdirə bilər.

– Sən belə şeylərdən heç narahat olma. Burada hər kəs layiq olduğu qiyməti alır. Yerli olanda nə olar? Bizim də aramızda başı qapazlı olmağa layiqlilər var və onlar da başıqapazlı olurlar. Ancaq sənin kimi özünə güvənən oğlanları heç kim başıqapazlı edə bilməz. Bizim istədiyimiz odur ki, hamımız bir olaq, bir-birimizə arxa-dayaq olaq.

– Elə isə problem yoxdur. Mən millət məsələsində sizinlə birlikdə olaram. Get, dostlarına de ki, məsələ həll edildi. Hə, bir də başqa bir şey lazımsa, bizə bildirərsiniz.

Söhbətin bu cür yaxşı sonluğa varması Zakirin ürəyindən idi. O, Azərin damarını tuta bilmişdi. Düşünürdü ki, bu özündən deyən gəncə hərbə-zorba gəlməyin faydası yoxdur. Bununla sakitcə, üstünə getmədən, mehribancasına danışmaqla yola gətirmək olar. Elə bu düşüncələrlə sağollaşıb onlardan ayrılan Zakir problemləri olacağı təqdirdə müraciət edə biləcəklərini bir daha söylədi.

* * *

Yenə də poçtun qabağında bir dəstə Azərbaycanlı toplaşmışdı. Millət başçısı Rövşən, Zakir, Nizami, Hətəm və daha bir neçə nəfər söhbət edirdilər. Zakir Azər və digər yeni əsgərlərlə olan söhbəti onlara danışırdı. O danışdıqca hamının üzündə razılıq ifadəsi yaranır, bir az da təbəssüm göyərməyə başlayırdı. Zakir sözünü bitirdikdən sonra Rövşən sözə başladı:

– İndi deyirsən bu qazlı gənc bizi satan deyil, hə? Mən də düşünürdüm ki, gedib hamımızı bagaja qoyacaq. Sənin danışdığından belə başa düşdüm ki, ondan çəkinmək lazım deyil. Əksinə, ona güvənmək lazımdır.

– Hə, elədir. Mən onlardan ayrılandan sonra Abdurahmanla da danışdım. Bilirsiniz, yerlimdir. Sözünə güvənmək olar. Abdurahman da daş atıb başını tutdu ki, nə satqın, nə filan? Sadəcə bu adam bir az özündən deyəndir. Deyir, əslində dili də var, dilçəyi də. Ancaq qanundan kənar heç bir əmələ qol qoymaz.

– Əşi bunun qorxusu yoxdur. Əsas məsələ odur ki, bizi satan deyil. Üstəlik də deyirsən ki, güvənmək olar, lap yaxşı. Bu məni ikiqat sevindirir. Ümumiyyətlə, bu çağırışda gələn Azərbaycanlılar arasında əfəli yoxdur. Maşallah, hamısı elə yax-

şı mənada cırtqozdur. Elə sənin o yerlin də. Sonra o Ağdamlı var e, Ziyəddin, cin kimi şeydir. Bir az Azərdən narahat idim, o da belə. Əladır yəni.

– Lap əla olmasa nə olacaq ki? Yəni bu təzə gələnlər bizə nə edə bilər?

– Onu demirəm e. Satqınlıq məsələsi. Yadında deyil, hardasa Essen tərəfdəki bir alayda bizimkilərdən biri millət başçısını alay komandirinə barmaqla göstərmişdi. Özü də bütün alayın qarşısında. Ona görə də adam ehtiyat edir. Düzdür, lap bunu bilsələr də mənə bir şey edə bilməzlər. Ancaq yenə də ehtiyatlı olmaq lazımdır.

– Orası düzdür. Ehtiyatlı olmalıyıq.

– Bir də, sən uşaqlarla pul məsələsini danışdın? Yəni aldıqları maaşı toplayıb evə buraxılacaq əsgərlərimizə çatdırsınlar.

– Bunu danışmadıq. Məncə bir az tezdir. Qoy bir-iki gün gəlib-getsinlər, yaxşı tanış olaq, ondan sonra deyərəm. Hər halda hərəsində əlli manat, yüz manat olmamış olmaz. Toplasaq filan qədər pul edir.

– Olsun, elə edərik. Hələ vaxtımız var onsuz da.

* * *

Səhər açılanda komandir elan etdi ki, yeməkdən sonra bütün əsgərlər texnika parkına gedəcəklər.

Orada tanklarla, başqa hərbi texnikayla tanış olacaqlar. Yalnız bir nəfərin kazarmada növbətçi qalması lazım idi. Komandir növbətçini də müəyyən etmişdi. Bu, Ağdamlı Nizami idi. Hələ növbətçiliyin nə olduğunu bilməyən Nizami kazarmada qarovul çəkməli, əslində isə sadəcə gününü keçirməli idi. Komandir ona təlimatları verdikdən sonra əsgərləri sıraya düzüb parka doğru yönəltdi. Özü öndə, bir dəstə yeni əsgər də arxasında addımlayaraq alayın həyətindən çıxdılar. Bu, onların ilk çıxışı idi. Əsgərliyə gələndən gördükləri tək yer alayın həyəti idi. Həyət deyəndə də bura böyük bir yer idi. Az qala bir kəndin əhalisi vardı burda. Zabitlər ailələri ilə birlikdə burada yerləşmişdilər. Onların bəziləri hətta alaydan bayırda, şəhərdə yaşayırdılar və hər gün sərbəst şəkildə şəhərə gedib gəlirdilər. Bu isə Azər və dostları üçün bir xəyal idi.

On beş dəqiqə getdikdən sonra daha bir hasarla əhatələnmiş yerə gəlib çıxdılar. Bura həmin texnika parkı idi. Alayın həyətindən də iri bir ərazidə qarajlar, onların da içində tanklar, avtomobillər, top daşıyanlar, piyadaların döyüş maşınları, zirehli daşıyıcılar və bu gənc əsgərlərin heç vaxt yaxından görmədiyi hərbi texnika var idi. Komandir onları qarajların önündən keçirdikcə hər bir texniki vahid haqqında qısa bilgi verir, qırx gün bitdikdən sonra

əsgərlərin öz batalyonlarına gedib bu texnikadan istifadə edəcəklərini deyirdi. Sürücülük vəsiqəsi olanlara avtomobil veriləcəkdi. Digərlərinə isə bacara biləcəkləri işlər tapşırılacaqdı və bununla da əsl əsgərlik başlanmış olacaqdı.

* * *

Axşam kazarmaya dönəndə dostlar gördülər ki, Nizaminin nəsə kefi yoxdur. Soruşanda dedi ki, bir mərtəbə yuxarıda yerləşən hava desantının əsgərləri onu döyüblər. Hamısı ruslardan ibarət olan bu rotanın onların alayına dəxli yox idi. Sadəcə kiçik bir rota halında bu alayın həyətində qalırdılar. Özü də bu əsgərlərin hamısı yaxşı təlim görmüş, hazırlıqlı idmançılar idi. Yəni onlarla təkbətək döyüşdə qalib gəlmək mümkün deyildi. Bu zaman uşaqlar Hətəmin və Zakirin dediklərini xatırladılar. Onlar demişdilər ki, "sizə sataşan olsa dərhal bizə xəbər verin. Qalanı sizlik deyil".

Axşamüstü yeməyə gedərkən Abdurahman Hətəmi tapıb baş verənləri ona danışdı. Hətəm də məsələni Rövşənlə müzakirə etdikdən sonra uşaqlara oraya gələcəyini dedi. O, tapşırdı ki, hər kəs yeməyini yeyən kimi kazarmaya qayıtsın: "Biz gəlib o adamın dərsini verəcəyik".

Elə belə də oldu. Yeməkdən sonra dostlar kazarmaya qayıtdılar. Az sonra Hətəm də bir neçə nəfərlə gəlib çıxdı. O, Nizamidən onu döyənlərin kim olduğunu öyrəndi. Bəlli oldu ki, Sergey adlı bir rus Nizamini döyübmüş. Başqa ruslar da yanında olunca Nizami bir az çəkinib və ona dirəniş göstərə bilməyib. Məsələnin belə olduğunu öyrənən Hətəm Nizamini ittiham etdi ki, gərək sən də onu vuraydın: “Düzdür, onunla onsuz da bacara bilən deyildin, ancaq vurmalıydın”.

Bundan sonra Hətəm uşaqlardan birini yuxarı göndərib o Sergey adlı əsgəri çağırtdırdı. Əvvəlcə gəlməyə tərəddüd edən Sergey sonra aşağı düşməyə razılaşdı və Hətəm onu kazarmanın arxasına söhbətə dəvət etdi. Digər əsgərlər isə bir az aralıda dayanıb olanları seyr edirdilər. Yəni tapşırıq belə idi. Heç kim yaxına gəlməməliydi və Hətəm Sergeyin dərsini təkbaşına verməli idi ki, gözünü qorxutsun. Əslində Sergey elə Hətəmi görən kimi qorxmağa başlamışdı. Çünki Hətəmin az qala iki metrə çatan boyu, enli kürəkləri, qazan boyda yekə başı istər-istəməz adamda qorxu yaradırdı. İndi bu rus əsgər də əslində hazırlıqlı olmasına baxmayaraq Hətəmdən qorxurdu.

Hətəm Sergeylə bir az söhbət etdikdən sonra ona açıq şəkildə cəzalandırılacağını deyəndə rusun rəngi dəyişdi. O, elə düşünürmüş ki, Hətəm sadəcə

ondan üzr istəməsini tələb edəcək və o da bununla canını qurtaracaq. Ancaq iş bu yerə çatanda rus balası Nizamini döyməyinə doğrudan da peşman oldu. Əslində o, Hətəmlə bacara bilərdi. Çünki Hətəm iri gövdəli olsa da idmanla işi olmazdı və yalnız elə gövdəsinə güvənərək başqalarını qorxudurdu. Ona görə də kimisə döymək lazım olanda onu göndərirdilər. İndi olduğu kimi.

Hətəmin ilk zərbəsi rusun qulağının dibində şappıldayanda o, daha da qorxmağa başladı və üzr istəyərək bir daha Azərbaycanlılara toxunmayacağını dedi. Bu isə Hətəmi lap özündən çıxardı və ard-arda bir neçə zərbə endirdikdən sonra Sergeyin qulağından tutub əsgərlərin yanına gətirdi. Sınıq-salxaq ruscasıyla ondan tələb etdi ki, üzr istəsin və bir daha belə səhvə yol verməyəcəyini öhdəsinə götürsün. Əlacsız qalan rus Nizamidən və bütün əsgərlərdən üzr istəyərək bir də belə səhv etməyəcəyinə söz verdi. Bundan sonra Hətəm onun arxasından bir təpik ilişdirərək sərbəst buraxdı.

Bu hal gənc əsgərlərdə bir ruh yüksəkliyi yaratmışdı. Hətəm isə əməlindən əməlli-başlı razı idi. Hətta xoşbəxt görünürdü və yastı-yastı danışaraq kimi lazımsa cəzalandırmağa hazır olduğunu deyirdi. Gənclər də belə düşünürdülər ki, bundan sonra onlara heç kim toxuna bilməyəcək. Deməli, bu millət

deyilən şey belə olur: hamı bir nəfər üçün, bir nəfər hamı üçün.

Azər də bundan sonra düşüncələrini dəyişmişə bənzəyirdi. Yəni düşünürdü ki, həmvətənləri ilə birlikdə hərəkət etməsi daha doğru olar. Həm də Zakirin anlatdıqlarından belə başa düşmüşdü ki, şikayət edən əsgərlərə hamı pis baxır. Hətta komandirlər özləri də bu cür əsgərləri xoşlamır. Düzdür, şikayət edəndə hərbi nizamnamə çərçivəsində hansısa tədbirlər görülür, ancaq bu heç də o demək deyil ki, şikayətçilər arzu olunan təbəqəyə aiddir. Əslində ordunun fəlsəfəsi ondan ibarət idi ki, hər bir əsgər özü özünü qorumağı, lazım olduğu zaman döyməyi də bacarmalıdır. Bu, əsgərliyin yazılmamış qanunu idi və kim bilir neçə illər idi ki, belə davam edirdi. İndi Azər də düşünürdü ki, artıq oturuşmuş, qanun halına gəlmiş qaydaları tək başına dəyişə bilməz və ona görə də millətin qoyduğu qaydalara əməl etməsi ən doğru yoldur...

Səhəri gün Zakir yenə də gənclərin yanına gəldi. Onlarla hal-əhval tutduqdan sonra bəzi məsələləri açıqlamaq istədiyini dedi. Gənclər maraqla onun nə deyəcəyinə qulaq kəsildiyindən dərhal mətləbə keçdi. İlk məsələ bu oldu ki, gənclər evə getməyə hazırlaşan əsgərlərimizə maddi yardım etməlidir. Yəni artıq evə hazırlaşanların öz yol hazırlıqlarına başla-

ması zamanıdır və təbii ki, əliboş getmələri doğru olmaz. Ona görə də millətin yeni əsgərləri əllərində olan pulları toplayıb onlara versə yaxşı olar. Zakir yaxşı bilirdi ki, evdən təzə gəlmiş əsgərlərdə Sovet pulu olmamış olmaz. Elə bu düşüncəylə də fikrini açıq ifadə etdi:

– Əgər sizlərdən kimdəsə Sovet pulu varsa, onu millətə vermək yaxşı olardı. Çünki evə gedəcəklər, əllərində bir şey olsun. Siz də evə gedəndə təzə gələnlər sizə yardım edəcəklər. Bu qayda həmişə var və məncə, faydalı qaydadır.

Gənclər onun bu fikrini dinlədikdən sonra hər kəs əlində bir az pul olduğunu dedi. Azər də yetmiş beş manat pulunun varlığını, millət üçün bunu verməyə hazır olduğunu deyəndə Zakir çox sevindi. Sonra o, pulu özünə deyil, hər kəsin qarşısında millət başçısına verməyin lazım olduğunu deyib gənclərdən ayrıldı. Ayrılarkən onu da dedi ki, axşam yeməyindən sonra kiçik qrupla poçtun önündə toplaşacaqlar. Millət başçısı Rövşən də orda olacaq. Qoy hər kəs gətirib pulu orda ona versin.

...Axşam yeməyindən sonra danışıldığı kimi poçtun önünə getməyə hazırlaşan gənclər öncə pullarını gizlətdikləri yerlərdən çıxardılar. Azər də diş məcununun içində bükülü şəkildə saxladığı pulu oradan çıxarıb cibinə qoydu. Bu üsulla pul gizlətməyi

əsgərliyini çəkib gəlmiş böyük qardaşı Abbasquludan öyrənmişdi. Diş məcununu da yatağının yanındakı siyirmənin içində qoyaraq rahat-rahat çıxıb gedirdi. Heç kimin ağlına da gəlmirdi ki, burada pul ola bilər. İndi o pulları aparıb həmvətənlərinə verəcəkdi.

Deyilən yerə gələndə burada yenə də ona qədər başqa Azərbaycanlı əsgər vardı. Bu cür toplantılar kiçik toplantı sayılırdı və burada adətən həftəsonu olacaq millət yığıncağında müzakirə ediləcək məsələlər ərtafında fikir mübadiləsi aparılırdı. Həm də hər kəsə açıq və könüllü olduğundan bu toplantılara istəyən gəlir, istəməyən də gəlmirdi. Ancaq millət başçısı və ya onun müavinlərindən kimsə mütləq bu toplantılara gəlməliydi ki, millətin dərdlərini dinləsin.

Rövşən də həmin yerdə idi. Zakir də gəlmişdi. Hal-əhval tutduqdan sonra Zakir pul məsələsinə keçdi. Rövşən gənclərə izah etdi ki, burada millət pul məsələsində bir-birinə yardım edir. Ancaq bu o demək deyil ki, pul yalnız millətdən toplanır. Millətin topladığı pul könüllülük əsasındadır və xoş məramlıdır. Bundan əlavə olaraq Azərbaycanlılar xüsusən də rusları döyərək onların pullarını əlindən alırlar. Hər bir əsgər ən azı iyirmi beş alman markası aylıq alır və aylıq veriləndən dərhal sonra Azərbaycanlılar rusların başının üstünü kəsdirir. Artıq elə bir hal yara-

nıb ki, ruslar özləri könüllü şəkildə gətirib pullarını Azərbaycanlı əsgərlərə verirlər.

Rövşənin bu izahından sonra gənclər bir-bir çıxarıb pullarını ona verdilər. Azər də yetmiş beş manatı halal etdiyini dedi. Onun bu cür davranması Rövşəni çox sevindirdi. Çünki bir neçə gün öncə satqın olacağından qorxduğu bu gənc artıq millətə qarışmış, qoyulan qaydalar çərçivəsində davranmağa başlamışdı. Bu isə birlik üçün çox gərəkli idi. Əgər tək bir əsgər belə ümumi qayda-qanundan yayınsaydı başqaları da onun ardınca gedə bilərdi və bu da millətin parçalanmasına səbəb olardı. Rövşənin isə vəzifəsi milləti tək bir çatı altında tutmaq, birliyi təmin etmək idi. "Əgər Azər də bizimlədirsə, deməli, problem yoxdur. Digərləri onsuz da əvvəlcədən millətlə bir olmağa meylli idilər", – deyə düşünən Rövşən pulları topladıqdan sonra dedi ki, həmin pullar evə hazırlaşan altı əsgər arasında bərabər şəkildə bölünəcək. Özü də bu bölgü hər kəsin gözü önündə, açıq şəkildə aparılacaq.

Pul söhbəti bitdikdən sonra Rövşən daha bir önəmli məsələnin olduğunu dedi. O, qeyd etdi ki, bu həftəsonu keçiriləcək millət yığıncağına artıq gəncləri də dəvət etmək fikrindədir. Millət yığıncağının nə olduğunu maraqla bilmək istəyən gənclər üçün bu, sevindirici xəbər idi. Ona görə də onlar

mütləq yığıncağa qatılacaqlarına söz verdilər. Bunun ardınca Rövşən artıq gec olduğunu, hər kəsin öz kazarmasına dönməsinin gərəkliliyini deyərək oradan ayrıldı. Gənclər də hər kəslə sağollaşıb öz kazarmalarına döndülər.

* * *

Şənbə günü idi. Adətincə bütün əsgərlər günortaya qədər işləmiş, nahardan sonra hərə bir tərəfdə özünü məşğul edirdi. Həmişə şənbə günləri nahar sonrası bu cür sərbəstlik olurdu. Kimi idmanla məşğul olur, kimi bir küncə çəkilib kitab, qəzet oxuyurdu. Başqaları da öz dostları, həmyerliləri ilə bir yerə toplaşıb vaxt keçirirdilər. Azərbaycanlı əsgərlər də bu boşluqdan yetərincə yararlanırdılar. Ən önəmli işləri isə axşam yeməyindən sonra baş tutan millət yığıncağına qatılmaq idi. İndi Azər və dostları ilk dəfə olaraq millət yığıncağına dəvət edilmişdi. Bu, onlarda bir az həyəcan yaradırdı. Nə olacaq, hansı söhbətlər gedəcək, kimlər cəzalandırılacaq, kimlər təriflənəcək? Bütün bunlar axşamkı toplantıda onların ilk dəfə görəcəyi yeniliklər idi.

...Axşam yeməyindən sonra bir az gəzib-dolaşdılar. Sonra deyilən yerə doğru yollandılar. Təlimata görə, böyük qrup şəklində getmək şübhə yaratdığın-

dan ən çoxu üç nəfərlik qrupla getmək lazım idi. Ona görə də Azər, Abdurahman və Ziyəddin birlikdə, digərləri isə iki nəfərlik qruplarla hamamın arxasına yollandılar. Hamama çatmağa xeyli qalmış onları bir Azərbaycanlı əsgər qarşıladı. Öz ana dillərində hal-əhval tutduqdan sonra həmin əsgər onları dar keçiddən hamamın arxasına ötürdü. Burada isə hardasa əlliyə qədər əsgər var idi. Hələ yığıncaq başlamadığı üçün əsgərlər gəlməkdə davam edirdi. Yeniləri görən kimi hamı səsini kəsib onlara diqqət kəsildi. Azərgil salam verərək əsgərlərin arasına qatıldılar və Rövşən sözə başladı:

– Xoş gəldiniz! İndən belə siz də millət yığıncağında iştirak edə bilərsiniz. Bundan sonra hər həftənin şənbə günü, eyni saatda burda olmağınızı istəyirəm. Və unutmayın ki, üzrsüz səbəbdən millət yığıncağını buraxmaq yaxşı qarşılanmır.

Gənclər başları ilə deyilənləri anladıqlarının işarətini verib digər əsgərlərlə tanış olmağa başladılar. Hərə bir sual verir, Azərbaycanda nələrin olub-bitdiyini öyrənmək istəyirdi. Hiss olunurdu ki, nisbətən təcrübəli əsgərlər hər şeyə rəğmən ana yurdları üçün darıxır, məktublaşsalar da bu, onlar üçün yetərli olmurdu.

Sorğu-sualla bərabər böyüklər kiçiklərə öz təcrübələrindən də danışırdılar. Xüsusən də deyirdilər ki,

heç bir Azərbaycanlı əsgər arvad işləri görməməlidir. Belə işlərə isə qab yumaq, süpürmək və ümumiyyətlə təmizlik işləri aid idi. Bundan başqa, Azərbaycanlılar həm də öz ləyaqətlərini alçaldan hərəkətlərə izn verməməli idilər. Misal üçün, heç bir zabit Azərbaycanlı əsgəri söyə bilməzdi. Halbuki rusların, ermənilərin anasına belə söyəndə onlar başlarını aşağı salıb səslərini çıxarmırdılar. Azərbaycanlılar isə söyüşə mütləq söyüşlə, həm də ikiqat söyüşlə cavab verməli idilər. Hətta durumdan asılı olaraq söyəni döymək də tələb edilirdi. Düzdür, alayda hər kəs Azərbaycanlıların bu özəlliyini bildiyi üçün onları söyməzdi. Ancaq bəzən yeni gələn zabitlər ümumi axında Azərbaycanlı əsgərləri də söyəndə ortalıq qarışırdı. Ta ki, onlar alayın Azərbaycanlılara xas qaydalarını öyrənincəyə qədər.

Gənclər burada başqa bir şey də öyrəndilər. Onlara izah edildi ki, kiminləsə dava edərkən mütləq axıra qədər savaşmalısan. Hətta əgər dava eləyənlər səndən güclüdürsə belə, yenə də qorxmamalı, qaçmamalı, ləyaqətlə dirəniş göstərməlisən. Döyülmək olar, ancaq qorxaq adı almaq, qapazaltıya çevrilmək heç bir Azərbaycanlıya yaraşan hal deyildi və millət yığıncağı da bu məsələdə güzəştə yer qoymurdu. Özü də deyirdilər ki, dava edərkən hər bir əsgər özü özünü qorumalı olsa da, əgər uduzarsa son-

radan millətin bir neçə başqa nümayəndəsi gedib Azərbaycanlını döyənin payını verəcək. Belə olduğunu bilən, digər millətlərdən olan bütün əsgərlər güclü olsalar belə Azərbaycanlılara toxunmaqdan çəkinirdilər. Ruslar isə çıxış yolunu Azərbaycanlılarla dostluq eləməkdə tapmışdılar. Çünki bilirdilər ki, yaxşı bir Azərbaycanlı dostu olan rusa alayda heç kim artıq söz deyə bilməz. Ona görə də bir az uzaqgörən ruslar boş vaxtlarında Azərbaycanlı dostları ilə gəzib dolaşaraq bir növ özlərinin arxalı olduqlarını nümayiş etdirirdilər. Bu isə onlar üçün bir təminat demək idi. Çünki Azərbaycanlılardan fərqli olaraq ruslarda birlik yox idi və hətta onlar bir-birilərini döyməkdən də çəkinmirdilər. Yəni onlarda millət hissi yox idi və buna görə də bir-birilərinə qənim kəsilmələri adi hal idi. Bu hal başqa millətlərdə də hiss olunurdu. Tək Azərbaycanlılar bir-birinə qarşı nəzakətli davranır, özünü ləyaqətli aparan heç kəs aşağılanmırdı. Yalnız millətin qəbul etdiyi ümumi qaydalar dışına çıxan və millətə başı aşağılıq gətirən hallar olduqda bunun cəzası ümumi millət yığıncağında, başqa millətlərin gözündən uzaq bir şəkildə verilirdi. Bu sistem illər uzunu idi ki, davam edirdi. Belə anlaşılırdı ki, bu cür sistemdən Azərbaycanlıların demək olar ki, heç biri narazı qalmırdı. Əksinə, hamı sevinirdi ki, evdən minlərlə kilometr uzaqda özünə arxa-dayaq tapa bilir.

...İlk dəfə millət yığıncağına qatılan gənc əsgərlər oradan ayrılarkən özlərini daha güvənli, daha arxalı hiss edirdilər. Elə yol boyu söhbətləri də bunun üzərinə köklənmişdi ki, burada mümkün qədər millətə baş ucalığı gətirən hərəkətlər etsinlər. Onlar artıq düşünürdülər ki, qarşıdakı iki ili elə keçirsinlər ki, evə dönərkən dost-tanışın yanında danışmağa sözləri olsun. Bu düşüncələrlə kazarmaya dönüb bir az televizora baxdıqdan sonra yatmağa yollandılar.

* * *

Artıq əsgərliyə gəlmələrinin qırxıncı günü tamam olmuşdu. İndi onlar hərbi and içəcək, ardından da təyinat aldıqları bölmələrə göndəriləcəkdilər. Azərin təyinatı üçüncü tank batalyonuna çıxmışdı. Abdurahman ikinci tank batalyonuna gedəcəkdi. Ağdamlı Nizami ilə Ziyəddin isə birinci tank batalyonuna təyinat almışdı. Dərbəndli Baba da orada xidmətini davam etdirəcəkdi. Gədəbəyli Arzu piyada bölməsinə, Gəncəli Elbrus isə topçu bölməsinə təyinat almışdı.

Səhər açıldıqda hər günkü kimi idman edib özlərini səliqəyə salandan və yeməkdən sonra komanda ilə kazarmanın önünə toplaşdılar. Komandir onları salamladıqdan sonra qırx günlük karantin həyatının bitdiyini, indi hərbi and içib hər bir əs-

gərin təyinat aldığı bölməyə gedəcəyini dedi. Ona görə də əşyalarını toplayaraq kazarmanın önündən baş meydana yollanacaqlarını da bildirəndən sonra, əsgərlərə on dəqiqə vaxt verdi ki, yuxarı qalxıb toparlansınlar. Əsgərlər cəld bir hərəkətlə dağılışıb on dəqiqə sonra arxaçantaları beldə, geyimləri də tam olaraq əyinlərində olmaqla aşağı endilər. Yenidən komanda verildi və sıraya düzüldülər. Bunun ardınca komandir, heç bir söz demədən önə keçib, "Ardımca, marş!" əmrini verdi. Artıq sırayla addımlamağı yetərincə öyrənmiş əsgərlərin asfalta dəyən yeknəsəq addımları hər tərəfdə əks-səda verir, qürur və şəstlə irəliləyirdilər. Cəmi bir neçə dəqiqədən sonra əsas meydana yetişərkən alayın bütün zabit və əsgər heyətinin burada sıraya düzülərək gözlədiyini gördülər. Andiçmə mərasimi üçün düzülmüşdülər. Bu gün onlar rəsmən and içib əsl əsgər xidmətinə başlayacaqdılar. Bu vaxtadək olan xidmət, əslində, bir hazırlıq mərhələsiydi və bitmişdi.

Alayın bütün heyəti meydanda idi. Ortada bir təntənə ab-havası vardı. Hər kəs parad forması deyilən bayram geyimində idi. Tarixi bir gün yaşanırdı. Bu gün, 23 noyabr 1986-cı il Azər və dostlarının həyatında yeni bir dönəmin başlanğıcı olacaqdı. Hərbi andı içdikdən sonra öz bölmələrinə gedib sonadək orada xidmət keçəcəkdilər.

Meydan tamam dolduqdan sonra alayın komandiri, polkovnik Ustinov tribunaya qalxdı. Bu adam balacaboy, kötük kimi möhkəm, idmançı görkəmli bir rus idi. Hiss olunurdu ki, fiziki cəhətdən çox hazırlıqlıdır. Yaşı hardasa əlli civarında olardı. Buna baxmayaraq çox qıvraq davranırdı. Elə bil ki, 18-20 yaşlarındakı bir gənc idi. Tribunanın pilləkənlərini bir göz qırpımında qalxıb yerini tutduğu zaman elə bir görüntü yaranmışdı ki, sanki dünya bu balacaboy adamın ayaqları altında idi.

Alay komandiri yerini tutduqdan sonra ortaya bir sakitlik çökdü. Komandirin yardımçısı, podpolkovnik Komarov alaya xitabən "Alay, düzlən! Farağat!" komandası verincə, bütün əsgər və zabitlər tək bir vücud kimi addımlarını yerə çırparaq olduqları yerdə dondular. Ardınca da Komarov, Ustinova sarı dönərək raport verdi: "Yoldaş komandir, alayın zabit və əsgər heyəti yeni əsgərlərin hərbi and mərasimi üçün hazırdır!" Bundan sonra Ustinov, uca səslə "Salam!" deyərək meydana toplaşanlarla salamlaşdı. Onun səsi o qədər uca idi ki, mikrofona belə ehtiyac duyulmurdu. Meydanda düzülənlər də öz növbəsində, "Sağlamlıq arzu edirəm!" deməklə ona cavab verdi.

Zabit və əsgərlərin belə salamlaşması yeri-göyü titrətdi. Mindən artıq insanın bir neçə saniyə içində

bir ağızdan salamlaşması bütün şəxsi heyətin daha da ciddi bir şəkildə sırada möhkəmlənməsinə səbəb oldu. Gənc əsgərlər də bu ansamblda yer almaqlarından vəcdə gəlmişdilər. Bu vaxtadək belə mərasimdə heç iştirak etməmişdilər və ilk dəfə bütün alayla birlikdə olmaları onlarda tam hüquqlu əsgər duyğusu yaradırdı.

Salamlaşma bitdikdən sonra Komarov yenidən söz alaraq əsgər və zabitlərə andiçmə mərasiminin keçirilmə ardıcıllığını izah etdi. Nəzərdə tutulurdu ki, ilk öncə qısa izahat çıxışı edilsin və ardından da əsgərlər bir-bir önə çıxaraq bir əl çiyinlərindəki silahın qundağında, digər əlində hərbi andla üzünü bütün heyətə tutaraq and içsin. Hərbi and bir qədər uzun olduğu üçün onun oxunması nəzərdə tutulurdu. Əslində əzbərlənməsi də bir problem deyildi. Yalnız əsgərlərin bir qisminin rus olmaması və bu dili normal bilməməsi onların həmin andı əzbərləməsinə imkan vermirdi. Hətta elələri də vardı ki, hərbi andı oxusalar da orada nə yazıldığını tam anlaya bilmirdilər. Bununla belə, andın onların dilindən səslənməsi yetərli sayılırdı.

Deyilən kimi də oldu. Əsgərlər tək-tək şəxsi heyətin önünə dəvət edilməyə başladı. Hazır yazılı mətni kimisi uca və şux səslə, kimisi də hecalaya-hecalaya oxuyaraq hərbi andı içmiş oldu.

Sıra Azərə çatanda o, şaqraq addımlarla sıradan ayrılaraq önə çıxdı. Yaxınlaşıb prosesdə yardımçılıq edən zabitdən hərbi andın mətnini aldı. Sonra iki ayağını cütləyərək dimdik dikəldi və zabitin işarəsini gözləməyə başladı. Zabit, Azərin hazır olduğunu görüncə, hərbi andı səsləndirməsi üçün işarə verdi. Azər sağ əliylə çiynindəki silahının qundağından tutaraq irəliyə doğru uzanmış sol əlindəki andı oxumağa başladı:

"Mən, Sovet Sosialist Respublikaları İttifaqının vətəndaşı, hərbi qüvvələrin sıralarına daxil olaraq öhdəlik götürür və təntənəli surətdə and içirəm ki, vicdanlı, cəsur, intizamlı, sayıq döyüşçü olacaq, hərbi və dövlət sirrini ciddi şəkildə qoruyacaq, bütün hərbi nizamnamələri, komandir və rəislərin əmrlərini müzakirəsiz icra edəcəyəm!

Mən and içirəm ki, hərbi işi vicdanla öyrənəcək, hərbi və xalq əmlakını göz bəbəyim kimi qoruyacaq və son nəfəsimədək öz xalqıma, Sovet vətənimə, Sovet hökumətinə sadiq qalacağam!

Mən həmişə Sovet hökumətinin əmri ilə öz vətənimin – Sovet Sosialist Respublikaları İttifaqının müdafiəsinə qalxmağa hazıram və hərbi qüvvələrin döyüşçüsü olaraq onu kişi kimi, ağılla, ləyaqətlə, vicdanla, düşmən üzərində tam qələbəyədək qanıma və həyatıma rəhm etmədən qorumağa and içirəm!

Əgər mən bu təntənəli andımı pozarsam, qoy Sovet qanunlarının sərt cəzaları, ümumxalq nifrəti və əməkçilərin hiddəti nəsibim olsun!"

Azər özü də gözləmədiyi bir təntənə və gurultu ilə andı səsləndirdikdən sonra içində nəsə alışmadığı xoş duyğular baş qaldırdı. İndi özünü daha güclü, əmin hiss etməyə başladı. Qürurluydu. Çünki artıq rəsmən əsgər olmuşdu və bundan sonra əsl əsgər kimi xidmət keçəcəkdi.

Andiçmə mərasimi iki saatdan artıq bir müddət ərzində davam etdi. Sonda alay komandiri yeni əsgərləri təbrik edərkən onları daha da həvəsləndirəcək fikirlər səsləndirdi və bunun ardınca mərasimin sona çatdığını elan etdi.

Mərasim bitincə karantindəki əsgərlər yerlərində dayanıb gözləmə əmri aldı. Bir neçə zabit onlara yanaşaraq daha əvvəlki kazarmaya dönməyəcəklərini, indi yeni xidmət bölmələrinə gedəcəklərini dedi. Bundan sonra yeni əsgərləri götürəcək zabit və gizirlər onlara yanaşmağa başladı.

Bir nəfər gizir yanaşaraq zabitlərlə salamlaşdıqdan sonra dörd nəfər əsgərin onlara təyinat aldığını bildirdi. Bunlar Azərlə yanaşı Qazaxıstandan olan özbək Ötkir Kamalov, Qırğızıstandan olan Nurkamal Mırzakanov və Mordvadan gələn rus Sergey Konovalov idi. Bu dörd əsgər qarşıdakı iki il ərzində

üçüncü tank batalyonunda birlikdə xidmət edəcək və dost olacaqdılar.

Digər əsgərlər də beləcə paylaşıldıqdan sonra artıq meydanda heç kim qalmamışdı. Onların karantindəki komandiri isə bir az hüznlü, bir az da kədərli bir görkəmdə tək-tənha geri qayıdırdı. Hər nə qədər olmasa da qırx gün birlikdə olduğu əsgərlərdən ayrılmaq onu üzürdü. Ancaq edəcək bir şey də yox idi. Qayda belə idi.

* * *

Azər və digər üç əsgər gizirin ardınca yeni kazarmaya daxil oldu. Bura elə əsas meydanın düz önündə yerləşən üç mərtəbəsi və çardağı olan böyük bir bina idi. Onların kazarması ikinci qatda idi. Bir də çardağın bir hissəsi Azərin xidmət keçəcəyi batalyona aid idi. Batalyonda üç tank rotası və bir təminat vzvodu vardı. Yeni əsgərlər təminat vzvodunda xidmət keçəcəkdilər. Ötkirlə Sergeyin sürücülük vəsiqəsi olduğu üçün onların işi öncədən bəlli idi. Hərəsinə bir "Ural" markalı yük maşını ayrılmışdı və qarşıdakı iki ili onlar həmin maşında xidmətlə keçirəcəkdilər. Azərlə Nurkamalın isə bu cür imkanı yox idi. Onlar hələlik konkret bir işə təyinat almamışdılar. Ancaq bu o demək deyildi ki, bekar qalacaqdılar. İrəlidəki günlərdə onlara da iş tapılacaqdı.

...Azər və dostları ilk günü andiçmə mərasiminin təsiri altında başa vurduqdan sonra səhəri gün bütün əsgərlər kimi saat altıda yuxudan durub meydanda düzlənəndə artıq başqa hislər keçirirdilər. Nəsə bir möhtəşəmlik, özünə güvən hissi onlara hakim kəsilmişdi. İdman edəcəkdilər. İdmanın sonrakı hissəsi qaçış idi. Üç kilometr kəsintisiz qaçış. Adi isinmə hərəkətləri alayın bu meydanında olsa da, qaçış üçün dışarı çıxmalı idilər. Və çıxdılar da...

* * *

Səhər idmanı, ardından yuyunma, yemək və qısa bir aradan sonra texnika parkına yollanma. Bir həftə idi ki, gənc əsgərlər hamı ilə birlikdə sabahları bu cür açırdılar. Günortalar yenidən alayın həyətinə qayıdır, bir saat içində nahar edərək azacıq dincəldikdən sonra yenidən parka qayıdırdılar. Axşamlar isə yenə də bu həyətə gəlib yemək yeyir, qalan boş vaxt ərzində sərbəst olur, saat səkkizdə Moskvadan, mərkəzi televiziyadan yayımlanan “Zaman” proqramına baxır, saat 10-da yatağa uzanırdılar. Günlər sürətlə keçirdi. Hətta başları elə qarışmışdı ki, ilk həftənin nə zaman bitdiyinin fərqinə də vara bilməmişdilər.

Azərgilin vzvodunda daha bir Azərbaycanlı vardı. Bu, əslən Azərbaycanın Balakən rayonundan olan

Vaqif idi. Xidmətin bir ilini arxada qoymuş Vaqif sakit təbiətli, dürüst birisi idi. Xüsusi fəallığı ilə seçilməsə də kimsəylə işi də olmayan normal bir Azərbaycanlı gənc kimi Vaqifin heç kimlə problemi də yox idi. Azər yeni xidmət yerinə gələndə elə ilk işi burada Azərbaycandan başqa əsgərin olub-olmadığını öyrənmək olmuşdu. Batalyonda Vaqifdən başqa Azərbaycanlı olmayınca da Azər daha çox onunla yaxınlıq etməyə başlamışdı. Vaqif Balakəndəki Moskva kolxozunun Qazma kəndindən idi. Elə kənd uşağı olması da Azər üçün yaxşı idi. Çünki öz kəndindən başqa heç bir yerdə uzun müddət yaşamayan birisi olaraq özü kimi kənd uşaqları ilə ünsiyyət qurması daha asan olardı. Ancaq bu heç də o demək deyildi ki, Azərin şəhər uşaqları ilə problemi vardı. Elə əsgərliyi başlayandan SSRİ-nin müxtəlif bölgələrindən gələn fərqli millətlərdən olan əsgərlərlə rahat ünsiyyət qura bilməsi onun ilətişim probleminin olmamasından xəbər verirdi. Burada Vaqiflə yaxından tanış olması üçün uzun müddət tələb edilməmişdi. Xoş-beş, on-beşdən sonra yüz ilin tanışları kimi dostlaşmışdılar.

Vaqif deyirdi ki, bir ildən sonra evə gedəcək. Ona görə də evə yaxşı hazırlaşmaq lazımdır. Vaqif həm də onu izah edirdi ki, qol gücünə güvənənlərin işi həmişə yaxşı gedir. Hətta komandirlər də bu cür əsgərləri xoşlayırlar. Zatən əsgərlərin sərbəst,

güclü və özünə güvənən olması gərəkliydi və ona görə özündən deyən əsgərlər hörmət sahibi idilər. Vaqifin danışdıqlarını dinlədikcə Azər əsgərlikdən öncə düşündüklərini yadına salır, xatırladıqca da pəjmürdə olurdu. Onun xəyalındakı əsgərlik bu deyildi. Azərin xəyal etdiyi əsgərlikdə qanunlar, komandirlərin əmrləri əsas idi. Ancaq burada başqa şeylər görür və eşidirdi. Hələ karantində ikən də bu cür söhbətləri eşidib çaşqınlığa məruz qalırdı.

"Niyə qanunlar deyil, qol gücü üstün olmalıdır? Niyə burada əsgərlər bir-birinə qarşı meşə qanunları ilə davranmalıdır? Axı qanunlar işləsə daha yaxşı olmazdımı?" Bu cür suallar Azəri rahat buraxmırdı. Bununla belə onu da anlayırdı ki, burada on illər boyu oturuşmuş qaydaları dəyişmək iqtidarında deyil. Ona görə də getdikcə daha çox duruma uymaq haqqında düşünürdü. Onsuz da başqa yolu yox idi. Ya buradakı qaydalara uyacaq, ya da ala qarğa kimi tək başına ortalıqda qalıb qınaq obyekti olacaqdı. Hər halda yurdundan, yuvasından minlərlə kilometr uzaqlıqda qınaqlara tuş gəlib evə üzüqara dönmək olmazdı. Ona görə də birinci yolu seçmək daha doğru olardı. "Hamı kimi olmaq lazımdır", – deyə Azər düşünürdü.

Vaqif Azərə batalyondakı qayda-qanun haqqında da danışmışdı. Xüsusən də birlikdə xidmət

etdikləri vzvodun gördüyü və görməli olduğu işlər, ümumiyyətlə isə onun batalyondakı yeri və rolu Azər üçün maraqlı idi. Düzdür, Vaqiflə bərabər yeni tanış olmağa başladığı digər əsgərlər də ona maraqlı məsələlər haqqında danışırdılar. Bununla belə, ilk günlər eşitdikləri onu daha da həvəsləndirir, hərbi xidmətin çətin tərəflərini daha tez görmək istəyirdi.

Azər Vaqifə Əfqanıstan məsələsini də demişdi. Öncə buna şaşıran Vaqif sonra məsləhət verməkdən də qalmamışdı. “Camaat Əfqanıstandan qaçır, sən isə ora can atırsan. Qəribə adamsan vallah”, – deyən Vaqif məsləhət görmüşdü ki, o, bu istəyindən vaz keçsin. Ancaq Azərin qərarlı olmasını görüncə, “Onda get ərizə yaz, göndərsinlər. Məncə, göndərərlər”, – deyə bildirmişdi.

Elə bu düşüncələrlə də Azər gizir Melniçenkoya müraciət etmişdi. Melniçenko da öz növbəsində onu diqqətlə süzüb, şübhəli şəkildə nə üçün Əfqanıstana getmək istədiyini soruşmuşdu. Azər vətənə daha yaxşı xidmət etmək, qardaş əfqan xalqını imperialistlərin işğalından azad etmək, orada kommunizm quruculuğuna öz töhfəsini vermək istədiyini desə də Melniçenko yenə də ona tam olaraq inanmamışdı. Bununla belə, Azərə məsləhət vermişdi ki, batalyon komandiri ilə danışsın. Batalyon komandiri də məsələni alay komandirinə çatdıracaqdı və

sonra rəsmi ərizə yazıb könüllü şəkildə Əfqanıstana getmək olardı.

* * *

Artıq yeni yerdəki xidmətin ilk günləri geridə qalmışdı. Azər hər gün eyni hərəkətlərin təkrarlanmasından, həm də özünə ciddi əsgər tapşırıqları verilməməsindən razı kimi görünmürdü. Ancaq buna baxmayaraq yenə də verilən tapşırıqları icra edir, bütün əsgərlərlə birlikdə texnika parkına gedib-gəlir, həm də özünün fiziki sağlamlığının qayğısına qalırdı.

Daha bir yeni həftə başlamışdı ki, batalyon komandiri səhər baxışında Azərin sıradan çıxmasını əmr etdi. Görünür, yeni tapşırıq və ya irad olacaqdı. İrad üçün səbəb olmadığı üçün tapşırıq olacağını düşünən Azər gümanında yanılmadı. Batalyon komandiri onu əsgər sırasının önündə saxlayıb bu gündən etibarən yeni görəvə başlayacağını elan etdi:

– Əsgər, bu gündən etibarən yeməkxanada işə başlayırsan. Səni çörəkdoğrayan təyin edirəm. Burada sıra baxışı bitdikdən sonra yeməkxanaya gedərsən. Orada sənə iş yerini və işini göstərəcəklər. Gecələr işləyəcəksən. Gündüzlər isə dincələrsən.

Bu əmr Azəri bir xeyli təəccübləndirdi. Ancaq əmrin müzakirəsi yolverilməz olduğu üçün dərhal tabe oldu və tapşırığı yerinə yetirəcəyinə söz verdi.

Sıra baxışı bitdikdən sonra texnika parkına gedən əsgərlərdən ayrılaraq yeməkxanaya yollanan Azəri burada tapşırıqda olan əsgərlərin komandiri qarşıladı. Azər hərbi salam verərək tapşırıqla gəldiyini bildirdikdən sonra yeməkxana müdirinin yanına getmək istədi. Zabit ona arxasınca gəlməyi əmr edərək özü irəli keçdi.

Yeməkxana müdiri bir kapitan idi. Adını sonadək bilmədiyi kapitan onun gəlməsini gözləyirmiş kimi salamını aldı. Bundan sonra o, zabitin azad olduğunu bildirdi. Zabit ayrıldıqdan sonra Azərə onun görəcəyi işlər və vəzifələri haqqında bilgi verdi.

Kapitanın izahından belə anlaşıldı ki, Azər hər gün axşam saat ondan sonra yeməkxanaya gəlməlidir. Burada bütün alay üçün nəzərdə tutulan çörəyi və kərə yağını təhvil almalıdır. Bundan sonra özü üçün ayrılmış otaqda həmin çörəkləri və yağı əsgərlər və zabitlər üçün paylaşdırmaq Azərin əsas vəzifəsi olacaqdı. Kapitan ona vəzifəsini icra edəcəyi yeri də nişan vermişdi. Bu, yeməkxananın ikinci qatında hardasa əlli kvadrat metr genişliyində işıqlı bir otaq idi. Otaqda bir neçə masa, stul, skamya və üzərində mürgüləmək üçün topçan vardı. Kapitan deyirdi ki, gecə vaxtı yuxun gəlsə həmin topçanın üzərində uzanıb gözünün acısını ala bilərsən. Ancaq işi bitirmədən yatmaq olmaz. Gərək çörək tam doğ-

rana və yağ paylana ki, ondan sonra rahat bir şəkildə dincələ biləsən.

Mindən çox əsgər və zabit üçün çörəyi necə doğramaq fikri Azəri bir az rahatsız edirdi. Ən azı iki min tikə çörək kəsmək lazım idi. Min ədəd də 20 qramlıq yağ. Bunları çatdıra biləcəkdimi? "Hər halda işləyib görərik", – deyə düşünürdü.

Kapitan ona işini izah etdikdən sonra ardınca gəlməsini əmr edib önə keçdi. Onlar birlikdə Azərin yeni iş yerinə gəldilər. Kapitan otağın qapısını açdıqdan sonra açarları ona verib buranın səliqə-sahmanına xüsusi diqqət yetirməli olduğunu da deyəndə Azərin dalağı sancdı. Yəni hər tərəf hər gün yuyulub silinməli, heç yerdə toz və kir olmamalıydı. Bunlar isə millətin yasaqladığı arvad işləri idi. Elə bu düşüncəylə də kapitanın fikrini müzakirə etməyə hazırlaşırdı ki, zabit onu əzabdan xilas etdi:

– Sənin gigiyena məsələlərində diqqətli olman vacibdir. Əllərin, geyimin həmişə təmiz olmalıdır. Əlini heç vaxt kirli bir şeyə vurma. Çörək və yağı doğramazdan öncə əllərini yaxşıca yumalısan. Burda isti su da var, sabun da. Bu otağın təmizlik işini isə naryada gələn əsgərlər eləyəcək. Hər axşam yeni naryad gələndə əsgərlərin komandirinə deyərsən, bir nəfəri sənə yardım üçün ayırsınlar. Onlar bunu bilirlər. Ayıracaqları əsgər gün ərzində sənin əmrində

olacaq. Bütün təmizlik işlərini o görməlidir. Bir daha deyirəm, əlin kirli işlərə dəyməsin.

– Bəs o qədər çörəyi tək başıma necə doğrayacam?

– Narahat olma. Burda çörəkdoğrayan maşınımız var. Sənin işin çörəkləri həmin maşına yerləşdirmək olacaq. Bu iş üçün hardasa iki-üç saat vaxtın gedəcək. Elə yağı da bir o qədər vaxta bitirəcəksən. İstəsən, özünə yemək də hazırlaya bilərsən. Əlbəttə ki, gecə ac qalsan yaxşı olmaz. Yağ, çörək səndədir. Aşağıda mətbəxdə başqa yeməklər də var.

– Bəs çörək və yağı necə paylayacağam?

– Bu da sənin işin deyil. Doğrayıb qurtardıqdan sonra hamısını naryadda olan əsgərlərin komandirinə təhvil verəcəksən. Paylamaq onların işidir. Yəni sənin məsuliyyətin çörəyi və yağı doğranmış şəkildə təhvil verənədəkdir.

Kapitan hər şeyi o qədər aydın və dəqiq izah etdi ki, Azər bundan sonra sual verməyə gərək qalmadığını anladı. Ona görə də kapitana təşəkkür edib işinə başlamağa hazır olduğunu dedi. Kapitan da öz sırasında bugünlük heç bir işin olmadığını, yalnız axşam saat ondan sonra işə başlaya biləcəyini deyib onu sərbəst buraxdı.

Azər yeni iş yeri ilə tanış olduqdan sonra kazarmaya qayıtdı. Artıq saat on idi. Bütün əsgərlər işdə-

gücdə, kazarma bomboşdu. Yalnız növbətçi əsgər qapının ağzındakı yerində dayanıb xidmətini davam etdirirdi. Azər içəri girib onunla salamlaşdıqdan sonra özlərinin otağına keçdi. Bir müddət orada qurdalandıqdan sonra yatmaq istədi. Ancaq gündüz olduğu üçün gözünə yuxu getməyincə durub çölə çıxdı. Alayın həyətindəki idman kompleksinə gəlib bir az burada başını qatdı. Sonra yenidən kazarmasına döndü və köhnə qəzetləri oxumaqla vaxtını keçirməyə çalışdı.

...Saat bir olmuşdu. Artıq əsgərlərin hamısı texnika parkından geri dönmüşdü. Bir neçə dəqiqə içində özlərini sahmana salıb əllərini yuduqdan sonra aşağı enib kazarmanın önündə sıraya düzüldülər. Azər də onlarla birlikdə sırada yerini aldı. Batalyon komandiri əsgərlərə yanaşıb salamlaşdıqdan sonra üzünü Azərə tutub yeni işiylə maraqlandı. Azər olanları anlatdıqdan sonra komandir razı şəkildə gülümsəyərək digər zabitlərə əsgərləri yeməyə aparmağı əmr etdi.

* * *

Azər özünün yeni işini yaxşı öyrənmişdi. Əməllibaşlı bir sistem yaratmışdı özü üçün: çörəkləri və yağları mümkün qədər tez doğrayıb təhvil verir, sonra da gedib günortaya qədər rahat yatırdı. Günorta

yuxudan qalxıb yeməkxanaya gəlir, burada nahar etdikdən sonra otağına keçib bir müddət başını qatır, əlavə çörək doğramaq lazım olanda onları doğrayıb naryad komandirinə təhvil verirdi. Boş vaxtı o qədər çox olurdu ki, istədiyi vaxt həyətə çıxıb gəzişir, yaxud da bir küncə çəkilib özü üçün qəzet oxuyurdu. Bəzən də ona bir yerinə iki əsgər verirdilər və belə olanda çörək və yağ doğranmasında onların yardımından istifadə edirdi. Əsgərlərin birini yalnız təmizlik işlərinə ayırır, digərini isə kirli işdən uzaq tutaraq çörək doğratdırırdı. Özü də bu əsgərlər onun tapşırıqlarını müzakirəsiz icra etməli idilər. Əslində naryada gələn əsgərlərin hamısı öz xoşu ilə çörəkçinin yanında işləmək istəyirdi. Çünki bilirdilər ki, təmizlənəcək yer kiçik olduğundan uzağı bir saata işi bitirib dincələ bilərlər. Əsas işlər də gecə olduğu üçün çox zaman əsgərləri yuxu tutur, yorğunluq onların işləməsini əngəlləyirdi. Çörəkçinin yanında belə problem yox idi. İşini bir saata bitirən əsgər səhərə kimi bir küncdə yata bilərdi. Əgər işin gedişində hansısa təmizlik ehtiyacı yaranardısa Azər onu oyadardı. Bunu bilən əsgərlər bir qayda olaraq Azərin yanında naryad keçmək üçün dəridən-qabıqdan çıxırdılar. Digər əsgərlərin işi isə çətin idi. Onlar gecə səhərə kimi qab-qacaq yumalı, döşəmə silməli idilər. Bu isə onların bir an belə dincəlməsinə imkan

vermirdi. Elə gündüz vaxtı da onların dincəlməsi çətin idi. Çünki səhər yeməyi bitən kimi yenidən təmizlik işləri başlayırdı. Eyni hal günortadan sonra təkrarlanırdı və bu minvalla yeməkxanaya naryada təyin edilən əsgərlər az qala iyirmi dörd saat durmadan çalışırdılar. Çörəkçinin yanında naryada keçmək istəyi də bu üzdən yaranırdı.

Azər bu məsələdə bir az yerlibazlıq da edirdi. Naryada gələn əsgərlər arasında Azərbaycanlı olardısa, onu bir rus balası ilə birlikdə öz yanına almağa çalışırdı. Adətən naryad rəisləri onun istəyini rədd etmir, istədiyi əsgərləri verirdilər. Azərbaycanlı ilə bir rusu birlikdə istəməsi isə ondan irəli gəlirdi ki, təmizlik işlərini ikinciyə gördürsünlər. Düzdür, bəzən tək bir Azərbaycanlı da olurdu. Bu zaman həmin Azərbaycanlı təmizlik işlərini gizlincə tutub gətirdiyi hansısa rusa gördürürdü və bundan naryad rəisinin xəbəri olmurdu.

Azərin yerlibazlığı özünü bir də çörək və yağ paylanan zaman göstərirdi. O, əlinin altında olan ehtiyatdan öz həmyerlilərinə əlavə pay verirdi. Bu paydan bəzən Azərbaycandan olmayan, ancaq yaxşı oğlan sandığı ruslara da çatırdı.

Bu minvalla Azər on gün ərzində çörəkçi kimi xidmət keçdi. Ancaq bu xidmət onun heç ürəyincə deyildi. Çünki işi ancaq çörək və yağ paylaşdırmaq, sonra

da boş vaxtlarını yataraq və ya kitab, qəzet oxuyaraq keçirmək idi. Azər isə əsl kişi kimi əsgərlik keçmək istəyirdi. Rejimi digər əsgərlərin rejimi ilə üst-üstə düşmədiyindən səhərlər normal idman da edə bilmirdi. Ona görə də fiziki imkanları elə bil zəifləməyə başlamışdı. Bir yandan da arıqlayırdı. Daim gözünün önündə çörək, yağ və başqa yeməklər olduğundan iştahası küsmüş, adətən həvəssiz yemək yeyirdi. Bu üzdən də beynində yeni fikirlər oluşmağa başladı.

* * *

Azər axşam yeməyinə gələn həmyerlilərinə çörəkçilikdən bezdiyini deyincə, onlar buna heyrət etdilər. Abdurahman ona baxıb, "xəstə zad deyilsən?", – deyə soruşdu. Ziyəddin isə "adam belə yerdən heç bezər?", – deyə sual etdi. Digər dostları da onun bu fikrini xəncər-bıçaqla qarşıladılar. Azər isə öz dediyində israrlı idi və bura əsgərlik keçmək üçün gəldiyini deyib dururdu:

– Qardaş, mən əsgərliyə gəlmişəm, yoxsa çörəkçi işləməyə? Bundan ötrü adam yoxdur bəyəm? Bu gün komandirə deyəcəm, qoy məni buradan çıxarsın. Başqasını göndərsin. Bezdim burdan. Boğazımdan çörək də keçmir. Gör özüm də zəifləyib nə günə düşmüşəm.

Onun bu inadı dostlarında belə qənaət yaratdı ki, Azər istədiyini edəcək. Ancaq problem yaranmasın deyə komandirə demədən yeməkxanadan ayrılmamasını tövsiyə etdilər.

Yemək bitdikdən sonra Azər vzvod komandiri, gizir Melniçenkoya yaxınlaşıb ona yeməkxanadan ayrılmaq istədiyini dedi. Melniçenko da həmyerliləri kimi Azərin bu istəyinə heyrətləndi. Nə üçün ayrılmaq istədiyi ilə maraqlananda Azər normal əsgər xidməti keçmək istədiyini, burada boşuna vaxt xərcləməkdən bezdiyini dedi. Melniçenko isə bu işin batalyon komandirindən xəbərsiz mümkün olmayacağını söylədi. “Onda siz komandirə deyin, məni başqası ilə dəyişsin. Mən xidmət keçmək istəyirəm”, – deyə Azər bildirdi. Melniçenko isə belə bir şeyin mümkün olmadığını deyib oradan ayrıldı.

Melniçenko getdikdən sonra Azər bir qədər də fikirləşməli oldu. Axırda bu qənaətə gəldi ki, əgər həftənin birinci günü onu geri çağırmasalar özü qaçıb getsin. “Nə olar, olar. Mən bura əsgərliyə gəlmişəm, yoxsa çörək doğramağa? Çıxıb gedərəm, soruşsalar deyərəm ki, bu cür xidmət ürəyimcə deyil. Nə edəcəklər ki, onsuz da? Həm də çörək işinə həvəsi olan o qədər əsgər var ki. Qoy, kim istəyir, onu da göndərsinlər bura.” Bu fikirləri beynində götür-qoy edərək bazar ertəsini gözləməyi qərarlaşdırdı.

* * *

Bazar ertəsi səhər tezdən bütün əsgərlər kimi özünü səliqəyə salıb sırada yerini tutan Azəri görən batalyon komandiri bir az da təəccüblə, “Halal olsun sənə, əsgər! Vaxt tapıb həm də sırada yer tutursan!”, – deyə onu tərifləyəndə Azər sirrini açmalı oldu. O, “Yoldaş komandir, müraciət etmək olar?”, – deyə icazə istədi. komandir də öz növbəsində, “Olar!”, – deyə cavab verincə, Azər yeməkxanadan ayrıldığını söylədi. Bu isə komandirin həm marağına həm də təəccübünə səbəb oldu:

– Nə? Necə yəni ayrıldım? Sən xidmət yerini necə özbaşına tərk edə bilərsən? Bəlkə bir problem olub?

– Yox, yox. Heç bir problem yoxdur. Sadəcə bekarçılıqdan bezdim. Mən bura gələndə əsl əsgərlik keçəcəyimi düşünürdüm. Ancaq indi görürəm ki, yeməkxanada çörək doğramaqla məşğulam. Xahiş edirəm, mənə də başqa əsgərlər kimi xidmət keçməyə şərait yaradasınız.

– Xidmət? Elə bu da bir xidmətdir də. Əsgərlər üçün kiminsə çörək doğraması, paylaması da hərbi xidmətin tərkib hissəsidir axı. Həm də bütün əsgərlər orda işləməyə can atır, sən isə qaçırsan. Çox qəribədir.

– Qəribə olacaq nə var ki, burda, yoldaş komandir? Mənim günüm başqa əsgərlər kimi keçmir. Onlar səhər durub idman edirlər, sonra hərbi təlim keçirlər, mənsə ya yeməkxanada oluram, ya da yatıram. Bunun nəyi əsgərlik oldu ki?

– Mən səni anladım, əsgər. İstəmirsən, istəmə. Başqa əsgər göndərərik. Bu gün də yeməkxanada axıra kimi xidmət keç, sabahdan səni başqası əvəz edər.

Komandirin bu məsələyə bu qədər yumşaq və xoş yanaşacağını gözləməyən Azər sevinərək, "Baş üstə!", – deyə cavab verib sıradakı yerində daha da şəstlə dayandı. Deməli, yeməkxanada çörək doğramaq, yağ doğramaq işi bitmişdi. Bundan sonra bütün əsgərlər kimi o da xidmət keçəcəkdi. İndi növbə Əfqanıstan məsələsinə gəlmişdi. Səhər yeməyindən sonra Azər bu fikrini komandirə bildirməyin yollarını düşünməyə başladı.

* * *

Artıq Azərin canı yeməkxanadan qurtarmışdı. Hamı kimi o da səhər tezdən yuxudan durur, idman edir, üst-başını səliqəyə salıb yemək yedikdən sonra təlim üçün yollanırdı. Əsas xidmət yeri texnika parkı idi. Burada maşını, tankı və başqa texnikası olan əsgərlər onlara qulluq edir, Azər və onun

kimi texnikası olmayanlar da yardım edirdilər. Bu xidmət Azərin ürəyincə idi. Ancaq bununla belə düşünürdü ki, tank sürsə heç pis olmazdı. Di gəl ki, sürə bilməzdi. Çünki tank sürmək üçün öncədən altı aylıq xüsusi təlim keçmək lazım idi. Özü də bu təlimi alayda deyil, alaya gələnə qədər başqa bir hərbi hissədə keçirdilər. Tankçıların hamısı həmin təlimi keçdikdən sonra Almaniyaya gəlmişdilər. Müraciət edib təlimə getmək isə mümkün deyildi. Bəlkə də mümkün olardı. Ancaq heç kim belə bir halın baş verdiyini demirdi. Ona görə də tək ümid yeri müraciət edib Əfqanıstana getmək idi.

Azər batalyon komandirinə Əfqanıstan məsələsini deyəndə o, öncə bir qədər duruxdu, sonra gülümsünərək zarafata keçdi. Yəqin Azərin zarafat elədiyini düşünmüş olmalıydı ki, onun müraciətini ciddi qəbul etmirdi. Buna baxmayaraq Azər bir daha və ciddi şəkildə Əfqanıstana göndərilməsi üçün müraciət etmək istədiyini deyəndə komandir məsələnin heç də zarafat olmadığını anladı:

– Əsgər, Əfqanıstanda nə işin var? Məgər buradakı xidmət səni qane etmir? Başqaları Almaniyada xidmət keçməkdən ötrü can atır, sən isə ölümün tüğyan etdiyi Əfqanıstana getmək istəyirsən. Özü də Almaniyadan. Bu iş baş tutan deyil. Uyğun olsa, səndən soruşmadan səni də, məni də, başqalarını da

Əfqanıstana göndərəcəklər. Ancaq könüllü şəkildə buna nail ola bilməzsən. Özünü yorma və bunu unut.

– Yoldaş komandir, axı hər bir Sovet vətəndaşı Sovet vətəninə xidmətini ən məsuliyyətli şəkildə həyata keçirməlidir. Niyə başqa əsgərlərimiz o cür çətinliklər içində xidmət edərkən mənim kimi vətənsevər insanlar onların yanında olmasın? Məgər bizi belə olmağa öyrətməyiblərmi? Məgər bizim hər birimizin hərbi xidməti ən şərəfli şəkildə həyata keçirməyimiz yaxşı olmazmı?

– Olar, niyə olmasın? Ancaq nəzərə al ki, sənin kimi beş milyon Sovet əsgərinin hər biri gündə harasa könüllü getmək istəsə ordu qarışar. Ali rəhbərlik kimi hara göndərəcəyini özü yaxşı bilir. Ehtiyac yaransa hamımız Əfqanıstana gedəcəyik. O cümlədən sən də. Ona görə də bu məsələni unutsan yaxşıdır.

– Yoldaş komandir, icazə verin mən istəyimdən vaz keçməyim. Əgər etirazınız olmasaydı alay komandirinə şəxsən müraciət edərdim. Bəlkə o, necəsə kömək edə bilər?

– Nə bilim? İstəyirsən elə. Ancaq mən bilirəm ki, bu da nəticəsiz olacaq.

Bu söhbətdən sonra Azər alay komandirinə müraciət etməyin yolları haqqında düşünməyə başladı. Sonrakı günlərdə bu məsələni başqa əsgər yoldaşları ilə də müzakirə etdi. Axırda belə qərara gəldi

ki, alay komandiri ilə görüşüb məsələni müzakirə edə bilməyəcəyi üçün ona yazılı müraciət etsin. Elə də etdi. Alayın komandirinə aşağıdakı məzmunda bir müraciət yazıb baş qərargahdakı poçt qutusuna atdı: "Yoldaş alay komandiri. Mən, 3-cü tank batalyonu təchizat vzvodunun əsgəri Həsrətov Azər Hacıqulu oğlu Sovet vətənimə daha yaxşı xidmət etmək üçün sizdən xahiş edirəm ki, hərbi xidmətimi Əfqanıstanda keçmək üçün ora göndərilməyimə şərait yaradasınız. Söz verirəm ki, son damla qanıma kimi vətənimiz və xalqımız naminə sosializmin düşmənləri ilə mübarizə aparacaq, şəxsən sizin və alayımızın şərəfli adını orada da yüksəkdə tutacağam. Ümid edirəm ki, mənim vətənimə daha yaxşı xidmət keçə bilməyim üçün bu müraciətimi müsbət dəyərləndirəcəksiniz"...

* * *

Azərgilin vzvodunda Artamonov soyadlı bir rus balası da vardı. hamı ona "Narkoşa" deyirdi. İçkiyə, siqaretə və hətta uyuşdurucuya meylli olması onun bu adı almasına səbəb olmuşdu. Bir gün Artamonov Azərə yanaşaraq onunla söhbət etmək istədiyini dedi. Azər də əsgər yoldaşının istəyini yerə salmadı və bir kənara çəkilib söhbətə başladılar.

Artamonov Azərin nə üçün Əfqanıstana getmək istəməsi ilə çox maraqlanırdı. Elə özünün də belə bir istəyinin olduğunu, başqa əsgərlərdən onun artıq Əfqanıstan üçün müraciət etdiyini eşitdiyini deyirdi. Azər çəkinmədən belə bir istəyinin olduğunu, əlindən gələni edib Əfqanıstana gedəcəyini deyəndə Artamonov "Sənin də ailəndə problemin var deyəsən", – deyə maraqlandı. Azər isə təəccüblə ona baxaraq "Nə problem? Bunu hardan çıxardın? Ailəmin heç bir problemi yoxdur. Həm də Əfqanıstana getmək üçün adamın ailəsində problem olmalıdır məgər?", – deyə cavab verdi. Artamonov Azərin səsindəki qətiyyətdən anladı ki, o, yalan danışmır. Yəni Azərin ailəsində Artamonovun ailəsində yaşanan problemlər yoxdur. Buna baxmayaraq ürəyini Azərə boşaltmaq fürsətini də əldən vermədi: "Bilirsən, Azər, mən də Əfqanıstana getmək istəyirəm. Bəlkə gedib orda öldüm, canım qurtuldu. Əgər alınmasa burada intihar edəcəm".

– Sovet əsgəri ölmək yox, öldürmək haqqında düşünməlidir! Sənsə durub nağıl danışırsan. Nə baş verib ki, intihar edirsən? Bildiyimə görə burada sənə qarşı heç də kobud davranmırlar. Əsgərlik sənə çətin görünürsə, bundan qorxma, keçib gedəcək. İki ildən sonra evinə dönəndə mənim sözlərimi yadına salarsan.

– Elə mənim istəyim də odur ki, iki il sonra evimizə qayıtmayım. Çünki məni o evdə bu günə kimi yaşadığım bədbəxtliklərin davamı gözləyir. Qayıdıb nə edəcəm ki? Ən yaxşısı Əfqanıstanda qəhrəmancasına həlak olmaqdır. Bu alınmasa elə burda intihar edəcəm, canım qurtulacaq.

– Qulaq as, sənin nə dərdin var ki, ölmək istəyirsən? Hələ bir danış görüm, bəlkə yardımım toxuna bildi.

Bu qısa dialoqdan sonra Artamonov ürəyini boşaltmağa başladı: "Bilirsən, bizim ailəmiz böyükdür. Mən rus olsam da Ukraynada yaşayırıq. Atam çoxdan ölüb. Uşaqların da ən böyüyü mənəm. Anam təzədən ailə qurub. Atalığım da bizimlə yaşayır. Elə dərd də burasındadır ki, bizimlə yaşayır. Əyyaşın biridir. Hər gün araq içir. Elə bir gün olmur ki, onu ayıq görək. Bu cəhənnəmə, içki içəndən sonra sərxoş halda evə gəlib anamı, bizi döyür. Hətta əlindən qaçıb qurtulmasaq öldürmək də istəyir. Neçə dəfə olub ki, balta əlində dalımızca düşüb bizi qovalayıb. Elə qış gecələri olub ki, mən qarda, şaxtada anamla, balaca bacı-qardaşlarımla ağac altında üşüyərək səhəri açmışıq. Bu adama heç kim heç nə edə bilmir. Anam da ki, boşanmır. Boşanmağa qorxur. Çünki atalığım deyir ki, boşansan səni də, uşaqlarını da öldürəcəm. Özü də heç yerdə işləmir. Anamın qazandıqlarını

arağa verir. İndi kim bilir balaca bacı-qardaşlarım ondan nə çəkir? Ona görə də mən bir daha evimizə qayıtmaq istəmirəm. Ölüm, canım qurtulsun".

Artamonovun danışdıqları doğrudan da bir ailənin böyük faciəsindən xəbər verirdi. Ancaq Azər nə edə bilərdi ki? Yalnız Artamonova təsəlli verib onu intihardan daşındırmaq lazım idi. Ukraynadakı bir ailənin işinə qarışmaq Almaniyada xidmət keçən bir Azərbaycan gəncinin işi deyildi. Ona görə də Azər əsgər yoldaşının başına ağıl qoymağa çalışdı: "Sənin hekayətin doğrudan da ürək ağrıdıcıdır. Bizim yerlərdə belə şeylər olmaz. Olsa da o cür kişini kənd camaatı kənddən qovar. Ona görə də nə cür yardım edəcəyimi bilmirəm. Ancaq sənə bir şey deyə bilərəm ki, intihar fikrini başından at. Əfqanıstana da ölmək üçün deyil, vətənə xidmət üçün getmək haqqında düşün. Bilirəm, deyəcəklərim sənin problemini həll etməyəcək, yenə də qulaq as. Özünü topla, yaşamaq, həm də layiqli yaşamaq barədə düşün. Elə et ki, iki il sonra igid bir oğlan kimi evinə qayıdasan. İndi təsəvvür et ki, sən intihar etmisən. Bəs anan, balaca bacı-qardaşların nə olacaq? Onların halına kim yanacaq? Sənin o əzazil atalığın yenə də onları incidəcək. Ona görə də intihar haqqında deyil, evə qayıdıb o adamın əl-ayağını yığışdırmağın yolları haqqında düşün. Belə olsa ən doğrusunu eləmiş olacaqsan".

Artamonov əsgər yoldaşının sözlərini dinlədikdən sonra bir qədər fikrə getdi. Bunun ardından, "Sən düz deyirsən, mən gərək özümü qoruyam ki, evə qayıdıb anamı, bacı-qardaşlarımı onun əlindən qurtaram. Yoxsa mənsiz onların halı daha da pis olar", – deyib Azərə təşəkkür etdi.

Artamonovla söhbət Azərin özünə də ləzzət elədi. Çünki özünü bir ağsaqqal, uzaqgörən insan kimi aparması, kiçik bir söhbətlə gənc bir əsgəri ölümün astanasından qaytarması ona ləzzət eləməyə bilməzdi. Həm də içində bir milli qürur hissi keçirməkdə idi. Bir Azərbaycan oğlu olaraq tanımadığı, bilmədiyi bir rusu ölüm yolundan qaytarması onun üçün gerçəkdən xoş bir hal idi. Onun təlqinlərindən sonra Artamonov artıq özünü öldürmək haqqında deyil, əsgərliyini sağ-salamat başa vurub evinə qayıtmaq, anasına, balaca bacı-qardaşlarına sahib çıxmaq haqqında düşünürdü.

* * *

Günlər artıq hiss edilmədən gəlib keçirdi. Əsgərlik isə günü-gündən maraqlı olmağa başlamışdı. Azər həm Azərbaycanlı, həm də başqa respublikalardan gələn əsgərlərlə qaynayıb-qarışmış, günlərini şən və sağlam bir şəkildə keçirirdi. Yeni xidmət yeri

də xoşuna gəlirdi. Burada istər komandirlər, istərsə də əsgərlərdən özünə qarşı hörmət görürdü. Bu hörmət isə təsadüfi deyildi. Çünki o, həmişə özünün səliqə-sahmanına fikir verir, oturuşunu-duruşunu, yoldaşlarına qarşı davranmasını bilirdi. Zabitlər isə ona həm fiziki imkanlarına, həm də nizamlı olmasına görə çox güvənlə baxırdılar. Elə bu güvənin nəticəsi olaraq 3-cü batalyona gəlişinin dördüncü həftəsində daha bir təyinat aldı. Bu dəfəki təyinat çörək doğrama məsələsindən çox fərqli idi. Həm də elə əsl əsgərə yaraşan təyinat idi.

...Səhər tezdən hər zamankı kimi idman üçün sıraya düzüldülər. İsinmə hərəkətlərindən sonra qaçışa keçdilər. Alayın həyətindən çıxıb atış təlim poliqonuna doğru min beş yüz metr, geriyə də eyni uzunluqda, yəni cəmi üç min metr yolu hər gün olduğu kimi qaçıb kazarmaya qayıtdılar. Burada özlərini səliqəyə saldıqdan sonra həyətə düşüb binanın qarşısında sıraya düzüldülər. Artıq səhər yeməyinə getməli idilər. Bu zaman batalyonun komandiri uca səslə Azərə müraciət etdi. Azər cəld cavab verərək bir addım önə çıxdı. Komandir əmr tonunu aşağı salaraq ona sakit bir səslə yeni vəzifəsini elan etdi:

– Bu gündən başlayaraq batalyonun idman təşkilatçısı vəzifəsinə təyin edilirsən. Mən sənin idmana olan marağını diqqətlə izləmişəm və görürəm

ki, hamıdan fərqli olaraq öz üzərində çox çalışırsan. Həm də sənin fiziki imkanların bu işi ən yaxşı icra edəcəyinə təminat verir. Ona görə də bu gündən başlayaraq yeni vəzifəni icra etməyə başla. İdman zalının açarını qərargahdan götürərsən. İdman zalında bir səliqə yarat ki, əsgərlər məşq edə bilsinlər. Çoxdandır bizim idman təşkilatçımız yox idi.

Komandir Azərə yeni təyinatını izah etdikdən sonra uca səslə batalyon heyətinə müraciət etdi: "Bu gündən etibarən sıravi Həsrətov batalyonun idman təşkilatçısıdır. İdman işləri ilə bağlı bütün məsələlərlə o məşğul olacaq. Hər hansı bir istəyiniz olarsa ona müraciət edin".

Yeni təyinat Azəri həm qürurlandırdı, həm də sevindirdi. Ona görə qürurlandırdı ki, artıq onun fiziki cəhətdən güclü olması rəsmən nəzərə alınmışdı. Ona görə sevindirdi ki, indi ürəkdən sevdiyi bir işlə məşğul olacaqdı. Həm də sərbəstliyi və boş vaxtı da çox olacaqdı. Bu isə onun uşaqlıqdan çox sevdiyi bir məşğuliyyətinə – kitab oxumağa zaman ayırması üçün imkan yaradırdı. Belə əsgərlik artıq onun ürəyincə idi. Düzdür, Əfqanıstan sevdası hələ də onu tərk etmirdi. Ancaq bir şey alınmadığını görüncə günü-gündən istəyi öləziyirdi. Yəni edəcək bir şey olmadığı üçün boşuna ümidlənməkdən vaz keçməkdən başqa yolu yox idi.

Yeni təyinat aldıqdan sonra Azər həm də indikindən daha artıq idmana vaxt ayırmalı, fiziki imkanlarını daha da artırmalı idi. Hər necə olsa da nümunəvi bir əsgər kimi hamıdan çox idmana bağlı olduğunu indi ikiqat sübut etməli idi.

* * *

Səhər yeməyindən sonra kazarmaya qayıtdılar. Əsgərlər adəti üzrə texnika parkına yollanmaq üçün hazırlaşmaqdaykən Azər batalyon qərargahına gedib idman zalının açarını aldı. Bu zal aşağıda olmalıykən üçmərtəbəli binanın dördüncü qatı sayılan çardaqda yerləşirdi. Çardaqda olmasına baxmayaraq yetərincə geniş, işıqlı və yaxşı təchiz olunmuş bir zal idi. Burada ağırlıq qaldırma, boks, yüngül atletika və s. üçün yetərincə avadanlıq var idi. Elə Azərə də bu lazım idi. Hələ orta məktəbdə ikən idmana marağının yüksək olması, sinifdə hamıdan cəld qaçması, yorulmadan məşq etməsi yadına düşdü. Bir də onu xatırladı ki, Sovet İttifaqında qadağan olunan karate ilə məşğul olurdular...

...Hələ altıncı sinifdə oxuyurdular. Bir gün Azərin əmioğlusu Nail Xudatdan bir topa şəkil gətirmişdi. Bu şəkillərdə karate hərəkətləri təsvir edilmişdi. Sırayla nədən başlayıb nədə bitirmək izah

edilirdi. Nail Azərə təklif etmişdi ki, kəndin bir kənarına gedib gizli şəkildə idman etsinlər. Azər də təklifi bəyənmişdi. Beləliklə onlar həmyaşıdlarından kiçik bir qrup düzəldib kəndin gündoğan tərəfində meşənin içindəki yaşıl talaya getmişdilər. Elə ilk gündən həvəslə məşqə başlasalar da bu məşq davam etməmişdi. Çünki təlimatlara görə əvvəlcə qaçışdan başlamalı idilər. Prosesi Nail idarə etdiyindən onun təlimatlarına tabe olmalı idilər. Nail deyirdi ki, Xudatda karate ilə məşğul olan qruplar tanıyır və onlardan bəzi hərəkətləri öyrənib. İndi Azərgil də ondan karate öyrənmək istəyirdilər. Ancaq heyhat. Nail iddia etdiyi qədər deyildi. Məsələ ondadır ki, Nailin həddən artıq kök olması onun bu prosesi idarə etməsinə əngəl olurdu. Elə qaçış dövrələrinə başlamışdılar ki, Nail daha qaça bilməyəcəyini demişdi. Azər də təəccüblə, "əmioğlu, bəs deyirdin bizə də öyrədəcəksən, indi necə olacaq?" deyə soruşanda Nail çox yorulduğunu demişdi. Beləcə onların karate sevdası yarı yolda qalmışdı.

Naillə bağlı Azərin başqa bir maraqlı xatirəsi də vardı. Bir gün ikisi məktəbin yaxınlığındakı qoz ağacının altında oturub söhbət edirmiş. Azərin bir "Desna" markalı velosipedi də varmış. Nailin isə velosipedi yox imiş. Ona görə də Azərdən velosipedini sürmək üçün icazə istəyibmiş. Həm də o, çay

dərəsini keçəcəyini iddia edirmiş. Azər isə ona bu dərəni keçməyin çətin olduğunu, təcrübəsiz birisi kimi Nailin bunu bacarmayacağını deyəndə o, mərc gəlibmiş ki, bacaracaq. Çay dərəsi də normal bir dərə imiş. Daş yol bir tərəfdən eniş, digər tərəfdən də yoxuş imiş. Enişi enmək asan olsa da yoxuş çox dik olduğundan velosipedlə oranı qalxmaq hər oğulun işi deyilmiş. Buna görə də velosipedçilər enişi sürətlə enərmiş ki, yoxuşu da bunun hesabına haqlaya bilsinlər. Əlbəttə ki, təcrübəli velosipedçilər belə edirmiş. Nail isə velosiped sürə bilsə də təcrübəsi yetərli olmadığından bu işi bacarması mümkün deyildi.

Əmioğlular bir manatdan mərcləşir ki, bu velosiped məsələsini həll etsinlər. Nail yoxuşu qalxa bilməsə Azərə bir manat verəcəkmiş. Əks təqdirdə Azər ona bir manat verəcəkmiş. Beləcə Nail velosipedi götürüb dərəyə doğru sürməyə başlayır. Enişi enməyə başlayanda velosipedin sürəti daha da artır və Nail onun idarəetməsini itirir. Azər bir də onu görür ki, düz körpünün yanında Nail təpəsi aşağı velosiped qarışıq çaya düşüb. O, tez özünü yetirib əmioğlusunu sudan çıxarır. Üst-başı lil içində olan, cücə kimi islanan Nail pərt şəkildə sudan çıxır və yaxınlıqdakı bulağa gedib üst-başının palçığını yuyur. Əmioğlusunun bu halını görən Azər ondan uduzduğu bir manatı almaq fikrindən də vaz keçir.

Azərin velosipedlə bağlı daha bir xatirəsi də vardı. Hələ balaca ikən böyüklər üçün olan velosipedi aradan sürürmüş. Bir gün yenə də həmin dərədən keçirmiş. Özü də yağışlı hava imiş. Kənd yolları da ki, belə havada palçıqlı olmasın, nə etsin? Enişi enərkən kəndin cavanlarından olan Ərəstun da öz velosipedi ilə eyni istiqamətdə gedirmiş. Ərəstun qozbel olsa da velosiped sürməyində problem yox idi. Bunu görən Azər ona "gəl görək, dərəni kim birinci çıxacaq", – deyə yarışma təklif edir. Ərəstun da onun bu təklifini qəbul edir və yarışma başlanır. Təbii ki, Ərəstun daha tez tərpənir və bir də yoxuşu qalxandan sonra dönüb geri baxır ki, Azər harda qalıb? Gözlərinə inanmır. Azər yox idi. "Yəni doğrudanmı o, məni ötüb keçə bildi?" – deyə düşünür. O, velosipedi saxlayıb bir də diqqətlə arxaya baxanda görür ki, çayın sol tərəfində, kolların içində bir təkər özü üçün havada fırlanır. Ərəstun tez geri dönür və başı üstə velosiped qarışıq kolların içinə saplanmış Azəri görəndə qəşş edir. Sən demə Azər velosipedin pedalına güc verəndə ayağı sürüşüb və tarazlığını qoruya bilməyərək gəldiyi sürətlə də körpüdən aşağı düşüb. Bu olayda Azər yüngül sıyrıqlarla canını qurtara bilmişdi...

...İdman zalında dayanıb ötənləri xatırlayan Azər birdən fikirdən ayrıldı və görəcəyi işlər haqqın-

da götür-qoy etməyə başladı. İlk qərarı bu oldu ki, bundan sonra səhərlər üç deyil, altı kilometr qaçsın. Bunu necə etməyə gəlincə, düşündü ki, artıq hamıyla birlikdə deyil, ayrılıqda idman etməsi lazımdır. Çünki hamı hər gün səhər ümumi idman hərəkətləri edib üç kilometr qaçmaqla işini bitirir. İdman təşkilatçısı isə onlardan fərqlənməlidir. Ona görə də altı kilometr qaçıb sonra da idman zalında yaxşıca məşq etməlidir ki, yarışlar zamanı əsgərlərin yanında xəcil olmasın. Bundan başqa, idman təşkilatçısı onsuz da özünün nümunəvi idman həvəsi ilə başqalarından ciddi şəkildə fərqlənməlidir. Ona görə də elə günü sabahdan öz idman proqramını icra etməyə qərar verdi.

* * *

Azər növbəti gün səhər erkəndən komanda gözləmədən yatağından qalxdı. Əsgərlərə “Qalx!” komandasının verilməsinə hələ on dəqiqə qalırdı. O, şalvarını və uzunboğaz çəkmələrini geyinib yarıçılpaq vəziyyətdə həyətə düşdü. Təravətli və xoş payız soyuğu bədəninə sığal çəkirmiş kimi onun yatmış ruhunu oyatdı. Azər dərindən nəfəs alaraq elə kazarmanın qapısından dabanına tüpürüb qaçışa yollandı. Alayın həyətini sürətlə keçərək çıxış qapısına yönəldi. Burada keşik çəkən əsgərlər onu saxlamaq

istəsə də idman təşkilatçısı olduğunu, tək məşq etdiyini deyərək onların yanından sürətlə uzaqlaşdı. Qarşıdakı küçəni də sürətlə keçərək üzü meşəyə sarı yol aldı. Qarşıda qalın və yamyaşıl küknar və şam meşəsi vardı. Payız olmasına baxmayaraq hər tərəf yamyaşıl idi. Əsl alman səliqəsi həm təbiətə, həm də onunla iç-içə olan ətrafa hakim kəsilmişdi. Yollar tərtəmiz və dümdüzdü. Yol boyu yaşıllıq və sırayla dikələn ağaclar insanı daha da ruhlandırırdı. Bu gözəllik və təravət içində idmanla məşğul olmağın ayrı ləzzəti vardı. Həm də ətrafda insanın özündən başqa heç bir canlının gözə dəyməməsi adamın həvəsini daha da artırırdı. Elə bil ki, yerin, göyün, təbiətin sahibi sənsən. Düzdür, bir azdan bu sükut pozulacaq, maşınlar, velosipedlər, piyadalar sağa-sola yürüməyə başlayacaqdı. Ancaq hələlik bütün bu gözəlliklər Azərin ixtiyarında idi. Tək başına, ana yurdundan tam beş min kilometr uzaqda kiçik bir alman şəhərində, səhər erkəndən qaçışla məşğul olan bir Azərbaycan oğlu idi o.

Azər hər zamankı qaçış zolağının ötəsinə doğru daha bir o qədər qaçaraq meşənin içinə daldı. Bir qədər də qaçdıqdan sonra şəhərə gələn əsas avtomobil yolunun kənarına yetişdi. Adətən bu yol çox hərəkətli olurdu. Ancaq indi tam bir sükut içində olan, səliqəli, geniş və hamar asfalt ilan kimi qıvrı-

laraq uzanırdı. Bu gözəlliyə daha bir gözəlliyi də yol boyunca əkilmiş ağaclar əlavə edirdi. Bir-birindən eyni aralıqda olan, səliqə ilə göylərə doğru can atan ağaclar da alman dəqiqliyinin bir göstəricisi idi. Azər bu səliqə, dəqiqlik və gözəlliyin tam içində, səhər erkəndən qaçışla məşğul olurdu. Bir yandan təbiətin verdiyi zövq, digər tərəfdən də bu cür şəraitdə özünü əsl insan kimi hiss edə bilməsi onun həyat eşqini birə beş artırırdı. Bu isə ondan xəbər verirdi ki, bundan sonrakı idman məşqləri daha da ürəkaçan olacaqdı.

Azər öncə alayın həyətində, ardından texnika parkına doğru gedən yolda, sonra meşənin içində üç kilometr qaçaraq qalan üç kilometri şəhərə gələn asfalt yolun kənarı ilə davam etdirib kazarmaya yetişdi. Burada artıq əsgərlər yuxudan qalxmış, həyətdə bir az idman etdikdən sonra üç kilometrlik qaçış üçün yollanmışdılar. Azər isə təkbaşına alayın həyətinə gəlib çıxmışdı. Durum belə olunca o, yuxarı qalxıb idman zalını açdı. Bir az dartınma ilə, ardından da ağırlıq qaldırma ilə məşğul oldu. İdman hərəkətlərini boksla bitirmək üçün ona yarım saat vaxt lazım oldu. Bu yarım saatın ardından aşağı enib yatağını səliqəyə saldı, sonra da əl-üzünü yuyub üzünü qırxdı. İndi əsgərlər də idmandan qayıtmışdılar və onlarla birlikdə səhər yeməyi üçün hazırlaşmağa başladı.

* * *

Artıq bir həftə idi ki, Azər idman təşkilatçısı kimi xidmət keçirdi. Mənsub olduğu vzvodun bütün əsgərləri xidmət üçün texnika parkına getdiyi halda, o batalyonda qalıb idman işlərini idarə edirdi. Elə də çətin məsələ deyildi bu. Gününün əsas hissəsini idman etməklə keçirir, ara-sıra da vaxt tapıb kitab və qəzet oxuyurdu. Əsasən rus dilində "Qırmızı ordu" qəzetini alırdı. Bu qəzet SSRİ Müdafiə Nazirliyinin orqanı idi və sayı beş milyonu keçən bütün əsgərlərə gedib çıxırdı. Bundan başqa, Almaniyada Sovet hərbi qoşunları tərəfindən dərc edilən "Sovet ordusu" qəzeti də vardı ki, onu Almaniyadakı bir milyondan çox əsgər və zabit oxuyurdu. Bunlarla bərabər Azər Azərbaycandan gələn "Kommunist", "Azərbaycan gəncləri" qəzetlərini də alırdı. Düzdür, bu qəzetlər bir az gecikmə ilə gəlirdi. Ancaq nə qədər də olmasa vətən həsrətini azacıq yumşaltmaq üçün yetərli olurdu.

Azərin oxuduğu qəzetlər arasında bir qədər təəccüblü olsa da özbək qəzetləri də vardı. Əsgərliyə qədər özbəklərlə heç bir ünsiyyəti olmayan, onların danışığını belə eşitməyən Azərin bu sevgisi hətta digər Azərbaycanlılarda da təəccüb yaradırdı. Onlar bəzən özbəkləri aşağılayan ifadələrlə Azərə irad tu-

tanda o, onların cavabını verir və özbək qəzetlərini oxumağa davam edirdi. Məsələ onda idi ki, bu qəzetlərin dili Azərə çox tanış gəlirdi. Hətta eyni vzvodda birlikdə xidmət etdiyi Ötkirlə də özbək dilində danışmağa çalışırdı. Soruşan olanda da deyirdi ki, bu özbəkcə elə Azərbaycan dili kimi bir şeydir, oxuyan anlayar. Bir tərəfdən idmanla məşğul olmaq, digər tərəfdən də uşaqlıqdan könül verdiyi kitab, qəzet oxumağa bolluca vaxtın varlığı Azərin lap ürəyincə idi. Ona görə də əsgərliyi sürətlə keçib gedir, əvvəlki aylardan fərqli olaraq artıq evə az məktub yazmağa meyllənirdi. İlk aylar az qala hər həftə bir məktub yazırdısa indi bu say ayda bir məktuba bərabər olmağa başlamışdı. Bu isə ondan xəbər verirdi ki, qürbət eldə çəkdiyi həsrət duyğuları yerini əldən verirdi.

Bütün bunlarla bərabər Azəri rahatsız edən bir şey də vardı. Onun əsgər yoldaşlarının demək olar ki, hamısı qarovula təyinat almışdılar. Ancaq nəsə onu hələ qarovula göndərmirdilər. Buna görə də qərara gəldi ki, məsələ ilə bağlı komandirlə danışsın.

* * *

Gizir Melniçenko əsgərlərin həyətə çıxıb sıraya düzülməsini əmr etdi. Bu günkü naryad növbəsi onların batalyonunda idi. Hardasa qırxa qədər əsgər

yeməkxanaya, bir qrup isə qarovula təyin ediləcəkdi. Azər bir neçə gün öncə keçirdiyi düşüncələri yadına salaraq bu gün nəyin bahasına olursa olsun qarovula getmək üçün çalışacağına söz verdi. Ona görə də gizir Melniçenko əsgərlərə təyinatlarını elan edərkən icazə istəyib fikrini ona çatdırdı:

– Yoldaş gizir, xahiş edirəm məni qarovula yazasınız.

– Qarovula? Nə qarovul? Bu məsələ xahişlə olmur. Biz təyin edirik, əsgər də təyinata uyğun xidməti icra edir!

– Üzr istəyirəm, bəlkə də fikrimi çatdıra bilmədim. Əlbəttə ki, doğru deyirsiniz. Mən də bir əsgər olaraq verdiyiniz tapşırıqları yerinə yetirirəm və bundan sonra da yetirməyə hazıram. Ona görə də istərdim ki, ən çətin xidmətə təyinat alım. Qarovula getmək istəyim bununla bağlıdır.

– Hə? Necə olur ki, bütün əsgərlər qarovuldan yayınmaq istəyir, sən isə qarovula getmək fikrindəsən. Bəlkə özünü güllələmək fikrindəsən, hə? İntihar edəcəksən? Yox, olmaz, sən yəqin intihar edəcəksən!

– Yoldaş gizir, nə intihar? Niyə intihar edirəm ki? Mənim ki, heç bir problemim yoxdur. Əsgərliyim çox gözəl keçir, evimizdən də xoş xəbərlər alıram. Niyə intihar etməliyəm axı? Mən, sadəcə, əsl əsgər kimi ən çətin xidmət keçmək istəyirəm.

– Yalan demirsən ki? Birdən məni aldadarsan ha? Yalan demirsənsə, səni bu gün qarovula yazıram. Get görüm, xoşuna gəlirmi?

– Təşəkkür edirəm, yoldaş gizir! Çox sevindirdiniz məni. Yoxsa hamı qarovula gedir, mən isə yox. Lap özümdən şübhələnməyə başlamışdım.

Bu söhbət Azərin sevincini birə-beş artırdı. Az qalsın göylərdə uçurdu. İndi o, əsl əsgərliyin nə olduğunu axır ki, hiss edəcəkdi. Gecə səhərə qədər qorxunc və qaranlıq meşənin içində yerləşən atış təlim sahəsindəki texnika anbarını qoruyanlardan biri də o olacaqdı. Bu gün onun həyatında tarixi bir gün idi.

...Axşamüstü naryada təyinat alan bütün əsgərlər həyətdə toplaşdılar. Komandirlər önə çıxıb uyğun şəkildə özlərinə aid əsgərləri sıradan ayıraraq təyinat yerinə yollanmağa başladılar. Qarovul rəisi də özünə aid olan əsgərlərlə qarovulxanaya yollandı. Azər ilk dəfə qarovula yollanmanın həyəcanı içində əvvəlkindən də şux addımlarla, silahı çiynində, başını qürurla dik tutaraq addımlamağa başladı.

Qarovulxana deyilən yer elə də böyük deyildi. Burada cəmi üç otaq var idi. Bunlardan biri qarovul rəisinin, digəri əsgərlərin idi. Üçüncü otaq isə əslində otaq deyil, ümumi bir yer idi ki, burada qarovuldan qayıdan əsgərlər növbə ilə yata bilərdilər. Yatmaq

üçün ayrılan yataq da iki topçandan ibarət idi. Topçan deyilən yataq, üzərinə nazik bir şey çəkilmiş sərt taxtadan düzəldilmişdi. Bir məntəqədə növbə çəkmək üçün cəmi üç əsgər ayrılmışdı. Bu əsgərlər yalnız başına iki saat qarovulda durur, sonra gəlib dörd saat dincəlir və yenidən qarovula gedirdilər. Bununla da iyirmi dörd saatlıq qarovul gününün səkkiz saatı bir əsgərin payına düşürdü. Qarovulun gündüz hissəsi elə də çətin deyildi. Ancaq gecə hissəsi bir qədər dözüm tələb edirdi. Çünki bu müddət ərzində daha sayıq, ən əsası isə ayıq olmaq lazım idi. Gecələri oyaq keçirmək isə elə də asan deyildi və bu baxımdan Azər özünə söz vermişdi ki, gözünü belə qırpan deyil. Ən azından ona görə ki, ilk dəfə qarovulda olması peşmançılıqla bitməməli, etimadı ən yüksək səviyyədə doğrultmalıydı. O, qərarlı idi. Həm də həyəcanlı idi. Görəsən necə olacaqdı? Gecə növbəsində yuxulamadan qarovul çəkə biləcəkdimi? Özünə inamlı idi. Bilirdi ki, hər zamankı kimi söz verdisə, nəyin bahasına olursa olsun, etibarını sonadək doğrultacaqdı.

Qarovul heyəti yerbəyer olandan sonra rəis əsgərləri postlara bölüşdürdü. Azər ilk qarovulunu atəş-təlim sahəsindəki texnika və sursat saxlancının yanında icra edəcəkdi. Onun ilk növbəsi saat 20-də başlayıb 22-də bitəcəkdi. Bu, elə də çətin bir zaman kəsimi deyildi. Onsuz da həmin vaxtda heç kimin

yuxusu gəlmirdi. Düzdür, qarovul yeri meşənin içində, hər tərəfi qaranlıq bir ərazidə idi. İlk anda adamı vahimə basırdı. Ancaq Azər bu halı adi bir hal kimi qəbul edərək qarovul çəkəcəkdi. Elə çəkdi də.

İki saatın tamamında uzaqdan insan siluetləri sezilməyə başladı. Vaxta nəzarət etdiyindən gələnlərin qarovul növbəsi olduğunu qət etdi və təlimata uyğun davranmaq qərarına gəldi. Dərhal avtomatını çiynindən endirib atəş üçün hazır vəziyyətə gətirdi. Sonra da uca səslə dilləndi:

– Dayan! Kimdir gələn?!

– Qarovul heyətidir!

– Olduğunuz yerdə qalın! Üzünüzü işıqlandırın!

Azərin bu əmrindən sonra qarovul heyətinin rəhbəri olan serjant əlindəki fənəri öz sifətinə tuşladı. Azər onu tanıyınca yenə də uca səslə dilləndi:

– Hərəkəti davam etdirin!

Serjant öndə, arxasınca da iki əsgər Azərə yanaşıb dayandı. O, dərhal ayaqlarını cütləyib hesabat verdi:

– Yoldaş serjant, mənim qarovul xidməti çəkdiyim iki saat ərzində qorunan ərazidə heç bir sıradışı hadisə qeydə alınmayıb!

– Əhsən, əsgər! İndi səni əvəz edərik!

Bundan sonra təhvil-təslim hərəkətləri həyata keçirildi. Və Azərin yerinə yeni əsgər təyin edilərək

onlar qarovulxanaya doğru yollandılar. Beləcə o, rahat nəfəs aldı. İlk qarovulu problemsiz olmuş, sakit bir şəkildə növbəsini çəkib geri dönürdü. Buna həm sevinir, həm də həyəcanlanırdı.

Dörd saat dincəldikdən sonra Azər yenidən posta yollandı. Artıq gecə saat ikiyə qalırdı. Onun növbəsi saat ikidə başlayıb dörddə bitəcəkdi. Əsl yatmalı vaxt idi. Adətən bu saatlarda bütün əsgərlər mışıl-mışıl yatardılar. Azər də həmişə bu saatlarda yatmış olurdu. Ancaq indi qarovula gedirdi. Bu dəfə daha da həyəcanlı idi. Çünki gecənin bu saatlarında yatmamaq çətin olacaqdı. Üstəlik də qaranlığın və meşənin gətirdiyi vahimə hissi var idi. Əslində, bu heç vahimə də deyildi. Bir narahatlıq, daha artıq həyəcan halı vardı.

...O, uyğun şəkildə postu təhvil aldıqdan sonra müşayiətçi heyət onu tək buraxıb oradan uzaqlaşdı. Azər sakit bir şəkildə postun ərazisində var-gəl etməyə başladı. Bir əli avtomatın qundağında, ikinci əli isə lüləsində olmaqla ətrafa diqqətlə baxır, hardasa əlli metr uzunluqda olan bir yerdə o tərəf, bu tərəfə gedib gəlirdi. Beləcə saniyələr dəqiqələrə çevrilir, vaxt axıb gedirdi. Bu minvalla xeyli gəzindi. Canı isinmişdi. Ətraf soyuq olsa da gəzişməsi onun bədənini isitmişdi. Buna görə də bir az dayanıb ayaqlarına istirahət vermək qərarına gəldi. Təbii ki,

istirahəti də ayaq üstə olacaqdı. Bir yerdə dayanıb sağa-sola baxacaq, silahı əlində hazır tutaraq sayıqlığını qoruyacaqdı. Elə belə də etdi. Həm də telefona yaxın bir yerdə mövqe tutdu ki, ehtiyac yaranacağı halda tez zəng edə bilsin. Hardasa beş dəqiqəyə qədər beləcə sakit dayanıb ətrafı seyr etdi. Artıq yavaş-yavaş soyuğu hiss etməkdəydi ki, meşənin qaranlığından səslər duyulmağa başladı. Elə bil ki, bir ağac kökündən qopub yerə sərildi. Özü də bu səs lap yaxından gəlirdi. Qəfil durum dəyişməsi soyuğu və yorğunluğu dərhal unutdurdu və Azər silahını hazır duruma gətirərək səs gələn tərəfə baxmağa başladı. Diqqətlə qulaq kəsilib nə baş verdiyini kəsdirməyə çalışsa da artıq səs kəsilmişdi. Bu halda tez qərar vermək lazım idi. O, ya avtomatdan tək bir atəş açmaqla qarovul heyətini xəbərdar etməli, yaxud da telefonla zəng edərək əlavə yardım çağırmalı idi. Ancaq bu qərarı verməzdən öncə bir daha əmin olmalıydı ki, nəsə baş verir. Ona görə də bir anlığa ayaq saxlayıb diqqətlə səs gələn tərəfə baxmağa başladı. Qaranlıqda bir şey görə bilməsə də səsləri eşitməsi üçün heç bir əngəl yox idi. Təxminən yarım dəqiqə beləcə dinlədikdən sonra meşədə sakitlik olduğuna əminliyi yarandı. Ona görə də əvvəlki kimi gəzişərək qarovula davam etmək qərarı verdi.

Azər sakitcə xidmətə davam etsə də meşədən

gələn məchul səs onda bir az qorxu və həyəcan yarada bilmişdi. Bununla belə o, heç qorxmamış kimi var-gəl edir, bu iki saatın bir an öncə bitməsini arzu edirdi. Özünü toxdadır, meşədən hər cür səs gələ biləcəyinə özünü inandırırdı. Həm də hələ uşaqlıqda başına gələn bir hadisəni xatırlayıb qorxunu yenməyə çalışırdı.

...Azər hardasa altıncı sinifdə oxuyurdu. Böyük qardaşı Abbasqulu üçün kənddə ev tikirdilər. Evin birinci qatı bir il öncə tikilmiş, bu yay da ikinci qatı üçün hazırlıqlar başlamışdı. Kərpic kəsmək üçün nohur tutulmalı idi. Bu nohuru isə traktor və ya ekskavatorla tutmaq olardı. Həmin gün Azərin atası və qardaşları bir tırtıllı traktorla bunun üçün vədələşmişdilər. Ancaq həmin dönəmdə sovxoza aid olan texnikanın işi çox olduğundan traktor yalnız gecə saat 12-də gəlib çıxa bildi. Azər qardaşları ilə birlikdə nohur işinə yardım etməyə başladı. Düzdür, hələ uşaq olması üzündən elə bir yardımı toxunmurdu. Ancaq yenə də özünü kişilərin sırasında sandığından onlar kimi gecə gec saatlara qədər işləyirdi. Artıq traktor işini görməkdəydi. Saat isə ikini göstərirdi. Bu zaman qardaşı Abdulla Azərin onsuz da heç bir iş görməsinə ehtiyac qalmadığını deyərək evə yollanmasını istədi. O, qardaşının bu istəyini həvəslə yerinə yetirmək üçün toplanmağa başladı.

Üst-başı, ayaqları palçıq içində olsa da kefi kök idi. Bir tərəfdən də süd kimi ay işığı ətrafı işıqlandırırdı. Belə günlərdə kənd başqa aləm olurdu. Bir çox insanlar gecə gec saatlara qədər həyətdə oturub çay süfrəsi arxasında söhbət edər, nərd oynayardı. Əsən sərin meh, ay işığı, həşərat və bəzi gecə quşlarının səs-səsə verib oxuması insanda başqa bir ovqat yaradırdı. Ona görə də həmin günlərdə kənddə qanı qara, üzü kədərli heç kimə rast gəlinməzdi. İnsanlar çox sevincli olurdular. Azər də bu əhval-ruhiyyə ilə əşyalarını toplayıb velosipedlə evə yollandı.

Kefi hələ də kök idi. Sakitcə daş yolla evə doğru şütüyürdü. Gedəcəyi yol hardasa iki kilometr olardı. Bu iki kilometrlik yol kəndin əsas küçəsindən keçirdi. O, velosipedin pedallarına basdıqca sağa-sola da baxır, “bir adam varmı?” deyə maraq edirdi. Ancaq kimsə yox idi. Ara-sıra çox uzaqdan it səsləri eşidilirdi. Yaxın ətraf isə sakitlik idi. Bu düşüncələrlə ara yoldan əsas küçəyə çıxan Azər yüz metr getməmiş heç gözləmədiyi halda hücuma məruz qaldı. Kol-kos basmış çəpərin altından çıxan bir it çox boğuq səs çıxaraq onun üzərinə tullandı. Azər vəhşi bir nərə çəkərək ayağını var qüvvəsi ilə pedala basıb velosipedin sürətini mümkün yüksək həddə çatdırdı. Kənddə yaşıdları arasında ən yaxşı velosiped sürənlərdən biri olması onun köməyinə çatmışdı. Beləcə itdən qurtul-

muşdu. Bir də yadında o qalmışdı ki, onun nərəsinin ardından itin çıxdığı çəpərin aid olduğu evdən bir qadın "vaxseyyy!!" deyə çığırmışdı. Azər öz səsindən hətta özü də qorxmuşdu. Görünür, həmin qadın da onun səsini eşitmişdi ki, çığırmışdı.

İtin hücumundan qurtulan Azər ən sürətli bir şəkildə evə gəlib çıxdı. Həyətə girib velosipedi balkonun altında divara söykədi. Sonra arxda ayaqlarını yuyub yataq otağına keçdi. Onun səsinə oyanan anası yataqdan qalxıb Azərə yemək təklif etsə də o, ac olmadığını dedi və dərhal yatmaq istədiyini bildirdi. Anası da uşağın yorğun olduğunu nəzərə alaraq heç bir söz demədən ona xeyirli gecələr arzu edib yatağına qayıtdı.

Azər səksəkə içində yatağa uzansa da yorğun olduğu üçün tez yuxuya getdi. Səhər ayılanda axşam başına gələn əhvalat yadına düşdüsə də özünü o yerə qoymadı. Elə davranmağa başladı ki, sanki heç bir şey olmamışdı. Əsas məqsədi o idi ki, evdəkilər onun başına gələndən xəbər tutmasınlar. Nə qədər olmasa da axı kişi idi. İndi evdəkilərə əhvalatı danışsa onu qorxaq adlandıra bilərdilər. Bu isə onun üçün böyük ayıb olardı. Onların ailəsində, elə kəndlərində də qorxaqlıq yaxşı hal kimi qəbul edilmirdi. Qorxaqlar bir qayda olaraq el arasında başıqapazlı hesab olunurdular. Azərgilin ailəsində

isə başıqapazlı olmamışdı və olması da mümkün deyildi. Elə buna görə də o, qorxunu yenmək üçün yollar axtarmağa başladı. Əslində, başına gələn bir qorxaqlıq hadisəsi deyildi. Ancaq yenə də itin qəfil hücumundan qorxduğu hər halından bəlliydi. Ona görə də həmin qorxu anlarını bir daha yaşamamaq üçün o, elə bir üsul tapmaq istəyirdi ki, həyatda bir daha başına belə bir iş gəlməsin.

Həmin gecə baş verən hadisə Azərə bir şeyi aydınlatmışdı: hər an, hər şəraitdə qəfil hücum gözləniləndir! Deməli, insan həyatda heç də hər zaman sakit və rahat yaşaya bilməz. Bir də gördün heç ağlına gəlməyən bir yerdən sənə bir zərbə dəydi. Bu cür zərbələrdən qorxmamalı, əksinə, belə zərbələrin arabir baş verməsini gözləməli ki, çətinliklərə hazır olasan.

Bu cür düşüncələrlə Azər onu qorxudan olayın etkisini üzərindən atmağın yolunu tapdı. Hər axşam hava qaralandan sonra həmin yerdən o tərəf, bu tərəfə keçəcəkdi. Həm də ta o vaxta kimi ki, oradan keçəndə ürəyi titrəməsin. Sakit bir şəkildə, gecənin qaranlığında oradan rahat keçəcəyi an qorxunu yendiyi anlamına gələcəkdi və bununla da qəfil hücum edən xain itin gətirdiyi ani qorxudan birdəfəlik qurtulmuş olacaqdı. Elə belə də etdi. Həmin gündən başlayaraq axşam qaranlığında velosipedinə minib o müdhiş yerdən keçməyə başladı. Evdə hara get-

diyini soruşanda deyirdi ki, qardaşımın həyətinə gedirəm. Baxım görüm, nə var, nə yox. Hətta ona həmin həyətdən bir şey gətirməyi və ya ora bir şey aparmağı tapşıranda da bunu axşama saxlayırdı ki, getmək istəməsə belə məcbur olub oradan keçsin.

Azərin qorxunu yenmə üsulu öz bəhrəsini vermişdi. İlk günlər səksəkə içində oradan keçsə də artıq bir həftə sonra qorxusu azalmış, üçüncü həftəyə keçəndə isə tamamilə aradan qalxmışdı. Bununla da həyatının ilk böyük səksəkəsini atlada bilmişdi o...

Bu düşüncələrlə başını qataraq postdakı vaxtının necə keçdiyini belə hiss etmədi Azər. Bir az keçməmiş artıq onun vaxtı bitmiş, növbəti əsgər postu təhvil almaq üçün gəlmişdi. Növbətçi əsgəri müşayiət edən serjanta hesabat verdikdən sonra o, arxayın bir şəkildə qarovulxanaya yollandı. İlk növbə gecəsi sona çatmışdı. Artıq dörd saatdan sonra bura gələndə səhər açılmış olacaqdı. Bir az keçəndən sonra isə əsgər və zabit heyəti xidmət üçün əraziyə gələcəkdi. Yəni daha qorxmalı bir durumun olması mümkün deyildi.

Azər gecə yüngülvarı bir səksəkə yaşasa da ilk qarovul xidmətindən razı qalmışdı. Sevinirdi. Az qala qanadlanıb uçmaq istəyirdi. Axı komandirlərin etimadını doğrultmuşdu. Həm də göstərmişdi ki, qarovula getməkdə məqsədi heç də gizir Melni-

çenkonun dediyi kimi özünü öldürmək deyil, bir kişi kimi əsl əsgər xidmətinə yararlı olduğunu göstərməkdi. Göstərdi də. İndi daha heç kim onun qarovula getməsini əngəlləməyəcəkdi.

* * *

Günlər bir-birini çox sürətlə əvəz edirdi. Əsgərlik də çox maraqlı olmuşdu. Çoxlu yeni dostlar, yeni tanışların olması bir yandan, onun özünü nizama salması da digər yandan Azərin şad bir əsgərlik keçirməsini təmin etməkdəydi. Üstəlik, evdən gələn məktublardan da belə başa düşürdü ki, ata-anası, qardaş-bacısı sağ-salamatdır. Həyat əsgərlikdə olduğu kimi onun ata yurdunda da öz normal axarında davam edirdi. Bu isə onun daha da şövqlə xidmət keçməsinə səbəb olmaqdaydı. Artıq bir neçə ayı geridə buraxmış, özünə yaxşı çəki-düzən vermiş, zabit və əsgərlər arasında hörmət qazanmışdı. Həm səliqə-sahmanı, həm də ciddiliyi onu hörmətə mindirmişdi. Üstəlik, yenidən komsomola da keçmişdi. Təkrar. İş ondadır ki, əsgərliyə gələndə özüylə komsomol biletini gətirməmişdi. Batalyonun komsomol katibi onun nizam-intizamını, nümunəvi əsgər olmasını gördüyündən nə əcəb komsomola keçmədiyini soruşanda Azər artıq orta məktəbdən

komsomol üzvü olduğunu demişdi. Bu da komsomol katibini sevindirmişdi. Ondan komsomol biletini istəyəndə gətirmədiyini, lazımsa məktub yazıb evdən istəyə biləcəyini demişdi. Komsomol katibi isə buna gərək olmadığını, onu yenidən komsomola üzv edəcəklərini demiş və Azər həyatında ikinci dəfə komsomola üzv olmuşdu.

Komsomolçu, idman təşkilatçısı, nümunəvi əsgər. Bütün bunlar onun özünü sevindirdiyi qədər evdəkiləri də sevindirməyə bilməzdi. Ancaq Azərin xəbəri olmayan bir olay da baş verməkdə idi ki, bu haqda ona gələn məktublarda heç nə deyilmirdi...

* * *

Azərgilin alayı bütün Sovet qoşunları kimi 23 fevral bayramını qarşılamağa hazırlaşırdı. SSRİ dönəmində Sovet Ordusu və Hərbi Dəniz Donanması Günü kimi qeyd edilən bu bayram əsgərlər üçün doğrudan da çox arzu olunan bir gün idi. Həmin gün əsgərlər sərbəst olur, alayın həyətində idman yarışları, şənliklər təşkil edilir, yeməklərə alışılmamış əlavələr edilir, bir sözlə əsl bayram yaşanırdı. Ancaq bütün bunların baş tutması üçün əvvəlcədən hazırlıqlar görülürdü və bu prosesdə bütün əsgərlər həvəslə iştirak edirdilər.

İndi də Azərgilin alayında bir bayram öncəsi hərəkətliliyi var idi. Onun da kefi kök idi. Axı əsgərlərin bayramı idi...

* * *

Dədəli kəndində bir bəd xəbər kabus kimi dolaşmaqdaydı. Hamı bir-birinə deyirdi ki, Hacıqulunun durumu ümidsizdir artıq. Həkimlər deyibmiş ki, bunu incitməyin mənası yoxdur. Xərçəng xəstəliyi öz işini görüb. Xəstəxanada yatırmağın da mənası yoxdur. Dərmanlarını vaxtında verin, başının üstündə bir nəfər növbə çəksin. Allaha pənah, nə olar, olar. Ona görə də hamı Hacıqulunun bu gün-sabahlıq olmasını çəkinmədən bir-birinə deyirdi. Evdəkilər onun yanında özlərini şən göstərsələr də otaqdan çıxan kimi sifətlərinin rəngi dəyişir, hönkürüb ağlamaqdan özlərini güclə saxlayırdılar. Həkim elə belə də demişdi: artıq bunun işi allaha qalıb. Bu isə el arasında o anlama gəlirdi ki, əlinizi ondan üzün.

* * *

23 fevral sabahı hamı üçün xoş bir ovqatda açıldı. Bu gün bir saat gec yuxudan qalxdılar. İdman etmək lazım deyildi. Yalnız hər kəs özünü səliqəyə salıb

səhər yeməyinə getməli idi. Azər də hamı kimi yuxudan durub özünü səliqəyə saldı. Üzünü qırxıb üst-başını tənzimləyəndən sonra aşağı enib sırada yerini tutdu. Hamı kimi onun da kefi kök idi. Sevinirdi. Axı bayram idi. Səhər yeməyindən sonra hələ gün boyu əyləncə və yarışlar olacaqdı. Nə isə, bu səhər onlar üçün ən arzu olunan günlərdən birinin səhəri idi.

Səhər yeməyindən sonra alayın zabit və əsgər heyəti meydanda toplaşdı. Qaydalar çərçivəsində bayram təbrikləri səsləndi. Ardından da rəsmi keçid oldu. Şeypurlar çalınır, əsgərlər uca səslə hərbi nəğmələr oxuyurdu. Hər kəsin kefi kök idi. Azərin də. O, onsuz da sırada addımlarkən ayaqlarını yerə zərblə vurar, hərbi nəğməni hamıdan uca səslə oxuyardı. Bu gün isə bu hərəkətləri daha da şövqlə edirdi. Bayram idi axı.

Ruh yüksəkliyi ilə başlayan gün elə bu cür də sona çatdı. Şəkil çəkdirən kim, idman yarışlarında gücünü sınayan kim, bir küncə çəkilib xatirələri ilə baş-başa qalan kim. Hamı xoşbəxt idi o gün. Azər də həmçinin. Axı fevralın 23-ü idi. 1987-ci il, 23 fevral günü idi o gün...

* * *

23 fevral 1987-ci il. Azərin əsgərlik çəkdiyi Zerbst şəhərindən beş min kilometr uzaqda yerləşən doğma

kəndi Dədəlinin sabahı qara xəbərlə açıldı. Kəndə hay düşdü ki, Hacıqulu keçinib. Hamı bir-birinə xəbər ötürdükcə ətraf kəndlərdən belə qohum-qardaş, dost-tanış yığışmağa başladı. Bir saatdan sonra onların həyətində iynə atsan yerə düşməzdi. Artıq bu evdən bir cənazə çıxacaqdı. Həm də uzun illərdir cənazə görməyən, səs-küylü, xoşbəxt bir ailənin başçısı onları tərk edirdi. Əbədilik özü də. Həmişəlik. Bir daha dönməmək üzrə son yolçuluğuna çıxırdı o.

Adamlar arasında bir də Azərin söhbəti gedirdi. “Bəlkə Azərə xəbər verək?”, – deyə soruşanlar var idi. Ancaq ağsaqqallar belə məsləhət gördülər ki, xəbər verilməsin.

İslam üsulunca cənazə işləmləri tamamlandıqdan sonra əhali qəbiristanlığa doğru yol aldı. Artıq saat üçü keçmişdi. Hava çox soyuq deyildi. Ancaq nə qədər olmasa da qış havası idi. Bir yanda çığırışan arvad-uşaq, bir yanda da özünə qapanan kişilər səssizcə bu prosesdə öz yerini almışdı. Cənazə həyətdən çıxanadək qadınlar onun ardınca getsə də bundan sonrasına izn verilmədi. Kişilər növbə ilə cənazəni çiyinlərində daşıyaraq Hacıqulunu son mənzilə apardılar...

...Həmin anlarda Azər bir Sovet əsgəri kimi Zerbst şəhərindəki hərbi hissənin meydanında şövqlə addımlayır, ən yüksək səslə əsgər marşları oxu-

yurdu. Bir evin ən böyüyü ilə ən kiçiyi bir-birindən beş min kilometr uzaqlıqda yol gedirdilər. Onlardan biri qohum-qardaşın çiyinlərində cəmi iki kilometr aralıdakı son mənzilinə gedirdi. Bu, evin böyüyü idi. Digəri isə gəncliyinin ən çılğın günlərini yaşamaqla hərbi addımlarla gələcəyə addımlayırdı. Bir tərəfdə həyat bitirdi. Digər tərəfdə isə şövqlə davam edirdi. Azərgilin evində mollalar Hacıqulunun cənazəsi üstündə dua oxuyurdu. Azər isə əsgər sırasında hərbi marş ifa edirdi. O, atasının ölüm günündə oxuyurdu. Həvəslə, şövqlə, ən uca səslə oxuyurdu...

* * *

– Eşitdin alə? Ermənilərlə müharibə var bu gün. Axşamüstü poçtun yanında dava olacaq.

Bu xəbər bir anda bütün Azərbaycanlı əsgərlərin arasında yayıldı. Ermənilərlə ara-sıra çatışmalar olurdusa da bu, müharibə həddinə gəlib çıxmırdı. Ancaq indi elə bir şərait yaranmışdı ki, ermənilərin burnunu ovmaq lazım idi. Ona görə də Azərbaycan millət başçıları qərara gəlmişdi ki, ermənilərə rəsmən müharibə elan etsinlər. Belə şey burada adi hal idi. Əvvəllər də bir neçə dəfə belə müharibə olmuşdu. Ancaq o müharibələr hələ Azərgil əsgərlikdə yoxkən olmuşdu. İndi isə onların ilk müharibəsi baş tutacaqdı. Lakin əsgərlər arasında bu müharibənin

baş tutacağına şübhə edənlər də az deyildi. Xüsusən də erməniləri yaxşı tanıyanlar deyirdi ki, onlar müharibədən qaçacaqlar. Çünki sayca az olmaları, üstəlik də qorxaq xislətləri üzündən onlar həmişə açıq qarşıdurmadan yayınırmışlar. Elədikləri də yalnız komandirlərə yaltaqlanmaq, öz əsgər yoldaşları haqqında xəbərçilik idi. Azərbaycanlılarda və digər Qafqazlılarda olan kişilik, mərdlik duyğuları onlarda olmadığı üçün açıq müharibəyə gəlmələri də şübhəli məsələ idi. Ancaq təəccüblüsü o idi ki, ermənilər müharibə çağırışını qəbul edib deyilən saatda deyilən yerdə olacaqlarına söz vermişdilər.

...Axşama doğru hər kəs hazırlıqlı şəkildə gözləməkdəykən ermənilərin elçisi özünü təngənəfəs yetirib millət başçısı ilə görüşmək istədiyini deyəndə Azərbaycanlı əsgərlər bir az da təəccübləndilər. Sən demə erməni elçisi barışıq təklifi üçün gəlibmiş. Dediyinə görə, öz aralarında belə qərara gəliblər ki, Azərbaycandan olan əsgərlər də onlar kimi Qafqazlıdır və başqa millətlərə qarşı birlik lazım olduğu halda niyə öz aramızda müharibə edək?

“Bizim bir-birimizi dəstəkləməyimiz doğru olmazmı? Axı biz hamımız yerliyik, Qafqazlıyıq”, – deyən erməni elçi qəti şəkildə müharibədən yana olmadıqlarını deyib ayrıldı. Beləliklə də ermənilərlə baş tutacaq savaş onların bicliyi və qorxaqlığı üzündən

ləğv edildi. Halbuki müharibəyə qədər adda-budda ermənilər Azərbaycanlı əsgərləri araya salıb qorxutmağa çalışırdılar. Sonra görəndə ki, millətin hamısı onların dərsini verəcək, Qafqazlı və həmyerli olduqları yadlarına düşmüşdü.

Ancaq bu müharibə baş tutsaydı ermənilərin vəziyyəti çox pis olacaqdı. Çünki Azərbaycanlıların sayı səksəni aşırdı. Ermənilərin sayı isə heç əlliyə də çatmırdı. Belə olan halda təbii ki, onlar azlıqda qaldıqlarını anladıqlarından barış elçisi göndərmişdilər. Azərbaycanlılar da hər zamankı kimi ürəyi yumşaqlıq göstərib onların bu təklifini qəbul etmişdi. Düzdür, ermənilər sonrakı dönəmlərdə doğrudan da Azərbaycanlılara qarşı açıq şəkildə heç bir hərəkət etmədilər. Hətta bir neçə dəfə başqa millətlərlə dava düşəndə Azərbaycanlıların tərəfini də tutmuşdular. Ağlı kəsənlər başa düşürdü ki, bu cür davranış onların sayının azlığı ilə bağlıdır. Ermənilərin sayı bir nəfər belə çox olsaydı, kim bilir Azərbaycanlıların başına nə oyun gətirərdilər. Ancaq xoşbəxtlikdən həmişəki kimi sayları az idi və ona görə də Azərbaycanlılarla "həmyerli" olduqlarını "unutmurdular".

* * *

Əsgərlik maraqlı keçirdi. Həm də çox hərəkətli idi. Darıxmağa heç zaman qalmırdı. Günlər həftələri,

həftələr də sürətlə ayları haqlayır, zaman su kimi axıb gedirdi. Artıq yaz çağırışının zamanı gəlib çatmışdı. Bu isə o demək idi ki, hərbi hissənin xidmət müddəti bitən əsgərləri evə dönəcək, onların yerinə yeniləri gələcəkdi. Azərbaycan millət başçısı Rövşənin da zamanı bitmişdi. Artıq o, hazırlıq durumunda idi və bir an öncə evə buraxılmasını gözləyirdi. Qaydaya görə millət başçısı tərxis olunmazdan öncə yeni başçı seçilməliydi. Bu dəfə seçim üçün elə də geniş imkan yox idi. Rövşəngildən sonrakı çağırışa aid Azərbaycanlı əsgərlərin sayı cəmi üç nəfər idi. Onların arasında nisbətən gözə dəyəni Gəncəli Nizami idi. Azərlə bir vzvodda xidmət keçən Balakənli Vaqif də eyni çağırışa aid idi. Ancaq onun millət başçısı olacağı real görünmürdü. Üçüncü bir əsgər, Qaraçöplü Zakir də eyni qaydada iddialı deyildi və bu baxımdan Nizaminin önü büsbütün açıq idi. Elə hamı da onun növbəti millət başçısı olacağını düşünürdü. Bu düşüncə az sonra özünü doğruldacaqdı.

* * *

Qaydası üzrə yenə də Şənbə günü axşama doğru Azərbaycanlılar hamamın arxasındakı ərazidə toplaşdılar. Hər zamankı kimi hər iki tərəfdə qarovulçular qoyuldu. Bunlar yenə də toplantı yerindən xeyli

aralıda, diqqət çəkməyəcək şəkildə növbə tuturdular. Yenə də həmişə olduğu kimi bir təhlükə hiss edilsə dərhal toplantı yerinə daha yaxın olan qarovulçuya işarə ediləcək, o isə öz növbəsində qatılımçılara xəbər verəcəkdi. Toplantı yerinin böyük və iki tərəfdən açıq olması da oradan sivişib çıxmaq üçün imkan verirdi. Həm işlərini ehtiyatlı tutmaları, həm də millətin birliyi bu toplantıların yerinin bu günədək hələ də gizli qalmasına səbəb olmuşdu. Düzdür, alay komandiri də daxil olmaqla rəhbərlik hələ də Azərbaycanlıların nəsə bir şey etdiyindən şübhələnirdi. Ancaq bunu təsdiq etmək üçün əllərində heç bir dəlil yox idi. Hər kəs millətin özəl sirlərini yetərincə möhkəm qoruduğundan kimsə onların nə etdiyini bilmirdi.

...Millət başçısı Rövşən artıq evə getməyə hazırlaşdığını, buna görə də onu əvəz edəcək şəxsin müəyyənləşdirilməsinin vacibliyini bildirdi. "Bilirsiniz, zaman gəldi keçdi, indi evə gedirik. Bizdən öncəkilər milləti bizə əmanət etdiyi kimi mən də hər kəsi sağ-salamat əmanət etmək istəyirəm. Ona görə də istərdim ki, millət üçün yeni başçı seçək", – deyə sözə başlayan Rövşən, artıq namizədlə bağlı müəyyən fikirlərinin olduğunu da diqqətə çatdırdı: "Millət başçısının müavini də daxil olmaqla biz bir neçə nəfərlə məsləhətləşmişik. Bizdən sonra evə hazırlaşacaq cəmi üç əsgərimiz var. Onlardan ikisi-

nin millət başçısı olmağa iddiası yoxdur. Yalnız biri bu vəzifəni icra etməyə hazırdır. Əgər yığıncaq izn versə onun adını açıqlardıq".

Təbii ki, özündən sonrakı namizədi millət başçısının təklif etməsi bir ənənə halı aldığı üçün toplantı iştirakçıları Rövşəndən fikirlərini sonadək səsləndirməsini istədi. O da öz növbəsində başçı məsələsi ilə bağlı çox götür-qoy etdiklərini, Gəncəli Nizaminin üzərində dayandıqlarını dedi. Onsuz da seçim imkanı geniş deyildi və üstəlik digər iki şəxsin iddiası yox idi. Bu baxımdan Nizaminin namizədliyi məsələsində fikir ayrılığı ortaya çıxmayınca yığıncaq onun növbəti millət başçısı olmasına qərar verdi. Artıq o, elə günü sabahdan vəzifəsinin icrasına başlaya bilərdi.

* * *

Rövşənin tərxis olunması, Nizaminin millət başçısı kimi vəzifəyə başlaması hərbi hissədə Azərbaycanlılar üçün yeni şəraitin yaranmasına səbəb olmuşdu. Hər şeydən əvvəl növbəti payız çağırışında tərxis olunması gözlənən üç Azərbaycanlının evə əli dolu gedə bilməsi üçün tədarük görülməli idi. Bu isə o demək idi ki, digər Azərbaycanlı əsgərlər öz maaşlarından bəlli bir hissəni onlara verməliydi. Pulun toplanması işinə millət başçısı baxırdı. Bütün əsgərlər

maaş aldıqdan dərhal sonra ona yanaşaraq pulu verirdilər. Qaydalara görə o da pulu tərxis olunmağa hazırlaşan əsgərlər arasında bərabər şəkildə bölməli idi. Yəni indiki halda toplanan pullar üç nəfər arasında bölünməli idi. Məhz bu niyyətlə də Azər və dostları maaşlarının bir hissəsini Nizamiyə vermişdilər. Ancaq, deyəsən bu dəfə işə haram qatılmışdı. Toplanan pullar bərabər bölünmürdü. Daha doğrusu, heç bölünmürdü deyəsən. Çünki Azərlə eyni vzvodda xidmət keçən və payızda tərxis olunacaq Vaqifə bir quruş da verilməmişdi. Azər bu durumu belə görüncə məsələyə müdaxilə etmək qərarına gəldi. O, Nizamidən niyə belə etdiyini soruşunca, millət başçısı bu cür məsələlərə başqasının qarışmağa haqqının olmadığını, bir başçı olaraq hər şeyi özünün həll etdiyini dedi. Bu isə Azəri özündən çıxarmaya bilməzdi. Ona görə də açıq şəkildə bundan sonra ona bir quruş belə verməyəcəyini deyib Nizamidən ayrıldı.

Nizami ilə söhbətdən sonra Azər digər əsgər dostları ilə bir araya gələrək olanları onlara da anlatdı. Ziyəddin, Abdurahman, Ağdamlı Nizami, Arzu və Dərbəndli Baba belə olan halda Azərin bundan sonra millət başçısına pul verməmək haqqında təklifinə razı oldu. Azər həm də onu təklif etdi ki, bundan sonra onlar pullarını yığıb Balakənli Vaqifə versinlər ki, o da evinə əliboş getməsin.

...Artıq ay tamam olanda dostlar maaşlarını alıb danışdıqları kimi pulun bir qismini Vaqifə verdilər. Millət başçısı Nizami isə Azərdən gözləməsə də digərlərindən pul gözləməkdəydi. Aradan bir-iki gün keçsə də pulu görməyən Nizami adam göndərib uşaqların ödəməni həyata keçirməsini istəyəndə, onlar açıq şəkildə bildirdilər ki, bundan sonra pullarını birbaşa Vaqifə verəcəklər. Bu isə Nizamini cin atına mindirməyə bilməzdi. Ancaq Vaqifə qarşı açıq ədalətsizlik etdiyi üçün məsələni millət yığıncağına da çıxarmaq mümkün deyildi. Çünki müzakirə açılacağı təqdirdə onun haqsız olduğu sübut ediləcəkdi və bu da o demək idi ki, millət bundan sonra ona çətin ki, qulaq asardı. Durum belə olunca Nizami çıxış yolunu qarayaxma və qorxutma üsulunda gördü.

...Bu pul məsələsi o qədər dərinə işlədi ki, artıq Nizami və ətrafındakılar Azərlə dostlarına ilişmək üçün ən xırda bəhanə belə axtarmağa başladılar. Ancaq hər nə qədər edirdilərsə bu bəhanəni tapa bilmirdilər. Hətta uydurub sağa-sola yaymağa başladıqları bəhanələr də heç bir fayda vermirdi. Çünki onların dediklərinə bir nəfər inananda beşi inanmırdı. Belə olan halda Nizaminin onları millət yığıncağında cəzalandırması üçün imkan da yaranmırdı. Ancaq buna baxmayaraq o və ətrafı təkidlə Azəri və dostlarını cəzalandırmağa çalışırdılar.

...Bir dəfə millət yığıncağında bəlli oldu ki, Azərin dostlarından olan Gədəbəyli Arzu qaydaları pozub və cəzalandırılmalıdır. Məsələnin mahiyyəti elan ediləndə bəlli oldu ki, Arzu xidmət keçdiyi bölmədəki baş leytenantın körpə uşağını arabada gəzdiribmiş. Təbii ki, Azərbaycanlı əsgərlərin zabitlərə qarşı bu cür davranması qəbul edilən deyildi və Arzu cəzasız qala bilməzdi. Ancaq burada bir fərqli cəhət də var idi ki, millət yığıncağına başçılıq edənlər onu heç cür nəzərə almaq istəmirdilər. Məsələ ondadır ki, Arzu uşağını arabada gəzdirdiyi zabitlə çox yaxın dost idi və körpəni də özü istəyərək gəzdiribmiş. Özü də təkbaşına deyil, həmin zabitlə birlikdə, söhbət edə-edə hərbi hissənin həyətində gəzişirmişlər və bu zaman Arzu zabitdən uşağın arabasını alıb bir az sürübmüş. Yəni burada onun zabit tərəfindən alçaldılması və ya hansısa uyğunsuz işə məcbur edilməsindən söhbət gedə bilməzdi. Arzu sadəcə dostunun uşağıyla bir az oynamış, onu gəzdirmişdi və bu da normal hal idi. Ancaq Gəncəli Nizami və ətrafındakılar Arzunun da döyülməsi üçün bəhanə gəzdiklərindən onun açıqlamalarını qulaq ardına vurdular və sonda Arzu ortaya salınaraq döyüldü. Bu isə onun dostlarının haqlı narazılığına səbəb olunca onlar etiraz əlaməti olaraq millət yığıncağını tərk etdilər. Artıq əsgərliyə gəldiklərindən bəri ilk dəfə idi ki, bu cür açıq etiraz

edirdilər. Təbii ki, Gəncəli Nizami və dəstəsi durumun belə inkişafına hazır deyildi və sonrakı günlərdə onun təhdidlərinin artmasını gözləmək lazım idi.

Nizaminin millət başçısı adına etdikləri və edəcəkləri özünü çox gözlətmədi. Bir gün bəlli oldu ki, hamı işdə-gücdə ikən o və daha bir neçə nəfər Ağdamlı Nizami ilə Ziyəddini cəzalandırıblar. Hətta bunun üçün sıradışı millət yığıncağı da keçiriblərmiş. Özü də millətin çoxunun bundan xəbəri olmadan. Günün günorta çağı keçirilən toplantıda Ağdamlı Nizami ilə Ziyəddinə heç xəbərləri olmayan bir günah elan edilib və onları ortaya salıb təpikləyiblərmiş. Təbii ki, azlıqda olduqları üçün onlar da bir şey edə bilməyibmiş. Millət başçısı Nizami bu yolla Azərlə birlikdə olan əsgərlərdən üçünü cəzalandırmış olurdu. Yerdə qalanlar Azərin özü, Abdurahman, Dərbəndli Baba və Elbrus idi. Bu gedişlə növbə onlara da çata bilərdi. Ancaq Azər hər şeyi hər kəsin yanında çəkinmədən deyə bildiyi üçün onu cəzalandırmağa ciddi əsaslar olmalıydı ki, Nizami və dəstəsi bu əsasları icad etməklə məşğul idi.

...Hərbi hissədə söz gəzməyə başladı ki, Azər həyət süpürməklə məşğuldur. Bir neçə gün sonra da söz çıxdı ki, o, yeməkxanada naryadda olduğu zaman qab yuyurmuş. Hətta dizlərini yerə atıb döşəmə sildiyini də deyirdilər. Guya millətin qadağan etdiyi

bütün işləri Azər çəkinmədən görürmüş və bunu da qorxusundan edirmiş. Şayiələrə görə, Azər qorxağın biri imiş. Hətta ondan satqınlıq da gözləmək olarmış. “Yekə-yekə danışmasına baxmayın, qorxağın biridir. Kim bilir, bəlkə də milləti hərbi hissə rəhbərliyinə satır. Ona görə də özünə arxayındır”, – kimi sözlər yavaş-yavaş onun öz qulağına da gəlib çatırdı. Azər ilk günlər bu yalanları gülüşlə qarşılasa da sonra anladı ki, kimlərsə ona qarşı çox ciddi bir kampaniya aparmaqdadır və bu kampaniya heç də yaxşı sonuc verən deyil. Və araşdırma aparmağa qərar verdi. Hər necə olmasa da şayiənin qaynağını tapıb üzünə tüpürmək, onu millət qarşısında rəzil etmək lazım idi ki, bu cür əməllərindən əl çəksin. Elə bu düşüncəylə də bütün əsgər yoldaşlarına xəbər yaydı ki, əgər kiminsə onunla bağlı sözü varsa, buyurub üzünə desin. Doğrudan da deyilənlər təsdiq ediləcəyi təqdirdə üzr istəyərək ən ağır cəzanı qəbul edəcəyini də bildirən Azər bir neçə gün gözləsə də heç kimdən səs çıxmadı. Düzdür, arxada pıçapıç edənlər öz əməllərinə davam edirdilər. Ancaq bununla belə kimsə kişi kimi ortaya çıxıb arxada danışdıqlarını onun üzünə demirdi.

Lakin bir gün belə birisi tapıldı. Hərbi hissədə qulluq keçən iki Tovuzlu əsgərdən biri açıq şəkildə onun haqqındakı şayiələri dilə gətirdi. Həm də bu əsgərlərin Gəncəli Nizaminin ətrafında olması onla-

rın belə cəsarətlənməsinə səbəb olmuşdu. Nə qədər də olmasa millət başçısına arxalanmağın bir faydası vardı. Belə olan surətdə yalan olsa da söylənən sözə görə cəzadan qurtulmaq mümkün idi...

Bir axşamüstü hər zamankı kimi yeməkxanaya yollandılar. Yeməkxananın pillələrinin başında dayanan Tovuzlu əsgərlərdən biri Azərə atmaca atarcasına nəsə donquldandı. Azər onun nə dediyini sezmişdi. Bu sözlər ona heç də yabançı gəlmədi. Günlərdir onun haqqında hərbi hissədə dolaşan sözləri indi birisi axır ki, şəxsən özünə deyirdi. Bu, bir yandan Azəri sevindirsə də, digər yandan onun əsəbləşməsinə səbəb oldu. Çünki həmin əsgər bu sözləri bir qədər yüksək səslə, hamının eşidə biləcəyi şəkildə dedi və təbii ki, ətrafdakı Azərbaycanlı əsgərlərin diqqəti buna yönəlməyə bilməzdi. Durum belə olunca, Azər həmin əsgərdən dediklərini sübut edə biləcəyini soruşdu. O isə öz növbəsində cavab verdi ki, "hamı belə danışırsa, deməli ortada nəsə var". Azər bu dəfə o hamının konkret olaraq kim olduğunu soruşduğunda, əsgər yenə də ümumi cavab verərək yaxasını qurtarmağa çalışdı. Ancaq Tovuzlu gənc deyəsən başa düşdü ki, bundan qurtuluş yoxdur. Ona görə də araya söz qatmağa çalışdı. Bu isə Azəri daha da özündən çıxardı və o, son dəfə deyilənləri sübut etmək tələbini səsləndirdi. Təbii ki, başqa əsgərlərin

qarşısında xəcil olacağını görən əsgər, özünə haqq qazandırmağa çalışdı. Bu zaman Azər ağır bir söyüşlə onun üzərinə yeriyərək vurmaq istəyəndə digər əsgərlər araya girdilər. Davanın qarşısı alınsa da, Azər imkandan istifadə edib bütün əsgərlərə müraciətlə, "əgər bu şayiələri təsdiq edəcək bir nəfər varsa, üzə çıxsın, göstərsin, sübut etsin ki, mən harda nə iş görmüşəm", – deyərək sözünü tamamladı. Araya bir anlığa sükut çökdü. Əsgərlər bir-birinə baxaraq yemək masalarına doğru dağıldılar. Elə bu söhbət də Azərlə bağlı şayiələrin sona çatmasına səbəb oldu. Sonrakı günlərdə şayiələri dövriyyəyə buraxanların da kimliyi bəlli oldu. Ancaq Azər artıq işini görmüşdü və buna görə də onlara bənd olmadı. Nahaq demirlər ki, yalan ayaq tutar, yeriməz. İndi də belə olmuşdu. Onun haqqında söylənən yalanlar ayaq tutsa da yeriməmişdi.

Artıq bu dedi-qodu sona çatdığı üçün Azərin başqa problemi qalmamışdı. Millətin hər bir fərdi ilə münasibətləri yoluna düşmüş, onun haqqında şayiə yayanlar payını almış, əməllərinin ayaq tutub yeriyə bilməyəcəyini gördükləri üçün bu işdən əl çəkmişdilər. Əslində, bu halın baş verməsi bir yandan onun özü üçün də yaxşı olmuşdu. O, özünün tək başına, heç kimdən çəkinmədən və heç kimlə hesablaşmadan vəziyyətdən çıxa biləcəyini daha bir dəfə

sübut etmiş, bununla da əsgər yoldaşları arasında mövqeləri möhkəmlənmişdi.

* * *

Artıq daha bir payız qapını kəsdirmişdi. Havalar getdikcə soyuyur, günlər qısalır, təbiətin yaşılı öz yerini sarıya və qızılı rəngə verirdi. Almaniyanın bu kiçik bölgəsində ətraf möcüzəli şəkildə hər gün dəyişirdi. Həm də bu dəyişiklik özüylə bir gözəllik də gətirirdi. Dünən yamyaşıl gördüyün ağac bu gün bir az saralır, iki gün sonra isə sap-sarı rəng alırdı. Azacıq meh əsəndə isə həmin sarı yarpaqlar Azərin vətənində Qubalı qızların toxuduğu xalı kimi ayaqlar altına sərilib ətrafa başqa bir gözəllik verirdi. Buranın təbiətində heç bir qüsur yox idi. Adi yol kənarında əkilən ağaclar belə o qədər nizamla düzülmüşdülər ki, hətta yarpaqları töküləndə də öz gözəlliklərini qoruyub saxlaya bilirdilər. Adama elə gəlirdi ki, saralmış yarpaqlar da nizamlı şəkildə, bir komandayla ağacdan yerə düşür, yerə düşdükdən sonra isə eyni nizamla torpaq üstündə öz yerlərini alırdılar. İnsan yerə düşmüş yarpaqları belə ayaqlamağa ürək eləmirdi. Azər də yerdəki yarpaqları görəndə onların nizamını poza biləcəyini düşündüyündən mümkün qədər təmiz yerlərlə hərəkət etməyə çalışırdı. O, necə

ki, bu ölkənin qışından, yazından, yayından ürək dolusu həzz ala bilmişdi, payızından da eyni dərəcədə həzz alırdı. Alman payızını seyr etdikcə öz vətənini, doğulub boya-başa çatdığı kəndini göz önünə gətirir, müqayisələr aparırdı. Və çox zaman da məyus olurdu. Çünki onun kəndində, onun ölkəsində burada hər gün gördüyü, yerli insanlar üçün adi sayılan nizam-intizam, səliqə-sahman yox idi. Elə buna görə də hey düşünürdü ki, niyə axı öz yurdunun insanları belə nizam yarada bilmir? Təkrar-təkrar özünə verdiyi bu suala cavabları da olurdu. Hər şeydən öncə ağlına bu gəlirdi ki, almanlar Avropalı olduqları üçün bu qədər səliqəli və nizamlıdırlar. Sonra da düşünürdü ki, bir insanın səliqəli və nizamlı olması üçün Avropalı olmağa gərək varmı? Əsla! Eləyə qalsa Asiyada da çox səliqəli və irəli getmiş millətlər var. Hələ onu da nəzərə almaq lazımdır ki, Azərin də mənsub olduğu xalqın – Azərbaycanlıların tarixi bu mədəni Avropa xalqından qat-qat qədimdir və necə ola bilər ki, daha qədim bir xalq nisbətən cavan xalqdan nizamsız olsun? Üstəlik, Azər hələ uşaqlıqdan öz həyətlərində, evlərində gördüyü səliqə-sahmanı da yadına salırdı. Yaxşı xatırlayırdı ki, həyət-bacanı lap uşaqlıqdan səliqəyə salar, həyətdəki ağacları vaxtında budayar, hər yaz çəpərin dibində yeni çinar ağacları əkərdi. Hətta həmin ağacları əkərkən aralarındakı məsafəni santimetrinədək dəqiq ölçər, düz xətt üzrə ip çəkib

sonra yerə basdırardı ki, ağaclar böyüyəndə sırası nizamlı olsun. Bu Azərin özü idi. Yəni bir Azərbaycanlı olaraq, sən demə, heç də almanlardan az səliqəli sayılmazdı. Qanun-qaydaya əməl etməsinə gəlincə isə, bəlkə də bəzi almanlar ondan örnək ala bilərdilər.

Ancaq Azərbaycanda və Azərbaycanı hələ də öz tərkibində saxlayan Sovet İttifaqında heç də hamı alman xalqı kimi kütləvi şəkildə nizam-intizam tərəfdarı deyildi. Onun vətəndaşı olduğu ölkədə almanların anlamağa çətinlik çəkdiyi rüşvətxorluq, dövlət və xalq malını talama kimi hallar həyat tərzinə çevrilmişdi. Özəlliklə də rusların hegemonluğu altında olan dünyanın bu nəhəng və qorxunc ölkəsində rus olmayanlar daim basqı və zülm altında yaşayır, hər cür aşağılanmaya boyun əyməli olurdular. Rus olmayanların və ya rusla evlənməyənlərin vəzifə tutması, tutarsa rusların cızdığı çərçivədən kənara çıxa bilməsi müzakirə mövzusu belə ola bilməzdi. Bu şərtlər daxilində vəzifə pillələrində irəliləyənlərin də başına sonradan elə oyunlar açardılar ki, onların bütün nəsli qalan ömrünü peşmançılıq və məhrumiyyət içində keçirməli olardı. Ona görə də ən adi insanlar belə yalnız özünü düşünür, evlərindən dışarıda baş verənlərə biganə qalırdılar. Elə ona görə də Azərin ölkəsində Almaniyada müşahidə edilən səliqə-sahman, nizam-intizam yox idi...

Azər bütün bunları müşahidə edib düşüncələrə daldığı zaman 1987-ci il, oktyabr ayının son günləri idi. Həmin günlərdən birində o, dostları ilə birlikdə hərbi hissənin həyətində gəzərkən düz baş qərargahın önündə qurulmuş lövhədə nəsə dəyişikliyin olduğunu fərq etdi. Bu Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvlərinin portretləri asılan lövhə idi. Burada elə bil nəsə çatışmırdı və birdən Azər gördü ki, bir zamanlar Azərbaycan Kommunist Partiyasının rəhbəri kimi respublikaya başçılıq etmiş, sonradan – 1982-ci ildə Moskvaya dəvət edilərək burada SSRİ Nazirlər Kabineti sədrinin müavini vəzifəsinə təyin edilmiş Heydər Əliyevin şəkli lövhədən çıxarılıb. Lakin onun yerinə hələlik heç kimin şəkli asılmadığı üçün yeri boş qalmışdı və elə buna görə də istər-istəməz oradan keçənlərin diqqətini cəlb edirdi. Nə baş verdiyindən xəbəri olmayan Azər məsələni araşdırmaq istəsə də konkret olaraq kimə müraciət edəcəyini bilmirdi. Bununla belə qərara aldı ki, ilk imkanda onun həmvətəni olan bir siyasi başçının şəklinin nə üçün lövhədən çıxarıldığını öyrənsin...

Sonradan bəlli oldu ki, SSRİ-yə başçılıq edən Mixail Qorbaçovun da təşəbbüsü ilə rus olmayan az saylı yüksək vəzifə sahiblərindən biri Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosu üzvlüyündən uzaqlaş-

dırılıb. Hətta belə söhbətlər də gəzirdi ki, onu həbs edəcəklər. Deyilirdi ki, Sov.İKP-nin mərhum baş katibi, Heydər Əliyevin uzun illər SSRİ-yə başçılıq etmiş yaxın dostu Leonid Brejnevin komandasından qalanların hamısı təmizlənir və onlara qarşı əsas ittihamlar rüşvət və ölkə iqtisadiyyatının inkişafı barədə illərlə davam edən saxta hesabatlar vermələridir.

Bütün deyilənlər Azər üçün heç də aydın olmurdu. Çünki o, saxta rəqəmlər, korrupsiya kimi ifadələri anlayacaq qədər dünyagörüşünə sahib deyildi. Saf bir kənd uşağı kimi böyümüş, yalan-palanla heç vaxt işi olmamış, buna görə də hər kəsi, özəlliklə də kommunist rəhbərləri ən dürüst adamlar kimi qəbul edirdi. Ona görə də Heydər Əliyev haqqında deyilənlərin əsaslı olduğunu ağlına yaxın belə buraxa bilmirdi.

Maraqlısı bu idi ki, H.Əliyevin başına gələnlər hərbi hissədəki erməniləri əməlli-başlı sevindirmişdi. Bunu üzə vurmasalar da davranışlarından, orda-burda qımışmalarından anlamaq olurdu ki, bir Azərbaycanlının vəzifədən uzaqlaşdırılması erməniləri əməlli-başlı xoşbəxt edə bilib...

...Həmin payız günlərindən birində, H.Əliyevin vəzifədən uzaqlaşdırıldığı zaman Azərə batalyon komandiri yeni "vəzifə" təklif etdi. Əslində, bu, təklif deyildi, hərbi tapşırıq idi. Sadəcə olaraq, komandirlə

Azərin arasındakı münasibətlər o qədər səmimi idi ki, bir-biriləri ilə hərbiçi kimi deyil, adi mülki vətəndaşlar, iki dost kimi də söhbət edə bilirdilər. Başqa əsgərlərdən fərqli olaraq Azər heç vaxt komandirini görəndə qaçıb gizlənməz, əksinə ona yaxınlaşıb salam verdikdən sonra hal-əhval tutardı. Buna görə də heç bir zabit heç zaman ondan hara getdiyini, nə etdiyini soruşmazdı. Çünki hərbi hissədə bir psixologiya hökm sürürdü ki, əgər əsgər zabiti görəndə qaçıb gizlənirsə, mütləq nəsə fırıldaq işi var və həmin əsgəri tapıb cəzalandırmaq lazımdır. Bunu yaxşı dərk etdiyi üçün Azər də heç bir zabiti görəndə qaçmazdı və xidmət keçdiyi iki il ərzində hətta boş-boş veylləndiyi zaman belə bir dəfə də olsun danlaq eşitməmişdi.

Elə bu ruhda da komandiri ona yeni vəzifəsini elan etdi: “Sən şəhərdə yerləşən bir binamızda ocaqçı vəzifəsinə təyin edilirsən”. Bu isə o deməkdir ki, artıq Azər daha bir sərbəst işə başlayacaqdı. Lakin bəs onun idman təşkilatçılığı nə olacaq? Axı bu iş onun ürəyincə idi və özü də idmana çox həvəs göstərirdi?

Komandiri bu məsələyə də aydınlıq gətirdi: “Sən əlbəttə ki, idman təşkilatçılığını da edəcəksən. Sadəcə bir əsgər kimi əsas tapşırığın dəyişir”.

Ocağın, ocaqçılığın nə olduğunu bilməyən Azər üçün bu yeni iş bir qədər qaranlıq olsa da həvəslə tapşırığı qəbul etdi və hara, nə vaxt gedəcəyini də-

qiqləşdirdi. Bununla da əsgərliyinin ikinci payızında daha fərqli bir işlə məşğul olmağa başladı.

* * *




***Zerbst şəhər qapısı. Azərin əl işi. Əsgərlik gündəliyindən***

Ocaqxana deyilən yer Zerbst şəhərinin mərkəzinə yaxın bir binanın zirzəmisində idi. Bura üç qatlı əski bir bina idi. Almanlara aid olan binanı büsbütün Sovet zabitləri üçün istifadəyə götürmüşdülər. Burada yaşayan zabitlərin hamısı Azərgilin hərbi hissəsində qulluq keçirdilər. Onların arasında üçüncü batalyonun komsomol katibi də var idi. Çox ni-

zamlı bir insan olmaqla bərabər bu gənc komsomolçu bir az haldan anlamaması ilə də diqqət çəkirdi. Hərbi nizamnaməyə əməl edən, qanunlar çərçivəsində yaşayan və hərəkət edən komsomol katibinin bu çərçivədən kənarda heç adi yoldaşlığı da yox idi. Ancaq bütün bunlar Azər üçün problem deyildi. Çünki onun özü də qanunlar çərçivəsində yaşamağı, işləməyi xoşlayırdı və bu baxımdan o cür adamlar ilə problemi olmurdu. Azərin həmin komsomoldan yalnız bir fərqi vardı. O da bundan ibarət idi ki, Azər haldan da anlayırdı və içkiyə, siqaretə meyli olmasa da dostları ilə birlikdə əylənməyi bacarırdı.

...Azər yeni iş yerinə göz gəzdirib nəyi necə edəcəyini, harada yerləşəcəyini götür-qoy edirdi. Əvvəlcə ocaqla tanış oldu. Ona deyəndə ki, ocaqxanada işləyəcəksən, elə bilmişdi ki, nəsə böyük bir qazan və ya ocaq var, tər tökə-tökə orada işləməlidir. İndi baxıb görəndə ki, bu ocaq və ya qazan dedikləri şey cəmi 1.2 metr hündürlüyü olan, vur-tut yarım kvadratmetr yer tutan balaca çuqun sobadır, təəccüb qarışıq sevinc hissi keçirdi. Çünki komandiri ona demişdi ki, ocaqçı işləyəcəyi dövrdə tam sərbəst qrafiki olacaq, günün 24 saatını demək olar ki, iş yerində keçirəcək. Bu isə o demək idi ki, Azər hardasa ən azı beş ay ərzində sərbəst xidmət keçməklə əsgərliyinin 24 ayının nəzərəçarpacaq bir dövrünü başa vuracaqdı. Pis deyildi. Əvvəlki ocaqçı deyirdi ki, havalar çox

soyuq olanda ocağa hər dörd saatdan bir olmaqla cəmi altı, nisbətən isti olanda isə altı saatdan bir olmaqla dörd araba kömür atmaq lazımdır. Vəssalam! Azərin işi bundan ibarət olacaqdı. Bir araba kömürü isə zirzəminin o biri başından gətirib ocağa atmağa vur-tut iyirmi dəqiqə vaxt gərək idi. Özü də ocaq balaca olduğundan kömürləri maqqaşla tutub bir-bir odun içinə atmaq lazım idi. Ətrafda yaxşı isti su da vardı. Yuyunmaq üçün qış günündə əla fürsət idi. Bundan başqa, qazandan bir qədər aralıda yatmaq üçün çarpayı da qoyulmuşdu. Onun yanında isə balaca bir dolab, soyuducu və məişətdə işlədilən qab-qacaq gözə dəyirdi. Bütün bunlarla bərabər bir də sınıq-salxaq da olsa bir radio gözə dəyirdi. Hər halda ilkin təəssürat bundan ibarət idi ki, Azər bütün qışı belə burada keçirməli olsa istədiyi rahatlığı təmin etmək üçün şərait var. Qalırdı baş qatmaq üçün maraqlı bir məşğuliyyət tapmaq, o da problem deyildi. Çünki bolluca boş vaxtı olduğu üçün istədiyi vaxt çıxıb şəhərdə gəzəcək, istədiyi vaxt yatıb dincələcək, istədiyi vaxt da idmanla məşğul olacaqdı. Bundan əlavə öz rahat çarpayısında uzanıb qəzet, kitab oxuya, yazı-pozuyla da məşğul ola bilərdi. Şair olmasa da həyatının bu gənclik çağında arabir şeir də yazırdı.

Yaşamaq üçün öz yerini ölçüb biçdikdən sonra qalırdı yemək məsələsini həll etmək. Komandir demişdi ki, bütün əsgərlər kimi səhər, günorta və ax-

şam yeməyi üçün hərbi hissəyə qayıtması lazımdır. İstəsə, yemək üçün lazım olan ərzağı özüylə götürüb elə iş yerindəcə yemək hazırlaya bilər. Hər halda burda da bir sərbəstlik vardı və Azər üçün belə azad olmaq göydəndüşmə idi.

Burada sevindirici olan başqa bir məqam da ondan ibarət idi ki, o, istədiyi vaxt millət yığıncağına da gedə biləcəkdi. Üstəlik, sərbəst olduğu üçün şəhərdə gəzməklə bərabər dostlarına da yetərincə zaman ayırma imkanı olacaqdı. Bir əsgər üçün bundan artıq nə olmalıydı ki?

* * *




***Dostluq şarjı: Azərin iş yeri. Əsgərlik gündəliyindən.***
***©Finogenov***

Artıq yavaş-yavaş qara qış öz yerini rahatlamaqdaydı. Ətrafda öncə ara-sıra yağan qar sonradan intensivləşmiş, günlərlə davam edən qar örtüyü heç ərimək istəyənə bənzəmirdi. Bu isə ondan xəbər verirdi ki, elə başlanğıcdan özünü belə göstərən qış deyəsən uzun və soyuq olacağını müjdələməkdəydi. Belə bir vaxtda boş vaxtı ancaq kitab oxumaqla, yazı-pozuyla keçirmək olardı. Hələ bir isti sobanın yanında oturasan, masanın üstündə qalaq-qalaq qəzetlər ola, yanında da qalın-qalın romanlar. Daha nə lazımdır ki? Elə Azərin istədiyi də bu deyildimi? Ta uşaqlıqdan oxumağa həvəs göstərən, lap balaca yaşlarında belə qalın romanları acgözlüklə oxuyan birisinə bundan yaxşı nə ola bilərdi? Anlaşılan o idi ki, Azər halından məmnundur. Düzdür, indiki şəraitdə bir az hərbi həyatdan uzaq qalacaqdı. Ancaq nə etmək olardı? Bir şeyi qazananda başqa bir şeyi itirməli olursan.

* * *

Azər hər gün daha bir az yeni işinə və burada özü üçün qurduğu rejimə alışırdı. Artıq gündə bir neçə dəfə ocağa kömür atmaq, idman saatları, hərbi hissəyə gedib nahar eləmək, şəhərdə gəzinti və qiraət saatları alışqanlıq halını almışdı. Bundan başqa, hərbi hissənin yeməkxanasından özü üçün

ərzaq payı da alırdı. Çünki səhərlər yuxudan durub soyuq havada piyada yeməyə getmək ona sərf eləmirdi. Ona görə ki, həm yeməkdən sonra dərhal qazanxanaya qayıtmalı idi, həm də hərbi hissədə qalsa belə kimsəylə ünsiyyət imkanı yox idi. Bütün əsgərlər səhər yeməyindən dərhal sonra təlim üçün hərbi şəhərciyi tərk edirdi və demək olar ki, nahara kimi bu balaca şəhərcikdə heç kim gözə dəymirdi. Ona görə də Azər daha çox axşam yeməyi üçün bura gəlirdi ki, yeməkdən sonra həmvətənləri və başqa əsgər dostları ilə görüşə bilsin. Şənbə günləri isə yeməkdən sonra millət məclisi keçirildiyi üçün Azər qazanxanada işini elə qururdu ki, gec qayıtsa belə heç bir problem ortaya çıxmasın. Beləcə günlər günləri, həftələr həftələri əvəz edirdi. Özəlliklə də sakit gecələrdə o, öz çarpayısında uzanıb kitab oxuyur, arabir köhnə radionu qurdalayıb alman kanallarında musiqi dinləyirdi.

...Həmin gecələrdən birində Azər yenə də radionu qurdalamağa başladı. Kitab oxumaqdan bir az yorulmuşdu, yuxusu da gəlmirdi. Hardasa gecə saat ikini keçmişdi. Bu saatda küçəyə də çıxmaq olmazdı. Çünki şəhərdə keşik çəkən alman polisləri gecənin bu vaxtında tək başına küçələrdə dolaşan Sovet əsgərini mütləq saxlayıb sorğu-sual edərdilər. Zirzəmidə isə onun otağından başqa hər yer həm soyuq, həm də ya-

rıqaranlıq olurdu və buna görə də orada nəsə etmək mümkün deyildi. Özü də qaranlıq qış gecəsində bu zirzəminin vahiməsi bir başqa olurdu. Bina özü elə üslubda tikilmişdi ki, lap qorxulu nağıllarda olduğu kimi keçidləri və öləzimiş lampaların ətrafa saçdığı kölgələr insanda istər-istəməz həyəcana səbəb olurdu. Düzdür, bütün bunlar onun üçün artıq alışılmış və anlaşılan hallar idi və Azər təbii ki, heç nədən qorxub çəkinmirdi. Ancaq yenə də baş qatmaq üçün nəsə bir şey fikirləşmək lazım idi. Elə buna görə də o, radionu qurdalayırdı ki, bir şey tapıb dinləsin. Və bu an heç gözləmədiyi, ağlına gəlməyəcək bir hal baş verdi! Alman radiolarından birində Azərbaycan xalq mahnısı "Muleyli"ni verirdilər! Gəl də sevinmə! Gecənin səssizliyində hansısa zərif Azərbaycan qızının incə səsindən şəffaf bulaq suyu kimi süzülüb gələn "Muleyli" bir anda Azərin həm əhvalını, həm də düşüncələrini dəyişdi. İndi o, zirzəminin qaranlığı, Zerbst şəhərinin soyuq və kimsəsiz küçələri, gecənin zülməti haqqında deyil, minlərlə kilometr uzaqlıqdakı ana yurdu, uşaqlığı, ata-anası, bacı-qardaşları haqqında düşünməyə başladı. Bir neçə dəqiqə sürən mahnı onu daha haralara, hansı illərə aparmadı? Hələ bir orta məktəbdə başına gələn sevgi əhvalatı da yadına düşdü. Xatırladı ki...

...Soyuq qış gecəsinin qaranlıq alman zirzəmisindəki otağında oturub sınıq radiodan yüksələn "Muleyli"ni dinləyən Azərin yadına yuxarı siniflərdə başına gələn bir sevgi əhvalatı düşdü. Bəlkə də buna sevgi demək olmazdı. Onun sevdiyi iddia edilən qız sadəcə gözəl idi, gözəgəlimli və xoş birisi idi. Üstəlik dərslərini yaxşı oxuması və örnək davranışı ilə də müəllimlərin diqqətini çəkirdi. Qonşu kənddən gələn bu qızın da Azərə münasibəti çox səmimi idi. Ancaq Azərdən fərqli olaraq, deyəsən, onunku sevgi deyil, sadəcə bir sinif yoldaşlığı, dostluq idi. Hətta günlərin bir günündə öz dəcəlliyi ilə ad çıxarmış sinif yoldaşı Səməndər (Azər ona "Səməndərquşu" deyirdi) Azər lövhə önündə dərs danışarkən uca səslə yerdən atmaca da atmışdı ki, "Azər G.-ni sevir". Həmin bu G. də Azərin könlünə hakim kəsilmiş qızın adı idi. Bütün sinif qarşısında qıpqırmızı qızaran Azər heç bir cavab verməsə də G. oturduğu yerdən cavab vermiş və "Eh, buna bax, heç dərslərini də yaxşı oxumur", – deyə qımışmışdı. Azər doğrudan da yuxarı siniflərə keçəndə bütün yeniyetmələr kimi halı dəyişmiş, dərsdən daha çox alışıb yanan gözəllərə göz gəzdirməyə başlamışdı. Düzdür, özünü o qədər də qapdırmamışdı. Ancaq yenə də ona bir hallar olduğu göz qabağındaydı.

Bu "sevgilisi" ilə bağlı Azərin daha yeni bir xatirəsi də vardı. Bir müddət öncə bacısı Aytəndən məktub

almışdı ki, G.-yə elçilər gəlir. Yəni qız əldən gedir. Qonşu kəndlərin camaatı bir-birinə o qədər yaxın idi ki, bir kənddə olan bu cür əhvalatlar elə həmin gün də digər kəndlərə yayılırdı. Azərin bacısı da eşidibmiş ki, G.-nin elçiləri artıq qapını kəsdirib. O da qardaşının qıza olan marağından xəbərdar imiş ki, ona bu haqda məktub yazıbmış. Məktubda deyilirdi ki, artıq G.-nin elçiləri qapını kəsdirib. Əgər sənin fikrin qətidirsə, onun qapısına "qumbara ataq". "Qumbara atmaq" Azərgil tərəfdə bir qapıya söz uçurmaq, himcim eləmək anlamındaydı. Yəni Azər istəsəydi G.-nin ailəsinə xəbər göndəriləcək və qızın könlü olarsa, Azəri gözləməsi istəniləcəkdi. Ancaq Azər anlayırdı ki, bu tezliklə evlənmək fikri və imkanı olan deyil. Ən azından ona görə ki, özündən qabaqda hələ iki qardaşı vardı. Kim bilir, onlar nə vaxt evlənəcəkdi. Bir qızın da oturub onu illərlə gözləməsi heç ağlabatan deyildi. Özü də kənd yerində. Bir baxdın ki, qız bir il, iki il gec ərə getdimi, söz-söhbət baş alıb gedirdi. Gəl indi bunlara cavab ver. Ona görə də kənd qızları elə ilk fürsətdə ərə gedirdilər ki, canları dedi-qodudan qurtulsun. Elə bu G. də təbii ki, onlardan biri olmaqdan başqa çarəsi olmayan bir qız idi yəqin ki.

...Nə isə, "Muleyli"nin sədaları Azəri gör haradan haraya aparmışdı. Bəlkə də Azərbaycanda olsaydı bu mahnıya bu qədər qulaq kəsilməz, onun

sədalarının təsiri altında xəyallara dalmazdı. Demək ki, vətən həsrəti, yurd sevgisini oyatmaq üçün uzun zamandan bəri eşitmədiyi bir mahnı da yetərliymiş...

Artıq radioda "Muleyli"ni Azərin anlamadığı hansısa bir alman mahnısı əvəz etmişdi. Ancaq o, hələ də özünə gələ bilmir, çarpayının üzərində uzanıb gözlərini yumaraq xəyallarında hey uzaqlara səyahət edirdi. Bir anlıq ona elə gəldi ki, şairdir, şeir də yaza bilər. Sonra güldü, "özünə gəl, səndən şairmi olar" deyib yerində qurcalandı. Ancaq içindən nəsə bir səs elə bil ona "ayağa qalx, nə yatmısan, düşündüklərini şeirə çevir" deyə əmr edirdi.

Azər çarpayıdan qalxdı. Otağın sol tərəfində qoyulmuş masaya yaxınlaşdı. Stulu çəkib oturdu və qələmi əlinə alıb dəftərçəsini açdı. "Lənət şeytana, görüm nə alınır", – deyib yazmağa başladı:

Səni gecə-gündüz xatırlayıram,
Gözlərim önündə durursan hər an.
Yatıram, yuxuda səni görürəm,
Gözlərim önündə durursan hər an.

Qaşların qaradır, gözlərin ala,
Dərdimə dərmandır, başıma bəla.
Yenə də salıbsan məni xəyala,
Gözlərim önündə durursan hər an.

Unuda bilmirəm səni heç zaman,
Qurtula bilmirəm köhnə yaradan,
Məni yolda qoyan, vəfasız çıxan,
Gözlərim önündə durursan hər an.

Azər şeiri birnəfəsə yazdı, sonra birdən ayılan kimi oldu. Bir baxdı ki, artıq kağız üzərində üç bənddən ibarət şeir var. Oxudu, pis alınmamışdı. Ancaq özü-özünə düşündü ki, buna şeir demək olmaz: "Birdən oxuyarlar, biabır olaram".

Əvvəl yazdığını cırıb ocağa atmaq istədi. Lakin düşündü ki, şair olmadığı üçün, üstəlik də adi bir dəliqanlı olduğu üçün ondan yüksək səviyyəli şeir gözləyən də olmaz. "Həm də, lap tutaq ki, bu şeir pis alınıb. Kimə nə dəxli var? Özüm üçün yazmışam, qoy bir xatirə kimi qalsın. Kim bilir neçə illər sonra bu şeiri görəndə hazırda yarıqaranlıq alman zirzəmisində keçirdiyim bu gecəni necə xatırlayacam. Ümumiyyətlə xatırlayacammı? Xatırlasam, indiki qədər kövrək duyğularım olacaqmı, yoxsa sadəcə əsgərliyimin daha bir gecəsi kimi yadıma düşəcək? Bunu zamana buraxsaq yaxşı olar", – deyib işığı söndürdü və çarpayısına uzandı. Necə oldu, nə vaxt yuxuya getdi – bundan xəbərsizdi Azər.

* * *

– Sənin adın nə oldu?

– Qəhrəman. Adım Qəhrəmandır.

– Sən də Azərbaycanlısan yəqin, hə?

– Yox ay kişi, nə Azərbaycanlı? Mən Azərbaycanlı deyiləm.

– Bəs axı bizim dildə danışırsan. Azərbaycan dilində. Düzdür, bir az qəribə ləhcən var, ancaq təmiz danışırsan.

– Mən Azərbaycan dilində danışmıram, qardaş, türk dilində danışıram. Özüm də türkəm.

– Güldürmə məni. Nə türk dili? Sən axı mənimlə eyni dildə danışırsan. Yəqin zarafat eləyirsən. Hə, de görüm, hansı rayondansan? Bəlkə Dərbənddənsən? Bizim bir Dərbəndli dostumuz var, səni tanış edərəm onunla.

– Dərbəndin heç yolunu da tanımıram mən. Nə Dərbənd?

– Onda bəs haralısan?

– Daşkənddənəm. Toytəpədən. Özbəkistandan gəlmişəm. Orda yaşayırıq biz.

– Hə, anladım. Onda Özbəkistanda yaşayan Azərbaycanlılardansan. Eşitmişəm ki, orda Azərbaycanlılar çoxdur.

– Dedim axı, Azərbaycanlı deyiləm. Mən türkəm. Axıska türkü. Bizi ora sürgün ediblər. Çoxdan, lap çoxdan. Onda mən heç doğulmamışdım.

– Vallah, qardaş, mənim qafam qarışdı. Sən bizim dildə danışırsan. Özbəkistanda yaşayırsan və deyirsən ki, Azərbaycanlı deyiləm, türkəm. İndi bunu necə başa düşək?

– Necə yəni necə? Elə sən də türksən də. Burda başa düşülməyəcək nə var axı?

– Güldürmə məni. Nə türk? Mən Azərbaycanlıyam və bununla da fəxr edirəm.

– Azərbaycanlısan, çünki Azərbaycandansan. Ancaq sənin danışdığın dil türkcə, milliyyətin də türkdür, anladın?

– Heç nə anlamadım. Biz axı bilirik ki, türklər Türkiyədə olur. Onların da dilini heç eşitməmişəm. İndi sən deyirsən ki, türkəm və mənimlə Azərbaycan dilində danışırsan. Doğrudan da qafam qarışdı.

– Qarışmasın, qardaş, qarışmasın. Sən də, mən də, elə özbəklər də, qırğızlar, qazaxlar da, hamımız türkük. Elə ona görə də bizi sürgün edirlər, Türkiyə ilə əlaqələrimizi yasaqlayırlar ki, birdən ayılıb birləşmək istəyərik.

– Sən bir az xatalı söhbətlər eləyirsən vallah. Bir yandan baxıram, mənim dilimdə danışırsan, ancaq ona türk dili deyirsən. Başqa tərəfdən də düşünürəm

ki, doğrudan da sizi niyə sürgün ediblər axı? Qarışıq məsələdir.

– Eh, siz nə bilirsiniz bizim çəkdiklərimizi? Mənim böyüklərim danışır ki, Böyük Vətən Müharibəsi illərində bizimkiləri Ahıskadan heyvan daşınan vaqonlara doldurub ac-susuz Orta Asiyaya sürgün ediblər. Heç bilirsən yolda nə qədər adamımız qırılıb? Yemək yox, paltar yox. Soyuq havada minlərlə kilometr yolu çoluq-çocuq, qadın-kişi taxta vaqonlarda keçməli olublar. Böyüklərimiz deyir ki, insanları qəfil, özü də gecənin bir yarısında evlərdən toplayıb vaqonlara basırmışlar ki, sürgün olunursunuz. Heç bir sorğu-sualsız, izahsız özü də. Allah bunlara lənət eləsin.

– Bunlara deyəndə, kimə?

– Ruslara!

– Axı ruslar burda bizim əlaltımızdır? Onlar necə bu qədər zalım ola bilər ki?

– İndi belədir. Ancaq bir vaxtlar onlar bizi əlaltı eləmək istəyirdilər. Bu da alınmayanda yurdumuzdan sürgün etdilər ki, məhv olaq. Ancaq biz dözdük, dayandıq və bu gün də varıq. Biz türk milləti bundan da ağır zülmlərə tab gətirib tarix yazmışıq. Sadəcə ruslar bizə keçmişimizi unutdurmaq üçün əllərindən gələni edirlər. Ona görə də sən türk olduğun yerdə

özünə Azərbaycanlı deyirsən. Sənin kimi milyonlarla Sovet türkü özünü özbək, türkmən, qırğız, qazax, tatar, başqırd kimi qondarma adlarla tanıyır. Halbuki hamımız türk olduğumuzu bilsək, SSRİ-ni ruslar deyil, biz idarə etməliyik...

Hərbi hissəyə yeni gəlmiş Ahıskalı, əslində isə Daşkəndli Qəhrəmanla bu qısa söhbət Azəri əməlli-başlı düşüncələrə qərq etmişdi. Necə yəni türk? Axı bizə məktəbdə öyrədirdilər ki, Azərbaycanlıyıq? Dayan, dayan! Yadıma düşdü deyəsən. Hə, Mirzə Fətəli Axundovun əsərlərində bizim millətimiz haqqında türk yazılır axı. Həmişə də mətndə türk yazılır, altında da izah verilir ki, Azərbaycanlı demək istəyirmiş. Necə yəni Azərbaycanlı? Azərbaycanlı olsaydı, elə yazardı ki, Azərbaycanlı da. Ona kim mane olurdu ki, o zaman? Nəsə qarışıq məsələdir. Bu Qəhrəman məni əməlli-başlı çaşdırdı. Eybi yoxdur, əsgərlikdən qayıdandan sonra ata-anamdan soruşaram görüm biz kimik? Hey, yadıma düşdü. Axı bizim evdə babamgilin sənədləri qalır. Hə, özü də bir dəfə görmüşdüm ki, babamın adına gələn seçkiyə çağırış vərəqəsində milliyyəti yerinə türk yazılıb. Ay dad! Bu Qəhrəman düz deyir nəsə. Mütləq, evə gedən kimi mütləq bu məsələni araşdıracam! Axırına çıxmasam rahat dura bilmərəm!

* * *

Abdurahmangil yenə də Elbrusla Kamranı incidirdilər. Onlar hərbi şəhərcikdən bir qədər aralıda yerləşən, texnika parkına gedən yolun yanındakı qazanxanada işləyirdilər. Onlarla birlikdə Ağdamlı Nizami ilə Dərbəndli Baba da işləyirdi. Bu beş nəfər Azərbaycanlı iki yerə bölünmüşdü. Əsasən də Abdurahman Elbrusla Kamrana göz verib işıq vermirdi. Nizami ilə Baba isə daha sakit idilər. Azər də həmişə Abdurahmana irad tuturdu ki, niyə millətin uşaqlarını incidirsən? O da öz növbəsində deyirdi ki, "sən bunları tanımırsan, bunlar millətin adına ləkədir". Azər deyəndə ki, konkret nəyə görə belə düşünürsən, Abdurahmanın cavabı bu olurdu: "Mən onların hərəkətlərini səndən çox görürəm". Buna baxmayaraq Azər yenə də təkid edirdi ki, Abdurahman bu iki əsgəri incitməsin. Ən azından başqa millətlərdən ayıbdır axı. Həm də biz burada, vətəndən uzaqlarda bir-birimizi incitməli deyilik ki. Başqaları bizə nə deyər? Abdurahman isə deyirdi ki, bir gün Azər özü də onların necə yaramaz olduğunu görəcək.

Yenə də hərbi hissənin həyətində birlikdə gəzirdilər. Azər, Abdurahman, Nizami, Ziyəddin və Baba həmişəki kimi deyir-gülür, ordan-burdan söhbət edərək vaxt keçirirdilər. Bu vaxt Abdurahman dost-

larına dönüb, “Bu Elbrusla Kamranın işini nə edək?”, – deyə soruşdu. Azər isə öz növbəsində, “Nə məsələdir? Nə baş verib?”, – deyə maraqlandı.

Bəlli oldu ki, Elbrusla Kamran Nizamigilin xırda əşyalarını oğurlayıb. Daha doğrusu, iddia edildi. Azər buna inanmadı. Abdurahman isə qayıdıb, “bəs deyirdin bunlara dəymə, gördün, indi oğurluq da etdilər” dedi. Azər yenə də fikrində qaldığını, Azərbaycanlıların oğurluq edə bilməyəcəyini, bunu sübut etmək istədiyini bildirdi. Hal belə olunca, o dedi ki, əgər doğrudan da bu baş veribsə, onların cəzasını mən verəcəm. Abdurahman və digərləri də razılaşdı. Məsələ onda idi ki, oğurluq söhbətini Nizami də, Baba da təsdiq edirdi. Həm də burada Azərin məsuliyyət yükü vardı. Çünki o, hər zaman Abdurahmana deyirdi ki, o uşaqları incitmə. İndi əgər belə bir iş baş vermişdisə, deməli Azər də məsuliyyət daşıyırdı.

Dostlar vədələşib Elbrusla Kamranı axtarmağa getdilər. Bir az sonra onların ikisini birlikdə yeməkxananın yanında gördülər. Birlikdə gəzib-dolaşır, öz aralarında nəsə söhbət edirdilər. Azər Abdurahman və digərlərindən söhbətə qarışmamağı xahiş etdi və sonra Elbrusla Kamrana yaxınlaşıb salam verdi. Özü də vaxt itirmədən birbaşa mətləbə keçdi:

– Abdurahman düz deyir?

– Nəyi?

– Deyir onların ətir, qələm kimi əşyalarını oğurlamısınız...

– Allaha and olsun ki, bizim xəbərimiz yoxdur!

– Hələ bir andı qoyun kənara. Bu vaxtadək mən sizi müdafiə eləmişəm. Əgər doğrudan da belə bir işiniz olubsa, vay halınıza. Ona görə deyirəm, əgər oğurlamısınızsa, etiraf edin ki, cəzanız yüngülləşsin. Düşünmürəm ki, Abdurahmanın sizə böhtan atmaq fikri olsun. Abdurahman cırtqozdur, ancaq yalançı olduğunu heç kim deyə bilməz. Hələ bir böhtançı olsun!

– Əşi, bizim nəyimizə lazımdır axı onların əşyaları? Həm də adam millətdən oğurluq eləməz axı. Onların əşyaları itib deyə biz cavabdeh deyilik ki.

– Cavabdeh olub olmadığınızı ayırd edəcəyik. Görürsünüz ki, onlar aralıda durub bu məsələyə qarışmırlar. Mən xahiş eləmişəm. Dedim ki, bu uşaqlar oğurluq eləməz. Ancaq onlar iddia edir ki, bunu sübut edə bilərlər. Ona görə də bir daha deyirəm, əgər oğurlamısınızsa, boynunuza alın!

Azərin bir qədər daha təkidlə, daha ötkəm səslə danışması hərifləri həyəcanlandırmışdı artıq. Onda o başa düşdü ki, Abdurahmanın dediyi, deyəsən, doğrudur axı. Hal belə olunca Azər təklif etdi ki, hərbi şəhərcikdən çıxıb məsələni araşdırmaq üçün yaxındakı tarlaya getsinlər. Orada hər kəsin gözündən uzaq bir yerdə bunu ayırd etmək daha asan olardı.

Şəhərcikdən çıxıb qazanxananın yerləşdiyi ərazinin arxasına gəldilər. Bura şəhərcikdən hardasa beş yüz metr aralıda yerləşirdi. Azər yenə də dostlarından xahiş etdi ki, heç kim işə qarışmasın. Artıq özü də çox maraqla çalışırdı ki, bu olayı çözsün. Çünki bu iki Azərbaycanlı əsgər onun etibarını zədələmişdi. Ən azından artıq elə sezilməkdə idi. Ya Azər bu məsələni sonunadək çözüb gerçəyi üzə çıxarmalı, ya da ona güvənən əsgər dostlarının yanında etibarı iki qəpiklik olmalı idi. Elə buna görə də burada daha sərt davranmaq məcburiyyətində qaldı.

Azər Elbrusun yaxasından sol əli tutub sağ əlini zərbə endirmək üçün hazır vəziyyətə gətirdi və onun üstünə qışqırdı:

– Sənə demirəm boynuna al?! Axı mən sizi həmişə müdafiə etmişəm! Niyə oğurluq edirsiniz?! Yəni o günə qalmısınız ki, öz dostlarımızdan oğurluq edirsiniz?!

– Axı... Axı mən dedim ki, oğurluq etməmişəm...

– Necə yəni etməmişəm?! Bayaqdan deyirdin ki, etməmişik! İndi deyirsən etməmişəm?!

Bunu deyəndən sonra Azər Elbrusun sol yanağına qüvvətli bir şapalaq endirdi. Zərbə elə şiddətli oldu ki, oğlanın sifəti qıpqırmızı rəng aldı. Yaxşı ki, Azər onun yaxasını hələ buraxmamışdı. Yoxsa bu zərbədən mütləq yerə yıxılardı.

Deyəsən, zərbə işə yaramışdı. Elbrus artıq kəkələməyə başlamışdı və nəsə demək istəyənə bənzəyirdi. Bunu görən Azər basqını davam etdirdi və ikinci zərbəni endirməyə hazırlaşırdı ki, Elbrus əlini qaldırıb təslim oldu:

– Mən oğurlamamışam! Kamran oğurlayıb!

– Nə dedin sən? Kamran oğurlayıb? Bəs bayaqdan deyirdin xəbərin yoxdur? İndi nə oldu?

Bunu deyib Azər Elbrusun qulağının dibinə daha iki zərbə endirdi. Bundan sonra onun qarnına ağır əsgər çəkməsi ilə bir təpik də ilişdirdi. Bu təpikdən Elbrus ikiyə qatlandı. Sonra o, Kamrana yaxınlaşdı:

– Hə, bəs sən nə deyirsən?

– Allaha and olsun ki, o, yalan deyir! Mən heç zad oğurlamamışam. Uşaqların şeylərini onun özü oğurlayıb.

– İddia edirsən ki, Elbrus oğrulayıb?

Kamran cavab verməyə macal tapmamış artıq özünə gəlib belini dikəltmiş Elbrus ona sarı döndü:

– Ə, yekə kişisən, sən götürmədin əşyaları?

– Mən götürdümsə, sən neylədin? Niyə yaxanı kənara çəkirsən? Özün oğurlamısan!

Azər anladı ki, oğurluğu həriflərin ikisi birlikdə edib. Artıq məsələ aydınlaşmışdı. İndi qalırdı bunların cəzasını layiqincə vermək. Məsələni millət məclisinə çıxarmaq lazım idi. Qoy hər kəs bunlara bir

təpik ilişdirib sifətlərinə tüpürsün ki, bir daha millətin başını aşağı edəcək bu cür əməl törətməsinlər. Ancaq ona qədər öz aralarında da haqq-hesab çürütməli idilər. Nə qədər də olmasa eyni çağırışın uşaqları idilər və aralarında belə halların olması hamısı üçün xoş olmayan söz-söhbətə səbəb olacaqdı. Ona görə də bu iki oğrunun cəzasını öncə özləri verməliydilər.

Azər Kamrana da bir-iki şillə-təpik ilişdirdikdən sonra üzünü dostlarına çevirdi:

– Dostlar, mən səhvimi etiraf edirəm. Bunlara güvənməkdə səhv etmişəm. Buna görə məni də tənbeh edə bilərsiniz. Buyurun, meydan sizindir.

Abdurahmangil Azərin sözünə bənd imiş kimi bir anda Elbrusla Kamranın üstünə atıldılar. Bir göz qırpımında hər ikisini yerə yıxıb təpikləməyə girişdilər. Nə Elbrus, nə də Kamran heç bir müqavimət göstərəcək halda deyildi. Gücləri çatan tək şey üz-gözlərini zərbələrdən qorumaq idi. Onsuz da istəsələr belə müqavimət göstərə bilməzdilər. Həm də qorxaq olduqları üçün buna cürət də edə bilmirdilər.

Bir neçə dəqiqə belə davam etmişdi ki, uşaqlardan kimsə zabitlərin gəldiyini xəbər verdi. Azər tez hamını sakitləşib çaya tərəf qaçmağa səslədi. Heç nə olmayıbmış kimi Elbrusla Kamran da yerdən qalxıb onların arxasınca götürüldü.

Çay bir qədər dərənin dibindən axdığı üçün aşağı enib onu keçmək çətin olacaqdı. Ancaq başqa əlac da yox idi. Millətin qanunlarına görə belə yerdə ilişmək, yaxanı ələ vermək olmazdı. Vay o gündən ki, sən özünü zabitlərə tutdurasan və onlar da baş verənlərdən xəbər tuta. Bundan sonra gəl millətin qarşısında cavab ver. Hamı deyəcəkdi ki, əfəlsiniz, yaxanızı ələ vermisiniz. Buna görə də indi onların hamısı var qüvvə ilə qaçıb qurtulmalı idilər.

Tərslikdən də çayın kənarı boyunca təzə kəsilmiş ağacların budaqları səpələnmişdi. Özü də bu budaqlar elə iri idi ki, əl-ayağa dolaşırdı. Üstəlik də üzü aşağı qaçmaq lazım idi. Ehtiyatlı olmaq gərəkdi. Ancaq ehtiyata zamanmı vardı?

Elə bu qaçaqaçda Azərin ayağı yerə yıxılmış budaqlara ilişdi. Bununla da üzüaşağı necə yıxıldısa, sınmış budaqlardan birinin xəncər kimi iti ucu onun sağ əlinin baş barmağının tam da dibinə saplandı. Əvvəlcə heç nə hiss etməsə də sonra yavaş-yavaş şiddətli ağrı əlini sarmağa başladı. Ancaq edəcək bir şey yox idi. Ağacı saplandığı yerdən dartıb çıxardı. Yerindən qan fışqırdığını görüb barmağını bərk-bərk sıxdı və ayağa qalxıb qaçmağa davam etdi. Dostlar çayı da birtəhər keçib arxa tərəfdən hərbi hissəyə yaxınlaşdılar. Burada hasarın bir tərəfində nəzarətdən kənar bir deşik vardı. Oradan

keçib idman meydançasına gəldilər və bununla da zabitlərdən qurtulmuş oldular. Sonrakı günlərdə də heç nəyin baş verməməsi onu göstərdi ki, zabitlər onları tanımamışdılar.

Bu hadisə Azəri bir qədər özündən çıxarmışdı. Çünki o, inandığı əsgər yoldaşlarından bu qədər alçaq bir hərəkət gözləmirdi. Üstəlik də Azərbaycanlı olan kəslərdən belə bir hərəkət onun qanını qaraltmaya bilməzdi. Axı vətəndən bu qədər uzaqda hamı bir-birinə həyan olmalı, dəstək verməliydi. Bunlar isə gör nə ediblər. Şərəfsizcəsinə öz yoldaşlarının əslində elə də dəyəri olmayan xırda əşyalarını oğurlayıblar...

* * *

Azər öz zirzəmisinə elə alışmışdı ki, bəzən yemək üçün belə hərbi hissəyə getməyi gəlmirdi. Elə olurdu ki, günlərlə onu heç itirib axtaran da olmurdu. Komandirləri ondan arxayın idilər. Bilirdilər ki, allahın siqaretini belə çəkmədiyi, spirtli içkinin dadını bilmədiyi üçün pis əməllərə qurşanması mümkün deyil. Üstəlik də nizam-intizamı, dürüstlüyü Azərin hər hansı bəd əmələ alət olmasına yol verməzdi. Hətta onun xidmət keçdiyi batalyonun komandiri tam əminliklə Azərə zamin duracaq qədər ona etibar

edirdi. Bu durum Azərin də ürəyincə idi. Qışın soyuğunda isti bir otaqda hər cür şəraiti özü üçün təmin edə bilmişdi. Könlü istəyəndə bir çay da dəmləyir, yavaş-yavaş içərək kitabını, qəzetini oxuyur, ara-sıra da qələmə sarılıb nəsə yazırdı. İndi o, əsgərdən daha çox bir mülki işçi kimi idi. İstədiyi vaxt yuxudan dura bilərdi. Gündüzün günorta çağı yatmaq istəsə heç kim bunu ona yasaqlamırdı. Şəhərdə gəzmək istəsə, buna da yasaq yox idi. Hələ üstəlik arzu etdiyi yeməkləri də bişirə bilərdi. Çünki hərbi hissədən kənarda işlədiyi üçün istədiyi ərzağı yeməkxanadan götürüb aparmağa ixtiyarı vardı. Bir də görürdün həftənin başında gəlib bir qədər kartof, soğan, yağ, un və s. götürüb getdi. Hətta bayramlardan birində özü üçün halva da bişirmişdi. Düzdür, ona halva demək üçün ən azı on nəfəri şahid tutmaq lazım idi. Ancaq Azərbaycanlıları çıxsaq yerdə qalanlar nə bilirdi ki, halva nə olan şeydir? Bəzən yanına gələn rus balalarına bişirdiyi şeyi halva deyib tərif edəndə onlar da bəh-bəhlə yeyib hələ bir Azərin məharətinə əhsən də deyirdilər. Daha bilmirdilər ki, Azərbaycanda ən sıradan bir qadın Azərin bişirdiyinə halva deməsinə dözməz, dərhal bağrı çatlardı ki, belə də halva olar? Ancaq rus balaları nə bilirdi halva nədir?

Söz rus balalarından düşmüşkən, bir dəfə onunla eyni vzvodda xidmət keçən Sergeylə olan söhbəti

xatırladı. Azər ona öz kəndləri haqqında danışırdı. Deyirdi ki, biz evdən çıxanda heç vaxt evin qapısını kilidləmirik. Eləcənə bağlayıb çıxıb gedirik. Sergey isə təəccüblə soruşmuşdu ki, "necə yəni, qapıya qıfıl asmırsınız?" "Qıfıla nə gərək var? Həm də kimin bizim evimizdə nə işi var? Gələn adam qapını döyəcək, görəcək açan yoxdur, biləcək ki, evdə adam yoxdur, üzünü çevirib çıxıb gedəcək. Yaxud da qonşunun qapısını döyüb sözünü deyəcək", – deyə Azər cavab vermişdi. Sergey də öz növbəsində "Bəs oğrular, onlar açıq qapılı evdən oğurluq etməzlərmi?" – deyə soruşmuşdu. Bu dəfə aldığı cavab da Sergeyi əməlli-başlı çaşdırmışdı: "Nə oğru? Bizdə oğru olmur axı. Kənddə heç kim qapısına qıfıl asmır. Ümumiyyətlə, bilirsən nə var? Qapını qıfıllamaq ayıb sayılır bizdə".

Söhbət əsnasında Azər Sergeygilin kəndiylə də maraqlanmışdı. Sergey deyirdi ki, onlar nəinki evdə adam olmayanda, hətta evdə adam olanda da qapını açarlayırmışlar. Deyirdi ki, belə olmasa oğrular evi basarmış. Azər yazıq neyləsin axı? Nə bilsin ki, dünyada insanların belə qorxunc kəsimi də var...

Sergeydən söz düşmüşkən, Rusiyanın Mordva Muxtar Sovet Sosialist Respublikasından gəlmiş bu əsgər bir məsələdə Azəri həmişə üstələyirdi. Azər ha çalışırdı, onunla bacara bilmirdi. Sergey qaçış

yarışlarında mütləq qalib gəlirdi. Özü də bayram günlərində və ya sadəcə idmana marağı artırmaq üçün təşkil edilən bu yarışlarda Azərgilin vzvodu ilə birlikdə batalyon komandirinin siyasi məsələlər üzrə müavini, keçmiş hava desantçısı mayor Poddubnı da qaçırdı. Yaşı əllini ötmüş bu zabit gənc əsgərlərin hamısını tozda qoyur və dostyana şəkildə onlarla məzələnirdi ki, "hə, nə oldu, qoçaqlar, çata bilmədiniz?" Doğrudan da ona çatmaq olmurdu. Bir də bu Sergey. Azər idman təşkilatçısı olsa da qaçış yarışlarında hər dəfə Sergeyə uduzurdu. Əlbəttə ki, bu bir dostluq yarışı idi və buna görə üzülməyə dəyməzdi. Həm də bu rus balası Azərin dostlarından biri idi və yarışma bitən kimi yenə də heç nə olmamış kimi deyib-gülürdülər.

Amma sonradan bu yazığın başına bir iş də gəlmişdi.

Sergey sürücü idi. Əsgərlikdən buraxılmağa az qalmış bir almanı maşınla vurmuşdu. Düzdür, alman ölməmişdi. Ancaq nə etmək olardı? İş alman məhkəməsinə verilmişdi. İndi bu gün, sabah evə getməli olan Sergey oturub məhkəmənin hökmünü gözləməli olacaqdı. Onunla eyni çağırışdan olanların hamısı, o cümlədən Azərgil də evə buraxılanda Sergey hələ də gözləməkdəydi...

* * *

– Sənin soyadın necə oldu?

– Omarbekov. Qazaxıstandanam.

– Omarbekov. Hə, danış görüm nə işlə məşğul olurdun evdə?

– Eh, nə danışım ki? Tələbə idim. Tibb fakültəsində oxuyurdum. Atdılar mitilimə. Qovdular məni, qovdular. Tək məni yox özü də. Xeyli sayda tələbəni universitetdən qovdular. Hələ tutulanları demirəm.

– Necə yəni? Nə baş vermişdi ki, sizi universitetdən qovdular?

– Əşi bizim işimiz yaxşıdır ki. Mən ölənləri demirəm hələ. Nə qədər adam öldü. Özü də əksəriyyəti gənclər idi. Yüz əllidən çox insanımız həlak oldu. Bir günün içində indi şanlı dediyimiz bu Sovet ordusu bizi qanımıza qəltan elədi.

– Dayan görüm. Sən nədən danışırsan?

Azərin təzə tanış olduğu qazax əsgərin dedikləri ona yuxu kimi gəlirdi: "Böyük Vətən Müharibəsindən danışır? Mümkün deyil. Bu ki, dünənki uşaqdır. İndiki dövrdən danışırsa, şükür Allaha, Sovet ölkəsində sülh və əmin-amanlıq içində yaşayırıq. Kimdir bizi öldürən? Hələ bu iddia edir ki, adamları Sovet əsgərləri öldürüb. Bunun başı yerində deyil deyəsən".

– Nədən danışacam? Almatıda baş verənlərdən danışıram da. Xəbəriniz yoxdur? Yatmısınız ki, siz.

– Hələ bir dayan görüm. Nə Almatı, nə hadisə olub orda axı bizim də xəbərimiz yox?

– Hə, anlaşıldı. Sənin xəbərin yoxdur deməli. Olması da mümkün deyil əslində. Çünki heç yerdə bu haqda danışılmadı ki. Televiziya kanalları susdu, qəzetlər bir cümlə belə vermədi. Biz də ha bağırdıq, ha çığırdıq, səsimizi duyan olmadı. Nəticə də ki, bu. İndi mən və mənim kimi minlərlə gənclərimiz universitetlərdən qovulmuşuq. Neçə-neçə insanlarımız həbsxanalarda işgəncə altındadır. Sovet hökuməti də dünyaya bar-bar bağırır ki, bura insanların dinc yaşadığı sülhsevər bir ölkədir. Başınıza dəysin sizin bu sülhsevərliyiniz!

Azər Omarbekovun danışdıqlarından doğrudan da heç nə anlamırdı. Ancaq artıq başa düşürdü ki, Qazaxıstanda nəsə çox dəhşətli hadisə baş verib və onun ürəkdən bağlandığı, güvəndiyi Sovet hökuməti, sosialist vətəni bu olayları nəyə görəsə gizlədir. "Nəyə görə axı? Bunun altında nəsə sirr var. Qoy bu qazax balasından soruşum görüm nə baş verib orda?", – deyə Azər Omarbekova üz tutdu. Omarbekov da bunu gözləyirmiş kimi nəql eləməyə başladı:

– 1986-cı ildə Sov.İKP MK Qazaxıstana yeni birinci katib təyin etmək istədi. Kolbin soyadlı bu ru-

sun bizim respublikaya heç dəxli yox idi. Biz də etiraz etməyə başladıq ki, niyə bir qazax yox, rusu təyin edirsiniz? Cavab bu oldu ki, mərkəz belə qərar verib. Halbuki əslən qazax olan hazırkı 1-ci katib Qonayev (Kunayev) yaxşı insan idi. Ona görə də insanlar ayağa qalxdılar və Almatının mərkəzində etiraz mitinqləri keçirilməyə başladı. Bir neçə gün belə davam edəndən sonra xüsusi hazırlanmış əsgərlər və milislər hər cür ağır texnikayla silahlanaraq dinc insanlara hücum etdi. Özü də bu əsgərlərin çoxu Rusiyadan gətirilmişdi. Bizi ot kimi biçirdilər. Hər şey bir anda baş verdi. Bir də gördük ki, sağda, solda, hər tərəfdə insanlar qanına qəltan edilir. 16 dekabr 1986-cı il tarixində Almatıda yüzdən çox insan məhv edildi. Sonradan öyrəndik ki, ölənlərin sayı hardasa 170 nəfəri keçib. Başqa şəhərlərdə də etiraz dalğası baş qaldırmışdı. Oralarda da Sovet əsgərləri bizimkiləri qırırdılar. Mitinqlər yatırılandan sonra da həbslər başladı. Hamımızın adları müəyyənləşdirildi və mənim kimi tələbələr etiraz etdiyi üçün universitetlərdən qovuldu. Hələ mən yaxşı qurtulmuşam. Həbs edilənlər də çox oldu. Özü də deyirlər ki, onlara dəhşətli işgəncələr verilirmiş. Aralarında sonradan ölüm hökmü kəsilənlər də oldu. Sənin "şanlı" dediyin Sovet ordusu budur əslində.

Azərin qafası indi doğrudan da qarışmışdı. Bir həmin o Özbəkistanlı Ahıska türkü Qəhrəmanın de-

dikləri, bir də bu Omarbekovun anlatdıqları Sovet Vətəninin heç də aydan arı, sudan duru olmadığından xəbər verirdi. Deməli, bizə təbliğ edilən sülh, yüksək rifah ölkəsi, əslində, bir millətin – rusların faydası üçün mövcud imiş. “Düşünmək lazımdır, Azər, düşünmək. Bir yanda bu ermənilərlə münasibətlərimizdəki gərginlik, bir yanda sürgünlər, bir yanda da lap bu yaxında insanların kütləvi şəkildə məhv edilməsi. Yox, bu Sovet Vətənimiz, deyəsən, nəsə heç də mən istədiyim bir şey deyil axı.” Bu düşüncələr Azərin ağlını əməlli-başlı qarışdırmışdı...

* * *

Qış deyəsən yavaş-yavaş yerini əldən verməyə başlamışdı. Həm də bu qış əvvəlki qışa bənzəmirdi nəsə. Azərin Almaniyaya gəlişinin ilk ilindəki qış o qədər sərt keçmişdi ki, almanların özləri belə şikayətçi olmuşdular. Günlərlə davam edən qar yağışları 20 dərəcəlik şaxta ilə müşayiət edilirdi. Qartəmizləyən maşınlar gecə-gündüz işləsə də ətraf ağappaq qarla örtülü qalırdı. Yolların qırağında bir neçə metr hündürlüyündə qar qalaqları ağara-ağara qalmışdı. Özü də bu qalaqlar silsilə dağlar kimi bir-birinə söykənərək alman qışına ayrı bir gözəllik verirdi. Vallah, bu Almaniyanın qışı da ayrı bir gözəllik imiş.

İndiki qış isə, heç qışa bənzəmirdi axı. Bəzən elə olurdu ki, əsgərlər gündüz vaxtı şinelsiz gəzirdilər. Günəş çıxır, yağıntılar az, külək filan da yox. Elə bil Azərbaycanın yazıdır. Belə bir havası olan qışda Almaniya kimi bir yerdə əsgərlik çəkməyə nə vardı ki?

Bir yandan da bu yaxşı idi. Çünki artıq bundan sonra Azər və dostları alman qışı görməyəcəkdilər. İndi onlar üçün geri sayım başlamışdı. Qış bitib yaz gələcək, adəti üzrə yaz çox sürətlə keçəcəkdi. Ardından yay gələcək, Azər və dostlarının gözləri payızın yollarına dikiləcəkdi. Ən pis halda isə payız bitincəyə qədər onlar öz yurdlarına dönəcəkdilər.

Amma hələ buna çox vardı. Ətrafda fevral ayı idi. 1988-ci ilin fevral ayı. Bura Almaniya idi. Azərbaycandan tam beş min kilometr uzaqda bir yer. Azərbaycanda isə nəsə hadisələr olmaqdaydı. Lakin bundan uzaq Almaniyada kimsənin xəbəri yoxdu. Yalnız bir axşam Moskvadan yayımlanan "Zaman" xəbərlər proqramındakı o müdhiş xəbərə qədər...

Axşam vaxtı adəti üzrə əsgərlər yenə də televizorun qabağında oturub "Zaman" proqramını gözləyirdilər. Azər də o axşam bir neçə saatlıq hərbi hissəyə gəlmişdi. Düşündü ki, xəbərlərə baxıb sonra qazanxanaya qayıdar.

Hər günkü kimi sıxıcı bir hava vardı. Ancaq proqram başlayan kimi bu hava dəyişdi. Aparıcı xəbər

başlıqlarını elan edirdi: "Azərbaycanda ermənilərə qarşı zorakılıqlar baş verməkdədir"...

Bu başlıq elan edilən kimi bütün əsgərlər dönüb Azərə baxdı. Elə bil soruşmaq istəyirdilər ki, "siz orda nə edirsiniz belə?" Azər də eyni qaydada, sual dolu baxışlarla onların üzünə baxdı və anlaşıldı ki, hamı kimi o da nə baş verdiyindən xəbərsizdir.

Az sonra aparıcı Azərbaycanda baş verənləri ana xəbər kimi təqdim etməyə başlayanda hər şey anlaşıldı. Bakıdan otuz kilometr quzeydə yerləşən Sumqayıt şəhərində Azərbaycanlılarla ermənilər arasında qarşıdurma olmuşdu. Xeyli sayda insanın öldürüldüyü bildirilən xəbərə görə, Azərbaycanlılar şəhərdəki ermənilərin evinə basqın edərək onları pəncərədən atır, evlərini talayırmışlar. Hüquq mühafizə orqanları vaxtında müdaxilə etməsəymiş hadisələr daha da böyüyəcəkmiş və yaxşı ki, daha böyük qırğının qarşısını almaq mümkün olubmuş. Aparıcı bu qırğınları törədənlərin arasında Azərbaycanlı gənc fəhlə Əhməd Əhmədovun adını xüsusi qeyd elədi. İddia edildi ki, həmin bu Əhməd bütün baş verənlərin əsl təşkilatçısı imiş və artıq həbs edilib. Hamının həyəcanla izlədiyi bu xəbərin sonunda Azər özündən ixtiyarsız, uca səslə "Allah sənə lənət eləsin!", – deyə əlini əlinə vurdu. Hamı dönüb ona baxanda, "elə bir bu çatmırdı" – deyib yerindən qalxdı. Ürəyində Sumqayıt qırğınını

törətmiş Əhmədi lənətləyə-lənətləyə əsgərlərdən ayrılıb öz yatağına yönəldi. Azər hardan biləydi ki, əsl lənətlənəsi adam ermənilərin öz millətindən olan, sonralar Sumqayıt olaylarını təşkil etməsi məhkəmədə sübut edilən və onların öldürülməsində birbaşa iştirak edən Grigoryan idi? İndi Azərin, inandığı bu xəbərin təsiri altında öz həmvətəni olan Əhmədi və onun kimilərini ittiham etdiyi bir vaxtda, əslində, erməni qırğınının törədilməsinə görə ermənilərin özlərindən olanlar qınanmalıymış. Bunu isə zaman göstərəcəkdi. Hələliksə Sovet təbliğat maşını tam gücüylə ermənilər üçün işləyirdi və bütün dünyaya Azərbaycanda ermənilərin vəhşicəsinə öldürülməsi haqqında yalanlar tirajlanırdı.

Sumqayıt xəbərinin yayılmasından sonra keçən günlərdə artıq hərbi hissədə cürbəcür söhbətlər yayılmağa başladı. Azərbaycandan gələn məktublarda tamam başqa xəbərlər vardı. Örnək üçün, bir əsgərin atası yazırdı ki, Ermənistandan Azərbaycanlıları qovurlar. Hətta iddia edilirdi ki, Azərbaycanlılar öldürülür, onların evləri talan edilir, yandırılır. Məktublarda Sumqayıt hadisələri haqqında da yazılırdı. Anlaşılan bu idi ki, Moskva TV kanalının yaydığı xəbər heç də doğru deyilmiş. Azərbaycandan gələn məktublarda açıq şəkildə iddia edilirdi ki, Sumqayıt qırğınlarını ermənilərin özləri təşkil edib ki, nə

qədər "yazıq" xalq olduqlarını dünyaya göstərsinlər. Rəqəmlər də qeyd edilirdi. Bəzən bu rəqəmlər çox qorxunc olurdu. Misal üçün, bir məktubda yazılmışdı ki, Sumqayıtda yüzlərlə adamın öldürüldüyü haqqında şayiələr gəzir. SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin agentləri Azərbaycanın hər tərəfində xalqın arasında qorxu və həyəcan yaratmaq üçün cürbəcür şayiələr yayırmışlar. Vətəndən bu qədər uzaqda olaraq nə baş verdiyini doğru-dürüst anlamaq çox çətin məsələ idi. Ancaq baş verənlərin millət məclisində müzakirəsinə ehtiyac vardı. Ən azından ona görə ki, buradakı ermənilərlə baş verə biləcək qarşıdurmalara hazırlaşmaq lazım idi. Düzdür, sayları az olduğu üçün onlar hər hansı sıradışı hərəkətə cürət etməzdilər. Lakin yenə də hazırlıqlı olmağa gərək vardı. Ermənidir, bir də gördün qəfildən elə yerdən zərbə endirdi ki, heç xəbərin də olmadı. Onlar Azərbaycanlılar kimi deyildilər. Azərbaycanlılar biri ilə dalaşanda da açıq şəkildə deyirdilər ki, hazır ol, üstünə gəlirəm. Ermənilər isə öz rəqiblərini qəfil və xəlvətdə yaxalamaq yolunu tutardılar. Məhz buna görə də Azərbaycanlıların bundan sonra olacaqları müzakirə edib hazırlaşması lazım idi.

Elə bu düşüncəylə də Azər millətin yeni başçısı Ağcabədili Asifə fikrini bildirəndə o, dərhal qərar verdi ki, həmişəki kimi şənbə günü yığışıb müzakirə aparmaq lazımdır.

* * *

1988-ci il martın ilk günlərindən biri idi. Həm də şənbə günü. Altmışadək Azərbaycanlı əsgər yenə də hamamla hasarın arasındakı boş əraziyə toplaşmışdı. Bu gün müzakirə ediləcək əsas məsələ ermənilərlə münasibətlər olacaqdı. Ancaq başqa məsələlər də vardı. Hər zamankı kimi Azərbaycanlı əsgərlərin üzləşdiyi problemlər, millətin qaydalarına zidd hərəkət edənlər və s. Lakin anlaşılan o idi ki, indi hamı erməni məsələsinin müzakirəsinə köklənib. Elə buna görə də millət başçısı Asif digər məsələlərin üzərində çox dayanmayaraq əsas mətləbə keçdi. Əvvəlcə o, Sumqayıt hadisələri haqqında rəsmi xəbərlərə toxundu. Sonra isə bildirdi ki, "uşaqlar evdən aldıqları məktublarda başqa şeylərin yazıldığından danışır. Örnək üçün, Sumqayıtdakı olayları ermənilərin özlərinin törətdiyi haqqında çox tutarlı xəbərlər gəlməkdədir. Bundan başqa Ermənistanda Azərbaycanlıların sürəkli basqılara məruz qalması, yurdlarından sıxışdırılması xəbərləri də var. Bu isə o deməkdir ki, Sovet dövlətinin rəsmi təbliğatı nəyisə gizlədir. Çox mümkündür ki, Azərbaycanda bizim heç ağlımıza gəlməyən, daha dəhşətli olaylar yaşanmaqdadır". Bu fikirləri söylədikdən sonra Asif başqalarının da fikirlərini eşitmək istədiyini dedi.

Qaraçöplü Abdurahman hər zamankı çılğınlıqla ermənilərə qarşı tədbirlər görülməsinin vacibliyindən danışdı:

– Bizim kənddə hər evdə az qala bir avtomat var. Üstəlik, bəzi evlərdə qumbaraatan da var. Demək istədiyim odur ki, həm orda, həm də burda ermənilərə qarşı tədbirli olmaq lazımdır. Demirəm ki, indi hücum edib onları qıraq. Heç olmasa özümüzü qorumaq üçün ehtiyatımızı görməliyik.

Ağdamlı Ziyəddin də Abdurahman kimi çılğın danışdı:

– Mən də elə bilirəm ki, biz ermənilərin gözünü almasaq onlar bizə nəsə edə bilərlər. Gəlin, onlara müharibə elan edək. Biz etməsək onların özü nəsə xəlvəti hücum edəcəklər. Məncə də ehtiyatımızı görməliyik.

Daha başqa bir neçə nəfər də fikirlərini dedikdən sonra növbə Azərə çatdı:

– Dostlarımın fikirlərinin bəzilərinə mən də qatılıram. Ancaq heç də hamısına yox. Çünki nəzərə almaq lazımdır ki, biz vətəndən çox uzaqdayıq. Üstəlik burada dava düşsə ruslar heç də bizi deyil, erməniləri dəstəkləyəcək. Bizim alayda isə ən azı altı yüz rus əsgəri var. Zabitlərin də demək olar ki, çoxu rusdur. İndi təsəvvür edin ki, dava düşüb. Sizcə, ruslar kimin tərəfində olacaq?

Asif söhbətə qarışdı:

– Bizim ruslarla nə işimiz var axı? Həm də bu vaxta kimi olan davalarda ruslar heç vaxt ermənilərin tərəfində olmayıb. Məncə, bir şey olsa biz ruslardan arxayın ola bilərik.

Azər cavab verdi:

– Necə yəni arxayın ola bilərik? Asif, görmürsən Moskvanın rəsmi təbliğatı nə deyir? Axı Moskva birmənalı şəkildə Azərbaycanın əleyhinə təbliğat aparır. Deməli, burda dava düşsə lap elə komandanlıq səviyyəsində bütün rusları bizə qarşı çevirəcəklər. Adını da qoyacaqlar ki, Azərbaycanlı əsgərlər erməniləri öldürmək istəyirdi. Necə ki, Sumqayıt haqqında yalan-palan uydurub dünyaya yayırlar, burda da yalan uydurmaq onlar üçün çətin olan deyil.

– Yaxşı, bunu başa düşdük. İndi sənin təklifin nədir? Biz necə edək ki, həm tədbirli olaq, həm də bu itlərin payını verək?

– İtlərin payını hələlik bir kənara qoyaq. Dediyim kimi, bir balaca olay çıxan kimi günahkar bizi elan edəcəklər. Gəlin, ağıllı hərəkət edək ki, ilişməyək. Mənim təklifim budur ki, hər birimiz hətta gecə yatanda da tədbirini alsın. Bir də gördün, ermənidir, gəldi nəsə etdi, bizə böhtan atıb aradan çıxdı. Bunlardan hər şey gözləmək olar. Tədbirimizi aldıqdan sonra hər kəs bir şeyi yadında saxlasın ki, hər an ermənilərlə

müharibə ola bilər. Əlbəttə, buna az ehtimal verirəm. Ancaq tədbirli olmağın da zərəri yoxdur.

Azərin təklifi millət başçısı Asifin də, toplantıya qatılanların da ağlına batdı. Sonda qərara alındı ki, ermənilərlə dava üçün hazırlıq görülsün. Ancaq mümkün qədər bu davanın baş tutmaması üçün çalışılsın. Əgər ermənilər özləri davaya başlasa və ya müharibə elan etsə tam şəkildə onların cavabı verilsin. Hətta bu zaman yaralanan, ölən və tutulanlar olsa belə. Çünki bu erməni milləti elə bir bəladır ki, onların önündən qaçsan sənin nəslini kəsmədikcə əl çəkən deyillər. Bu millətin xisləti elədir ki, yalnız güc qarşısında təzim edərlər. Bunlarla barış, dinclik və dostluq haqqında danışsan elə biləcəklər ki, qorxursan və kürəyinə bıçaq saplayacaqlar.

Əslində bu fikirlər Azər üçün o qədər də tanış deyildi. Hələ əsgərliyə gəldiyi ilk günlərdə Qarabağdan, Göyçədən, Zəngəzurdan gələn əsgərlər ermənilər haqqında danışanda Azər təəccüblə qulaq asırdı. Bəzən də onlara deyirdi ki, nağıl danışırsınız. Axı Azərin doğulub boya-başa çatdığı bölgədə heç vaxt erməni yaşamamışdı. Onun tanıdığı tək bir erməni vardı. Qardaşı Abdullanın dostu Garik. Əslində ona da tam erməni demək olmazdı. Garikin atası Azərbaycanlı idi, anası isə erməni. Hə, bir də Şuşanik adlı bir erməni arvadını da az-çox tanıyırdı.

Bu Şuşanik isə Azərgilin kənddəki qonşusu Əhəd dayının qonağı idi. Şuşanik və ailəsi hər yay Əhəd dayıgilə qonaq gələrdi. Onda Azər bilmişdi ki, bunlar ermənidir. Əlbəttə ki, bu iki ermənidən başqa onun həyatda canlı şəkildə gördüyü erməni yox idi. Onlar isə adam kimi gəlib-gedir, heç bir ayrıseçkilik etmirdilər. Üstəlik də Sovet təbliğatı xalqların qardaşlığını təbliğ edir, ermənilərlə Azərbaycanlıların əbədi dost olduğunu şüurlara yeridirdi. Azər də qatı bir komsomolçu, gələcək kommunist olduğu üçün bu deyilənlərə nəinki inanır, həm də yaşının azlığına baxmayaraq təbliğatını da aparırdı. Ancaq əsgərliyə gələndən sonra ermənilər haqqında elə şeylər eşidirdi ki. Qarabağlılar, Ermənistanlılar, Borçalı uşaqları ermənilərin əzazil olmasından, Azərbaycanlı adında bir millət tanımamasından, özünü "Azərbaycanlı" adlandıran millətə "türk" deməsindən danışırdılar. Bu sonuncu məsələni Azər öz üzərində də hiss etmişdi. Dəfələrlə olmuşdu ki, tanımadığı erməni əsgərlər ona "hayes, türkes?" (ermənisən, türksən?) deyə sual vermişdi. İlk vaxtlar o, bunu başa düşməsə də sonradan anlamışdı ki, ermənilər üçün bütün Azərbaycanlılar "türkes", yəni türkdür! Bu isə Azərin beynini qarışdırırdı. Çünki uşaq olduğu vaxt heç kim ona demirdi ki, sən türksən. Düzdür, məktəbdə oxuduğu vaxt qonşu kəndlərdən gələn tat, ləzgi, qırızlı uşaqları ilə

məzələnərək onları öz adları ilə çağırırdılar. "Ay tat", "ay allahın ləzgisi", "allahın qırızlısı" deyə. Ancaq bundan heç kim incimirdi. Onlar da Azərə cavablarında "nədir, ay allahım moğolu?" deyə cavab verirdilər. Bu moğol nə demək idi? Onu heç anlamırdı.

Azər evdə olarkən anasından ermənilər haqqında eşitdiklərini hələ də nağıl kimi, uydurma kimi qəbul edirdi. Elə düşünürdü ki, bunlar da xalq nağıllarında şişirdilərək təqdim edilən olaylar kimidir. Qınanası da deyildi. Çünki məktəbdə də, mətbuatda da durmadan iddia edilirdi ki, Azərbaycan və erməni xalqları tarixən həmişə dost və qardaş olublar. Onların arasında bəzən ortaya çıxan çatışmaları isə imperialist qüvvələr törədib və hər iki xalqın müdrikləri yığışaraq yenidən dostlaşa biliblər. Ancaq indi anlamağa məcbur idi ki, anasının danışdıqları, deyəsən, heç nağıla bənzəmir. Bəlkə də anası hələ çox şeyi bilmirdi və bu üzdən də danışdıqları heç də tam hesab edilə bilməzdi. Əsgər yoldaşları arasında olan Qarabağlılar, Ermənistanlılar Vələd babanın əhvalatlarından daha dəhşətlilərini danışırdılar. Onlara da Azərə olduğu kimi anaları, ataları, baba və nənələri danışmışdı bu olaylar haqqında...

Və yenidən ermənilər hərəkətə keçmişdilər. Azərbaycanlılar bu dəfə də onların basqıları ilə üz-üzə qalmışdı. Ancaq bu uzaq Almaniyada əldən gələn

bir iş yox idi. Yalnız həyəcanla baş verənlər haqqında Moskvanın yalan məlumatlarını dinləmək və oxumaq, bir də Azərbaycandan gələn məktublarda yazılanları tutuşdurmaqdan başqa çarə yox idi...

* * *

Bu il yaz Almaniyaya çox tez gəldi. Artıq fevralın sonunda yazın nəfəsi duyulmağa başlamışdı. Elə qış da qış kimi keçməmişdi ki. Almaniya ola, qış ola, əsgər şinelsiz çölə çıxa? Belə şey görülməmişdi. Ancaq Azərin bu ölkədəki sonuncu qışında bu baş vermişdi.

Yazın gəlməsi ilə Azərin qazanxanadakı işi də sona çatacaqdı. İndi yəqin yenidən hərbi hissəyə qayıdıb başqa əsgərlər kimi rejimə alışmaq lazım olacaqdı. Əslində rejim çərçivəsində yaşamaq Azər üçün çətin deyildi. Əksinə, o, rejimi və qayda-qanunu sevən birisi idi.

* * *

Aprelin ortalarında qazanxanadakı iş başa çatdı. Batalyon komandiri Azərin artıq işlərini toparlayıb təhvil verməsini, ardından da hərbi hissəyə qayıtmasını tapşırdı. Toparlama deyəndə də bir şey yox idi. Azər öz kağız-kuğuzunu, xırda-para əşyalarını bir

çantaya doldurub sonuncu dəfə qazanı, su kranlarını və elektriki yoxladıqdan sonra qapını qıfıllayıb altı ayını keçirdiyi zirzəmidən ayrıldı.

...Bura adi bir zirzəmi olsa da Azər oradan ayrılanda bir növ əziz bir yerdən ayrılırmış kimi hislər keçirməyə başladı. Əvvəlcə içəriyə göz gəzdirdi. Zirzəminin divarlarına baxdı. Öz çarpayısına, burada qoyub gedəcəyi köhnə radioya diqqət kəsildi. Bəzən gecənin gec vaxtlarında sakitlik içində səsli şəkildə məktub oxumasını xatırladı. Bəzən də oxuduğu kitabların təsiri altında qəhərlənməsi, göz yaşlarına boğulması yadına düşdü. Bu vaxtadək diqqət yetirmədiyi quru divarlar indi onun üçün o qədər əziz olmuşdu ki. Sanki Azərbaycanın bir guşəsində olan Dədəli kəndindəki evlərindən ayrılırdı. Zirzəmi bir az dairəvi, yumru şəkilli idi. Bu da Azərə nəyisə xatırladırdı. Özü də maraqlısı o idi ki, burada qaldığı müddətdə heç vaxt ağlına gəlməyən bir şey indi ona nəsə deyirdi.

Yadına düşdü. Uşaqlıqda kənddəki iki qatlı evlərinin birinci qatında gecələr ata-anasıyla birlikdə yatanda tez-tez gördüyü bir yuxu idi onun xatirələrini oyadan. Özü də anlamırdı ki, nədən bu anda, bir az da həsrətli bir anında həmin yuxunu xatırlayır. Axı o yuxunun bu zirzəmiyə nə dəxli vardı? Heç dəxlinin olması da mümkün deyildi axı...

...Lap balaca uşaqkən Azər ata-anasıyla birlikdə evlərinin "alt ev" dedikləri birinci qatındakı kiçik otaqda yatardı. Ailələri böyük idi. Altı qardaş, iki bacı, ata və anadan ibarət olan bu ailənin alt-üst cəmi dörd otağı olan bir evdə yerləşməsi elə də asan deyildi. Ona görə də evin ən kiçiyi olması üzündən Azər hələ də ata-anasının yanında yatırdı. Həmin o uzaq uşaqlıq gecələrində Azər tez-tez bir yuxunu görürdü. Özü də bu yuxu artıq onun üçün adi hala çevrilmişdi. Elə gözünü yuman kimi bilirdi ki, bir azdan yuxuya gedəcək və onun həyatının bir parçasına çevrilmiş yuxusunu görəcək. Əvvəl heç nə başa düşmürdü. Uşaq idi. Heç sonralar da bunu başa düşmədi. Təbii ki, bir gün gələcək, Azər həmin yuxunun nə anlam daşıdığını başa düşəcəkdi. Ancaq uşaqkən heç ağlına belə gətirməyəcəyi bir yozumu vardı o yuxunun.

...Yatağa uzanıb yuxuya gedən kimi Azərin gördüyü şey balaca bir nöqtə olurdu. Görürdü ki, yatdığı otaqda gözlərinin düz qarşısında bir az tozlu-dumanlı xırda bir nöqtə əmələ gəlir. Bir az keçəndən sonra həmin nöqtə böyüməyə başlayırdı. Və ardından da bu böyümə sürətlənir, nöqtə az sonra bütün otaq boyda olurdu. Bundan sonra isə o otaqdan bayıra yayılır, böyüdükcə böyüyür və sonsuza qədər gedirdi. Azər öz yuxularında həmin nöqtənin hara qədər böyüdüyünü heç vaxt görmürdü. Çünki nöqtə elə

böyüklükdə olurdu ki, onun ucu-bucağı görünmür, bir insan ağlının dərk etməyəcəyi ənginliklərə gedib çatırdı. O, bu yuxusunu heç kimə danışmazdı da.

İndi isə Almaniyanın bu yeraltı zirzəmisindən ayrılarkən həmin yuxu yadına düşmüşdü. Özü də illər uzunu heç yadına düşməyən bu yuxu nədən indi yadına düşürdü? Anlamırdı o bunu. Elə anlamayaraq da öz zirzəmisindən ayrıldı.

Hərbi hissəyə qayıdan Azərə dostları və əsgər yoldaşları xoş gəldin elədikdən sonra o da başqaları kimi adi əsgər rejimində xidmət keçməyə başladı. Yenə də səhərlər saat altıya on dəqiqə qalmış yerindən qalxır, əl-üzünü yuyub səhər qaçışına yollanırdı. Azər başqa əsgərlərdən fərqli olaraq üç kilometr deyil, yenə də altı kilometr qaçırdı. Özü də səhər idmanını yenə də hamı ilə birlikdə eləmirdi. Əsgərlərin birgə idman hərəkətləri çox sadə olurdu. Bir, iki, üç, dörd. Sağa dön, sola dön və s. kimi. Azər isə bütün bunlardan ayrı və fərqli idmanla məşğul olduğu üçün yenə də səhərlər “Qalx!” komandasına on dəqiqə qalmış özü yuxudan durar, bir yalquzaq təkin hərbi hissədən ayrılıb üzü meşəyə sarı qaçardı. Bu qaçış yolunun bir kilometr yarımının sonunda həmin atəş sahəsi vardı. Adətən əsgərlər bu sahəyə qədər qaçıb geri dönərdilər və bu da üç kilometr məsafə edərdi. Azər isə atəş sahəsini ke-

çib şam meşəsinin içiylə daha bir kilometr yarım qaçardı. Beləliklə bir tərəfə üç kilometr qaçdıqdan sonra geriyə eyni yolla deyil, meşədən çıxıb şəhərə gələn asfalt yolun kənarıyla dönərdi. Azər getdiyi yolla təkrar geri qaçmağı sevməzdi. Onun şakəri elə hey irəli qaçmaq idi deyə hərbi hissəyə bir növ başqa yolla, dövrə vuraraq qayıdardı. Qazanxana növbəsindən əvvəl olduğu kimi yəni. Yenə də hər şey əvvəlki axarına düşmüşdü.

Altı kilometrlik qaçışdan sonra o, özünün sərəncamında olan idman zalına gələr, burada bir az dartınma, bir az ağırlıq qaldırma, bir az boksla məşğul olardı. Özü də idman zalında tək olduğu üçün ona mane olan yox idi. Və bu çalışmalar onun bədənini formada tutmasına kömək edərdi. Daha sonra aşağı enib qurşağa qədər soyuq suyla yuyunar, digər əsgərlər gələnə qədər üzünü də qırxıb hazır vəziyyətdə həyətə düşərdi.

Azər başqa əsgərlər kimi kəmərini heç vaxt boş buraxmağı sevməzdi. Onun kəməri həmişə sıx bağlanmış olurdu. Bu isə bədəninin idmançı cizgilərini açıq şəkildə ortaya qoyurdu. Kəmər sıxılan beli o qədər balaca idi ki, kənardan baxanlar onun hansısa peşəkar idmançı olduğunu zənn edərdilər. Ancaq Azər peşəkar deyildi. Sadəcə öz sağlamlığının qayğısına qaldığı üçün bədəni həmişə formada olurdu.

Beləcə artıq bir neçə gün idi ki, Azər yenidən əsl əsgər rejimində yatıb qalxırdı. Səhər yeməyindən sonra hamı kimi texnika parkına gedirdi. Heç bir işi olmasa da orada əsgərlərlə birlikdə gəzib dolaşır, lazım olanda əsgər dostlarına kömək edirdi.

İlıq yaz günlərindən birində də belə oldu. Səhər yeməyini yeyib parka yollandılar. Həftə sonu idi. Texniki məsələlər üzrə komandir müavini bütün əsgərlərə sərəncamlarında olan maşınları, tankları və piyadaların döyüş maşınlarını yuvadan çıxarıb səliqəyə salmağı tapşırmışdı. Bütün nəqliyyat vasitələri yuvalarından çıxıb sıra ilə düzülmüşdülər və qızğın iş gedirdi. Kimisi maşını rəngləyir, kimisi silir, kimisi də sadəcə ora-burasını qurdalamaqla vaxt keçirirdi.

Azərin heç yadından çıxmaz. Parkın sağ yoluna yaxın yerləşən yuvadan "Ural" markalı yük maşınını çıxarıb səliqəyə salanlardan biri də həmin o əslən Qazaxıstanın Çimkənt vilayətindən olan özbək balası Ötkir idi. Ötkir Azərin ən yaxın dostlarından olduğu üçün sözləri, söhbətləri həmişə tutardı. Ona görə də maşını, texnikası olmayan Azər onun yanında dayanıb vaxtını keçirirdi və bu zaman çox maraqlı bir hadisənin şahidi oldu.

Ötkir öz maşınının ön tərəfindəki xüsusi təyinatlı polad kanatı açıb parkın əsas yolunun o biri

qırağındakı dirəyə bağlamışdı. Məqsədi kanatı silib təmizləmək, sonra da yağlayaraq yerinə qaytarmaq idi. Buna görə də onu tarım çəkmişdi ki, rahat işləyə bilsin. Yalnız bir şeyi nəzərə almamışdı ki, bu hərəkəti ilə yolu köndələninə kəsmiş olur. Az sonra həmin bu kanat məsələsi ortalığı qarışdıracaqdı.

Parkda sürət həddi saatda 5 kilometr qoyulmuşdu. Bundan yüksək sürətlə hərəkət etmək olmazdı. Ona görə də hər hansı qəza baş verəcəyi təqdirdə elə də ciddi problem olmurdu. Ancaq Ötkirin bu kanat məsələsi əməlli-başlı səs-küyə səbəb oldu.

Parkın yuxarı tərəfindən düz yolla üzü aşağı gələn başqa bir "Ural" maşınının sürücüsü Ötkirin köndələninə yolu bağlayan kanatını görməmişdi. Daha doğrusu gec görmüşdü. Görəndə də artıq iş işdən keçmişdi. Maşının işıqları qalın və tarıma çəkilmiş kanata dəyib çilik-çilik olmuşdu. İndi bu maşındakı sürücü əsgərin yanında oturan gizir yolu kəsən Ötkirlə haqq-hesab çəkməyə gəlmişdi. O, Ötkirdən sürücülük vəsiqəsini almaq istəsə də Azərin özbək dostu təkidlə sənədini vermək istəmirdi. Gizir də vəsiqəni zorla almağa cürət eləmirdi. Lakin bir az səsini yüksəldərək Ötkiri hədələyir və sənədi verməyəcəyi təqdirdə şikayət edəcəyini deyirdi. Axırda Ötkir buna dözmədi və əsəbi şəkildə əlini

cibinə salıb vəsiqəni çıxardı və gizirin gözünə soxurmuş kimi ona uzatdı:

– Al, al! Bunu istəyirsən? Al, sox gözünə!

– Sözlərinə diqqət et, əsgər! O nə ifadədir işlədirsən?!

– Vəsiqəni istəmirsən? Verirəm də! Al, sənin olsun!

– Bayaqdan verə bilmirdin?! Ver bura!

– Al dedim də! Al! Onsuz da evə qayıdan kimi pulunu verib təzəsini alacam!

Ötkirin sonuncu cümləsi ətrafa toplaşanlarda elə bir ovqat yaratdı ki, əsgərlərin, zabitlərin az qala hamısı şaqqanaq çəkib güldü. Belə bir cavab gözləməyən gizir isə yerində donub qaldı. İndi buna nə desin? Yaxud da nə deyə bilərdi axı? Heç nə!

Bir qədər susqunluqdan sonra gizir Ötkirin vəsiqəsinə baxıb onu geri qaytardı. Həm də artıq o da gülənlərə qoşulmuşdu. Əvvəl qanı qara olan gizirin əhvalı tamam dəyişmişdi. Əslində, vəsiqəni almaqdan məqsədi bu idi ki, onu da götürüb hərbi hissə rəhbərliyinə şikayət etsin. Ancaq ortaya bu komik olay çıxınca o fikrini dəyişdi və özündən xəbərsiz hamıya qoşulub gülməyə başladı. Bu minvalla da Ötkirin sürücülük vəsiqəsi özündə qalmış oldu.

Bu cür maraqlı olaylarla müşayiət edilən əsgərlik günləri bir-birini çaparağı qovalayaraq su kimi axıb gedirdi. Aprelin sonuna doğru idi. Azər də hər gün bütün əsgərlərlə parka gəlir, orada vaxtını keçirib geri qayıdırdı. Bəzən də komandirindən izn alıb kazarmada qalır, idmanla məşğul olur, yazı-pozu, kitab oxumaqla vaxtını səmərəli keçirirdi. Düzdür, artıq evi, yurdu üçün ilk günlərdə olduğu kimi darıxmırdı. Ancaq arabir tək qalanda, yaxud da kitablardan həsrət dolu bir şey oxuyanda fikrə dalır, anasını, atasını, bacı-qardaşlarını, sinif yoldaşlarını yadına salıb duyğulanırdı. Yada saldıqları arasında qapısına "qumbara atmağa" razı olmadığıl G. də var idi.

Azər bir gün yenə də kitab oxumaqda idi. İkinci dünya savaşında Sovet əsgərlərinin çox sevdiyi Konstantin Simonovun şeirlərini oxuyurdu. Özəlliklə də onun "Gözlə məni" şeirini təkrar-təkrar oxuyur, oxuduqca gözlərini yumub G.-ni xatırlayırdı. Həm də şeiri oxuduqca fikrində öz ana dilinə də çevirirdi. Bir az sonra anladı ki, bu şeiri əməlli-başlı şeir kimi öz ana dilinə çevirə bilər və qələmə sarıldı. Beləliklə, onun rus ədəbiyyatından ilk tərcüməsi meydana çıxdı:

# Gözlə məni

Gözlə məni, mən dönərəm,
Təki sən gözlə.
Gözlə sarı yağışlar
Qəm, kədər gətirəndə.
Gözlə qar sovrulanda,
Gözlə isti düşəndə.
Başqaların unudub
Heç kim gözləməyəndə,
Gözlə uzaq ellərdən
Məktublar gəlməyəndə
Gözlə, birgə gözləyib
Hamı əldən düşəndə.
Gözlə məni, mən dönərəm
– Unutmaq vaxtı gəldi -
Deyib qışqıranlara
Xeyir arzu eləmə.
Qoy mənim yoxluğuma
İnansın ana, oğul
Qoy dostlarım yorulub
Yaxşı bir tonqal çatıb
Mənim ehsanım kimi
Acı şərab içsinlər.

Gözlə. Onlarla birgə
Sən içməyə tələsmə.
Gözlə məni, mən dönərəm
Ölümün acığına.
Məni gözləməyən qoy,
Desin, – Bəxti gətirdi.
Anlamaz gözləməyən
Necə odun içindən
Öz gözləməyinlə sən
Məni xilas etmisən.
Necə sağ qaldığımı
Biləcəyik ikimiz
Sadəcə gözləməyi
Sən yaxşıca bacardın.

Azər şeiri kağıza köçürdükdən sonra təkrar-təkrar oxudu. Baxdı ki, əməlli-başlı şeir alınıb. Sevindi. "Ə, məndən də şair çıxar axı deyəsən", – deyə düşündü. Ruscadan ilk ədəbi tərcüməsi doğrudan da əla alınmışdı. Hər halda özü belə düşünürdü. Başqa cür ola da bilməzdi. Çünki onun rus dili bilgisi mükəmməl idi. Hətta o qədər mükəmməl idi ki, rusların özləri bəzən çaşırdılar ki, "yəqin rus məktəbində oxumusan". Ona deyirdilər ki, sən rus dilində lap rus kimi danışırsan. Halbuki Azər nəinki rus məktəbində oxumamış, heç yaşadığı kənddə al-

lahın bir rusunu da görməmişdi. Ancaq doğrudan da rus dilini bir çoxlarının, hətta rusların belə qibtə edəcəyi səviyyədə bilirdi.

Söhbət rus dilindən düşmüşkən, o, orta məktəbin doqquzuncu sinfində oxuyarkən baş verən bir olayı xatırladı. Qusarçay kəndindən Dədəliyə Musa adında bir rus dili müəllimi gəlirdi. Bu müəllim bəzən uşaqları çox incidirdi. Onları, "Ə, eşşəyin biri, eşşək! Dərsini niyə oxumursan?" – deyə danlayır və oğlanları da arabir şapalaqlayırdı. Düzdür, Azəri döyməzdi. Çünki Azər həm dərsini yaxşı oxuyurdu, həm də elə şərait yaratmırdı ki, müəllimlər ona əl qaldırsın.

Ancaq günlərin bir günündə Musa müəllim Azərə əl qaldırmaq istəmişdi. Və gözləmədiyi cavabı almışdı.

Azərgilin kəndinə Gülnarə adında yeni bir rus dili müəllimi göndərmişdilər. Əslən Xudatdan olan bu gənc ləzgi qızı Azərbaycan dilini yaxşı bilmirdi. Daha doğrusu, danışırdı, yazırdı, ancaq bəzən hansısa sözdə ilişib qalırdı. İndi bu gənc kadrı ilk günlər təcrübə toplamaq üçün Musa müəllimin dərs dediyi Azərgilin sinfinə göndərmişdilər. Məktəbin direktoru Səfərbəy müəllim məsləhət görmüşdü ki, Gülnarə müəllimə bir neçə gün Musa müəllimin dərslərini müşahidə etsin, ondan sonra sərbəst şəkildə dərslərə girə bilər. Azərgilin sinfinə də o, dərs deyəcəkdi.

Musa müəllim də gənc idi və dərsini müşahidə edib ondan təcrübə almaq istəyən gənc və gözəl bir xanımı görüncə özünü göstərmək istəmişdi. Tərslikdən də həmin gün Azər ev tapşırığını yazmamışdı. Bəzi uşaqlardan fərqli olaraq o, heç vaxt hansısa bəhanə gətirməzdi. Dərsini hazırlamayanda yalandan "işıqlar sönmüşdü", "qonağımız gəlmişdi" kimi bəhanələri olmazdı. Müəllim soruşanda ki, niyə dərsə hazır deyilsən, deyərdi həvəsim olmadı. İndi bu Musa müəllim sinfə üzünü tutaraq tapşırığı yazmayanların ayağa qalxmasını istəyəndə Azər də ayağa qalxdı. Bunu Musa müəllimin heç özü də gözləmirdi. Ancaq edəcək bir şey yox idi. Tərslikdən də sinifdəki oğlanların demək olar ki, hamısı ayağa qalxmışdı. Bu isə Musa müəllimi həm pərt elədi, həm də gənc müəlliməyə özünü göstərməsi üçün fürsət verdi.

Musa müəllim sağdakı sıradan başlayaraq uşaqları cəzalandırmağa girişincə, Azər öz yerində qəzəbdən aşıb daşırdı. Çünki onun müəllimi bu dəfə hər zamankından daha sərt və kobud şəkildə uşaqları şapalaqlayırdı. Sağ sıradakı uşaqları şapalaqlayandan sonra Musa müəllim Azərin də oturduğu orta sıraya yanaşdı. Əvvəlcə onun önündəki uşağa bir şapalaq ilişdirdi. Bir-iki söz də deyəndən sonra Azərə yanaşdı. Niyə tapşırığı yazmadığını soruşanda Azər açıq şəkildə dedi ki, başqa işlərim var idi, çatdıra

bilmədim. Bunu eşidən kimi müəllim əlinin arxası ilə onun sifətinə bir zərbə vurmaq üçün hərəkətə keçmişdi ki, Azər onun biləyindən yapışıb sıxdı. Musa müəllim heç gözləmədiyi bir duruma düşdü. Əlini dartıb Azərin əlindən çıxarsa da bir daha onu vurmağa cəhd etmədi. Sonra isə yazı taxtasının önünə qayıdıb bütün sinfə üzünü tutdu və hamını birlikdə danlamağa başladı. Bununla da Azərdən sonrakı uşaqların döyülməkdən canı qurtuldu.

Baş verənləri sakitcə müşahidə edən Gülnarə müəllimə isə, deyəsən, bir az qorxan kimi olmuşdu. Çünki bu uşaqlara o, dərs deyəcəkdi və boyları özünün boyundan yüksək olan bu oğlanlarla baş aparmaq asan olmasın gərək.

Ancaq onun qorxmasına heç gərək yox idi. Çünki sonrakı hadisələr göstərdi ki, Azər heç də göründüyü kimi qorxunc deyil. Özəlliklə də qadın müəllimlərin dərslərində o, quzu kimi sakit oturur, heç bir artıq hərəkətə yol vermirdi.

Lakin bir dəfə elə bu Gülnarə müəllimənin dərsində Azər sinif yoldaşı Teyyubun ağzını qanadanda o, yenə də qorxmuşdu.

Teyyubla Azər hərəsi bir sırada olmaqla yanaşı otururdular. Teyyub bir az şuluq uşaq idi. Dərslərin birində o, Azərə atmaca atdı. Azər də sakitcə dedi ki, özünü yığışdır. Teyyub da "yığışdırmasam nə

edəcəksən?" – deyə soruşanda, Azər sakitcə cavab verdi: "döyəcəm".

– Döyəcəksən, mən də qardaşım Eyyuba deyəcəm. O da səni döyəcək.

– Sən Eyyuba deyəcəksən, mən də böyük qardaşım Abbasa deyəcəm. O da Eyyubu döyəcək.

– Abas qələt eləyir!

Bu söz Teyyubun ağzından çıxanda Azər heç özü də bilmədən sol əlinin üstü ilə onun həmin sözləri deyən dodaqlarına yaxşı bir zərbə ilişdirdi. Zərbənin dəyməsi ilə Teyyubun ağız-burnunun qana bulanması bir oldu. Bunu görən Gülnarə müəllimə tez boyca özündən böyük və cüssəli olan şagirdlərinin arasına girib onları sakitləşdirməyə başladı. Teyyub ağlaya-ağlaya şikayətlənsə də Azər müəlliminin bir sözü ilə səsini kəsib yerinə oturdu. Müəllimə onları sakitləşdirib dərsinə davam etdi.

Zəng vurulandan sonra Gülnarə müəllimə dəhlizdə Azəri yanına çağırıb onunla söhbət eləmək istədiyini dedi. Azər də özəl sayğı duyduğu bu müəlliminin sözünü yerə salmadı və diqqətlə onu dinləməyə başladı:

– Niyə onu vurdun elə?

– Necə niyə? Görmədiniz mənim böyük qardaşımı söydü?

– Bax, Azər, sən yaxşı oğlansan. Bu cür hərəkət sənə yaraşmaz. İlk dəfə səni görəndə qorxmuşdum ki, buna necə dərs keçəcəm? Ancaq sonra gördüm ki, dərslərini də yaxşı oxuyursan, sinifdə də sakit oturursan. Buna görə çox sevinirəm. Lakin bu günkü hərəkətin heç yerinə düşmədi.

– Axı mən nə edə bilərdim. O, elə bir söz dedi ki, heç özümdən də xəbərim olmadan vurdum. Yəqin məni bağışlayarsınız. Heç özüm də istəməzdim ki, sizin dərsinizdə belə hadisə baş versin.

Müəllimiylə bu söhbətdən sonra Azərlə onun münasibətləri daha da səmimiləşmişdi. Hətta dərs zamanı Gülnarə müəllimə hansısa sözü rus dilindən uşaqlar üçün tərcümə etmək istəyəndə çətinliklə qarşılaşarsa, Azərin üzünə baxardı. Çünki Azər öz ana dilini bir məktəb şagirdi üçün tələb ediləndən də yaxşı bilməklə yanaşı rus dilini də ən azı məktəb səviyyəsində yaxşı mənimsəmişdi. Azərbaycan dilini zəif bilən Gülnarə müəllimə isə bəzən ilişəndə gözlərini Azərin üzünə zilləməklə vəziyyətdən çıxırdı. Onların arasında elə bil təbii bir bağ yaranırdı və müəlliminin nə demək istədiyini Azər havada tuturdu. Dərhal da sözün tərcüməsini deyib onu vəziyyətdən çıxarırdı. Bu hal elə ani şəkildə baş verirdi ki, uşaqların heç xəbəri də olmurdu.

İndi isə Azər Azərbaycandan uzaqlarda Konstantin Simonovun o məşhur şeirini müəlliminin ona yaxşı öyrətdiyi rus dilindən belə tərcümə etməyi bacarmışdı. Sevinirdi. Düşünürdü ki, "görəsən müəllimlərim mənim rus dilinə bu səviyyədə yiyələndiyimi görsələr nə deyərlər? Yəqin ki, sevinərlər". Elə onu vurmaq istəyən Musa müəllim də çox sevinər. "Nə olsun ki, uşaqları döyürdü? Bütün müəllimlərin tək məqsədi dərs dediyi uşaqların savadlı olmasıdır. İndi əgər mən rus dilini yaxşı bilirəmsə, deməli, müəllimlərim yaxşı olub. Sevinsinlər, sevinməyə haqları çatır", – deyə o, fikrindən keçirdi.

* * *

Axşama doğru batalyon komandiri Azəri yanına çağırdı:

– Hə, əsgər, yetərincə dincəldin?

– Necə bəyəm?

– Yəni deyirəm qazanxanadakı işindən sonra yeni rejimə alışdınmı?

– Əlbəttə, yoldaş komandir. Mən əsgər rejimini çox xoşlayıram və heç bir problemim yoxdur.

– Elə isə sənə yeni bir tapşırıq. Sabahdan şəhərdəki zavodlardan birində işləməyə başlayacaqsan.

– Nə zavod? Bizim zavoddur? Silah istehsal edəcəyik?

– Yox əşi, nə silah? Almanların zavodunda işləyəcəksən. Orada çuqun qazanlar istehsalı var. Bir müddət sən daha iki əsgərlə həmin yerdə işləyəcəksən. Sonra isə taxta sexinə keçəcəksən.

– Baş üstə, yoldaş komandir! Necə əmr edirsiniz, elə də olacaq!

– Tamam, əsgər. Sabah səhər yeməyindən sonra mayor Poddubnı sizi ora aparacaq.

Bu söhbətdən sonra Azər bilmədi sevinsin, ya kədərlənsin. Çünki əsgərliyinin daha bir neçə ayı mülki işdə keçəcəkdi. Halbuki o, evdən çıxanda arzu etmişdi ki, döyüşlərin qızğın olduğu, əsl kişi məktəbi sayılan Əfqanıstanda xidmət eləsin. O da alınmayanda düşünmüşdü ki, heç olmasa Almaniyada əməlli-başlı xidmət keçər. Di gəl evə getməyə bir şey qalmayıb, ancaq normal xidmət keçdiyi yox. Əvvəlcə yeməkxanada çörək doğramağa göndərdilər. Sonra qazanxanada "xidmət" keçdi. İndi də deyirlər get, zavodda fəhlə işlə. Bunun nəyi əsgərlik oldu daha? Hətta qarovula da ilk dəfə özünün davamlı təkidlərindən sonra göndərmişdilər. Başqa əsgərlərin arzu etdiklərinin heç birini istəməsə də əsgərliyi, deyəsən, sonadək o rejimdə keçəcəkdi. Neynək, belə məsləhətmiş...

Bu arada Azərin yadına sinif yoldaşı, uşaqlıq dostu İlqarla olan söhbətləri düşdü. Doğrudan da

bu Əfqanıstan, əsgərlik məsələlərini necə qızğın müzakirə edirdilər. İndi işə bax ki, Azərin əsgərliyi tank qoşunlarında olsa da elə tikinti batalyonlarında olduğu kimi keçir.

İlqarın isə qorxduğu başına gəlmişdi. Onun məktubları gəlirdi. Azərə şəkillər də göndərirdi. Əfqanıstanın ən qaynar döyüş bölgələrindən birindən – Salanq aşırımından gəlirdi İlqarın məktubları. Azərdən altı ay sonra əsgərliyə getmişdi. Altı ay da təlim keçəndən sonra Əfqanıstana göndərmişdilər onu. Doğrudan da, “sən saydığını say, gör fələk nə sayır”...

...Sonra bəlli oldu ki, Azərlə birlikdə Abdurahman və Baba da zavodda işləyəcək. Yaxşı idi. Hər halda üç dost birlikdə gedib gələcək, işdən sonrakı boş vaxtlarını da birlikdə keçirəcəkdilər. Darıxmaq üçün imkan olan deyildi.

Ertəsi gün Azərgilin batalyonunun siyasi məsələlər üzrə komandir müavini mayor Poddubnının müşayiəti ilə Azər, Abdurahman və Baba zavoda yollandılar. Bu, səhər yeməyindən dərhal sonra baş verdi. Artıq saat səkkizi keçmişdi və mayor onları tələsdirirdi.

Nə Azərin, nə də digərlərinin zavod haqqında təsəvvürü yox idi. Ona görə də yeni iş yerlərini maraqla gözləyirdilər. Zavod hərbi hissədən harda-

sa iki kilometrlik məsafədə olardı. Yerləşdiyi ərazi isə Zerbst dəmiryol vağzalının düz yanında idi. Görünür, sənaye ustası olan almanlar müəssisəni bu əraziyə bilərəkdən qurmuşdular. Çünki zavoddan çıxan məhsulu elə birbaşa dəmiryol qatarlarına yükləyərək təyinat yerinə göndərmək rahat idi.

Bura gəlmək üçün əsgərlər mayorla birlikdə şəhərin içindən piyada keçməli idilər. Mayor deyirdi ki, siz hər gün bu yolu piyada gedib gələcəksiniz. Bu da Azərgilin lap ürəyincə idi. Nə qədər də olmasa hündür beton hasarlarla qapalı hərbi hissədən çıxıb sərbəst şəkildə şəhərin küçələrindən keçmək onlar üçün sevindirici idi.

Zavod dedikləri yer böyük bir müəssisə idi. Burada bir tərəfdə inzibati binalar, digər tərəfdə isə ayrı-ayrı sexləri özündə birləşdirən böyük bir tikili vardı. Onun içərisində eyni zamanda yüzlərlə alman fəhləsi işləyirdi. Mayor Poddubnı əvvəlcə onları zavod rəhbərliyinə təqdim etdi. Bir neçə dəqiqəlik tanışlıqdan sonra o, alman dilini heç bilməyən əsgərləri yeni müdirlərinin öhdəsinə buraxaraq çıxıb getdi. Zavod müdiri isə onları sex rəislərindən birinə tapşırdı. Bu almanların heç biri rus dilini düz-əməlli bilmirdi. Ancaq az-çox anlaşmaq mümkün idi. Azərgil də məcbur olub almanca heç olmasa salam-kəlamı öyrənəcəkdilər ən azından.

Sex rəisi onları sexə gətirib hərəsini bir işə təhkim etdi. Azərin payına qazanlar üçün çuqun hissələrin hazırlandığı tökmə sexi düşdü. O, konveyerin yanında dayanıb hərəsi qırx-əlli kiloqram olan çuqun hissələri götürməli və taxtadan hazırlanmış xüsusi altlıqların üzərinə yığmalı idi. Əvvəlcə Azərə asan görünən bu iş sonradan öz ağırlığını göstərməyə başladı. Təzə-təzə işə girişən əsgər almanların yanında özünü sındırmadan bu ağır çuqun parçalarını cəld bir şəkildə konveyerdən götürüb üst-üstə yığarkən heç düşünməzdi ki, bu gedişlə uzun müddət işləyə bilməz.

Almanlar da əsgərin bu cəldliyini maraqla və deyəsən bir az da təəccüblə seyr edirdilər. Hər halda daimi iş yeri bura olan almanlar üçün bir Sovet əsgərinin fiziki imkanları maraqlı idi. Ona görə də Azərin belə cəld və rahat işləməsi hətta onların bəzilərinin təbəssümünə də səbəb olmuşdu.

Azər də fiziki cəhətdən hazırlıqlı idi. Ancaq burada işləyən alman fəhlələri görəndə özünü çox zəif hiss edirdi. Çünki almanların hər biri bir pəhləvana bənzəyirdi. Çoxunun maykada işlədiyi sexdə hər tərəfdə iri əzələli, üz-gözü qapqara qaralmış dəmir adamlar gözə dəyirdi. Azər isə onların arasında lap cılız və ütülənmiş ev uşağına bənzəyirdi. Əslində,

belə deyildi. Sadəcə olaraq o nəhəng almanların arasında durum bundan ibarət idi.

Ancaq Azərin bu ayrıcalığı uzun çəkməyəcəkdi. Bir neçə gündən sonra onun da rəngi qaralacaq, əzələləri daha da şişəcək və alman fəhlələrindən heç də seçilməyəcəkdi. İndi isə hələlik işə alışmaq, işin çəmini tapmaq lazım idi. Azər başa düşürdü ki, nə qədər sağlam və güclü olsa da bu işə bu qədər sürətlə başlaması yanlış oldu. Ona görə də sağa-sola baxıb almanların iş yöntəminə göz gəzdirdi. O pəhləvan cüssəli almanlar Azərdən fərqli olaraq cəld deyil, çox təmkinli davranır, demək olar ki, tələsmədən rahat bir şəkildə işləyirdilər. Azər iki çuqun parçasını konveyerdən götürdüyü müddətdə alman işçilər cəmi birini götürürdülər. Bəzən də Azərin üçünə qarşılıq onlar birini götürürdülər.

İki saat belə işlədikdən sonra zavodun fiti çalındı. Hamı əlcəklərini çıxarıb iş yerində qoyaraq yeməkxanaya doğru yönəldi. Azər də onların ardınca getdi. Saat 11-i göstərirdi və artıq işdə ara vermək lazım idi. Cəmi iki saatdan sonra belə ara vermək Azərin işinə yarasa da təəccübünə də səbəb oldu. Lakin alman işçilərlə rus və alman qarışığı bir dillə və əl-ayaq hərəkətləri ilə "söhbət"dən sonra anladı ki, əslində, iş səhər saat altıda başlayırmış. Sadəcə olaraq Sovet əsgərləri işə hər gün saat səkkizdən son-

ra gələcəkdi. Çünki onlar saat altıda yuxudan durur, bir saat idman və yuyunma, hazırlıq işləri ilə məşğul olur, saat 8-dək səhər yeməyini yeyir və bundan sonra işə gedirlər. Ona görə də hardasa saat doqquz üçün zavoda gələ bilərdilər.

Azər onu da öyrəndi ki, hərbi hissə rəhbərliyi ilə zavod rəhbərliyi arasında əldə edilən razılaşmaya görə, üç Sovet əsgərinin bu zavodda işləməsinə qarşılıq olaraq almanlar onların kazarmasını təmir edəcəkmiş. Yəni onlara bu zavodda maaş verilməsi nəzərdə tutulmur. Ancaq fasilədə yemək verilməsi, həmçinin zərərli iş şəraitinə görə gündə bir neçə şüşə qatıq və süd verilməsi nəzərdə tutulurdu. Doğrudan da his, pas içində olan bu iş yeri çox zərərli idi. Ətraf demək olar ki, bütün günü toz-duman içində olurdu. Belə şəraitdə isə insan sağlamlığı mütləq əlavə dəstək tələb edirdi.

Daha bir şey aydın oldu ki, Azərgil də alman işçilər kimi yalnız günorta saat ikiyə qədər işləyəcəkdi. Çünki saat altıda başlayan səhər növbəsi 14.00-da sona çatırdı. Bir saat aradan sonra isə ikinci növbə başlayırdı. Razılaşmaya görə əsgərlər yalnız birinci növbə işləyəcəkdilər. Zatən iki növbəni ard arda işləmək də olmazdı. İş o qədər ağır idi ki, heç illərlə burda işləyənlərin özləri də bu yükə dözməzdilər.

Bu iş rejimi bir yandan Azər üçün yenə də uyğun və göydəndüşmə idi. Saat ikidə işi bitirəndən sonra onlar hərbi hissəyə qayıdacaq, axşama qədər də sərbəst olacaqdılar. Bu isə o demək idi ki, idman eləməyə, kitab oxumağa, uzun günlərdə ətrafda gəzib dolaşmağa bolluca vaxtları olacaqdı. Əsgərliyin bir kəsimi də beləcə rahat bir şəkildə yola veriləcəkdi. Bəli, məhz yola veriləcəkdi. Azərin düşüncəsinə görə, əgər bir əsgər hər gün silahla, texnikayla məşğul olmadan zamanını keçirirsə, buna yalnız əsgərliyi yola vermək demək olardı.

"Zavodda fəhləlik, idman təşkilatçılığı, qazanxanada ocaqçı. Bu da əsgərlik. Bundan ötrü məni beş min kilometr ötədən nəyə gətirmisiniz bura?" – deyə düşünən Azər bundan sonra onsuz da başqa bir iş görə bilməzdi. Əsgərliyin dörddə üçü artıq keçmişdi. İndi onların aşağı yuxarı altı ayı qalmışdı. Bu ayları da yola verib evə gedəcəkdilər. Bir yandan da bu erməni məsələsi haqqında daha həyəcanlı xəbərlər gəlirdi. Düzdür, Moskva televiziyası hələ də Azərbaycanlıları günahlandıran xəbərlər yaymaqda idi. Lakin əsgərlərin evdən aldıqları məktublarda başqa şeylər yazılırdı. Artıq Azər də daxil hamı anlamaqdaydı ki, ana vətəndə nəsə dəhşətli hadisələr yaşanmaqdadır və ordusunda xidmət keçdikləri Sovet təbliğat maşını dünyaya yalan məlumatlar yaymaqla məşğuldur.

Bunun belə olduğuna evə döndükdən sonra tam əmin olacaqdılar. İndi isə əsgərlik davam edirdi.

Azər zavodda işlədiyi zamanda bir sıra maraqlı olaylara da şahid oldu. Almanlarla artıq bir təhər də olsa söhbət edə bilirdilər. Fasilələr zamanı oturub birlikdə yemək yeyir, hərə bir üsulla özləri haqqında nəsə danışırdılar. Belə söhbətlərdən biri zamanı isə Azər heç vaxt gözləmədiyi bir halla qarşılaşdı.

Bədəni kötük kimi möhkəm və əzələli olan Şmidt adlı bir alman fəhlə Azərə deyirdi ki, sən russan. Azər isə buna çaşıb qalmışdı. Almandan soruşanda ki, "axı mənim nəyim rusa bənzəyir?", o, cavab vermişdi:

– Sənin soyadın necədir? Həsrətov, düzdür? Bu cür soyadlar isə ruslarda olur. Sən rus olmasaydın soyadın da rusca olmazdı.

– Nə rusu? Mən Azərbaycanlıyam. Sovet vətəndaşı və Sovet əsgəriyəm. Sovetlərdəki insanların heç də hamısı rus deyil axı.

– Necə rus deyil ki, soyadlarınız ruscadır? Heç soyadı bu cür olan bir alman gördünmü? Yaxud da dünyada ruslardan başqa bir millətin bu cür soyadı oldumu heç?

– Oldu əlbəttə! Biz Azərbaycanlıların soyadları da bu cürdür. Biz başqa millətik, dilimiz də başqadır. Hələ üstəlik dinimiz da ruslarınkından ayrıdır.

– Eh, nə nağıl danışırsan? İndi Almaniyanın küçələrinə çıx, adamlardan soruş ki, Azərbaycanı tanıyırlar? Gör nə cavab verəcəklər? Sizin hamınızı burada rus olaraq bilirlər. Bütün əsgərlər rusdur. Bütün Sovet vətəndaşları rusdur. Bunu anlamağa nə var ki?

Bir alman fəhləsi olan Şmidtlə bu söhbət Azəri əməlli-başlı düşünməyə vadar etmişdi. Ancaq hələ də anlaya bilmirdi ki, bu soyad məsələsi nə məsələdir. Yalnız bir şeyi qət etmişdi ki, evə dönən kimi araşdırma aparıb buna aydınlıq gətirəcək. Üstəlik də ona rus deyilməsi Azərin xətrinə dəymişdi. Axı onun mənsub olduğu Azərbaycan xalqının qədim tarixi var. Özü də bu tarix min illərlə qədimlərə gedib çıxır: "Koroğlusu, Babəki, Cavanşiri, Nəbisi, Həcəri olan bu qədim xalqı bir alman fəhləsi rus adlandırır. Yox, belə olmaz, bunun axırına çıxmasam mən rahat ola bilmərəm. Evə dönən kimi məsələni araşdıracam".

Rus e! A kişi, ruslara bizdə heç də yaxşı baxmırlar axı. Hətta kənddə kimsə rus dilində bir-iki söz işlətsə o saat ona gavur deyərlər. Odur e, dayoğlum Məxi əsgərlikdən qayıdanda kəndin ortasında rusca danışmışdı, ona daha qoşulmayan vedrə qalmadı. Özü də ruscanı əməlli-başlı danışsa, dərd yarıydı. Zalım oğlu iki il əsgərlik çəkmişdi, di gəl adam kimi rusca danışa da bilmirdi. Əsgərlikdən gələndən bir-

iki gün sonra rusca danışıb lağ obyektinə çevriləndə anladı ki, adam gərək öz ana dilində danışa.

Elə bu rus dili Məmmədağanın oğlunun da başına bəla olmuşdu. Kişinin oğlu əsgərlikdən qayıdanda guya öz evlərini tanımırmış. Taksiylə kəndə girib tində dayanan cavanlardan soruşur ki, "Gde dom Mamedagi?" (Məmmədağanın evi hardadır?). Cavanlar bunu tanısalar da rusca danışdığı üçün, eləmə tənbəllik, ona atası Məmmədağanın deyil, tarix müəllimi Məmmədağanın evini nişan verirlər. Bu da taksini sürdürür düz Məmmədağa müəllimin evinə. Taksi sürücüsü də sevinir ki, indi muştuluq alacam. Ancaq heyhat, burada görəndə ki, bu adam əməlli-başlı gavurlaşıb, elə orada da atıb gedir. İndi bu gəncin əhvalatı ona baş qaxıncı olmuşdu ki, a bala, cəmi iki il Rusyetdə olmusan, dilini unutmusan?

Bu rus dili məsələsi ilə bağlı Azərin dayısı sayılacaq bir adamın da başına maraqlı bir əhvalat gəlmişdi. Anası danışardı ki, onun əmioğlularından biri neçə illər öncə əsgərliyini çəkib Dədəliyə qayıdırmış. Qusarçay dəmiryol stansiyasında qatardan düşüb üz tutur Dədəli yoluna. Kişinin oğlu guya yolu unudubmuş və əhalisinin əksəriyyəti tat olan Qusarçaylılara rus dili öyrəndiyini göstərmək üçün onlardan soruşur: "Ey, tatı, gde Dadalinskaya doroga?" (Hey, tatlar, Dədəli yolu hansıdır?). Bu tatlar da

baxıb görür ki, adə, bu filankəsin oğlu filankəs deyil? Nə oldu, bu indi öz kəndinin yolunu, öz ana dilini unutdu? Üstəlik də adamlara adam kimi deyil, "ey, tatı" deyə müraciət edir. Bunun dərsini vermək lazımdır. Gözünə döndüyüm tatlar Azərin bu dayısı olacaq adamı yaxşıca döydükdən sonra "Vot tebe, kopoyoğlu, Dadalinskaya doroga!" (Al sənə, köpəyoğlu, Dədəli yolu!) – deyə yolu göstərirlər. Həmin bu adam da elə Azərin özünün, ailəsinin, həmkəndlilərinin dilində məsxərə obyekti olmuşdu. Yəni onların nə ailəsi, nə kəndi rus deyildi və özünü rusa bənzətmək istəyənlərə də çox pis baxılırdı. İndi bu nemsə də deyir ki, sən russan. Yox, bu məsələ mütləq araşdırılmalıdır!

Azər fürsətdən istifadə edib alman dili öyrənməyə də çalışırdı. Düzdür, buna çox vaxt sərf edə bilmirdi. Ancaq arabir nəsə bir-iki söz öyrənirdi. Bir dəfə elə həmin bu Şmidtlə söhbətdə yenə də dil bilgilərini artırmaq üçün ondan bir şey öyrətməsini xahiş etdi. Şmidt də öz növbəsində, "Nə deyim sənə?" deyə soruşdu. Azər isə, örnək üçün "Orada bir bel var" necə demək olar? – deyə soruşdu. Şmidt: Dort steht eine Schaufel (Dot şteyt ayne şaufel). Azər təkrarladı. Şmidt isə, "səndə yaxşı alınır, sən bu dili rahat öyrənə bilərsən" – dedi. Lakin Azər bu günə kimi təəssüf edir ki, alman dilini həmin günlərdə

öyrənməyib. Yalnız əsgərlikdən iyirmi il keçdikdən sonra o, bu səhvini düzəltmək üçün Bakıda alman dili kursuna yazılmışdı.

Bir müddət çuqun sexində işlədikdən sonra zavod rəhbərliyi Azəri və dostlarını taxta sexinə keçirdi. Bura köməkçi bir sex idi və işi elə də çox olmurdu. Ancaq yenə də tozlu və boğucu olduğu üçün zərərli sayılırdı. Azərin ta uşaqlıqdan ustalığa marağı olduğu üçün bura xoşuna gəldi. Hətta bir-iki gün keçdikdən sonra artıq bütün dəzgahlarda sərbəst işləməyə başladı. İşə o qədər aludə oldu ki, günlərin birində diqqətsizlik ucundan qəza da keçirdi.

Elektrik rəndəsində taxta rəndələyirdi. Rəndənin bıçağının üzəri də açıq idi. Azər hər zamankı kimi taxtanı bir tərəfindən itələyərək digər tərəfindən tutmalıykən bu dəfə bir qədər gecikdi və sağ əlinin iki barmağı taxtanın ardınca rəndənin bıçağına tuş gəldi. Əvvəlcə heç nə hiss eləmədi. Ancaq bir az sonra barmaqlarının ucuna baxanda birisinin sümüyünün açıldığını gördü. Yenə də fikir vermədi. Ancaq az keçməmiş nəsə başı hərləndi və baxdı ki, barmaqlarının ucundan qan axır. Ətrafdakı alman fəhlələr tez onun qoluna girib zavodun tibb məntəqəsinə apardılar. Burada Azərə toxtaqlıq verən alman həkim onu topçanın üzərinə uzatdı və iki dəqiqə içində barmaqlarına sarğı qoydu. Əslində barmaqlarına deyil, sağ

qoluna desək daha doğru olar. Çünki sarğı barmaqlarından ta dirsəklərinə qədər qoyulmuşdu. Bundan sonra onun əsgər yoldaşlarına da xəbər verdilər və onları işdən azad edib hərbi hissəyə yola saldılar.

Bu qəzada Azər barmaqlarının ucundan bir balaca məhrum olsa da məsələ elə də ciddi deyildi. Ona görə də qolu sarıqlı şəkildə işə gəlib gedirdi. Əvvəlki qədər olmasa da normal işləyə bilirdi. Hətta artıq qolundakı sarğı üzündən şəhərdə məşhur da olmuşdu.

Batalyon komandirinin siyasi məsələlər üzrə müavini mayor Poddubnı bir dəfə Azərə dedi ki, "hə, qoçaq, sən artıq Zerbst şəhərində məşhur olmusan". Azər soruşanda ki, "necə yəni?" mayorun cavabı bu oldu:

– Şəhərin polis rəisi o günü məndən soruşur ki, o qolu sarıqlı əsgər sizinkidir? Dedim hə, bizim əsgərdir. Bir balaca qəza keçirib.

Bu mayor Poddubnı doğrudan da çox yaxşı insan idi. Əsgərlərə öz övladı kimi baxırdı. Çox da savadlı idi. Hər kəslə fərdi şəkildə necə davranmasını bilirdi. Elə bir əsgər olmazdı ki, ondan incisin. Azərlə də münasibətləri bir əsgər-zabit münasibətindən çox dostcasına idi.

Elə Azərin ad günündə baş verən olay da buna yaxşı sübutlardan biri idi...

20 avqust 1988-ci il. Bu gün Azərin 20 yaşı tamam olurdu. Səhər hər gün olduğu kimi adi qaydada yuxudan qalxmışdı. Ad gününün olması heç yadına da düşmürdü. Heç vaxt ad gününü təmtəraqla qeyd etməzdi. Elə ona görə də ad günü yadına düşməz, yadına düşsə də vecinə almazdı. Bu gün də həmin günlərdən biri idi...

...Günorta vaxtı Azər və dostları zavoddan hərbi hissəyə qayıtdılar. O, hər gün olduğu kimi başını qatmaq üçün bir az uzanıb dincəldi. Sonra da idman zalına qalxıb idman eləmək istədi. İdman zalıyla yanaşı çardaqda bir də əşya anbarı yerləşirdi. Anbarın açarı da həmin bu özbək balası Ötkirdə idi. Azər yuxarı qalxanda dostunu orda görüb sevindi və soruşdu:

– Əkə, burda nə edirsən?

– Bekarçılıqdır, qardaş. İndi uşaqlar gələcək, görək nə edirik.

– Nə uşaqlar? Kim gəlir, nə planınız var?

– Elə sən də yaxşı gəldin, indi gəlsinlər, məsləhətləşək, görək nə edirik. Deyirəm, bir az başımızı qataq, könlümüz açılsın.

– Hə? Yaxşı fikirdir məncə. İşdən gəlmişəm, axşama kimi də boş-bekaram. Qoy gəlsinlər görək.

Az sonra qırğız balası Nurkamal, iki xaxol balası və bir də bu rus balası Sergey gəlib çıxdı. Ötkir anbarın qapısını bağlayıb onlara üz tutdu:

– Hə, nə edək?

Təklif gəldi ki, atışıb bir az yemək-içmək təşkil etsinlər. Dostların hərəsi cibindən bir beşlik alman markası çıxarıb ortalığa qoydu. Əməlli-başlı pul toplandı. Qərara gəldilər ki, bir az kolbasa, bir az tərəvəz, bir az da pivə və araq alsınlar. Razılaşdılar.

Bir azdan iki xaxol balası lazım olan ərzağı dükandan alıb gəldi. Dostların hamısı içəri girdilər. Ötkir əlini qapının arasından salıb bayırdan zəncirin üstünə bır qıfıl asdı ki, gələnlər elə bilsin qapı bağlıdır və içəridə heç kim yoxdur. Sonra onlar anbarın sol tərəfindəki pilləkənin altından keçib görünməyən tərəfdə qərar tutdular. Artıq bir neçə dəqiqədən sonra ortalıq necə lazımsa şənlənmişdi. Pivə içib keflənən, araqdan üzü qızaran, ucadan şaqqanaq çəkən kim. Dostlar əməlli-başlı məclis qurmuşdular. Və bir də onda ayıldılar ki, bütün şüşələr boşalıb, ortada yeməyə heç nə qalmayıb və qapı bərk-bərk döyülür.

– Açın qapını! Açın deyirəm sizə! Elə bilirsiniz xəbərim yoxdur?! Bilirəm ki, ordasınız! Öz xoşunuzla açmasanız pis olacaq!

Səs tanış gəlirdi. Anladılar. Batalyonun komsomol katibi idi. Gizir rütbəli bu adam çox zəhlətökən birisi idi. Deməli, Azərgilin içəridə olduqlarını dəqiq bilirdi. Qurtuluş yox idi bundan. Qapını açmaq lazım idi. Bəs araq, pivə şüşələri? Onları görsə qanımız

getdi. Gərək elə edək ki, bu adam bizim başımıza oyun açmasın.

İçki şüşələrinin məsələsi ilə bağlı Sergeydən təklif gəldi:

– Gəlin, onları pəncərənin altındakı paltarların altında gizlədək.

Dərhal şüşələri arxaçantaya yığıb paltarların altında gizlətdilər. Bundan sonra Ötkir qapını açdı.

Komsomol, içəri girən kimi heç kimin üzünə baxmadan düz pəncərənin altındakı paltarlar qalağına sarı yönəldi. Əlini salıb onun altından şüşələrlə dolu arxaçantanı çıxardı. Sakitcə əsgərlərə dönüb, "Ardımca gəlin" deyərək otaqdan çıxdı. Əlacsız qalan əsgərlər sıra ilə onun ardınca getməyə məcbur oldular.

Az sonra dostların hamısı siyasi məsələlər üzrə müavinin otağında idi. Mayor Poddubnı əsgərləri divarın önündə sıraya düzüb "tərbiyəvi söhbət" aparırdı:

– Hə, dostlar, indi nə edək? Bu məsələni necə həll edək?

Azər bic-bic dilləndi:

– Yoldaş mayor, biz hər zamankı kimi sizin ədalətinizə güvənirik. İndi də necə məsləhət bilsəniz, o cür də həll edək.

– Bax ha! Sən bir sözlərə bax. Yaxşı, indi ki, hələ də mənə güvənirsiniz, iki təklifim olacaq. Seçim sizindir.

– Buyurun, yoldaş mayor. Böyük məmnuniyyətlə sizin təkliflərinizi dəyərləndirərdik.

– Deyirəm, bu hərəkətinizə görə sizə cəza düşür. Cəzanın da iki yolu var. Birincisi budur ki, mən hərbi nizamnaməyə uyğun tədbir görürəm. Sizin haqqınızda rəhbərliyə raport yazıram, onlar da uyğun cəza kəsirlər, həmin cəzanı çəkirsiniz. İkincisi isə budur ki, bu məsələni ailəcə həll edirik. Yəni öz aramızda. Ancaq bir şərtim var ki, kəsəcəyim cəzaya razı olmalısınız.

Mayorun şərtlərini diqqətlə dinlədikdən sonra dostlar bir-birinə baxdı. Göz təmasından anlaşıldı ki, ikinci yolu seçirlər. Yenə də söz demək Azərə qaldı:

– Yoldaş mayor, bizcə problemin ailəcə həlli yolu daha uyğundur. Dostlarımızla düşünürük ki, sizə güvənməkdə səhv etmirik.

– Ay səni! Yenə də bu güvən məsələsi. Olsun, güvənin. İndi ki, siz ailə yöntəmini seçirsiniz, mən də sizin hərənizə kəmərlə on zərbə cəza kəsirəm. Nə deyirsiniz?

Ağır cəza idi. Ancaq nə etmək olardı? Söz ağızdan çıxmışdı, əməl edilməsi lazımdı. Təbii ki, danışıqları yenə də Azər davam etdirdi:

– Yoldaş mayor, biz bilirik ki, bu, bir az ağır cəza olacaq. Ancaq nə etmək olar? Söz vermişik, qəbulumuzdur. Buyurun, cəzamızı verin.

– Deyirsən başlayaq? Başlayaq da. Haydı, bir-bir masaya yaxınlaşın, zərbələr məndən.

Mayor cəzanın icrasına xaxol balalarından başladı. Xaxolun birincisi zərbələr altında inləsə də axıra kimi dözdü. İkincisi də dözdü. Rus balası Sergey isə fiziki cəhətdən sağlam olduğu üçün zərbələr onu elə də incitmədi. Sonra Nurkamal, ardından da Ötkir paylarını alıb sırada yerlərini tutdular. Sıra Azərə çatdı.

– Hə, qoçaq, bunların komandiri sənsən deyəsən. Gəl görüm, nə deyirsən.

– Nə deyəcəm ki? Sözümüz sözdür. Hamı necə, mən də elə.

Azər iki addım önə çıxıb masanın yanında durdu. Mayor indi daha həvəslə vurmağa başladı. Bəlkə də bu zərbələr digər əsgərlərə vurulandan güclü deyildi. Ancaq Azərə elə gəlirdi ki, mayor indi daha güclü zərbələr endirir. Ola bilsin ki, adam zərbəni öz üzərində daha sərt hiss edir.

Mayor davam edirdi: yeddi, səkkiz... Azər düşündü ki, indi ona çatıb dayanacaq. Rahat nəfəs almağa hazırlaşırdı ki, davamı gəldi: on bir, on iki, on üç...

“Hə, deyəsən ilişdik. Neynək, dözmək lazımdır. İndi səsimi çıxarsam deyəcək ki, bayaqdan kişilikdən, söz verməkdən danışırdın. Nə oldu, bir kəmər zərbəsi artıq yedin deyə dözmədin?” – deyə düşünərək səsini belə çıxarmadı. Dözdü, dayandı. Mayor isə davam edirdi: on səkkiz, on doqquz, iyirmi!

Davamı gəlmədi. Aha, deyəsən bitdi. Doğrudan da bitmişdi. Mayor keçib öz kreslosunda oturdu:

– Qoçaqlar, incimədiniz ki? Baxın, siz istədiyiniz kimi cəza kəsdim. Ancaq bu o demək deyil ki, bir də belə hərəkətə yol versəniz yenə də ailəcə cəza yeyəcəksiniz. Növbəti dəfə göz yaşlarınıza baxan deyiləm. Sizdən rəsmi raportla şikayət edəcəm. Anladınız?

Hamı bir ağızdan:

– Anladıq, yoldaş mayor!

– İndi buyurun gedin. Bir də belə hərəkət etməyin.

– Baş üstə!

Dostlar otaqdan çıxmaq istəyirdi ki, Azər irəli yeridi.

– Bir dəqiqə. Yoldaş mayor, icazə verin müraciət edim.

– Rəsmiyyəti burax. De görüm, nə istəyirsən?

– Yoldaş mayor, bir şeyi soruşmaq istəyirdim. Niyə mənə iyirmi zərbə vurdunuz? Axı on zərbə ilə yekunlaşacaqdınız?

– Bu sualı verməsəydin təəccüblənərdim. Deyirəm: araq içdiyiniz üçün!

Azər bir anlıq duruxdu. Yerində dayandı, nəsə demək istədi, ancaq fikrindən vaz keçdi. Mayora təşəkkür edib çıxmaq üçün icazə istədi. Mayor da "Azadsınız" – deyə çıxmalarına izn verdi.

Əsgərlər cəzanı çəkib otaqdan çıxandan sonra sağa-sola baxıb aşağı endilər. Həyətdə hələ də qaranlıq düşməmişdi. Stadiona sarı addımladılar. Bir azdan onların qəhqəhələri aləmi başına götürmüşdü. Bu cəza əvvəlcə ağır gəlsə də ucuz qurtulduqlarını deyib gülürdülər. Azər isə hələ də fikirləşirdi: "Bu adam niyə mənə belə dedi? Axı hamı bilir ki, mən araq nədir, heç adi pivə də içmirəm. İçməmək bir yana dursun, heç onların dadını da bilmirəm. Burda bir sirr olsun gərək. Yoxsa bu mənim içmədiyimi bilə-bilə içdiyim üçün cəza verməzdi".

Bir az da düşündükdən sonra Azər bu qənaətə gəldi ki, mayor onu sınamaq üçün belə edib. Yəni sən ki, kişilikdən, söz tutmaqdan danışırsan, indi görüm on zərbə artıq yeyəndə dostlarını ayağa verirsən, ya yox? Əgər Azərin cavabı "Axı bilmirsiniz mən araq içmirəm?" – olsaydı, onda mayor soruşacaqdı ki, "Yaxşı, bunu bildik, demək istəyirsən ki, onlar içib?" Azər səsini çıxarmamaqla düz eləmişdi.

Dostların kefi isə çox kök idi. Bir azdan lap kök olacaqdı. Çünki... Çünki bu gün Azərin ad günü idi! İyirmi yaşı tamam olurdu!

Azər birdən ildırım vurmuş kimi yerindən sıçradı. Onun bu hərəkətinə dostları da məəttəl qaldı. Azər yuxarı tullanıb bir qıy vurdu və soruşdu:

– Kim deyər bu gün nə günüdür?

– Necə nə günü? Avqustun üçüncü günüdür sadəcə. Nəsə bayram filan da deyil. Adi bir gündür də. Bir də ki, bizim cəza aldığımız gün.

– Bilmədiniz! Bilənə bir qonaqlıq verəcəkdim. İndi ki, siz bilmədiniz, mən deyirəm: bu gün avqustun üçü, yəni mənim ad günümdür!

Ötkir qabağa şığıdı:

– Azəkə, sən niyə bunu indi deyirsən? Bayaq desəydin mayor da bizi cəzalandırmazdı. Deyərdik ki, sənin ad gününü qeyd etmişik. Axı özün bilirsən, o, yaxşı adamdır. Belə şeyləri başa düşür.

– Ötkir qardaş, düz deyirsən. Ancaq inan ki, mən özüm də indi xatırladım ki, ad günümdür. Doğrudan da bayaq yadıma düşsəydi bəlkə cəzadan yaxamızı qurtara bilərdik.

– Nə edə bilərik? Olan oldu. Onda sənin ad günün mübarək!

– Hələ bir dayan. Yaxşı, birdən mən desəydim ki, ad günümdür, o da desəydi ki, olsun, səni cəzadan

azad edirəm, dostların cəzalanacaq. Onda nə olardı? Elə yaxşı olub ki, yadıma düşməyib. Yoxsa mən, kim bilir, nə hallara düşərdim.

– Nə isə, Azəkə. Keçmiş olsun deyək. Əsas odur ki, bu gün sənin ad günündür. Biz də xəbərsiz də olsa onu qeyd etmişik. Daha nə istəyirsən? Bundan yadda qalan ad günü olar?

– Olmaz, dostlar, olmaz. Heç şübhə etmirəm ki, iyirmi illik yubileyimi bu cür qeyd etdiyimizi ömrümün sonuna qədər unutmayacam.

Beləliklə, dostların sevinci bir qədər də çoxaldı. Doğrudan da yadda qalan bir gün olmuşdu. Üstəlik, Azər araq içməsə də onlar kimi araq içdiyinə görə cəza almışdı. Həm də bu cəzanın iki qatını. Sakitcə, heç etiraz etmədən.

* * *

Avqustun yarısı getmişdi. Havalar da artıq payızdan xəbər verməyə başlamışdı. Azərbaycandan fərqli olaraq burada payız öz nəfəsini daha erkən duyurmağa başlardı. Əslində heç düz-əməlli yay olmurdu ki, burda. İyun ayında belə, bir də görürdün, hava dəyişdi, yağış yağdı, soyuq adamı üşütməyə başladı. Yarım saat sonra bu soyuqdan əsər əlamət belə qalmırdı. Yenə günəş çıxır, isti olurdu. Heç güvənmək olmazdı Almaniyanın havasına.

Axşam yeməyindən sonra yenə də Azərbaycanlı əsgərlər bir araya toplaşanda söz yayıldı ki, hərbi təlimlər başlayır. Hansısa uzaq bir şəhərə gedəcəklərmiş. Əsasən də tank batalyonları alman əsgərləri ilə birlikdə meşəlik yerdə təlim keçəcəkdi. Elə də oldu.

Avqustun 20-də onlarla yük maşını saatda 40 kilometri aşmayan sürətlə şimala doğru yol aldı. Hardasa Potsdam şəhəri yaxınlığında bir yerdə alman əsgərləri ilə birləşib təlim keçəcəkdilər. Yol uzun, yorucu və üzücü idi. Çünki Azər qapalı bir maşının kuzasında gedirdi. Özü də bu kuzanın çox balaca pəncərəsi vardı. Elə bil dustaqxana maşını idi. Ordan bayıra baxmaq da adamı yorurdu. Ancaq edəcək başqa iş yox idi. Ona görə də o, təminat vzvodundan olan bir neçə başqa əsgərlə birlikdə balaca pəncərədən Almaniyanın başqa yerlərini seyr edirdi. Maşınlar bir-birinin ardınca sırayla hərəkət etdikcə, alman kəndlərinin əhalisi küçələrə çıxıb onlara baxırdı. Lap elə bil bir zamanlar almanların əsir aldığı Sovet əsgərləri kimi idilər. Sıra ilə gedirdilər. Yerli əhali də onlara baxırdı. Kinolarda görmüşdü ki, almanlar həmin sıralardakı əsgərlərə nifrətlə baxırdılar. İndi də deyəsən heç də xoş baxmırdılar axı. Elə bil uşaqlı-böyüklü bütün almanlar Sovet əsgərlərini həmin illərin düşməni kimi seyr edirdilər. Maraqlı idi. Həm də təzadlı. Axı deyirlər Sovet əsgəri xilaskardır. Biz axı dünyada sülhü qorumaq üçün Almaniyaya qədər gəlib çıxmışıq.

...Yenə də Əhməd əmisi Azərin yadına düşdü. O, maşında yolu seyr etdikcə Əhməd əmisini də xatırlayırdı. Kim bilir, bəlkə buralara qədər gəlib çıxıb? Bəlkə də hardasa buralarda onun da qəbri var? Axı televizorda qələbə bayramında tez-tez Almaniyadakı Sovet əsgərlərinin qəbiristanlığını göstərirlər. Bəlkə o da bu torpaqlarda yatır? Eh, bu müharibələr olmasaydı! Ancaq müharibəsiz də olmur da. Odur, mən də əmim kimi könüllü müharibəyə getmək istəyirdim. Əfqanıstana. Heç qoydular ki? Mən ki, axsaq deyildim. Əlim, ayağım yerində, özüm də sapsağlam. Gedərdim, orda imperialistlərə, kommunizm düşmənlərinə qarşı vuruşardım. Amma yox, bu kommunizm dedikləri də nəsə dürüst bir şeyə oxşamır. Dürüst olsaydılar, Azərbaycanda ermənilərin guya öldürülməsindən danışmazdılar. Halbuki Azərbaycandan gələn məktublarda əksini görürük. Sadə adamların yazdığı məktublarda yalan olmaz. Onlar axı siyasətçi deyillər ki, yalan yazsınlar. Həm də öz uşağına məktub yazan ata-ana nədən yalan yazmalıdır? Yalanı bu kommunistlər deyir! Mən də bütün ömrüm boyu çalışırdım ki, kommunist olum. Baxarıq, evə qayıdım hələ. Orda hər şey aydın olacaq. Vay o günə ki, bunlar yalançı çıxsınlar...

...Seyrək şam meşəsinin içində əsgərlərin səs-küyü aləmi götürmüşdü. Təyinat yerinə gəlib çıxmışdılar. Burda çadır qurub mövqe tutmaq lazım idi.

Hər tərəfdə texnika işləyir, səngərlər, saxlanc yerləri qazılırdı. Azərə də ərazinin girişində səngər qazıb postda durmaq tapşırılmışdı. Belindəki balaca beli, çiynində avtomatı ilə əməlli-başlı döyüşçüyə oxşayırdı. Hayıf ki, şəkil çəkdirməyə qoymurlar. Yaxşı xatirə olardı. Əsl döyüş ab-havası vardı. Eh, kim bilir, buralara bir də nə vaxtsa gələcəkdilərmi?

İki saat sonra Azərin bir nəfərlik qarovulçu səngəri hazır idi. Hardasa bir metr yarım dərinliyində, eni altmış santimetr, uzunu da bir metr olan balaca bir səngər qazmışdı. Torpağını da daşıyıb bir hissəsini ağacların dibinə səpmiş, bir hissəsini də çuxurlara doldurmuşdu. Üstündən də ot, ağac budaqları döşəyib elə bir görüntü yaratmışdı ki, tam üstünə gəlib çıxmadıqca burada nəsə iş getdiyini bilmək olmurdu. Balaca səngərin "düşmən" tərəfə baxan ağzında isə balaca yüksəklik düzəldib üzərinə çayır döşəmişdi. Nabələd birisi bura gəlsəydi özündən xəbərsiz düz Azərin səngərinə düşərdi.

Hava da tərslikdən çox dəyişkən idi. Bəzən elə soyuq olurdu ki, adamın sümükləri üşüyürdü. Gecələr isə lap soyuq olurdu. Çadırda ocaq yandırmağa da icazə vermirdilər. İsti yemək də yox idi. Qara çörək verirdilər. O da soyuqdan daş kimi olmuş köhnə çörək idi. Bıçaqla kəsmək olmurdu. Məcbur qalıb çörəyi balta ilə kəsirdilər. Azər indi hiss edirdi ki, əsl əsgərlik nə deməkdir. Hələ onu da düşünürdü

ki, müharibədə bundan da dözülməz hallar ola bilər. Olub da əslində. Ancaq o dözülməzliklərə dözərək Berlinə qələbə bayrağını sancmağı bacaranlar da olub. "İndi biz bu şəraitə də dözməsək ayıb olar. O əsgərlər palçığın, qarın içində sürünərək Berlinə qədər gedib çıxıblar. Biz isə bir neçə gün buna dözə bilməyəcəyik? Dözərik! Mən dözərəm!" – Azər belə düşünürdü.

Alman əsgərləri barədə danışsalar da onlar gözə dəymirdi. Deyirdilər ki, almanlar bizim tankçılarımızla birlikdə poliqonda təlim keçirlər. Həm də rəqib kimi deyil, eyni tərəfin əsgərləri kimi. Azərin xidmət keçdiyi səhra (əslində meşə) qərargahı isə arxada idi. Yəni döyüşlərin getdiyi ehtimal edilən ərazidən xeyli aralıda. Yəqin almanların da qərargahı hardasa başqa bir tərəfdə, arxada idi.

Gündüz vaxtı boşluq olurdu. Çünki demək olar ki, bütün əsgərlər təlimə gedirdilər. Təminat vzvodunun bir neçə əsgəri qərargahda qalırdı. Azər hər zamankı kimi səngərdə yerini tutur, bir neçə nəfər də ərzaq tədarükü, ərazinin təmizlənməsi ilə məşğul olurdu. Arada bir bekarçılıqdan söhbət də edirdilər. Azər növbəsini təhvil verəndən sonra digər əsgərlərlə oturub vaxt öldürürdü. Onlar deyirdilər ki, alman əsgərləri hər həftə sonu evlərinə gedirlər. Şənbə və bazar günləri arzu edənlər ata-analarına baş çəkmək üçün evə buraxılır. Yəni bu iş sərbəst idi. Harda idi Sovet əsgərində o bəxt? Lap evə buraxsalar da burdan

Azərbaycana necə getmək olardı? Bu məsələyə bənd olmağa dəyməzdi. Almaniya nə idi ki? Bu başından o başına uzağı min kilometr yol getmək lazımdır. Ancaq SSRİ-də bəzən bu yol on min kilometri aşır. Ona görə də əsgərlərin evə buraxılmaması düzgün qərardır.

Meşədə baş tutan birgə təlimlər bir neçə gündən sonra uğurla başa çatacaqdı. Ancaq hələlik Azərin bir problemi yaranırdı. Nəsə boynunun sol tərəfində əvvəlcə küt bir ağrı, sonra da düyünlənmə hiss etməyə başlamışdı. Soyuq su ilə yuyunurdular. Üzlərini meşənin içindəki bir gölməçənin kənarında qırxırdılar. Düzdür, su təmiz idi. Ancaq yenə də adamı bir az diksindirirdi. Görünür elə bu hal onun boynundakı problemə səbəb olmuşdu. Təlimin sonuna doğru Azərin boynunda əməlli bir çiban əmələ gəlmişdi. Artıq boynunu dikəldə bilmirdi. Başını bir qədər sağa doğru əyərək gəzib dolaşır, bunu görənlərdə də heyrətə səbəb olurdu. Almaniyanın bu rütubətli və soyuq meşəsi Azərin boynunda əbədi bir iz buraxırdı.

Onlar hərbi hissəyə qayıdanda artıq boynu düzəlməz olmuşdu. İki tərəfdən güzgü tutub boynuna baxanda ucu ağappaq ağarmış iri bir şiş görmüşdü. Hiss olunurdu ki, bu şişi partlatsa içindən yaxşıca irin çıxacaq. Ancaq düşünürdü ki, həkim məsləhəti olmadan bunu etməsin. Həmin bu düşüncəylə də bir gün komandirdən izn alıb sanitar hissəyə getdi.

Buradakı gənc qızlar idmançı cüssəli, deyib-gülən və gümrah, lakin boynuəyri Azərbaycanlı əsgəri görəndə zarafata salıb gülüşdülər. Azər də onların zarafatına zarafatla cavab verdi:

– Nədir, əyriboyun əsgər görməmisiniz?

– Görmüşük, ancaq beləsini görməmişik heç. Gəl görüm səni nə edirik?

– Nə bacarırsınız, edin. Təki bu zibildən çıxım. Artıq neçə gündür boynumu düzəldə bilmirəm. Bezdirib məni. Düz-əməlli yeriyə də bilmirəm.

– Biz sənin boynunu düzəldərik. Bu saat yerə uzadıb boynunu əzərik, dümdüz düzələr.

– Bu zarafatı bir kənara buraxın da, boynumun işinə baxın. Boynum düzəlsin, hələ görün necə "zarafatcıl" oğlanam.

Azərin bu dırnaqarası zarafat sözü rus qızlarının lap ürəyindən oldu deyəsən. Onlar bir ağızdan qəhqəhə çəkib güldülər:

– Biz onda sənin boynunu tez düzəldək ki, "zarafat" eləməyə imkanın olsun.

Qızlar Azəri bir həkimin yanına apardılar. O, əsgərin boynuna baxıb başını buladı:

– Sənin işin bir az çoxdur axı deyəsən. Nə günə qoymusan özünü?

– Mən nə etmişəm ki? Sadəcə çiban çıxıb. Meşədə bir az təmizlik işinə yaxşı imkan yox idi. Həm də oranın rütubəti məni tutdu. Çibandır da. Təmizlərik, çıxıb gedər.

– Çıxıb gedəcək getməyinə. Ancaq bunun yeri qalacaq deyəsən.

– İndi nə edək? Hər halda təmizləmək lazımdır.

– Əvvəlcə sarğı qoyaq, bir az da yetişsin. Özü yetişməsə yarmaq olmaz. Yetişəndən sonra tərtəmiz olacaq.

Həkimin dediyinə razılaşmamaq olmazdı. Hər halda, bu onun işi idi. Öz işinin ustası olan bu həkim bir az dərman sürtüb çibanın üstünü bağladıqdan sonra Azərə sabah yenə də gəlməsini söylədi. Beləcə boynuəyri əsgər kazarmaya qayıtdı.

Sabah yenidən bura gələndə həkim qızlara tapşırdı ki, əsgərin boynunu təmizləyib yeni sarğı qoysunlar. Bu proses bir neçə gün təkrarlansa da çiban durduğu yerdə qalmışdı. Ucu ağappaq ağarmış, əl vursan partlayacaq hala gəlmişdi. Ancaq həkim hələ də ona toxunmurdu. Elə hey sarğını dəyişdirtdirirdi. Bu isə Azərin zəhləsini tökürdü. Həm boynunu əyib gəzməsi, həm də boynundakı sarğı onu işdən-gücdən eləmişdi. Ona görə də qərar verdi ki, bir daha həkimə getməsin. "Nə var ki, burda? Gözlə görünən şeydir. Partladacam, irinini təmizləyəcəm, keçib gedəcək", – deyə düşünürdü.

Elə bu düşüncə ilə də balaca bir güzgü, bint və pambıq götürüb əlüzyuyan otağa gəldi. Bura divar boyu güzgüsü olan, eyni zamanda iyirmi əsgərin birlikdə yuyunması üçün nəzərdə tutulan böyük bir otaq idi. Qurşağa kimi soyundu, boynundakı sarğını

açıb zibil qabına atdı. Bir əliylə güzgünü boynunun arxasında tutub çibana baxdı. Doğrudan da yaxşı yetişmişdi. Elə əl vuran kimi partlayacaqdı. İndi bu partlama ağrılı olacaqdı, yoxsa rahat? Bilmirdi. Ancaq onu bilirdi ki, canını bu mərətdən qurtarmaq istəyir.

"Bu zəhrimar çiban bir himə bənd imiş ki. Sıxan kimi partladı. Özü də heç ağrı vermir deyəsən. Oooh... Rahatladım e... Nə yaxşı oldu..." – Azər artıq çibanın işini bitirmişdi. İndi onun içini təmizləyirdi. Sol əlinin baş barmağını bir qoz boyda olan çibanın içinə soxub dırnağının üstü ilə qan qarışıq irini çıxarırdı. Sonra əlini yuyur, pambıqla silir və təzədən eyni hərəkəti təkrarlayırdı. Elə bil ki, boynunda irin qaynayırdı. Bitmək bilmirdi ki. Çıxardıqca ardı gəlirdi. Qaymaq kimi ağappaq irin qıpqırmızı qana qarışaraq südlü şokolada bənzər bir hala düşmüşdü. Nə etmək olar? Təmizləmək lazımdır. Yoxsa bu, mənə rahatlıq verən deyil.

Azərin çibanla savaşı düz üç gün çəkdi. Hər gün əlüzyuyan otağa gəlib eyni qaydada təmizlik işi aparır, boynuna sarğı qoyub gedirdi. Boynu düzəlməyə başlamışdı. Artıq əvvəlki kimi ağrımırdı da. Həm də dikəldə bilirdi boynunu. Üçüncü günün sonuna doğru isə çibanın irini tükənmişdi. Təmiz qan çıxırdı yalnız. Deməli, indi dərmanlayıb sarğı qoymaq lazımdır ki, sağalsın. Həkimə getmədi yenə də. Əldə etdiyi bəzi dərmanları yarasına sürtüb üstünü bağladı.

Boynu dimdik idi. Daha üç gün sonra isə sarğıya da ehtiyac qalmadı. Yarasının üstü qapanmışdı. Ancaq yerində sonradan heç vaxt yox olmayacaq iri bir çapıq qalmışdı. Elə bil boynunu bıçaqla kəsmişdilər...

Sentyabr ayı da soyuq keçirdi Almaniyada. Artıq qışın hənirtisi də duyulmağa başlamışdı. Əsgərlər şinelə keçmişdilər. Halbuki ötən qışda belə çox vaxt şinel geyinməyə gərək duymurdular. Ancaq qorxusu yox idi. Hər necə olsa bir-iki aya evə dönəcəkdilər. Azərbaycanda isə yəqin ki, hələ də yay davam edirdi. Bununla birlikdə həyəcanlı xəbərlər də gəlməyə davam edirdi. Nəsə mitinqlər, etiraz aksiyaları, ermənilərlə qarşıdurmalar haqqında olmazın söhbətlər gəzirdi. Kim bilir indi orda nələr baş verirdi? Hər halda, evə dönən kimi bunu görəcəkdilər. Hələliksə, Sovet İttifaqına xidmət davam edirdi...

Azərgilin batalyonunda çox zəhlətökən bir gizir var idi. Yəqin evə getmə ərəfəsində də onların zəhləsini tökəcəkdi bu gizir. Batalyonun komandiri getmiş, yerinə adam kimi dil anlamaz biri gəlmişdi. Komandirin siyasi məsələlər üzrə müavini də dəyişmişdi. Mayor Poddubnını arvadsifət bir kapitan əvəz eləmişdi. Çox qorxaq və zəhlətökən olan bu kapitanın soyadı Frolov idi. İndi gəl bunlarla dil tap görüm, necə tapırsan. Belə bir şəraitdə həmin bu gizirin rəhbərliyi altında Azər və daha yeddi əsgərin qarnizonda patrul xidmətinə təyinatı çıxdı. Bir günlük Zerbstdən ay-

rılıb 23 kilometr aralıda yerləşən Dessau şəhərindəki qarnizonda xidmət keçəcəkdilər. Günortadan sonra tapşırıqlar verildi və yola düşmə zamanı gəldi. Lakin Azərin indi adını belə unutduğu bu gizir artıq gec olduğunu, gecə yatıb səhər erkəndən Dessauya gedə biləcəklərini elan etdi. Ona görə də əsgərlərə sərbəstlik verildi ki, tez yatıb dincəlsinlər.

...Səhər erkəndən qalxıb tez hazırlandılar və gizirin başçılığı altında əvvəlcə Zerbst şəhərinin avtovağzalına yollandılar. Qəribə idi. Nəinki avtovağzalda, heç şəhərdə də maşınlar gözə dəymirdi. Hər tərəf bomboş idi. Görəsən, bu maşınlar hara yoxa çıxıblar? Xatırladılar. Bu gün axı Almaniyada bayram günü idi. Hə, burda axşamladıq. İndi gəl Dessauya get görüm, necə gedirsən?

Dəmiryol vağzalına gəldilər. Azərin bir vaxtlar fəhlə kimi işlədiyi zavodun yanındakı bu vağzalda da boşluq idi. Heç kim gözə dəymirdi. Ara-sıra almanlar gəlib keçir, onlar da çox gec-gec yoldan keçən qatarlara minib gedirdilər. Əsgərlər də vağzaldakı skamyaların üstündə oturub söhbət edir, deyib gülürdülər. Bəziləri isə oturduğu yerin ətrafını tüpürcəyə qərq etmişdi. Axırda Azər dözmədi:

– Dost, ayıbdır axı. Bu qədər tüpürmək olar? Yandan baxanlar bizə nə deyərlər?

– Əşi vecinə alma. Quruyub gedəcək də.

– Qurumağına quruyacaq. Ancaq Sovet əsgəri olaraq bizə yaraşan şey deyil bu.

“Dost”u Azərin bu iradını nəzərə almayınca o, əsgər yoldaşlarının yanından ayrılmağa qərar verdi. Çəkilib aralıdakı bir skamyanın üzərində oturdu. Əsgərlərin bəziləri də onun yanına gəldilər. Dəvə kimi ikidə bir tüpürən əsgər daha bir əsgərlə birlikdə yerində qaldı.

Bir az sonra vağzala gələn yaşlı bir alman Sovet əsgərlərinin ətrafı buladığını görüb deyinməyə başladı. Azər onun deyinməsindən tək bir sözü anladı: “Schwein!” (Donuz!) Bilmədi bu sözə gülsün, ya kədərlənsin. Ancaq sevinən kimi oldu. Çünki tüpürən əsgər utanmışdı. Azər də üstünə gedincə lap utandı və əməlli-başlı peşman oldu:

– Mən sənə demədim belə eləmə? İndi gördün, bir alman səni “donuz” elədi.

– Qoy görək nə edirik? İndi oldu da bir iş.

– Olmamalıydı da. Adamın sözünə qulaq asırsınız ki?

Dostlar bu söhbətə davam etməkdəykən patrul rəhbəri olan gizir gəlib çıxdı. Sən demə az öncə qatarların hərəkət cədvəlini öyrənmək üçün gedibmiş. Gəldi, özü də qara xəbərlə. Günortaya qədər Dessauya gedəcək qatar yox idi. Ən yaxşı halda saat 13.30-da gələn qatara minsələr 14.00 üçün Dessauya çata bilərdilər. Patrul xidməti isə saat 18.00-da bitirdi. Cəmi dörd saat yəni. Halbuki bu xidmət 24 saat üçün nəzərdə tutulurdu...

Gizirin qərarı qəti idi: Dessauya piyada gediləcəkdi!

Heç bir etiraz dinləmək istəməyən gizir az sonra səkkiz nəfər Sovet əsgərini qollarında qırmızı bazubəndlə Zerbstdən Dessauya sarı gedən şose yolun kənarıyla sıraya düzüb öndə addımlayırdı. Hava soyuq idi. Ancaq artıq bir müddət sonra elə isinəcəkdilər ki... havanın deyil, əsgərlərin istiliyi yüksələcəkdi. Qalın əsgər şinelində uzun bir yolu piyada, həm də sürətlə gedəsən, təbii ki, isinərsən.

Bir neçə kilometr keçdikdən sonra bütün əsgərlər yaxalarını açmağa məcbur olmuşdular. Aralarında bəziləri hətta tərləmişdilər. Amma sürəti azaltmırdılar. Ara-sıra yoldan keçən maşınlardakı almanlar da bunlara təəccüblə baxırdılar. Bu bayram günündə bir dəstə Sovet əsgərinin çölün düzündə piyada hara getdiyi doğrudan da kənardan qəribə görünürdü...

Bir neçə saatdan sonra Roslau adlanan bir şəhərə gəlib çıxdılar. Bura gedəcəkləri Dessau şəhərindən altı kilometr aralı idi. Deməli az qalmışdı. Daha altı kilometr gedəndən sonra xidmət yerinə çatacaqdılar. Roslaunun dəmiryol vağzalının yaxınlığına yetişmişdilər. Vağzalda bir az nəfəs dərmək olardı. Hamı yorulmuşdu. İcazə verən olsaydı elə yolların qırağında bir ağacın altında uzanıb yatardılar. Amma yox, gizir bəy deyir ki, yetişmək lazımdır.

Gizir vağzalda öyrəndi ki, az sonra Zerbstdən

Dessauya sarı gedən qatar Roslaudan keçəcək. Həmin qatara minsələr on dəqiqə sonra Dessauda ola bilərlər. Bunu eşidən əsgərlərin hamısı birlikdə giziri ittiham edərcəsinə bir ah çəkdi. Ancaq edəcək bir şey qalmamışdı. Heç olmasa yolun bu hissəsini qatarla gedib bir az dincəlmək olardı.

Saat ikidə artıq Dessauya çatmışdılar. Qatardan düşüb tez-tələsik addımlarla qarnizona gəldilər. Burada onları əməlli-başlı ″gözləyənlər″ varmış ki...

Bir az sonra xidmətə gecikmiş, əslində isə xidmətin demək olar ki, sonuna yaxın gəlib çıxmış patrullar sıraya düzülmüşdülər. Onların burada keçəcəyi xidmətə nəzarət edəcək bir kapitan isə qarşılarında dayanıb hey danlayırdı. Deyəcək bir sözləri yox idi təbii. Nə desinlər axı? Dünən axşamdan burda olmalı idilər, yalnız indi gəlib çıxıblar. Günahkar idilər.

Sıra gəldi xidmətə gecikənlərin cəzalandırılmasına. Kapitan cəza üçün onları işlədəcəkdi. Artıq patrul xidmətini unutmaq lazımdı. Bayram libası geyinmiş əsgərlər indi bu kapitanın buyuracağı işləri görməli idi. Başqa çıxış yolu yox idi.

Bu cəza dedikləri şeyin biri qərargah binasının həyətindəki kömürü araba ilə daşıyıb zirzəmiyə tökmək idi. Azər sevindi. Hə, bu iş mənlikdir. Daşıyaram. Yox, ancaq Azərə kimdir o işi verən. Kapitan iki rus balasını ayırıb həmin işin dalınca göndərdi. Sırada Azər idi. Ona müraciət olundu:

– Sən isə süpürgəni alıb bizim yaşadığımız binanın həyətini xəzəldən təmizləyəcəksən. Odur, yolun qarşı tərəfində. Haydı, vaxt itirmə!

– Nə? Nə süpürmək? Mən əsgərəm, yoxsa süpürgəçi? Yoldaş kapitan, mən bunu edən deyiləm!

– Necə yəni edən deyilsən?! Sən mənim əmrimə qarşı çıxırsan?! İndi sənə göstərərəm mən! Haydı, süpürgəni götür, dərhal əmri yerinə yetir! Yoxsa cəzan ağır olacaq!

– Əşi nə olur, olsun! Mən dedim axı süpürgəçi deyiləm, əsgərəm! Həm də bizi bura patrul xidməti keçməyə göndəriblər! Gecikmişiksə, cəzamızı verin! Yoxsa həyət süpürmək nədir?!

– Zirzəmiyə! Basın bunu zirzəmiyə! Kəmərini, papağını alın, basın qaranlıq zirzəmiyə ki, ağlı başına gəlsin! Mən sənə göstərərəm əmrə qarşı çıxmağı!

– Sizin zirzəminizdən qorxan var bəyəm?! Özüm gedərəm! Haradadır zirzəmi!

Gənc bir leytenant Azəri kənara çəkib kəmərini çıxarmağı əmr etdi. Əmr deyəndə ki, buna əmr demək olmazdı. Çünki kapitanla Azərin bu cür danışdığını görəndə leytenant az qala sarısını udmuşdu. Görünür, xidmətə yeni başlamışdı. Ona görə də səsini ucaltmağa cürət etmirdi. Hər necə olsa birdən bu dəli əsgər qayıdıb onu vura da bilirdi. Özü də zalım oğlu əjdaha kimidir.

Bu arada kapitan Zadiyan soyadlı bir ermənİylə

məşğul idi. İndi həyəti ona süpürtdürmək istəyirdi. Ermənilər üçün bu problem deyildi. Ancaq Azərin etirazından sonra Zadiyanın həyət süpürməsi onun üçün heç də asan olmayacaqdı. Elə ona görə də Azərdən fərqli olaraq sakit bir səslə etiraz edəndə kapitan sözü uzatmadan "bunu da zirzəmiyə!" – deyə əmr etdi.

İki düşmən Qafqazlı bu soyuq sentyabr günündə Almaniyanın kiçik bir şəhərindəki Sovet qarnizonunun qaranlıq zirzəmisində cəza çəkməli idi. Bu zirzəmi özü böyük olsa da onları lap küncdəki balaca bir otağa salmışdılar. Otağın balaca pəncərəsi də vardı. Ancaq günün günorta çağında belə içəriyə normal işıq düşmürdü. Yatmaq üçün yer vardı: iki ədəd taxta çarpayı. Üzərində nə döşək, nə yorğan. Sadəcə döşəmədən otuz santimetr yüksəkdə yerləşən taxta çarpayı. İndi gəl burda yat-dur görüm, necə yatırsan. İşin pis tərəfi də bu idi ki, otaq deyilən yerin qapısı sadəcə barmaqlıqdan ibarət idi. Daha doğrusu, bura zirzəminin bir hissəsinin barmaqlıqla ayrıldığı yer idi. Üç tərəfi divar, bir tərəfi isə barmaqlıq. Edəcək bir şey də yox idi. Cəza verilmişdi, çəkilməsindən başqa bir yol da qalmamışdı. Soyuqsa soyuğa, aclıqsa aclığa dözməkdən başqa nə əlac vardı ki?

Bu erməni ilə Azər belə bir yerdə bir-birilərinə dözməli idilər. Erməniyə etibar olmaz, ancaq onsuz da dəyişəcək bir şey yox idi. Ona görə də bir az or-

dan-burdan söhbət edib, sağa-sola gəzişərək vaxt keçirməklə cəzanın bitəcəyi günü gözləməyə başladılar. Bir müddət sonra dəhlizdə sakitlik olduğunu görən Azər təklif etdi ki, barmaqlığın qıfılını açmağa çalışsınlar. Zadiyanın edəcəyi bir şey olmadığından bunu öz üzərinə götürdü.

Qıfılı açmaq üçün əl altında heç nə yox idi. Bununla belə Azər bir yolunu tapdı. Şinelinin qarmaqlarından birini qoparıb düzəltdi. Ucunu azacıq əyib qıfılı açmağa girişdi. Bir neçə saniyədən sonra qıfıl təslim olmuşdu. Bu minvalla onlar "otaq"dan çıxıb heç olmasa zirzəminin dəhlizində gəzişə bilərdilər.

Üç gün ərzində istədikləri vaxt dəhlizə çıxır, ayaq səsi eşidən kimi qayıdıb içəri girərək qıfılı yerinə bağlayırdılar. Gündə cəmi bir dəfə yemək gətirilirdi. Yalnız səhərlər. Üzlərini belə qırxmağa icazə verilmirdi...

Üç gün keçəndən sonra xəbər gəldi ki, onları aparmaq üçün hərbi hissədən Antonov soyadlı bir gizir gəlib. Sevindilər.

Az sonra qapı açıldı. Zirzəmiyə kimsə daxil oldu. Bir növbətçi idi. Gəlib onları barmaqlıq arxasından çıxardı və azad ediləcəklərini dedi. Onun arxasınca getmələrini istədi.

Zirzəmidən çıxıb yuxarı qalxdılar. Az sonra artıq birinci qatdakı əsas kabinetin önündə idilər. Onları zirzəmiyə salan kapitan içəridə oturmuşdu. Gizir

Antonov isə onun qarşısında ayaq üstdə durmuşdu. Əsgərləri görən kimi bir az sevincək şəkildə dedi: "Gəldilər".

Kapitan başını qaldırıb onlara baxdı. Sonra dedi:

– Gəldiniz? Gəlin görüm. Sizi aparmaq istəyirlər. Ümid edirəm cəzadan nəticə çıxarmışınız.

Sonra üzünü gizirə tutdu:

– Ancaq bir şərtim də var. Ona əməl etsinlər, azadsınız.

– Nə şərt? Buyurun.

– İndi bu iki qoçaq əskini götürüb bu dəhlizi silsinlər ki, ağıllandıqlarına əmin olum. Ən azından cəzanın bir faydasının olduğunu gözümlə görməliyəm ki, onları azad edim.

Gizir Antonov nəsə demək istəyirdi ki, Azər onu qabaqladı:

– Nə? Döşəmə silmək? Mən məgər ona görə cəza çəkdim ki, burda döşəmə silim? Ondansa zirzəmiyə qayıdıram.

Bunu eşidən kapitanla gizir Azərin üzünə baxanda Antonov tez təşəbbüsü ələ aldı:

– Sən bayırda gözlə, biz indi məsələni həll edərik.

Bir az sonra gizir əlində onların azad edilməsi haqqında kağızlarla bayıra çıxdı. Azər soruşanda ki, nə oldu, cavab verdi:

– Vəziyyət belədir: mən söz verdim ki, siz döşəməni siləcəksiniz. Ona görə kağızları imzaladı. İndi

sivişib aradan çıxmaq lazımdır. Nə qədər tez burdan əkilsək, bir o qədər yaxşıdır.

Bu dəfə hər iki əsgər "əmrə" həvəslə tabe oldu. Yavaşca dəhlizi keçib bir neçə pilləlik pilləkəndən endilər. Növbətçilərin yanından keçib yavaş-yavaş vağzala doğru yönəldilər.

Vağzalda bu dəfə adam çox idi. Hamı üzü saqqallı Sovet əsgərlərini təəccüblə süzürdü. Almanlar üçün belə səliqəsiz əsgər görmək adi hal sayıla bilməzdi. Hətta mümkün idi ki, alman polisi nədənsə şübhələnib onları saxlasın...

Bir saat sonra onlar doğma hərbi hissənin həyətində idilər. Batalyonun kazarmasına doğru gedərkən alay qərargahının önündə kapitan Frolovla rastlaşdılar. Onları görən kapitan bir az qımışaraq, "oho, cinayətkarlar azadlıqda" deyə səsləndi. Bu isə Azərin xoşuna gəlmədi: "Nə cinayəti? Bizi qanunsuz tutmuşdular".

– Qanunsuz niyə olur? Əmrə tabe olmaq lazımdır, əsgər.

– Hansı əmrə? Əmrin özü qanunsuz idi. Bizi patrul xidməti keçməyə göndərmişdiniz. Onlar isə həyət süpürtdürmək istəyirdilər.

– Süpürəydiniz. Süpürəydiniz, sonra da şikayət edəydiniz. Onda cəzanı siz deyil, başqası çəkərdi.

– Nə? Şikayət? Kimə və kimdən şikayət? Guya burda elə şikayətlərə baxan olacaqdı ki? Ən yaxşı halda deyəcəkdilər ki, araşdırarıq.

– Yaxşı, nə isə, oldu keçdi. Gedin özünüzü səliqəyə salın. Batalyona gələrəm, danışarıq. Həm də sən bu gün sabah evə gedirsən, diqqətli ol. Özünü yaxşı apar ki, tez buraxsınlar.

Azərin evə tez buraxılması imkanı artıq əldən getmişdi. Əgər əvvəlki batalyon komandiri qalsaydı, elə evə ilk gedən o, olacaqdı. İndi gələnə isə heç nə anlatmaq olmurdu. Elə hey dirənirdi ki, o işi elə, bu işi elə. Azər də onun əlindən bezmişdi. Ancaq verdiyi tapşırıqları da qəribliyə salmırdı. Rusdan, xaxoldan tutub işləri gördürürdü. Əvvəlki komandir bilirdi ki, Azərbaycanlılar döşəmə silməz, qab yumaz, ona görə də onları bu işlərə buyurmurdu. Daş daşımaq, ağır işlər olanda, heç çəkinmədən Azərbaycanlı əsgərlərə etibar eləmək olardı. Azərə də həmçinin. Azərbaycanlılar deyirdilər ki, onlar istənilən kişi işini görməyə hazırdırlar. Hətta millət məclisindəki söhbətlərdə də gənc əsgərlərə təbliğ edilirdi ki, kişi işindən qaçmasınlar. Qaçanı da ki, cəza gözləyirdi təbii.

* * *

Artıq müdafiə nazirinin elanı qəzetlərdə dərc edilmişdi. Evə getmə zamanı çatan bütün əsgərlər sevinc içində idi. Hamının ürəyi həyəcanla döyünürdü. Oturub bu gün, ya da sabah evə getməyi gözləyirdilər. Azər və Azərbaycanlı dostları da bu həyəcandan kənar deyirdilər. Ancaq deyəsən həyəcan uzun sürəcəkdi.

İki ilin tamamına doğru hər şey yolunda idi. Lakin son bir-iki ayda tərslikdən hamısının problemi çıxmışdı. Belə olmasaydı bəlkə də ilk təyyarələrdən biri ilə vətənə uçardılar.

Xəbər gəldi ki, Tiflis təyyarəsi uçacaq. Sevindilər ki, Azərbaycana yaxın olduğu üçün onları da buraxarlar. Olmadı.

Sonra xəbər gəldi ki, İrəvan reysi var. Bura heç özləri də getmək istəməzdilər. Göndərən də yox idi onsuz da.

Bir neçə gün sonra Mahacqala təyyarəsinin xəbəri gəldi. Bu da sərfəli seçənək idi. Ancaq, əfsus.

Sonrakı reyslər artıq uzaqlaşmağa başlayırdı. Bir gün Qroznı reysinin xəbəri gəldi. Sonra Rostov, Stavropol, Penza, Moskva, Peterburq. Bunların hamısı gəldi, getdi. Rus, xaxol, kim var idi getmişdi. Bir Azərbaycanlılar qalırdı. Erməniləri də buraxmışdılar. Çarə yox idi. Qaçmaq olmazdı, gözləməli idilər. Ən azından yeni ilə qədər evə buraxılacaqlardı. Çünki bundan o yana heç kimin onları saxlamağa ixtiyarı yox idi.

Bir də xəbər gəldi ki, dekabrın 11-də Sverdlovsk reysi olacaq. Özü də axırıncıdır. Ondan sonra daha heç bir uçuş nəzərdə tutulmur. Çox uzaq bir yer idi. Oradan Bakıya təyyarələr uçurdu. Ancaq bir şərqə gedəsən, sonra da cənub-qərbə geri dönəsən. Minlərlə kilometr

yoldur. Təyyarə ilə bir neçə saatlıq olsa da yenə də uzaqdır. Amma nə etmək olardı ki? Heç nə. Sadəcə sonuncu təyyarəyə minib Azərbaycana qayıtmaq lazım idi.

* * *



***Bu uçağı çox gözlədik... Azərin əl işi. Əsgərlik gündəliyindən***

Dostlar Sverdlovsk hava limanına enəndə günün birinci yarısı idi. Hava artıq işıqlaşmışdı və ətrafda sərt bir qışın varlığı hər şeyi ilə bir azdan gündüzün bitməyə başlayacağından xəbər verirdi. Buraya kimi təyyarə biletləri vardı. Burdan o tərəfə, yəni Bakıya isə qatarla getməli idilər. Çünki hərbi hissə rəhbərliyi onlara Sverdlovskdan sonrakı yol üçün yalnız qatar bileti

vermişdi. Bu isə dostları sevindirirdi. Nə də olsa sərbəst şəkildə qatarla getməyin ayrı ləzzəti var axı. Azər isə bir an öncə evə çatmaq istəyirdi. İki ildən də artıq çəkən bu ayrılıq, üstəlik də son bir il ərzində Azərbaycandan gələn həyəcanlı xəbərlər onun tələsməsi üçün çox ciddi səbəblər idi. Ona görə də dostlarına təklif etdi ki, bu qatar məsələsini bir araşdırsınlar.

Hava limanındakı məlumat bürosuna yaxınlaşan Azər sarışın rus qızına salam verib bir-iki xoş söz dedikdən sonra Bakıya qatarla necə gedə biləcəklərini soruşdu. Kabinədə oturan qız onun sözlərindən ehtizaza gəlmiş kimi Azəri yaxşıca süzdükdən sonra incə və həlim səslə dedi:

– Bu saat araşdıraram.

– Çox rica edirəm, zəhmət olmasa.

Az sonra əldə edilən bilgiyə görə, qatarla Bakıya gedib çıxmaq onların bir neçə gününü əllərindən alacaqdı. Çünki bura elə naqolay bir yer idi ki, Bakıya birbaşa getmək mümkün deyildi. Gərək əvvəlcə şimala – Moskvaya gedəydilər. Bu isə azı bir sutka vaxtın itirilməsi demək olacaqdı. Ondan sonra Moskvada qatarı dəyişib cənuba – Bakıya yollanmalıydılar. Bu da ən azı iki sutkalıq yol idi. Aradakı fasilələri və qatar gözləmələri də diqqətə alanda ən yaxşı halda üç gündən sonra Bakıya çata bilərdilər. Halbuki təyyarə ilə getsəydilər bu yol hardasa üç saat çəkəcəkdi. Ona görə də Azər yenidən bürodakı rus qızına yaxınlaşdı:

– Sizin yardımınız olmadan biz buradan ayrıla bilən deyilik deyəsən.

– Buyurun, buyurun. Sizə necə yardım edə bilərəm?

– Məsələ ondadır ki, qatarla buradan Bakıya getmək çox uzun çəkəcək. Yol dolanbacdır. Şimala get, Moskvada qatar dəyiş, cənuba yollan. Biz onsuz da uzaq yoldan gəlmişik. Yorğunuq, həm də evimizə tez çatmaq istərdik. Ona görə də bizə uyğun bir təklif versəniz sevinərik.

– Hə, anladım. Demək siz evə daha tez getmək istəyirsiniz. Lap yaxşı. Qoy yoxlayım, görüm Bakıya təyyarə reysi nə vaxtdır?

– Burdan Bakıya uçmaq olar? Birbaşa? Nə yaxşı oldu! Zəhmət olmasa, baxın.

– Hə, var. Sabah Bakıya bir reysimiz var. Yer də var. Neçə nəfərsiniz? Beş nəfər? Hə, yer də var.

– Elə isə nə edə bilərik?

– İndi siz bilet kassasına yaxınlaşın. Orada əlinizdəki qatar biletlərini təhvil verib təyyarə bileti ilə dəyişə bilərsiniz. Yalnız üstünü ödəməli olacaqsınız. Hardasa adama on rubl.

– Heç bir problem yoxdur. Ödəyərik. Mən bilirdim bu qədər gözəl və gənc bir xanım bizə mütləq daha uyğun yol göstərəcək. Çox təşəkkür edirik.

– Mən təşəkkür edirəm. Buyurun. Yeri gəlmişkən, siz də çox xoş bir gəncsiniz.

Qarşılıqlı nəzakət mübadiləsindən sonra Azər içində gözəl bir rus qızı oturan bilgi bürosundan zorla da olsa aralanıb bilet kassasına doğru yönəldi. Dostları da onun ardınca.

Burada oturan yaşlı və bir az da kobud sifətli rus qadını da ilkin görünüşünə rəğmən nəzakətli şəkildə gəncləri dinlədikdən sonra pulları və qatar biletlərini qəbul etdi. Onlardan bir neçə dəqiqə gözləmələrini xahiş edib əməliyyata başladı.

Artıq bir müddət sonra əsgərlərin əlində Bakıya uçmaq üçün təyyarə biletləri vardı. Uçuş saatı sabaha idi. Özü də sabah axşama. Vaxt keçirmək üçün bolluca imkan vardı. Ən azından bir sutka. Hətta daha çox. Biletlərə uyğun uçuş baş tutsa dekabrın 14-də səhər Bakıda olacaqdılar. Düzdür, bu da uzun çəkirdi. Ancaq qatarla getməkdən daha yaxşı idi.

* * *

Təyyarə Bakıya enəndə sakit bir hava vardı. Ətraf elə bil qış yuxusuna getmişdi. Almaniyadan və özəlliklə də Rusiyanın Sverdlovsk şəhərindən fərqli olaraq burada qış heç də gözə dəymirdi. İlıq bir hava, Bakıya çox da xas olmayan küləksiz sükut. Hava limanındakı işçilər də çox sakit idilər. Dindirməsən danışmazdılar. Düzdür, Azər bilmirdi ki, onlar başqa günlərdə və başqa illərdə necə olurdular. Çünki bu onun Bakı hava limanını ilk dəfə gördüyü idi.

Düşünürdü ki, yəqin hava limanının işçiləri belə ciddi, bir qədər də qaşqabaqlı olur yəqin.

Dostlar uyğun yoxlamaları keçdikdən sonra şəhərə gəlmək üçün yollar haqqında götür-qoy etdilər. Taksilər də ki, adamın başına çıxırdı. O yanaşırdı ki, "bacı oğlu, gəl aparım", bu yanaşırdı ki, "qardaşoğlu, istəyirsən lap rayona da aparım səni". Axı yaxşı bilirdilər ki, iki illik ayrılıqdan sonra oğlunu sağ-salamat qapısında görən ata-ana yaxşıca muştuluq verəcək. "Ə, qardaş, heç taksi pulu da lazım deyil e. Gəl aparım da. Hara deyirsən, sürürəm. Əşi, o boyda yoldan gəlmisən, indi evdəkilərin gözü çıxdı axı səni gözləməkdən. Gəl, tez gedək, qoy görsünlər ki, sağ-salamatsan. Qoy evdəkilər rahat olsun", – deyə əsgərləri az qala zorla maşına basmaq istəyirdilər. Əsgərlər isə, maşallah, bu "hücumlara" qarşı möhkəm dayanmışdılar. Hətta taksi sürücülərindən biri, "əşi bunlar evə tələsənə oxşamır" – deyib iddiasından vaz da keçdi.

Əslində hər biri evə tələsirdi. Bir an öncə evə çatmaq, doğmalarını qucaqlamaq, ata-analarının qarşısına kişi kimi çıxmaq üçün bu günü düz iki il, hələ ondan da artıq gözləmişdilər. Ancaq məsələ onda idi ki, ciblərində yetərincə pul yox idi. Taksini də evə sürdürəcəksən, bunlar sırtıq adamlardır, bir də baxdın on manatlıq yol üçün yüz manat qopardılar. Ata-ana sevindiyindən pul söhbəti edərdimi heç? Ona görə də bunlardan qurtulub avtobusla getmək lazımdır. Bu, onların son qərarı idi.

Hava limanındakı avtobus dayanacağında Bakı dəmiryol vağzalına gedən bir "İkarus" dayanmışdı. Bir neçə dəqiqədən sonra yola düşəcəkdi. Elə dostlar üçün də belə yaxşı idi. Hamısı bir yerdə, söhbətləşə-söhbətləşə, həm də, kim bilir, son dəfə birlikdə yol gedəcəkdilər. Ondan sonra hərə öz evinə, yurduna dönəcəkdi və bəlkə də illərlə bir-birlərindən xəbərləri olmayacaqdı. Taksidə isə beşi birlikdə gedə bilməzdi. Sovetin darısqal və narahat "Jiquli"ləri buna imkan verməzdi. Ən azından iki maşın tutmaq lazım idi. "İkarus" isə vaqon boyda idi...

Gündüz vaxtı olduğundan yol boyu qaynayan bir həyat görəcəklərini gözləsələr də yanılırdılar. Hər yan sakitlik idi. Şəhərə doğru uzanan asfalt yolun sağı da, solu da kimsəsiz idi. Ara-sıra maşınlar və adamlar gözə dəyirdi. Adamların da üzündən elə bil zəhrimar yağırdı. Qadınlar da gözə dəyirdi. Bir baxırsan ki, hamısı elə bil qara geyinib axı. Yox, ancaq nəsə bədbəxt hadisə haqqında xəbər verən olmayıb. Allah eləməmiş, zəlzələ, daşqın, kütləvi qırğın kimi heç nə haqqında xəbər yox idi. Bir erməni məsələsi var idi. O da fevral ayında olmuşdu. İndi isə dekabr idi. Nə isə, bir az sonra hər şey aydınlaşar...

Artıq avtobus şəhərin içi ilə gedirdi. Buralar hələ ki, Azərə tanış gəlmirdi. Ancaq şəhər idi. Bakı şəhərinin özü. Evə çatmağa çox az qalıb. Şəhərdə də insanların üzündə nəsə qaranlıq vardı. Vallah, deyəsən

burda nəsə olub. Aha, bu PDM (piyadaların döyüş maşını) burda nə gəzir? O tərəfdəki ZTR-ə (zirehli transportyor) bax hələ. Allah, allah. Müharibə zad var ki, burda? Bəlkə hərbi təlimlərdir? Ancaq şəhərin tən ortasında da təlim olar? Biz heç Almaniyada belə təlimlər keçmirdik...

Budur, Bakı dəmiryol vağzalı. Hə, bura tanış gəlir. Azər buranı yaxşı tanıyır. Çünki Xaçmazdan Bakıya ilk gəlişində bu şəhərə ilk qədəmini məhz bu vağzalda basmışdı. Heç unudula bilərmi o an? Unudulmaz!

Ancaq burda da zirehli hərbi qüvvələr gözə dəyir axı. Özü də bir deyil, iki deyil. Neçə-neçə ZTR, PDM, üstəlik də zirehli, dəbilqəli əsgərlərlə. Yox, burda yüz faiz nəsə yerində deyil. Yoxsa şəhərin yarısını keçiblər, hər yerdə əsgərlər, zirehli texnika gözə dəyir. Bu qədər də təlim olmaz. Burda da insanların üzü gülmür. Hər halda, az sonra hər şey aydın olar.

Avtobusdan düşüb bir yerə toplaşdılar. Kimin hansı tərəfə gedəcəyini müzakirə etdilər. Son dəfə birlikdə söhbət edib ayrılmağa qərar verdilər. Azər hələlik Yasamalda yataqxanada yaşayan qardaşının yanına gedəcəkdi. Abdurahman da Bakıdakı hansısa qohumlarını görüb sonra Borçalıya yönələcəkdi. Arzu isə deyirdi ki, avtobusdan, maşından tapıb Gədəbəyə yollanır. Ziyəddinlə Nizami də onun kimi Ağdama yollanacaqdı. Beləcə qucaqlaşdılar, kövrəldilər, bir-birilərinə əlaqə saxlamaq üçün vəd verdilər və ayrıldılar.

Azər metroya minib "Elmlər Akademiyası" stansiyasına sarı üz tutdu.

Yarım saat sonra o, Yasamaldakı 5 saylı çörək zavodu ilə üzbəüz yerləşən 14 saylı yataqxananın qapısında idi. Növbətçi qadın onu görəndə gülümsəyərək, "kim lazımdır?" – deyə soruşdu. Azər cavab verdi:

– Burda mənim qardaşlarım olur. Xeyrulla, bir də Beykəs. Varsa, çağırardınız zəhmət olmasa.

– Hə, bildim. Budur, sol tərəfdəki qapı. Elə birinci mərtəbədə.

– Çox sağ olun.

Qapını Azərin üzünə Beykəs açdı. O, Azərin ən kiçik qardaşı idi. Kiçik deyəndə, Azərdən kiçik deyildi təbii. Onun digər qardaşlarına görə kiçik idi. Qucaqlaşdılar, sevindilər. Otağa keçib oturdular. Bir xeyli söhbət etdilər. O qədər uzun söhbət etdilər ki, nə vaxt günün əyildiyindən də xəbərləri olmadı. Azər hər kəsi soruşdu, hər kəslə maraqlandı. Birər-birər, adbaad ata-anasını, qardaşlarını, bacılarını, uzaq-yaxın qohumlarını, qonşularını xəbər aldı. Şükür, hər şey, deyəsən, yaxşı idi. Salamatçılıq idi deyəsən. Hər halda Beykəs deyir ki, "hamı qoyub getdiyin kimidir".

"Ancaq atam haqqında nəsə bir az şübhəli danışdı. Mən soruşdum ki, atam necədir, dedi, Həştərxana gedib. Nə işi var onun Həştərxanda ilin bu vaxtı? Həm də axı bilir ki, mən əsgərlikdən gəlirəm. Yox, yəqin nəsə var. Allah kərimdir. Qoy hələ evə çatım,

hər şey aydın olar" – deyə düşündü Azər.

Mülki həyatın ilk gecəsini yataqxanada keçirib səhər Xaçmaza yollandılar. Onun gəlməyindən heç kimin xəbəri yox idi. Binəqədidə yaşayan qardaşı Xələfə də baş çəkib Beykəsin "Jiquli"sində üz tutdular Xaçmaza.

Azərin gəlişinə hər kəs sevinirdi. Anası hamıdan çox sevinirdi. Çünki artıq sonuncu – altıncı oğlu da kişi kimi hərbi xidmətini çəkib sağ-salamat evə qayıtmışdı. Bir ana üçün bundan böyük xoşbəxtlik nə ola bilərdi ki? Ancaq sevinsələr də evdə nəsə bir sınıqlıq vardı. Elə bil ondan nəsə gizlədirdilər. Olmaya?...

Yox, Allah eləməsin! Bu nə axmaq fikirdir ağlımdan keçirirəm? Beykəs axı dedi ki, Həştərxana gedib. Elə mən əsgər getməmişdən də Rusiyaya çox gedib gəlirdi. Yəqin nəsə təcili getməli olub. Lənət şeytana, adamın ağlına nələr gəlmir daha? Gözləyək, hər halda bir-iki günə gəlib çıxar. Hələ anası da deyir ki, atan Urusyetə gedib. Daha yalan deyən deyillər ki...

Gələn-gedən, qohum-qonşu Azərin şübhələrini bir az da artırırdı. Hələ balaca Asəf də nəsə şübhəli davranırdı. Atasının, yəni Asəfin babasının adı çəkiləndə uşaq rəng verib rəng alırdı. Böyük qardaşı Abbasqulunun oğlu olan bu Asəfin uşaqlığı Azərlə birlikdə keçmişdi. İndi yaşı artıq onu keçmişdi və ağlı kəsən böyük bir oğlan idi. "Burda nəsə var, bunlar məndən nəsə gizlədirlər" – deyə düşünən Azər

"uşaq yalan danışmaz, qoy Asəfi bir kənara çəkim hələ" – deyərək onu yanına çağırdı:

– Gəl görüm, qoçaq, gəl səninlə aşağı düşək. Görək həyətdə vəziyyət necədir.

– Hə, əmi, düşək də.

Həmişə adamın təpəsinə çıxan bu dəcəl Asəfin səsi də bir az titrək və şübhəli idi. Yox, burda, allah göstərməsin, məndən gizlətdikləri nəsə var. İndi öyrənərəm. Asəf mənim sözümdən çıxmaz. Soruşaram, cavab verər.

Əmi-qardaşoğlu birinci mərtəbəyə endilər. Asəf həyətdə bağçaya çıxacaqlarını gözləsə də Azər onun əlindən tutub uşaq vaxtı tez-tez yuxular gördüyü alt evə tərəf çəkdi. Asəf artıq nə baş verdiyini duyduğundan, "əmi, gəl sənə təzə ağacları göstərim" – desə də Azərə təslim olmaqdan başqa çarəsi qalmadı.

Otağa girib qapını bağladıqdan sonra Azər Asəfin üzünə baxdı:

– Hə, de görüm.

– Nəyi, əmi? Başa düşmədim, sən ki, bir şey soruşmadın.

– Bilmirsən nəyi? Bayaqdan özünü çox şübhəli aparırsan. Məndən nəsə gizlədirsiniz?

– Nə? Yox, ay əmi, nəyi gizlədəcəyik ki?

– Gizlətmirsinizsə, niyə hamı özünü qəribə aparır?

Asəf başını aşağı saldı. Susdu. Üzü qızardı, bir az da elə bil doluxsunmaq istədi. Ancaq özünü tox-

datmağı bacardı. Əmi ilə qardaşoğlu bir müddət susdular. Bəlkə də bir neçə saniyə çəkən bu susqunluq içində Azərin ağlından daha nələr keçmədi? İndi necə soruşsun? Birdən düşündüyü cavabı alsa? Onda nə olacaq? Halını təsəvvür belə etmək istəmədi. Ancaq soruşmaq lazım idi. Həm də o boyda əsgərlik çəkib gəlib. Anası da, qonşular da deyir ki, əsl kişi kimi gəlmisən. Kişi gərək möhkəm ola. Şükür allaha, əsgərlikdə heç bir əskikliyim olmadı, özümü qoruya bildim. Başı dik gedib, başı dik də gəldim. Çətinliklərə sinə gərdim. Düzdür, ölüm-itim görmədim, amma bu da mümkündür. Həyatdır da. Bu dünyanı tutub duran kimsə olmayıb ki, heç. Dədəm Qorqud demirdimi ki, "gəlimli, gedimli dünya, bir ucu ölümlü dünya"? İndi də, allah eləməsin, belə bir şey varsa, gərək heç olmasa bu uşağın yanında özümü tox tutum.

Sükutu Azər pozdu:

– Atam hardadır?

– Baba? Baba, baba...

Asəfin səsi titrədi. Üzünün rəngi pörtdü. Bilmədi nə desin. Elə bil dili tutuldu. Demək istədi, ancaq demədi. Əmisinin bunu necə qarşılayacağını bilmədiyi üçün başını aşağı salıb gözlərini döşəməyə zillədi. "İndi soruşsa nə deyəcəm?" – deyə düşündü.

Azər də Asəfin cavab vermədiyini görüb bir müddət susdu. Ona baxdı. Gözünü çevirib pəncərədən bağçaya göz gəzdirdi. Yarpaqları tökülmüş ağacların

yetim və baxımsız gündə olduğunu indi fərq edirdi. Bayaqdan hər tərəf payıza rəğmən ona güllü gülüstan kimi görünürdü. İndi isə əsl payız idi. Həyətlərində əsgərlikdən öncə gördüyü payızlardan fərqli payız. Səliqəsiz idi həyətləri. Atası buna dözməzdi. Atasının başında nəsə iş var. Mütləq nəsə iş var. Ya xəstədir, ya da... Dilimdən yel alsın!

– Səndən söz soruşdum axı.

Bu dəfə Azər Asəfi qorxutmamaq üçün bir qədər qıvraq səslə soruşdu. Onun belə sağlam səslə danışması Asəfin özünə gəlməsinə səbəb oldu. Ona görə də bayaqkı kimi yavaş səslə deyil, normal səslə sualını yenə təkrarladı:

– Baba? Babanı deyirsən?

– Əlbəttə babanı deyirəm. Hamını gördüm, o gözə dəymir. Haradadır?

– Harada?

– Nə uzadırsan? De görüm də. Səndən axı söz soruşdum.

– Baba, baba... Bilmirəm... Bilmirəm hardadır...

Azər anladı. Babasının ən sevimli və ilk nəvəsi olan Asəfin dili gəlmirdi həqiqəti deməyə. Deməli... Deməli...

Azər özünü tox tutmağa çalışdı. Uşağın yanında təslim olsa yaxşı düşməzdi. Ona görə də Asəfə qapını göstərdi:

– Get, indi gəlirəm.

Səsi elə bil titrəmək istədi. Ancaq son bir həmləylə özünü toplayıb halını pozmamış kimi uşağı yola saldı. Otağın ortasında dayanıb ətrafa baxdı. Bu balaca otaqda nə qədər xatirələri vardı onun...

Orda atasının yatağı idi. Anası ilə birlikdə yatırdılar. O da onların arasına dürtürdü özünü. Ata-anası da bundan xoşlanırdı. Bəzən də soyuq qış gecələrində sobanın yanında oturub birlikdə çay içərdilər. Fındıqdan, qozdan yeyib söhbət edərdilər. Atası yuxarı başda, döşəyin üzərində böyrü üstdə uzanıb təsbeh çəkərdi. İndi isə anlaşılır ki, bir daha onu bu otaqda, bu evdə, bu həyətdə, bu dünyada görə bilməyəcək...

Evdəki ilk gününü mümkün qədər sakit başa vurdu. Öz şübhələri haqqında heç kimə heç nə demədi. “Sabah olsun, hər şey aydınlaşar”, – deyə düşündü. Planı vardı. Məşhur Çələbilər pirinə gedəcəkdi. Kəndin bir kənarında yerləşən bu pir həm də qəbiristanlıq idi. Eh... Bu kəndin bütün sakinləri dünyanı gəzib dolaşdıqdan sonra burda əbədi məskən salırlar. Bura heç kimə yalan deməzdi. Burda hamı bir-birinə bənzəyirdi. Nə artıq, nə əskik. Cəmi iki metrlik torpaqda, yerin altında əbədi yuxuya gedirdi kəndin sakinləri burada. “İndi ki, evdəkilər mənə nə olduğunu demir, Çələbilər babadan soruşaram” – deyib əsgərlikdən sonra evdəki ilk gününü başa vurdu.

Səhər açılanda tək bir düşüncəsi vardı: qəbiristanlığa getmək. Başqa heç nə onu düşündürmürdü.

O yuxudan duranda artıq saat on idi. Neçə müddət idi ki, belə gec yuxudan durmurdu. Adəti üzrə yuyunmaq üçün aşağı enib həyətdəki arxa yanaşdı. Havanın soyuğuna baxmayaraq qurşağa qədər soyundu. Bir az da bədən, əl-qol hərəkətləri edəndən sonra arxın üzərinə əyilib buz kimi su ilə əl-üzünü, sinəsini yudu. Qayıdıb evə çıxdı. Yeməyi hazır idi. Anası oturub onu gözləyirdi.

Yeməkdən sonra anasına "mən bir az kəndin başına gedirəm, görüm kimlər var", – deyib evdən çıxdı. Anası bir söz demədi. Yol çəkən gözləri ilə oğlunu yola salıb yerində oturdu. Ana ürəyi idi, oğlunun hara, nə üçün getdiyini duyurdu. "Qoy getsin. Bizdən soruşmağa dili gəlmir, öz gözləri ilə görüb sakit olar. Həm də qoy tək getsin. Bəlkə atasına deyiləcək sözü var?" – deyə düşündü anası.

Cəmi bir kilometr aralıda olan "kəndin başı"na gedib çıxmaq elə də asan olmadı. Yolda kim onu görürdü görüşür, xoş gəldin deyir, hal-əhval tuturdu. Ancaq atası ilə bağlı heç kim heç nə demirdi. Təəccüblü idi. Bəlkə düşündükləri həqiqət deyil? Bəlkə atası doğrudan da Həştərxana gedib? "Nə isə, gedib görərəm."

Çələbilər piri və bütövlükdə bu qəbiristanlıq qədim bir meşənin içində idi. Daha doğrusu bu meşə başdan ayağa qəbiristanlıq idi və pir də meşənin tam ortasında yerləşirdi. Kənddəki inanca görə bu Çələbi məşhur Övliya Çələbinin soyundan imiş. Ancaq tarix

kitablarında bunu təsdiq edəcək bilgi yox idi. Meşə və qəbiristanlıq böyük bir ərazini tuturdu. Buranın tarixi isə yüz illərlə ölçülürdü. Hələ əsgərlikdən qabaq Azər buradakı bəzi qəbirlərin üzərində ərəb əlifbası ilə yazılmış tarixləri oxumuşdu. Dimdik duran bir baş daşının üzərində 1848 rəqəmi vardı. Onun ətrafında ona bənzər onlarla qəbir daşı dimdik ayaqda dururdu. Deyilənlərə görə həmin daşları qədimdə müqəddəs Məkkə şəhərindən gətirirmişlər. Özü də buranın camaatı varlı-hallı olduğu üçün pul xərcləmək problemləri yox idi. Yalnız Sovet hökuməti qurulandan sonra qəbir daşları kasıblaşmağa başlamışdı. Daha sonra isə aclıq illəri insanların bu imkanını da əlindən almışdı. Ona görə də Sovet dövründə ölənlərin qəbri üzərində baş daşı yerinə baş taxtası ucalırdı. Bu taxta da ki, bir neçə ildən sonra çürüyür, yıxılır, ayaq altda qalıb itirdi. Sahibi olmayan ölülərin qəbirləri də beləcə itib gedirdi...

Azər öz gorgahlarının yerini yaxşı bilirdi. Qəbiristanlığa çatıb iti addımlarla ora sarı yönəldi. Bir az gedib dayandı. İndi necə edəcəkdi? Birdən?...

Gorgaha çatanda yenə də ayaq saxladı. Hə, deyəsən bir yeni qəbir var. Odur e, üstündə də təzə baş daşı yüksəlir. Sinə daşı da görsənir. Ətrafına dəmir barmaqlıqdan çəpər də çəkilib. Aman allah! Bura ki, bir vaxtlar atasının ona tanıtdığı yer idi...

Atası deyərdi ki, onların gorgahındakı tut ağa-

cının altında nə vaxtsa Abdulla babanın qəbri olub. Baş daşı olmayıb, taxtası olub. Abdulla baba rəhmətə gedəndə Hacıqulunun hardasa on, on iki yaşı olub. Onun anası Şahsənəm isə lap çoxdan rəhmətə gedibmiş. Hardasa Hacıqulu südəmər körpə olanda. Ona görə də qəbirlərə baxan olmayıb. Baş taxtaları yıxılıb, çürüyüb, illər sonra gözdən itib. Lakin atası xatırlayırdı ki, Abdulla babanın və Şahsənəm nənənin qəbirləri hardasa bu tut ağacının altında olmalıdır. Azərin qarşısındakı tut ağacının. Və indi bu ağacın altında tək bir qəbir vardı. Tənha bir qəbir. Üzü qibləyə olduğundan Azər onun üstündə kimin adının yazıldığını görmürdü. Ancaq ürəyi həyəcanla döyünürdü. Atamdır yəqin. O olmasa da bizdən biridir. Kim o zaman? Qardaşlarım? Sağ və salamatdırlar. Bacılarım? Onlar da həmçinin. Deməli odur...

Azər sakitcə qəbrin qarşısına keçib dayandı. Başını qaldırıb baş daşına baxdı. Allah, allah! Bu o idi! Hacıqulu! Azərin atası Hacıqulu Abdulla oğlu! Baş daşının üzərində şəkli də vardı. sinə daşının üzərində yazılmışdı ki, "Övladlarından yadigar". Doğum və ölüm tarixi də yazılmışdı. Ah, bayram günüdür ki: 23 fevral 1987-ci il! Azərin evdən kənarda bir əsgər kimi keçirdiyi ilk əsgər bayramı günü!

Özündən xəbərsiz gözlərindən süzülən yaşlar yanaqları boyu aşağı süzülüb torpağın üzərinə damcılamağa başladı. Elə bil iki ildir həsrətini

çəkdiyi atasının əbədi uyuduğu müqəddəs torpağı sulamaq istəyirdi bu gözlər. Ağladı, doyunca ağladı. Ətrafda heç kimsə yox idi. Bir özü idi, bir atası. Ata-oğul birlikdə idilər. Azərin göz yaşları içində xəyalən söhbət edirdilər. Elə bil qəbir daşı üzərindəki şəkildən ona boylanan atasının da gözlərindən yaş axırdı. İki ilin həsrətindən sonra heç vaxt ağlamayan bu əziz insanlar birlikdə ağlayırdılar...

Bir xeyli vaxt keçdikdən sonra Azər özünə toxtaqlıq verməyə çalışdı. Qəbristanlıqda indiyə kimi heç nəyə fikir vermirdi. Ətrafa göz gəzdirdi. Yeni qəbirlər gözə dəyirdi. O, buraların hər qarışını yaxşı tanıyırdı. Əsgər gedənədək buralara o qədər gəlmişdi ki. Hələ məktəbdə oxuyanda dərsdən qaçıb qoz yeməyə gələrdilər. Sonra əzgil çıxardı. İndiki kimi dekabr aylarında cır əzgil yetişərdi. Bura təkcə qəbristanlıq deyildi. Müqəddəs torpaq idi bura. İlin hər fəslində burdan nəsə tapıb yemək olardı.

...Yadına düşdü. Bir dəfə sinif yoldaşı Səməndəri yaman qorxutmuşdu. Rus dili dərsi idi. Baraxumlu Şahbaba müəllimin dərsi. Yaxşı müəllim idi. Azər onun dərsinə gecikmişdi. İçəri girəndə gördü ki, oğlanlardan heç kim yoxdur. Qızlardan soruşanda, dedilər, pirə gediblər, qoz yeməyə. Elə Azər də hazırlaşırdı ki, çıxsın, Şahbaba müəllim qapıda göründü. Artıq əlac yox idi. Dərsdə oturmaq lazım idi. Durub daha müəllimin gözü önündə qaçan deyildi ki.

Ancaq bu, ona ağır gəlirdi. Qızların içində tək oğlan olaraq qalmışdı. Sağ olsun Şahbaba müəllim. Onu bu ayıbdan xilas elədi:

– Uşaqların qalanı hanı? Daha doğrusu, oğlanlar haradadır?

Sinif nümayəndəsi cavab verdi:

– Müəllim, bilmirik. Biz gələndə yox idilər.

– Bilmirsiniz? Mən bilirəm, mən bilirəm haradadır onlar. Qoz yeməyə gediblər yenə də? Mənim dərsimdən qaçıblar? Azər, qalx görüm ayağa. Haydı, sən onların yerini bilirsən, get çağır.

– Müəllim, axı bilmirəm. Mən özüm dərsə gecikmişdim. Gəldim gördüm ki, yoxdurlar. Heç soruşmağa da macal tapmadım ki, siz gəldiniz.

– Yaxşı, sənə inandım. Ancaq bilirəm ki, onlar indi qoz yemək üçün qaçıblar. Haydı, qaç get, çağır gəlsinlər.

– Müəllim, birdən orda olmasalar?

– Olmazlar, qayıdıb gələrsən.

Bundan sonra Azər sinifdən çıxıb qaça-qaça qəbiristanlığa sarı üz tutdu. Sinif yoldaşlarını heç yerdə tapa bilməyəndə qərara gəldi ki, çağırsın. Uşaq olmağına baxmayaraq çox yoğun və kobud səsi vardı. Lap adamı qorxudurdu. Hələ bir meşənin içi ola. Azər bir az da dolaşıb çağırmağa başladı: "Səməndər, Səməndər!" Onun səsi iri palıd və qoz ağaclarının nəhəng gövdələrinə dəyib əks səda verməyə başla-

yanda aləm qarışdı. Elə bil bu səslər ağacdan ağaca dəyir, qarışıq bir küy yaradırdı. Lap elə bəzi nağıllarda deyilən qəbiristanlıq səsi kimi. Ancaq Azər bunu bildiyindən fikir vermədi və tərslikdən yenə də Səməndəri çağırmağa davam etdi...

Sonradan uşaqlar danışırdı ki, tam aydın eşidilməyən, ancaq boğuq və qorxunc səslənən bu çağırış Səməndəri əməlli-başlı qorxuya salıbmış. Yazıq uşaq eşidəndə ki, onun adını çağırırlar, bir neçə dəfə salavat çevirib, bismillah deyib və allaha yalvarıbmış ki, keç günahımdan. Sinif yoldaşları da az aşın duzu deyildilər. Qayıdıb buna deyiblər ki, bu səs hansısa qəbirdən gəlir. İndi Səməndər buna dözərmi? Deyib ki, siz allah, gəlin burdan tez qaçaq. Sonralar bəlli olanda ki, bu səs Azərin səsi olub, Səməndər deyirmiş ki, allah sənə lənət eləsin, ürək-göbəyimi yemişdim.

Sinif uşaqlarına da bir hay lazım idi. Yazıq Səməndəri daha məktəbi qurtarana kimi bezdirmişdilər...

Düşüncələrdən ayrılıb Azər yenə də atasının qəbrinə baxdı. İndi fərq etdi ki, qəbrin üstündə çiçəklər var. Ətrafı süpürülüb, səliqəli idi. Atası tənha idi. Tək bir qəbirdə, ətrafı da dəmir barmaqlıqdan hazırlanmış çəpərlə bağlı balaca bir yerdə yatırdı. Bura onların alt evindən bir neçə dəfə balaca idi. Halbuki atası həmin alt evdə uzananda darısqallıqdan şikayətlənərdi. İndi o, bu balaca yerdə necə yatır görəsən?...

Azər bir daha baş daşının üzərindəki ölüm tarixinə baxdı. 23 fevral 1987-ci il yazılmışdı...

...23 fevral 1987-ci il. Uzaq Zerbst şəhərində Azərbaycanın bu ucqar kəndinin adi bir gənci Sovet Ordusu və Hərbi Dəniz Qüvvələri Günü münasibətilə düzənlənən paradda qıvraq bir şəkildə addımlayır və uca səslə oxuyurdu:

Mən xoşbəxtəm, xoşbəxtəm!

Çünki Sovet oğluyam!

Mən xoşbəxtəm...

...23 fevral 1987-ci il. Xaçmazın Dədəli kəndinin camaatı çiyinlərində tabutla qəbiristanlığa sarı hərəkət edirdi. Burada insanların addımları uzaq Zerbstdəki Azərin addımlarından fərqli olaraq heç də qıvraq deyildi. Burada heç bayram da yox idi. Burada hamı hüznlü idi. Burada Azərin əzizləri onun kimi xoşbəxt deyildilər...

* * *

Azərdən altı ay sonra İlqar da əsgərlikdən qayıtdı. Əfqanıstanın ən qaynar döyüş bölgəsi olan Salanq aşırımındakı xidmət onun üçün uğurlu sayıla biləcək şəkildə tamamlanmışdı. Düzdür, döyüşlərin birində yüngül də olsa yara almışdı. Ancaq evə sağ-salamat, əli-ayağı yerində dönə bildiyi üçün allaha min dəfə şükür edirdi.

İlqarla bərabər Sovet qoşunları da Əfqanıstanı tərk edirdi. Burada heç nəyə nail olmayan, əksinə, günahsız Sovet gənclərinin canına mal olan Əfqanıstan

əməliyyatı beləcə uğursuz və biabırçı bir şəkildə tamamlanırdı.

Sonralar İlqar danışırdı ki, Sovet əsgərləri, xüsusən də ruslar, Əfqanıstanda olmazın haram əməllər törədirmiş. Onlar bir dükana girib sahibindən havayı bir şey istəyir, ala bilmədikdə dəstəylə gəlib dükanı talan edir, sonra da sahibini öldürüb oranı partladırmışlar...

Sovet qoşunları bir müddət sonra Əfqanıstanın ardından Almaniyanı da tərk edəcəkdilər. Artıq Azərin Əfqanıstanı on altıncı Sovet respublikasına çevirmək arzuları da qeybə çəkilmişdi. İndi o, heç kommunist də olmaq istəmirdi. Onun bir neçə il öncəki istəklərinin yerini tək bir istək tutmuşdu: Azərbaycanı Sovet imperiyasının caynağından qurtarıb azad bir ölkəyə çevirmək! Bu yolda o, özü kimi milyonlarla həmvətəni, həm də əksəriyyəti Türklüyünü dərk edən Azərbaycanlıyla bir sırada addımlayırdı indi...

---

# BU DA SON.
## ƏLBƏTTƏ Kİ, DÜNYANIN DEYİL,
## K İ T A B I N  S O N U...



HOME | HAQQIMDA | MAQSADIM | PLATFORMA | GAZILARIM | SOYAD | VIDEO | ƏLAQƏ/ABUNƏ

WWW.AZERHASRET.com

## CASCFEN-dän gänclär üçün "Onlayn etika – Netiket" proqramı

19 November 2012 - 17:52 | Yazar: Azär Häsrät

Bakı, CASCFEN, 19.11.2012 – ELAN: Orta Asiya vä Güney Qafqaz Söz Azadlığı Şäbäkäsi (CASCFEN) gänc jurnalistlärvä QHT fäalları üçün "Onlayn etika – Netiket" mövzusunda 2 aylıq tälim proqramı elan edir. Proqrama 25 yaşadäk olan, müstäqil vä ya här hansı KİV-dä çalışan 5 jurnalist vä här hansı QHT üzvü olan 5 näfär ictimai fäalın birlikdä iştirakı näzärdä tutulur. Davamı... »

Oxunma sayı: 97

Bölmä: Xäbärlär | 1 yorum var

## Elman da, Rafiqi dä Bakıda öldürüblär…

19 November 2012 - 12:21 | Yazar: Azär Häsrät

Azär Häsrät

Azär Häsrät, azer@azerhasret.com

Noyabrın 14-dä bir sıra onlayn vä çap KİV-lärindä därc edilän "Xanım Kroos, ifadä azadlığı vä "standartlar"…" başlıqlı yazım istär geniş yayılması baxımından, …

… yaratdı. Xüsusilä dä İnternet saytlarında yazıya verilän şärhlärdä bäzän hätta şäxsimi aşağılayacaq fikirlärä dä rast gälindi. Bununla belä tämkinimi pozmadan här zamankı kimi jurnalist etikası prinsiplärinä sädaqätimi sonadäk nümayiş etdirä bildim. Davamı... »

Oxunma sayı: 167

Bölmä: Yazılarım | 1 yorum var

## CASCFEN Milli QHT Forumuna üzv oldu

17 November 2012 - 18:08 | Yazar: Azär Häsrät

Bakı, CASCFEN, 17.11.2012 – Azärbaycan Milli QHT Forumu (MQF) İdarä Heyätinin (İH) noyabrın 16-da keçirilän növbäti toplantısında bir sıra täşkilatlarla yanaşı Orta Asiya vä Güney Qafqaz Söz Azadlığı Şäbäkäsinin (CASCFEN) dä üzvlüyä bağlı müraciätinä baxılıb.

CASCFEN-dän verilän xäbärä görä, MQF rähbärliyi qurumun müraciätini müsbät däyärländirdikdän onu üzvlüyä qäbul edib. Davamı... »

Oxunma sayı: 197

Bölmä: Xäbärlär | 1 yorum var

## "Elmar Hüseynovu Ermänistanda öldürüblär, yoxsa?!"

16 November 2012 - 11:41 | Yazar: Azär Häsrät

Tanınmış jurnalist vä "İnsan Haqları Uğrunda" İctimai Birliyin sädri Eynulla Fätullayev hämkarı Azär Häsrätin onun baräsindä dediklärinä cavab verib. Hüquq müdafiäçisinin fikirlärini olduğu kimi därc edirik:

"Dünän hämkarım, häm dä mänimlä birgä azad vä müstäqil jurnalistlärin keşiyindä dayanan Beynälxalq Media İnstitutunun Azärbaycan Milli Komitäsindä tämsil olunan Azär Häsrät bu yaxınlarda Bakıda keçirilmiş İnternet Forumla bağlı "Yeni Müsavat" qäzetindä öz täässüratlarını yazıb. Davamı... »

Oxunma sayı: 139

Bölmä: MEDİADAN | 1 yorum var

Bishkek Ufa Lefkosha Kazan Tashkent Ashgabat Komrat Yakut Astana Urumchi Baku Tabriz Ankara Derbent

facebook twitter

YALQUZAQ

Belä gedärsä Urmu Gölü gälän ilin sonuna qädär quruyacaq

Azer Hasret'in Ergenekon Tören...
Azer Hasret
07:39
Dailymotion

Mugam Radio

ƏN ÇOX OXUNANLAR

SON YAZILAR

www.azerhasret.com



YALQUZAQ.COM
TÜRK DÜNYASINDAN GÜNLÜK HABERLER
Azər Həsrət – 2013
Yeddi Dövlət – Bir Millət Konseyinin Başqanı
facebook
twitter
YALQUZAQ
Elmarı da, Rafiqi də Bakıda öldürüblər...
www.yalquzaq.com
AZƏRBAYCAN
Elmarı da, Rafiqi də Bakıda öldürüblər...
ÖZBEKİSTON
Xalqımız şururi manbai
Kəşə yazıları
Oyunuz Önemlidir!
Bağımsız Türk Devletleri Birliği'nin Başkenti Neresi Olmalı?
Vote
Bağlantılar
Radyo Ülkümüz
RADYO ÜLKÜMÜZ
TÜRKİYE
Ermeni iddiaları ne kadar doğru?
QAZAQSTAN



About | Board | Contacts | Free Media Pioneer | Links | The Baku Declaration | The Charter

RSS | Email | Follow us | Become a fan

cascfen

www.AzerHasret.com

Home | Central Asia | South Caucasus | News | Neighbours | Announcements | International | Interviews

Search this site...

Türkçe

English

## OSCE training on safety of journalists and access to information

Posted by CASCFEN on 13 November 2012 | 0 Comment

OSCE media freedom office and Azerbaijan Press Council hold training on safety of journalists, access to information Baku, OSCE, Nov 13, 2012 – Training courses for journalists, law enforcement officers and government

Situation with online media

What's New Here?

### BBC seeks senior journalist for Iran team

Posted on 20 November 2012 | 0 Comment

Deadline: 02 December 2012 Washington, IJNet, Nov 19, 2012 – Journalists with knowledge of Caucasus media can apply for this position in Tbilisi, Georgia. BBC Monitoring is seeking a senior... Read more »

### CASCFEN`s program on "Online Ethics – Netiquette" for youths

www.cascfen.net

Central Asian and Southern Caucasian Freedom of Expression Network (CASCFEN) announces 2 months training program on "Online Ethics – Netiquette" for young... Read more »

### CASCFEN admitted to National NGO Forum membership

Posted on 17 November 2012 | 0 Comment

Baku, CASCFEN, Nov 17, 2012 – The Board of Azerbaijan National NGO Forum alongside with other NGOs has reviewed membership application of Central Asian and Southern Caucasian Freedom of Expression... Read more »

### Azerbaijan dissatisfied with European Commission Vice-President's statements

Posted on 14 November 2012 | 0 Comment

Baku, Trend.az, 14.11.2012 – Azerbaijani Deputy Foreign Minister Mahmud Mammadguliyev has received EU charge d'affaires in Azerbaijan Toralf Pilz, the Azerbaijani Foreign Ministry said today. A statement made by vice-president... Read more »

### OSCE training on safety of journalists and access to information

Posted on 13 November 2012 | 0 Comment

OSCE media freedom office and Azerbaijan Press Council hold training on safety of journalists, access to information Baku, OSCE, Nov 13, 2012 – Training courses for journalists, law enforcement officers... Read more »

Our Column

Why the US should be blamed?

"Our Enemy is Ankara, Not the Northern Cypriot Turks"

CASCFEN`s program on "Online Ethics – Netiquette" for youths

CASCFEN admitted to National NGO Forum membership

Azerbaijan dissatisfied with European Commission Vice-President's statements

OSCE training on safety of journalists and access to information

CASCFEN rep visits NGO Forum and applies for membership – Photo

Young woman journalist killed in Azerbaijan – Photos

Chinese-language version of the report on the demolitions of Uyghurs

OSCE media freedom representative visits in Baku journalists in detention

CASCFEN becomes Azerbaijan Press Council member – Photos

Corrected Iranian prison's

POPULAR | LATEST | COMMENTS

Turkmenistan to Unveil New Constitution on 26 September 2008

5 COMMENTS

Uzbekistan: Samarkand Journalists, Rights Activists Attacked

5 COMMENTS

IJNet

Nieman fellowships at Harvard open [Worldwide]

Bloomberg seeks editors [Brazil]

Fellowship brings Georgian journalists to US

Free social media workshop open [Middle East]

NewsU at Poynter offers free legal guide for journalists [Worldwide]

Eurasia.net

Uzbekistan Trots Out Imposter Political Prisoner – Report

Kyrgyzstan: Lawsuits Try to Create Air Pocket for Independent Media

Azerbaijan: Can Facebook Become Substitute for Live Opposition Protests?

Kazakhstan Photo: Black and White

From the South Caucasus to South America: More Tensions over El Karabaj

Kazakhstan Rejects Appeal of Jailed Opposition Leader

Turkmenistan Talks Up TAPI, Not Pipeline to


AlmazHasret.com
Sizin üçün bir təhsil saytı!
Azərbaycanda müəllim işləmək istəyənlər sertifikatlaşdırmadan keçməli olacaqlar
Müəllimlər ali məktəblərin reytinqinə təsir edəcək
www.almazhasret.com
Müsabiqə başlayır
İTV açıq dərs – V siniflərdə kurikulumun tətbiqi
Almaz Həsrət
www.BIOLOGIYA.org
Select Language
facebook


www.BİOLOGİYA.org
19-24 aprel – Parklara yürüş günü
Süni vena və arteriya yetişdirilib
www.biologiya.org
Fillər
Школа и споры вокруг теории Дарвина: «За» и «Против»
Xaçmaz
Quba
Şabran
Azərbaycan Prezidentinin
AZƏRBAYCAN EKOLOGİYASI
BİOLOGİYADAN VİDEO MÜHAZİRƏLƏR



# AZƏR HƏSRƏT

# BİR ƏSGƏRİN YAŞANTILARI

Azər Həsrət 1968-ci il avqustun 3-də Azərbaycan Respublikası Xaçmaz rayonunun Dədəli kəndində doğulub. 1995-ci ildən həvəskar, sonra isə peşəkar şəkildə jurnalistika ilə məşğul olur. Ölkənin bir sıra qəzetlərində – 1998-2005-ci illərdə isə “Azadlıq” qəzetində işləyib. Hazırda özünün təsisçisi olduğu “Yalquzaq” qəzetinin baş redaktorudur. Eyni zamanda Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsinin (CASCFEN) sədridir. Baş qərargahı Vyanada yerləşən Beynəlxalq Mətbuat İnstitutunun, həm də Nyu Yorkdakı Türk lobbi təşkilatı olan Dünya Türkləri Konseyi – Turkish Forum-un Məsləhət Şurasının üzvüdür. Azər Həsrət Azərbaycan türkcəsi ilə yanaşı Türkiyə türkcəsi, həmçinin ingilis və rus dillərində də yazılar yazır. Yazıları əsasən Türkiyədə, Bolqarıstanda, Qazaxıstanda və Qırğızıstanda dərc edilir. Daha artıq bilgi üçün: www.azerhasret.com

ISBN 978-9952-389-3
9 789952 263893
Qiyməti: 4 ₼

QN
QANUN
NƏŞRİYYATI